ISSN 2218-5178

HÜQUQİ MÜSTƏVİ

ELMİ-NƏZƏRİ, TƏCRÜBİ JURNAL

ELMİ-NƏZƏRİ, TƏCRÜBİ JURNAL

# HÜQUQİ MÜSTƏVİ

## Legal plane

## Юридическая плоскость

## Hukuki düzey

№ 3
BAKI - 2020



**“Azərbaycan müasir güclü dövlətə çevrilməlidir. Bunu etmək üçün bizim bütün imkanlarımız var. Həm iqtisadi, həm siyasi imkanlar, həm də insanların intellektual səviyyəsi, dövlət siyasəti, dövlətin iradəsi və açıq-aydın görünən gələcəyin üfüqləri”.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**




«GÜN GƏLƏCƏK AZƏRBAYCAN DÜNYAYA GÜNƏŞ KİMİ DOĞACAQ».

**HEYDƏR ƏLİYEV**

# HÜQUQİ MÜSTƏVİ

## ELMİ-NƏZƏRİ, TƏCRÜBİ JURNALI REDAKSİYA ŞURASININ TƏRKİBİ:


**Arif PAŞAYEV** – *Redaksiya şurasının sədri, Milli Aviasiya Akademiyasının rektoru, akademik, fizika-riyaziyyat elmləri doktoru;*

**Əli HÜSEYNLİ** – *Azərbaycan Hüquqşünasları Konfederasiyasının sədri, hüquq üzrə fəlsəfə doktoru, Milli Məclisin I vitse spikeri;*

**Aytən MUSTAFAZADƏ** – *Azərbaycan Milli Elmlər Akademiyası Hüquq və İnsan Haqları İnstitutunun direktoru, professor, hüquq üzrə elmlər doktoru;*

**Fərhad ABDULLAYEV** – *Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, hüquq üzrə elmlər doktoru;*

**Eminə YAZIÇIOĞLU** – *İstanbul Universiteti Hüquq fakültəsinin professoru, hüquq üzrə elmlər doktoru;*

**İrina SOPİLKO** – *Ukrayna Milli Aviasiya Universiteti Hüquq fakültəsinin dekanı, professor, hüquq üzrə elmlər doktoru;*

**Leonid TİMÇENKO** – *Ukrayna Dövlət Vergi Xidməti Akademiyası Beynəlxalq əlaqələr şöbəsinin rəisi, professor, hüquq üzrə elmlər doktoru;*

**Revol VALEVEY** – *Kazan Dövlət Universitetinin professoru, hüquq üzrə elmlər doktoru;*

**Əmir ƏLİYEV** – *Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı, professor, hüquq üzrə elmlər doktoru;*

**Lətif HÜSEYNOV** – *İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi, professor, hüquq üzrə elmlər doktoru;*

**Oktay ƏFƏNDİYEV** – *Azərbaycan Dövlət İqtisad Universiteti, "İqtisadiyyatın tənzimlənməsi" kafedrası, professor, hüquq üzrə elmlər doktoru;*

**İsaxan VƏLİYEV** – *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, professor, hüquq üzrə elmlər doktoru;*

**Arif QULİYEV** – *Ukrayna Milli Aviasiya Universiteti, Beynəlxalq Əlaqələr İnstitutunun Beynəlxalq hüquq kafedrası, professor, hüquq üzrə elmlər doktoru;*

**İbrahim QULİYEV** – *Milli Aviasiya Akademiyası "Hüquqşünaslıq" kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru;*

**Yesberqen ALAUXANOV** – *"Qazaxıstanın Elm və Həyatı" beynəlxalq elmi-kütləvi yurnalın baş redaktoru, professor, hüquq üzrə elmlər doktoru;*

**Nazim ƏLİYEV** – *Daxili İşlər Nazirliyi Polis Akademiyasının rəisi, polis general-mayoru, dosent, hüquq üzrə elmlər doktoru;*

**Qulu NOVRUZOV** – *Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti polkovniki, dosent, hüquq üzrə fəlsəfə doktoru;*

**Etibar ƏLİYEV** – *Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrası, professor, hüquq üzrə elmlər doktoru.*

# №3(3)

**2020-ci ilin yanvar ayından çıxır.**

*Təsisçi və baş redaktor:*

**Əliyev Etibar Əli oğlu,** hüquq üzrə elmlər doktoru.

*Fəxri təsisçi təşkilat:*

Azərbaycan Hüquqşünasları Konfederasiyası (AHK)


*Müəlliflə redaksiyanın mövqeyi uyğun olmaya bilər.*

**Göndərilən əlyazmalar, fotolar geri qaytarılmır.**


*Redaksiyanın ünvanı:*

**AZ1070 Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal y/sahəsi, Ş.Bünyadzadə küçəsi, 12.**

Tel:. +99412 533 97 90
mob:.+99450 220-24-42;
+99455 230-24-42

vebsayt: law-plane.az

Elektron poçt:
e-mail: a-etibar@rambler.ru

Nəşrin elektron variantının internet saytı:
www.law-plane.az
URL: http://www.law-plane.az



## REDAKSİYA HEYƏTİ:

**Elmi redaktor** — ***MƏMMƏDOV R.F.*** — Bakı Dövlət Universiteti Hüquq fakültəsi Beynəlxalq ümumi hüquq kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru;

**Məsul redaktor** — ***MƏMMƏDOV Ə.Q.*** — BDU Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının müdiri, dosent, hüquq üzrə fəlsəfə doktoru.

**İnzibatçı** — ***HÜSEYNOVA F.E.*** — BDU Hüquq fakültəsinin "BXH və Avropa hüququ" kafedrası, dosent, hüquq üzrə fəlsəfə doktoru.

**Böyük redaktor:** — ***Zümrüd TURABXANQIZI***.

**Redaktorlar:**

— ***ABBASOV A.Q.*** — BDU-nun «İngilis dili» kafedrasının müdiri, Əməkdar müəllim, professor, filologiya üzrə fəlsəfə doktoru.

— ***AĞAKİŞİYEV Ə.Y.*** — BDU-nun dosenti, Əməkdar müəllim, filologiya üzrə fəlsəfə doktoru.

— ***HÜSEYNOV M.H.*** — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, əməkdaş, hüquqşünas.

**Kiçik redaktorlar:**

— ***ƏLİYEV E.E.*** — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, əməkdaş, hüquqşünas;

— ***ƏLƏSGƏROVA S.Q.*** — Azərbaycan Respublikası DİN Baş DYP İdarəsinin əməkdaşı – operator.



Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsində 06.11.2019-cu il tarixdə dövlət qeydiyyatına alınmışdır (dövlət qeydiyyat №-si 1306401681).

23 aprel 2020-ci il tarixdə 272 səhifə həcmində çap olunmuşdur. Tirajı 300 ədəd.

2020

I RÜB

# ÜMUMMİLLİ LİDERLIK: MİQYASI VƏ MİSSİYASI

Əvvəla, siyasi olimpin zirvəsinə doğru inkişafda Heydər Əliyev adidən aliyə doğru bütün pillələri addım-addım keçmiş, zəngin həyat təcrübəsi əldə etmiş və mükəmməl dövlət idarəçiliyi mədəniyyəti qazanmışdır. Naxçıvan Pedaqoji Məktəbində, Bakı Dövlət Universitetində və Leninqrad Təhlükəsizlik Orqanları Məktəbində yiyələndiyi biliklər onun gələcək böyük həyata hazırlanmasında mühüm rol oynamışdır.

***Çoxəsrlik ənənələrə malik olan Azərbaycan dövlətçiliyi tarixində görkəmli dövlət xadimi Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olan epoxa xüsusi əhəmiyyətə malikdir.***

Heydər Əliyev Azərbaycan dövlətinin çoxəsrlik tarixində birinci Ümummilli Liderdir.

Ümummilli liderlik Heydər Əliyevin milli dövlətçilik istedadının ardıcıl və məqsədyönlü fəaliyyətinin mühüm nəticəsidir.

O, eyni zamanda Sovet İttifaqının "daxili dünyasına” dərindən bələdçilik üçün əvəzsiz imkanlara malik olan təhlükəsizlik orqanlarındakı fəaliyyəti dövründə də ciddi təkamül prosesləri yaşamış, siyasi sistemin bütün dərinliklərinə bələd olmaq fürsətini qazanmışdır. Ən başlıcası, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi kimi, Heydər Əliyev rəhbərlik etdiyi respublikanın ictimai-siyasi və iqtisadi-mədəni həyatının bütün sahələrinə dərindən nüfuz edərək, cəmiyyətdə gedən prosesləri izləmiş, irəliyə doğru inkişaf üçün zəruri olan bütün addımları atmışdır.

Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq görkəmli dövlət xadimi Heydər Əliyev Ümummilli Lider səviyyəsini fəth etmişdir.

Daha doğrusu, məhz Ulu Öndər Heydər Əliyevin çoxillik siyasi və dövlətçilik fəaliyyəti sayəsində Azərbaycanda dövlət rəhbərliyi Ümummilli Lider statusu qazanmışdır.

Hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, ümummilli liderlik üçün ən zəruri şərtlərdən biri siyasi şəxsiyyətin mübarizəsində ümummilli ideallarin aparıcılıq təşkil etməsi, xüsusi yer tutmasıdır. Görkəmli dövlət xadimi Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində: sovet hakimiyyəti illərində, keçid proseslərində və müstəqillik mərhələsində həmişə mənsub olduğu xalqın azadlığı və tərəqqisi üçün çalışmış, xalqını və ölkəsini ümummilli ideallarin işığında böyük hədəflərə doğru aparmışdır.

Sözün əsl mənasında, Azərbaycan və onun taleyi, xalqın ümidləri və gələcəyi Heydər Əliyev siyasətinin mahiyyətini müəyyən etmişdir. Bu böyük dövlət xadiminin baxışlarında ölkəsini və xalqını dünya azərbaycanlıları ilə birlikdə geniş miqyasda və tam halda təsəvvür etmək miqyasında düşünülmüş bir qavrayışın ifadəsindən ibarət olmuşdur.

Uzaqgörən dövlət xadimi kimi Heydər Əliyevin Azərbaycan anlayışında dünyada gedən proseslərin fonunda ölkəsinin və çoxmilyonlu xalqının taleyinin ən əsas faktor kimi nəzərə alınması, istiqamətləndirilməsi həmişə ön mövqedə dayanmışdır.

Beləliklə, Heydər Əliyevin timsalında ümummilli liderlik rəhbəri olduğu ölkənin fövqünə qalxmağı bacarmaq, mənsub olduğu xalqın böyük gələcəyinə xidmət etmək deməkdir.

Ümummilli liderlik ölkə maraqlarını ümumdünya proseslərinin fonunda dəyərləndirib nəticələr çıxarmağı tələb etmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev ölkə maraqlarını ümumdünya prosesləri ilə üzvi surətdə uzlaşdırmağı, milli dövlətçilik mənafelərinə xidmət edən qərarlar qəbul etməyi və həmin qərarları zamanında və qətiyyətlə həyata keçirməyi bacarmışdır.

Bu mənada ümummilli liderlik üçün ümummilli maraqlarla eyni səviyyədə, bəlkə bir qədər də artıq dərəcədə geniş siyasi-ideoloji dünyagörüşə və dövlətçilik təfəkkürünə malik olmaq zəruri şərtlər sırasında xüsusi yer tutur. Aydın, dərin və geniş dünyagörüşə malik olmaq cəhətdən Heydər Əliyev dünyanın müxtəlif ölkələrinin ən adlı-sanlı dövlət başçıları ilə, məşhur siyasi xadimlərlə müqayisə oluna bilər.

Heydər Əliyev universal zəka sahibi olan görkəmli dövlət xadimi idi.

Cəmiyyət həyatının ən müxtəlif sahələrinə kamil mütəxəssis səviyyəsində dərindən bələd olmaqda onunla müqayisə edilə biləcək dövlət xadimi göstərmək çətindir. Haqlı olaraq onun adını dünya siyasətində özünü təsdiq etmiş Corc Vaşinqton, Vilyam Çörçil, Şarl de Qoll, Mustafa Kamal Atatürk kimi qüdrətli dövlət xadimləri ilə bir sırada çəkirlər.

Həqiqətən dünyada gedən siyasi prosesləri dərindən təhlil edib dəyərləndirməkdə, nəticələr çıxarmaqda, həll yollarını proqnozlaşdırmaqda da Heydər Əliyev əlçatmaz zirvədə dayanır.

Heydər Əliyev SSRİ adlanan superdövlətin liderləri, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvləri arasında geniş dünyagörüşü, təhlil və müqayisə etmək bacarığı, gələcəyə baxışları ilə fərqlənmişdir.

Sovetlər Birliyinin rəhbərliyində Heydər Əliyevə bəslənən qısqanclıq meyillərinin kökündə duran əsas səbəblərdən biri onun parlaq və aydın zəkası, geniş dünyagörüşə malik olması, müstəsna idarəçilik qabiliyyəti idi.

Heydər Əliyev zəngin və geniş dövlətçilik təfəkkürünə malik olan nadir dövlət xadimlərindən biridir.

Dövlətçiliyin nəzəriyyəsi ilə təcrübəsinin möhkəm vəhdətinə nail olmaq və bütün bunları özünün intellektual qabiliyyətləri ilə əlaqələndirməyi bacarmaq Heydər Əliyev fenomeninin əsaslarını təşkil edir.

Dünyanın görkəmli dövlət xadimləri və böyük siyasətçiləri, elm və mədəniyyət xadimləri Heydər Əliyevin dövlətçilik təcrübəsinə həmişə heyrətlə yanaşmış, onun qeyri-adi qabiliyyətə malik olduğunu dönə-dönə etiraf etmişlər.

– Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton Heydər Əliyevi dünyanı idarə etmək qabiliyyətinə malik olan dövlət xadimi kimi qiymətləndirmişdir.

– Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Heydər Əliyevdən böyük dövlətçilik və idarəetmə məktəbi yaratmış görkəmli dövlət xadimi kimi bəhs etmişdir.

– Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl onu türk dünyasının əsas lideri kimi ucada görmüşdür.

– Dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun aşağıdakı sözləri görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik istedadına verilmiş obyektiv qiymətin ifadəsidir: "Heydər Əliyev həqiqətən də tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir. Bu, sovet dövründə də belə idi, bugünkü Müstəqil Dövlətlər Birliyi məkanında, xeyli çətinləşmiş müasir dünya şəraitində də belədir. … Heydər Əliyev yaşıdlarının və hətta ondan cavan olan bir çox siyasi xadimin bacarmadığı xüsusiyyəti – müasir dövrün ən aktual çağırışlarına hazır olmağı nümayiş etdirə bilmişdir. Məhz Heydər Əliyevin zəngin təcrübəsinin və humanitar dünyagörüşünün genişliyi sayəsində indi Azərbaycanda sabitlik, tolerantlıq, mədəniyyət, maarifçilik hökm sürməkdədir. Bunlar isə Azərbaycan dövlətinin müasir inkişafını və tərəqqisini təmin edəcək əsas amillərdir".

Beləliklə, ümummilli liderlik üçün zəruri olan kamil dövlətçilik təfəkkürü, uzaqgörənlik, ümummilli hədəflərin müəyyən olunması və geniş siyasi dünyagörüş və qətiyyətli addımlar Heydər Əliyev fenomeninin miqyasını müəyyən etmişdir. O, sözün əsl mənasında, Çingiz Aytmatovun dediyi kimi, "tarixi və əfsanəvi bir şəxsiyyət" kimi diqqəti cəlb etmişdir.

Ümummilli liderliyin geniş miqyası dövlət xadiminin uzaqgörənliyini və qətiyyətini müəyyən edir. Ümummilli idealları həyata keçirmək üçün zəruri olan uzaqgörənlik, qətiyyət və cəsarət liderliyin bu fazasında ideyadan əmələ doğru gedişatın əsas hərəkətverici qüvvəsinə çevrilir.

Heydər Əliyevin simasında dövlətçilik baxımından müdriklik və uzaqgörənlik nəzəri-metodoloji baxışlar sisteminin, qətiyyət isə əməlin, hərəkətin siyasi ifadəsindən ibarətdir.

Ümummilli hədəflərin müəyyən edilməsi, üstəgəl atılacaq addımların siyasi mahiyyətinin dərindən təhlil edilib qiymətləndirilməsi və tələb olunan anda qətiyyətli mövqe nümayiş etdirilməsi ümummilli liderlik anlayışının miqyasını müəyyənləşdirir. Bu məqamda ümummilli liderliyin ideya-nəzəri miqyası dövlət xadiminin xalq və ölkə qarşısındakı missiyasını həyata keçirməkdə göstərdiyi dönməz, qətiyyətli mövqe ilə şərtlənir.

Dünya siyasətində və ölkə rəhbərliyində təmsil olunduğu qırx ilə yaxın bir dövrdə Heydər Əliyevin timsalında ümummilli liderliyin miqyası ilə missiyası həmişə bir-birini üzvi surətdə tamamlamışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyev xalqının gələcəyini qabaqcadan görmək və ölkəsini həmin ideal gələcəyə doğru real surətdə aparmaq qabiliyyətinə malik olmuşdur. Sovet hakimiyyəti illərində kommunist ideologiyasının hakim olduğu şəraitdə Heydər Əliyevin azərbaycançılıq siyasətini addım-addım həyata keçirməsi, milli-mənəvi dəyərləri ön mövqeyə çəkməyi bacarması nəticə etibarilə xalqda müstəqil dövlətçilik şüurunun formalaşdırılmasında mühüm rol oynamışdır.

Doğma vətəni özünün qibləgahı hesab edən Heydər Əliyevə görə "Azərbaycanı sevmək – azərbaycançılıq hissiyyatını özündə cəm etmək deməkdir". Azərbaycançılıq isə Heydər Əliyev üçün ümummilli ideal və milli dövlətçilik ideologiyası mənasını daşımışdır.

Heydər Əliyevin milli dövlətçilik təlimində azərbaycançılıq ideologiyası xalqın tarixi keçmişi ilə müasir reallıqlarının və gələcəyinin vəhdətdə nəzərə alınması, milli-mənəvi dəyərlərin mövcud şəraitə uyğun olaraq yaşadılması kimi prinsipləri özündə cəmləşdirir. Dahi rəhbərin ifadə etdiyi "milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, milli xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bugünü və gələcəyi ilə bağlı olmalıdır" tezisi azərbaycançılığın düsturuna çevrilmişdir.

Eyni zamanda, Heydər Əliyevin iradəsi ilə 1978-ci ildə Azərbaycan Sovet Respublikasının Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusunda yer alması da zamanı qabaqlayan hadisə idi. Beləliklə, sovet dövründə ardıcıl şəkildə və uğurla həyata keçirdiyi azərbaycançılıq siyasəti xalqın milli şüurunun inkişafında böyük rol oynamış, onu milli azadlıq uğrunda mübarizəyə hazırlamışdır. Bu isə öz növbəsində Azərbaycanda müstəqil dövlət qurulduqdan sonra azərbaycançılıq təliminin milli dövlətçilik ideologiyasına çevrilməsi ilə nəticələnmişdir.

Bütün bunlar Heydər Əliyev tərəfindən ictimai-siyasi proseslərin gələcəyini vaxtında görmək, zamanı qabaqlamaq sayəsində baş tutmuşdur. SSRİ dağılandan sonra müstəqil Azərbaycan Respublikasında azərbaycançılığın dərhal milli dövlətçilik statusu qazanması ilə ölkəmiz digər yeni qurulmuş dövlətləri qabaqlamışdır.

Çünki məhz Heydər Əliyevin sayəsində müstəqillik statusu əldə etmiş digər dövlətlərin yeni cəmiyyət quruculuğu zamanı yaşadığı milli ideologiya axtarışlarını Azərbaycan Respublikası sovet hakimiyyəti illərində keçmişdir. Deməli, müstəqil Azərbaycan Respublikası milli dövlətçilik ideologiyasını müəyyən etməkdə eyni taleyə malik olan başqa gənc respublikadan bir addım qabaqda olmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin xalqın taleyi ilə əlaqədar məsələlərdə gələcəyi öncədən görmək və zamanı qabaqlamaq baxımından atdığı addımlardan biri də dövlət müstəqilliyi ərəfəsində taleyin hökmü ilə Naxçıvan Muxtar Respublikasında siyasi fəaliyyətlə məşğul olduğu illərdə həyata keçirdiyi tədbirlərlə bağlı idi.

Belə ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə 17 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Sovet Respublikası Ali Sovetinin iclasında üçrəngli dövlət bayrağının ölkəmizin dövlət bayrağı kimi qəbul edilməsinə nail olması da xalqın milli azadlığı uğrunda gedən proseslərdə bu böyük dövlət xadiminin zamanı qabaqlamaq missiyasını gerçəkləşdirməsi demək idi. Hələ sovet hakimiyyətinin mövcud olduğu bir dövrdə həmin derjavanın dövlət rəmzlərindən imtina edilməsi və praktiki olaraq gələcək müstəqil dövlətin bayrağının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının iqamətgahı olan binanın üzərində dalğalandırılmasına nail olması nəinki zamanı qabaqlamaq, sözün əsl mənasında, qəhrəmanlıq nümunəsi göstərmək idi.

Əslində, hələ dövlət müstəqilliyinin bərpa edilməsinə 11 ay qalmış Naxçıvan Muxtar Sovet Sosialist Respublikası ifadəsindən "sovet sosialist" sözlərinin çıxa-

rılması da, sovet ordusu birləşmələrinin muxtar respublikanın ərazisindən dinc yolla uzaqlaşdırılması da, SSRİ-nin saxlanmasına dair referendumdan imtina edilməsi də ölkəmizdə milli azadlıq hərəkatını qabaqlamış hadisələrdir.

Belə taleyüklü hadisələrin gedişində nümayiş etdirdiyi uzaqgörənlik və qətiyyət Heydər Əliyevin ümummilli liderlik missiyasını həyata keçirmək bacarıqlarının təntənəsidir.

Bugünün zirvəsindən baxanda həmin hadisələr tarixin inanılmaz ibrət dərsləridir.

Dünya təcrübəsində öz xalqının milli və dövlətçilik maraqlarına xidmət edən Konstitusiyanın qəbul edilməsi ümummilli liderlik missiyasının həyata keçirilməsinin təməl prinsiplərindən biri hesab olunur. Görkəmli dövlət xadimi Heydər Əliyev nadir tarixi şəxsiyyətlərdən biridir ki, o, həm 1978-ci ildə, sovet dövründə, həm də 1995-ci ildə, müstəqillik mərhələsində iki dəfə ölkəsinin dövlət Konstitusiyasının hazırlanıb qəbul edilməsinə nail olmuşdur. Bundan başqa, tale Heydər Əliyevə fərqli ictimai-siyasi quruluşlarda qəbul edilmiş həmin konstitusiyaları həm də xalqının mənafeyinə uyğun surətdə həyata keçirməyə şərait yaratmışdır. Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevin yazdığı kimi, "Azərbaycan xalqı bilir ki, dövlətimizin ilk müstəqil və demokratik Konstitusiyasının – Ana Qanununun müəllifi Heydər Əliyev... ilk əvvəl Konstitusiyada adı həkk olunmuş müstəqil Azərbaycan dövlətini yaratmışdır və onun bütün sahələrdə sarsılmaz təməllərini müəyyən etmişdir”.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının Heydər Əliyev Konstitusiyası adlandırılması görkəmli dövlət xadiminin dövlətimizin Əsas Qanununun həm dahiyanə yaradıcısı və həm də qətiyyətli və bacarıqlı icraçısı olmasına verilmiş obyektiv qiymətin ifadəsidir.

Azərbaycan Respublikasını böhrandan xilas edərək yeni inkişaf yoluna çıxarması da Heydər Əliyevin ümummilli liderlik missiyasını həyata keçirməsi yollarında atdığı tarixi addımlardandır.

Heydər Əliyev sovet hakimiyyəti illərində Azərbaycan dövlətinə rəhbərlik edərkən respublikanı iqtisadi cəhətdən keçmiş ittifaqa daxil olan 15 müttəfiq respublika arasındakı axırıncı yerlərdən birincilər sırasına çıxarmağa müvəffəq olmuşdur. Adı geridə qalmış aqrar ölkə kimi çəkilən, yalnız xammal mənbəyi kimi tanınan Azərbaycan sovet respublikası qısa müddətdə bütün yönləri ilə inkişaf etmiş keçici bayraqlı respublika səviyyəsinə yüksəldilmişdir.

Müstəqillik dövrünün başlanğıc illərində isə Heydər Əliyev xalqımızı cəmiyyət həyatının bütün sahələrini əhatə etmiş siyasi-iqtisadi, hərbi böhrandan çıxarmış, beyin axınından xilas etmiş və yeni inkişaf yoluna çatdırmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aşağıdakı sözləri Ulu Öndərin həmin sahədəki tarixi xidmətlərinin qiymətləndirilməsinin obyektiv ifadəsidir: "Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Hər iki dəfə Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb, inkişaf yoluna qoymuşdur. Bu, onu göstərir ki,

ictimai-siyasi quruluşdan asılı olmayaraq Heydər Əliyev həmişə ən düzgün siyasət aparmış, Azərbaycan xalqının maraqlarını müdafiə və təmin etmişdir".

Mənsub olduğu xalqı öz ətrafında birləşdirmək, onu taleyüklü çağırışlar uğrunda mübarizəyə səfərbər etmək də ümummilli liderlik missiyasını yerinə yetirmək deməkdir. Ulu Öndər Heydər Əliyev dövlətçilik fəaliyyətinin bütün dövrlərində həyatını doğma xalqına həsr etmiş, ümumxalq ehtiramı qazanmışdır. Xalq həmişə ona inanmış, bu böyük dövlət xadiminin çağırışlarına tam mənası ilə yekdilliklə səs vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən və Azərbaycan Respublikasının Prezidenti ikən Naxçıvanda və Bakı şəhərində törədilmiş dövlət çevrilişi cəhdləri zamanı xalqımızın dərhal Heydər Əliyevin çağırışlarına qoşularaq dahi rəhbərin ətrafında sıx birləşməsi, ümumxalq həmrəyliyi nümayiş etdirməsi Heydər Əliyevə ümummilli liderlik statusu qazandıran tarixi hadisələrdir.

Xalqın sarsılmaz birliyi vasitəsilə dövlət çevrilişi cəhdlərinin qarşısının böyük qətiyyətlə alınması Heydər Əliyevin ümummilli liderlik missiyasını həyata keçirməsinin əməli ifadəsidir.

Bu mənada "xalq – Heydər, Heydər – xalq" həmrəyliyinin sarsılmaz qüvvəyə çevrilməsi Heydər Əliyevin dövlətçilik məharətinin dahiyanə əməli ifadəsi olmuşdur.

Bundan başqa, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan coğrafiyasında tarixən yaşayıb fəaliyyət göstərən bütün xalqların və etnik qrupların həmrəyliyinə və birliyinə nail olması da ümummilli liderlik fəlsəfəsinin əməli ifadəsidir.

Təsadüfi deyildir ki, Heydər Əliyev keçmiş Sovet İttifaqının rəhbərliyində millətlərarası münasibətlərin tənzimlənməsi üzrə əsas fiqur kimi qəbul edilmişdir. XX əsrin yetmiş-səksəninci illərində baş vermiş Qazaxıstandakı hakimiyyət dəyişməsi iğtişaşlarının tənzimlənməsində, Özbəkistandakı Fərqanə hadisələrinin nizamlanmasında Siyasi Büro Heydər Əliyev faktoru ilə razılaşmalı olmuşdur. Azərbaycan Sovet Respublikasında yaşayan bütün xalqlar da Heydər Əliyev simasında özlərinin əsl müdrik rəhbərini görmüşlər.

Dövlət müstəqilliyinin başlanğıc illərinin gərgin hadisələri zamanı da Ulu Öndəri ölkəmizdə yaşayan bütün xalqlar və eyni zamanda dünya azərbaycanlıları eyni məhəbbət və inamla ürəkdən dəstəkləmişlər.

Beləliklə, Heydər Əliyev geniş mənada Azərbaycan xalqının Ümummilli Lideri statusu qazanmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin strategiyasını, yaxın və uzaq gələcək üçün inkişaf yollarını müəyyən etmək mənasında da Ümummilli Lider olmuşdur.

Ümummilli liderlik Heydər Əliyevə Azərbaycan xalqının həm tarixində, həm də gələcək taleyində əbədiyaşarlıq qazandırmışdır. Azərbaycan xalqına özündən sonrakı dövr üçün ən layiqli siyasi varisi yetişdirib hazırlaması da Ulu Öndərin tarixi xidmətidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqil dövlətimizin yeni tarixi mərhələdəki yüksək və hərtərəfli in-

kişafını təmin etməklə müstəqil dövlətimizi qətiyyətlə irəli aparır. Dünyada baş verən müasir hərbi-siyasi proseslərə, iqtisadi çalxalanmalara, yeni sənaye inqilablarına çağırışlara, habelə multikultural dəyərlərə fərqli baxışlara uyğun olaraq müstəqil dövlətimizin inkişaf strategiyası və taktikasını daim yeniləşdirən və zənginləşdirən Prezident İlham Əliyev özünün dərin analitik təfəkkürü və çoxcəhətli yorulmaz fəaliyyəti ilə XXI əsrin əsl modern dövlətçilik nümunəsini göstərməkdə davam edir.

Dövlət rəhbərimizin fəaliyyətinin hər anı, hər səhifəsi Azərbaycan xalqının bugünkü inkişafına və daha xoşbəxt gələcəyinə xidmətin əməli ifadəsidir. Məhz Prezident İlham Əliyevin apardığı məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətin nəticəsində müstəqil Azərbaycan Respublikası qısa müddətdə nəinki regionda, dünya miqyasında söz sahibinə çevrilmişdir.

Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü seçilməsi dövlət rəhbərimizin həyata keçirdiyi siyasətin beynəlxalq aləmdə tam dəstəklənməsinin göstəricisidir.

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin istifadəyə verilməsi, Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi, TANAP layihəsinin Avropaya ayaq açması, "Şimal-Cənub” tranzit nəqliyyat dəhlizinin yaradılması Prezident İlham Əliyevin adı ilə bağlı olan beynəlxalq əhəmiyyətə malik layihələrdir.

Ölkəmizdə neft sektorundan asılılığın aradan qaldırılması üçün aqrar sahənin, nəqliyyat və turizm sektorlarının gəlir gətirən sahələrə çevrilməsi, regionların böyük sürətlə inkişaf etdirilməsi möhtərəm Prezidentin müdrik siyasətinin mühüm nəticələridir.

Elm, təhsil, mədəniyyət və səhiyyə sahəsində əldə edilmiş nailiyyətlər Azərbaycanda yeni bir inkişaf mərhələsinin formalaşmasına böyük töhfələr vermişdir. Dövlət səviyyəsində aparılan multikulturalizm və tolerantlıq siyasəti respublikamızda sabitlik və birliyin möhkəmləndirilməsinə uğurla xidmət edir.

Ölkəmizdə xalq ilə rəhbər arasında yaranmış sarsılmaz birlik möhtərəm Prezidenti xalqımızın lideri səviyyəsinə yüksəltmişdir.

Dünyanın ən mötəbər xitabət kürsülərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni tarixi epoxanın görkəmli liderlərindən biri kimi çıxış edir.

Eyni zamanda, Azərbaycanda keçirilən beynəlxalq tədbirlərdə də dövlət başçımızın dərin məzmunlu nitqləri, çağırışları planetimizdə sülhə, sabitliyə, əməkdaşlığa geniş üfüqlər açır.

Bütün bunlara görədir ki, inkişaf etmiş dünya dövlətlərinin liderləri sırasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi yeri var. Ölkəmiz və xalqımız Prezident İlham Əliyevin liderliyi ilə daha böyük gələcəyə doğru inamla yol gedir.

**İsa HƏBİBBƏYLİ,**
**Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik.**
www.science.gov.az

# YENİLƏŞƏN VƏ YÜKSƏLƏN AZƏRBAYCANIN QURUCUSU

**İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**

**Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Azərbaycan xalqının tarixi müxtəlif səciyyəli və taleli liderlərin obrazları ilə kifayət qədər zəngindir. Ümummilli lider Heydər Əliyevə qədər neçə-neçə dövlət başçısı, ictimai-siyasi xadim yetirmiş bir xalqın XXI əsrdə də zamanın məzmunu, sürəti, enerjisi və miqyası səviyyəsində siyasi lider yaradacağı heç bir şübhə doğura bilməzdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən 16 ildə mənsub olduğu xalqın və dünyanın gözləri qarşısında belə bir lider kimi yüksəlmiş, dünya düzənində fəal iştirak edən yeni tipli siyasətçi və modern dövlət xadimi kimi qəbul olunmuşdur. Elə bu yerdə bildirək ki, bu 16 illik dövrdən əvvəlki 10 ildə Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevin timsalında əsrlərin və minilliklərin qovuşub-ayrıldığı nadir bir tarixi məqamda real istəklərindən əlavə, romantik ideallarını da gerçəkləşdirmiş əfsanəvi liderin ətrafında görünməmiş bir vüsət və coşqu ilə səfərbər olunmuş, mərkəzəqaçma impulsu ilə toparlanmışdı. Bu dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyevin şəriksiz və misilsiz qələbəsi idi. Həmin qələbə isə XXI əsrin ilk illərində ölkə daxilində və beynəlxalq aləmdə ulu öndərin gerçək siyasi varisi kimi qəbul edilən İlham Əliyevin qarşısında yüksək fəaliyyət perspektivləri, yeni siyasi-iqtisadi, mənəvi-ideoloji üfüqlər açmışdı.***

Çağdaş Azərbaycan dövlətini qurmaq missiyasına ümummilli lider Heydər Əliyev "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" söyləməklə başlamışdı. Azərbaycanın müstəqilliyi Tanrının xalqımızın gələcəyinə verdiyi bir şans, istək və arzularına açdığı yol idi. Nə yaxşı ki, ümummilli lider Heydər Əliyev kimi böyük mütəfəkkir tarixdə nadir hallarda yaranan belə imkandan istifadə edərək xalqını yenidən müstəqil dövlətçiliyinə qovuşdurmuş, siyasi suverenliyə dönməz, əbədi xarakter vermişdir.

Sovetlər İttifaqının idarəetmə sisteminin kəşməkəşlərindən məharətlə və alnıaçıq keçən, onun zəngin təcrübəsini mənimsəyərək özünün bütün bilik və səylərini ölkəmizdə yeni müstəqil dövlət quruculuğunun uğurla həyata keçirilməsinə yönəldən ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyinin 10 ilində həyatın bütün sahələrində ölkənin gerçək suverenliyinin fundamental əsaslarını yaratmışdır. SSRİ kimi supergücün böyük dövlətçilik məktəbinin yeni ideya zəmininə transfer edilməsi və əvvəlki təcrübənin zamanca sonrakı ideya ilə üzvi surətdə birləşdirilməsi kimi tarixən nadir bir əməliyyat aparılması Heydər Əliyev dühasının ən parlaq təzahürlərindən biri olmuşdur. Bu hadisə təkcə Azərbaycan üçün əlamətdar olmayıb, dünya tarixinin də diqqətçəkən səhifələrindən birinə çevrilmişdir.

Tarixçi və politoloqlar haqlı olaraq göstərirlər ki, dünya şöhrətli siyasət və dövlət xadimi olaraq Heydər Əliyev ibrətamiz bir sintez nümunəsi yaratmış–ənənəvi dövlətçiliklə yeni ideologiyanın, Qərb siyasi təfəkkürü ilə Şərq mentalitetinin, təcrübə ilə novatorluğun sintezinə nail olmuşdur. O zaman söhbət yeni bir tarixi mərhələdə, yeni dəyərlər müstəvisində kökü qədimlərə dayanan misilsiz bir dövlət nümunəsi qurmaqdan gedirdi.

Azərbaycan dövlətçiliyi həmin dövrdə qarşısıalınmaz bir sürətlə inkişaf edirdi. Artıq dünya da bu və ya digər dərəcədə etiraf etməyə məcbur olurdu ki, Yer üzündə, gerçəkdən, Azərbaycan adlı bir dövlət var. Bu dövlətin mövqeləri möhkəmləndikcə, mövcudluğu daimiləşdikcə beynəlxalq aləmdə də onun yeritdiyi siyasətlə hesablaşmaq məcburiyyətində qalırdılar. Bu həm də tarixdə nadir hallarda təzahür edən Xalq– Lider tandeminin qarşısıalınmaz bir gücə çevrilməsinin göstəricisi idi.

Azərbaycanın müstəqilliyi Heydər Əliyevin bütün fəaliyyətinin və çıxışlarının ana xətti idi. Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini artıq təmin olunmuş, dönməz proses kimi qiymətləndirirdi. Heydər Əliyev dövlət müstəqilliyinin qorunmasını siyasi, iqtisadi və mədəni-mənəvi istiqamətlərdəki fəaliyyətlərin də başlıca məqsədi hesab edirdi. Milli iqtisadiyyatımızın möhkəmləndirilməsi, onun müasir şəraitdə labüd olan azad rəqabət və bazar münasibətləri əsasında yenidən qurulması prosesi ilk dövrlərdə ağrılı keçsə də, çox keçmədən layiqli bəhrələrini verməyə başlamışdı.

Azərbaycanda Heydər Əliyev elə bir təməl qoymuşdur ki, heç bir siyasi təşviqat və mövhumatdan gələn fanatizm bu təməli sarsıda bilməz. İqtisadiyyatın inkişafı, adamların rifah halının yaxşılaşdırılması həmişə Heydər Əliyevin diqqət mərkəzində olmuşdur: "Biz həm ölkəmizin suverenliyini, ərazi bütövlüyünü qorumaq üçün çalışırıq, həm də vətəndaşlarımızın, xalqımızın rifahını yaxşılaşdırmağa, yaranmış vəziyyətdə müxtəlif və yeni formalardan istifadə edərək iqtisadiyyatı inkişaf etdirməyə çalışırıq".

Bu gün Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən əsaslı islahatlar və dövlət müstəqilliyinin maddi təminatına çevrilmiş yeni iqtisadi model də məhz o vaxt Heydər Əliyev tərəfindən təməli qoyulmuş bu möhtəşəm quruculuq planlarının yeni keyfiyyət mər-

hələləridir. Bu isə belə bir həqiqəti yada salır ki, ümummilli lider Heydər Əliyev Azərbaycana ondan sonra kimin rəhbərlik edəcəyi məsələsinə qazanılmış və əsasları yaradılmış dövlət müstəqilliyinin sonrakı taleyi səviyyəsində yanaşmış və bu sahədə də öz xalqı qarşısında borcunu müstəsna bir məsuliyyət və dahiyanəliklə yerinə yetirmişdir.

Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin həyatının son illərində və aylarında Azərbaycan cəmiyyətini, eləcə də ölkəmizi diqqət mərkəzində saxlayan beynəlxalq dairələri dövlətə gələcəkdə kimin rəhbərlik edəcəyi, ulu öndərin hakimiyyət irsini və siyasi kursunu kimin davam etdirəcəyi ciddi maraqlandırmışdı. İki əsrin və minilliyin qovşağında bu barədə düşünəndə hamının ağlına, birinci növbədə, ümummilli liderin ən yaxın məsləkdaşı və ən sadiq silahdaşı, onun həyat və mübarizə yolunun ən istedadlı yetirməsi İlham Əliyev gəlmişdi.

Bu, yalnız İlham Əliyevin dünya miqyaslı ictimai-siyasi xadim, böyük dövlət adamı və nəhayət, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin oğlu olması ilə bağlı deyildi. Həm də ona görə idi ki, ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq yeni tipli siyasi lider olaraq İlham Əliyev kifayət qədər böyük siyasi nüfuz qazanmışdı. Azərbaycan dövlətçiliyi uğrunda mübarizənin gənc qəhrəmanına belə bir məqamda daha geniş meydan, təbii ki, hava-su kimi lazım idi.

Tarixçilərdən fərqli olaraq, Xalq həmişə geriyə yox– irəliyə baxır. Xalqın irəlidə– ulu öndərdən sonra taleyini etibar etmək istədiyi Lider isə yalnız İlham Əliyev olmuşdu.

Gələcəyin lideri İlham Əliyev müxtəlif dövlətlərin siyasilərinin çeşidli mülahizələrilə müşayiət olunan proseslərdə, tez-tez dəyişən olayların çevrəsində dünya şöhrətli atasının bütün fərdi və ideoloji qənaətlərini onunla birgə yaşamışdı. Gənc siyasətçi, dərin zəkalı, təşəbbüskar və yüksək enerjili dövlət adamı İlham Əliyev siyasi meydanda çoxdan olsa da, tam aydınlığı ilə Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri qismində vətənpərvər və qətiyyətli fəaliyyəti ilə nəzərə çarpmışdı. Sonradan isə cəmiyyət onu Baş nazir kimi qəbul etmişdi.

Ümummilli liderin ən layiqli varisi İlham Əliyev ona görə güclü idi ki, yaxşı təhsil almışdı, bir neçə aparıcı xarici dildə sərbəst danışmağı bacarırdı, beynəlxalq mədəniyyət tipologiyaları ilə təmasa girməyi dərindən mənimsəmişdi, dünyanın müasir düşüncə texnologiyalarına yiyələnmişdi. Bu baxımdan onu "rəqibləri" ilə müqayisə etmək çətin idi. Həmin dövrdə Azərbaycanda hakimiyyətə can atan qüvvələrin böyük bir hissəsi, əvvəllər tez-tez deyildiyi kimi, adi bir namizədlik dissertasiyası da müdafiə edə bilməmiş aspirantlar, yaxud dissertantlar idilər. Onların nə zamansa sistemli, ardıcıl bir iş görə biləcəklərinə cəmiyyət qətiyyən inanmamışdı.

Mükəmməl idarəetmə məktəbi keçmiş, dünya siyasətində bir sıra addımlarını uğurla sınaqdan çıxarmış İlham Əliyevin müstəqil Azərbaycan dövlətinə rəhbərlik estafetini qəbul edərək böyük siyasətə gəlişi ümummilli lider Heydər Əliyevin siyasi, ictimai, əxlaqi məfkurəsi və mədəniyyəti

üzərində formalaşmış, Avropa və Şərq dəyərlərinin sintezindən yaranmış bir siyasi marafonun başlanğıcı olmuşdu. Siyasi düşərgəyə, cəmiyyətimizin idarəçiliyinə yeni ictimai ruhun gəlişi təzə ideyaların axınına meydan açmışdı. Bütün bunların bəhrəsi isə təkcə əldə olunmuş inkişaf tempini qoruyub saxlamaq deyil, həm də qazanılacaq yeni uğurlar, növbəti təcrübə oldu. Modern düşüncəli və yüksək enerjili siyasi xadim olaraq İlham Əliyevin keçdiyi mənəvi, mədəni, intellektual, siyasi məktəb bütöv bir tarixə çevrildi.

Belə bir tarixi şəraitdə ümummilli lider 2003-cü ilin prezident seçkilərinin həlledici dövründə canından artıq sevdiyi xalqına müraciətlə bildirmişdi: "Üzümü sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Xalq 1993-cü ildə Heydər Əliyevi yenidən özünün alternativsiz rəhbəri olaraq ali hakimiyyətə tələb edəndə nə qədər ağıllı, təkidli hərəkət etmişdisə, üçüncü minilliyin üçüncü ilində İlham Əliyevin şəxsində öz yeni Prezidentini– yeni liderini seçəndə də o səviyyədə mübarizlik və müdriklik göstərmişdi. Müstəqil dövlətin yenicə qurulmuş, nizamlanmış hakimiyyətinin yeni siyasi varisə ötürülməsi kimi taleyüklü bir keçid mərhələsində Baş nazir İlham Əliyev xalqın böyük səs çoxluğu ilə Azərbaycan Prezidenti seçilmişdi.

Bu taleyüklü hadisə bütün dünyaya göstərmişdi ki, əvvəla, Azərbaycan xalqı ümummilli liderin milli dövlət quruculuğu siyasətinin perspektivliliyinə dərindən inanır. İkincisi, İlham Əliyev ölkə daxilində və xarıci aləmdə məhz həmin siyasətin daşıyıcısı və davamçısı kimi qəbul edilir. Nəhayət, yeni Liderini tarixi məsuliyyət və qətiyyətlə müəyyənləşdirən Xalq gələcəkdə milli dövlət quruculuğunun qarşısına çıxa biləcək qaçılmaz problemlərin həllində taleyini əksəriyyətlə etibar etdiyi ölkə rəhbərinin siyasi intellektinə, uzaqgörənliyinə və iradəsinə şübhə etmir.

Müstəqilliyin ilk mərhələsində Azərbaycan xalqı dövlətçiliyin xilaskarının missiyasından lazımınca bəhrələnərək öz varlığını, Vətənin müstəqilliyini qorumuş və milli dövlətini qurmuşdu. İkinci mərhələdə isə Azərbaycan cəmiyyəti böyük zəhmətlər, ağrı-acılar bahasına yaradılmış ideoloji ənənə və dövlətçilik təcrübəsini dağılmağa, müstəqilliyi taleyin naməlum oyunları ilə üz-üzə qalmağa qoymadı.

Beləliklə, Prezident İlham Əliyevin müasir azərbaycanlı təfəkküründə Vətən və Xalq təəssübkeşliyi, Şərqin müsbət ənənələri, türk mənəvi-əxlaqi dəyərləri, Qərb və Avropa modellərinə münasib intellekt möhkəm bir özüldür. Ulu öndərin varisi onun siyasətinin davamlılığını yüksək səviyyədə təmin etməklə milli-mənəvi, ideoloji dəyərlərimizin hamısında, mədəni, elmi, etno-kulturoloji, eləcə də yaradıcılıq

sahələrində irəliləyişi, mənəviyyat məsələlərinə dövlət himayəsini yalnız iqtisadi-sosial tərəqqi ilə ayrılmaz şəkildə bağlamışdır.

Ulu öndərin şəriksiz davamçısı kimi İlham Əliyevi müasir insanların, ziyalıların, gənc nəslin fəal surətdə dəstəkləməsi, ona böyük ümidlər bəsləməsi nəticə etibarilə göz qabağındakı praktik işlərin inikası və perspektivə güclü inamdan irəli gəlirdi. Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu kimi özündən sonrakı dövrdə ölkəmizin inkişaf perspektivləri və siyasi varisinin uğurlu fəaliyyəti üçün bütün zəruri əsasları kompleks şəkildə yaradıb hərəkətə gətirmişdi.

Ötən 16 il dönə-dönə təsdiqləmişdir ki, millilik dövlət başçısı İlham Əliyevin siyasi düşüncəsinin, təfəkkürünün əsas mənbəyidir. Onun öz xalqının ruhuna uyğun, eləcə də Avropa və Qərb təmayüllü siyasəti Azərbaycanın əzəli və əbədi maraqlarından mayalanır. Yeni tipli siyasətçi və yenilikçi dövlət xadimi olaraq İlham Əliyevin siyasi portretini onun fərdi obrazının əlamətdar ştirixləri tamamlayır. Və özəllik ondadır ki, həmin cizgilərin genetik qaynaqları Azərbaycan xalqının özünüdərkində əvəzsiz rolu olmuş bir dahinin həyat və mübarizə yolunun məntiqindən irəli gələrək formalaşmışdır.

Azərbaycan dövlətinin başçısı kimi İlham Əliyevin şəxsiyyəti modern cəmiyyətdə lider obrazının ən mühüm cəhətlərini özündə birləşdirir. Lider, həmçinin mənəvi birliyi təmin edən, cəmiyyətdə müəyyən əhval-ruhiyyənin, ideya və dəyərlər sisteminin formalaşmasına təsir göstərən mühüm qüvvədir. Xalqın lideri, ilk növbədə, insanları ümumi ideya, prinsip, məqsəd ətrafında birləşdirməyi bacarmalıdır. Ulu öndər Heydər Əliyevin yetkin bir məfkurə kimi xalqımıza təqdim etdiyi azərbaycançılıq ideologiyasının əsasını təşkil edən dövlətçilik, vətənpərvərlik, ənənələrə bağlılıq prinsipləri Prezident İlham Əliyevin fəaliyyətində bu gün milli birliyin əsas təminatçısı kimi çıxış edir.

Dövlət başçısı İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən ötən müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olmuşdur. Şübhəsiz, sosial-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. Ulu öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olmuşdur. Gənc dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi, ümumilikdə, rasional varislik modeli sayəsində mümkün olmuşdur.

Bu prinsiplərə sadiqliyini qoruyub saxlayan Prezident İlham Əliyev isə öz fəaliyyəti ilə Heydər Əliyev ideyalarının layiqli davamçısı olduğunu göstərməklə yanaşı, innovasiyalara tez uyğunlaşmaq bacarığı, dəyişən qlobal və regional reallıqlar şəraitində ölkənin sabit milli maraqlarını qoruya bilmək qabiliyyəti ilə özü-

nün əsl siyasi lider olduğunu bütün dünyaya sübut etmişdir.

Ölkədə abadlaşan, yeni simasını yaradan şəhərlər (xüsusilə paytaxt Bakı!), kəndlər, çəkilən yollar, yaradılan müasir istehsal müəssisələri, tikilən və təzələnən təhsil, səhiyyə, mədəniyyət obyektləri, tətbiq edilən müasir idarəçilik texnologiyaları, dünya standartları ilə müqayisə olunan müxtəlif təsisatlar, idmanda, mədəniyyətdə indiyə qədər bu miqyasda görünməmiş beynəlxalq uğurlar Azərbaycan insanını ruhən yüksəldən, onun hərtərəfli məmnunluğunu təmin edən elə hadisələrdir ki, yalnız bu günlə məhdudlaşmayıb, Azərbaycan insanının gələcək taleyini, xarakterini də müəyyən etmişdir. Və bu taleyüklü işlər, əməllər Azərbaycan xalqının tarixində həmişəlik olaraq Prezident İlham Əliyevin adı ilə qalacaqdır.

İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi son 16 ildə həm iqtisadi, həm siyasi, həm də mədəni sahələrdə beynəlxalq əlaqələrin, başqa sözlə, Azərbaycan–Dünya dialoqunun zəngin təcrübəsi qazanılmasıdır. Bu isə ilk növbədə, o deməkdir ki, Azərbaycan xalqının milli idealları, bir vaxtlar olduğu kimi, məhdud bir miqyasda--“özümüz deyib, özümüz eşidək” prinsipi ilə qalmayıb, universallaşır, hüdudlarını genişləndirir, ümumən, insan və dünya təfəkkürü mövqeyindən görünüb etiraf olunur.

Prezident İlham Əliyevin milli maraqlara söykənən xarici siyasəti nəticəsində Azərbaycan ulu öndərdən sonrakı mərhələdə də müstəqil mövqeyi ilə seçilən dövlət kimi tanınmış, onun beynəlxalq nüfuzu getdikcə yüksəlmişdir. 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmiş, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilmişdir. 2019-2022-ci illər Azərbaycan Respublikasının Hərəkata sədrlik dövrüdür. Azərbaycan Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq əlaqələri qurmuşdur.

Prezident İlham Əliyev xarici ölkələrin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərində Ermənistan--Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın prinsipial mövqeyini ardıcıl olaraq onların diqqətinə çatdırmışdır. Bu istiqamətdə aparılan qətiyyətli və prinsipial siyasət nəticəsində Ermənistanın əvvəlki və yeni rəhbərliyinin danışıqlardan yayınmaq, dialoqun formatının dəyişdirilməsi cəhdlərinin qarşısı alınmışdır. Keçən dövr ərzində nüfuzlu beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə Ermənistan--Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə xüsusi diqqət yetirilmiş, işğalçı dövlətin təcavüzə son qoyması vurğulanmışdır. Bu siyasətin nəticəsində ölkəmizin ərazi bütövlüyü, suverenliyi təsdiqlənmiş və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunmuşdur.

Ardıcıl olaraq beynəlxalq “dialoq”lara ev sahibliyi edən Azərbaycan indiyə qədər görünməmiş bir miqyasda müxtəlif ideyaların, ideologiyaların həmsöhbət olmasına inamla münsiflik etdikcə azərbaycançılıq məfkurəsi də zənginləşmiş, beynəlxalq nüfuzunu gücləndirmiş, yüksək standartlı paradiqmalara yiyələnmişdir. Azərbaycan xalqının intellektual səviyyəsinin daha da yüksəldilməsi, müasir texnologiyalara

yiyələnməsinin sürətlənməsi, perspektivli özünüifadə və özünütəsdiq metodlarının, üsullarının və vərdişlərinin xüsusilə gənc nəsil tərəfindən mənimsənilməsi də ötən dövrdə İlham Əliyevin liderliyi altında uğurla gerçəkləşdirilmişdir.

Azərbaycan rəhbəri İlham Əliyev bu gün həm də Qafqaz regionunun şəriksiz lideri sayılır–onun razılığı olmadan bu bölgədə heç bir ciddi layihəyə və addıma start verilə bilməz. Prezident İlham Əliyev Azərbaycan dövlətinin başına təkcə ümummilli liderin varisi, davamçısı, onun məktəbinin ardıcılı kimi yox, həm də yenilikçi– yeni zamanın yeni lideri olaraq gəlmişdir. O, idarəçiliyin elə demokratik və optimal yolunu seçmişdir ki, hər bir zəkalı ölkə vətəndaşının dövlətçiliyin inkişafında yeri var. Və dövlət quruculuğunda bu yer hər kəsin məhz vətənpərvərliyinə, biliyinə, sağlam düşüncəsinə, qabiliyyətinə görə müəyyənləşmişdir.

Türk dünyasının İlham Əliyevindən və İlham Əliyevin Türk dünyasından da bəhs etməmək mümkün deyil. Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ardıcıl alaraq türk respublikalarına– Qazaxıstana, Özbəkistana, Qırğızıstana, Türkiyəyə səfərlərə gedən, Türkmənistanla əlaqələrdəki soyuqluğu inamla aradan qaldıran, türk dövlətlərinin və xalqlarının birliyi üçün müasir mübarizə texnologiyaları nümayiş etdirən və yeni təcrübə verən İlham Əliyev artıq Bakının sovet dövründə unutdurulmuş türk dünyasının mərkəzi şöhrətini özünə qaytarmışdır. Ümummilli lider Heydər Əliyevin ən layiqli siyasi varisi olan İlham Əliyev Prezident kimi Türkiyəyə ilk rəsmi səfəri ərəfəsində demişdi: "Biz öz siyasətimizi müstəqil şəkildə aparmalıyıq ki, xalqlarımız, millətimiz daha da güclənsin, qüdrətlənsin, möhkəmlənsin. Bizim gücümüz də birlikdədir".

Azərbaycanın regionda, ümumən, beynəlxalq aləmdə söz sahibi olması, onun mövqeyi ilə hesablaşılması, çoxstandartlılığı, xüsusilə cari konyunkturluluğu ilə tanınan dünyanın "haqq-hesab"ından kənarda qalıb təcrid olunmaması da İlham Əliyevin siyasi varislik missiyasının təntənəsini göstərən ciddi tarixi nailiyyətdir. Bu uğurun özünəməxsusluğu ondan ibarətdir ki, Azərbaycan xalqının milli düşüncəsi çevik, elastik, diplomatik resurslara yiyələnmiş, hər hansı "gözlənilməz" ideoloji hücumlara qarşı müqavimət, hətta əks-hücum "immunitetlər"i qazanmışdır. Siyasi varisliyin bütün dünyada diqqətlə izlənilən İlham Əliyev nümunəsi özünəməxsus dinamizmi ilə zənginləşməkdə, milli ictimai şüurun əsaslarını müəyyənləşdirməkdə və Azərbaycan xalqının dünya birliyindəki mövqelərini inamla yüksəltməkdədir.

Prezident İlham Əliyev indiki və gələcək dövr üçün dövlətin və vətəndaşların vəzifələrindən danışarkən soydaşlarımızın doğma vətənləri ilə hər cür faydalı əlaqələrində hüquqi, mədəni, mənəvi əsasların möhkəmləndirilməsini həmişə zəruri istiqamət kimi vurğulayır. Prezident dövlətimizin inkişafı müqabilində maddi-mənəvi imkanlardan istifadə edərək dünya azərbaycanlılarının normal səviyyədə bəhrələnməsinə imkan yaratmağı, onların milli və vətəndaş hüquqlarının qorunması yolun-

da səyləri gücləndirməyi çağdaş dövr üçün vacib amillərdən sayır.

Yeni tipli siyasətçi və dövlət xadimi kimi İlham Əliyevin 2003-cü ildə prezidentlik fəaliyyətinə başlaması Azərbaycanın tərəqqi və inkişaf yolu ilə irəliləməsində yeni mərhələ olmuşdur. Ötən illər müstəqilliyimizin daha da möhkəmləndirilməsi, ölkədə sabit siyasi sistemin, çoxukladlı iqtisadi strukturun intensiv formalaşması dövrü olmuşdur. Məhz bu illərdə respublikada demokratikləşmə prosesləri genişlənmiş, ölkəmizin dünya transformasiya proseslərinə inteqrasiyası daha intensiv xarakter kəsb etmiş, milli iqtisadiyyatın daha da inkişafı üçün mühüm sosial-siyasi baza yaranmışdır. Heydər Əliyevin siyasət məktəbinin layiqli yetirməsi olan İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar nəticəsində Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələr olmuş, səmərəli intensiv islahatlar aparılmışdır.

Müstəqil Azərbaycan dövlətinin yeni lideri İlham Əliyevin əsaslı və zəruri islahatları ölkənin real iqtisadi, sosial, siyasi vəziyyətini dəqiqliklə nəzərə almaqla yanaşı, cəsarətliliyi ilə də seçilir. Onun məhz yenilikçi idarəetmə texnologiyalarına ardıcıl, inamlı müraciətinin nəticəsidir ki, respublikanın iqtisadi inkişafı indiyə qədər görünməmiş bir sürət və miqyas almış, ölkədə sağlam sosial-siyasi, mənəvi- mədəni əhval-ruhiyyə yüksəlmişdir. Bu gün ən qərəzkar, ən aqressiv, hətta ən dağıdıcı bir müxalif qüvvə belə dövlət başçısı İlham Əliyevin qazandığı çoxspektrli uğurları görməmək, yaxud inkar etmək gücündə deyil.

Prezident İlham Əliyev ulu öndərin yaratdığı əsaslara söykənərək Azərbaycanda iqtisadi-sosial tərəqqini fenomenal bir gerçəyə çevirmişdir.

Prezident İlham Əıiyevin ölkəmizə uğurlu rəhbərliyi ilə xüsusən iqtisadi sahədə ciddi nailiyyətlər qazanılmışdır. Azərbaycan iqtisadiyyatının dayanıqlığının təmin edilməsi, onun neftdən və qazdan asılılığının daha da azalması, qeyri-neft sektorunun inkişafı məqsədilə ardıcıl tədbirlər davam etdirilmişdir. İqtisadi və maliyyə sektorlarında maksimum şəffaflığın təmin olunması istiqamətində mühüm addımlar atılmışdır. Bu sahələrdə kompleks tədbirlərin görülməsi iqtisadiyyata, xüsusilə də qeyri-neft sektoruna böyük həcmdə xarici sərmayənin cəlb olunması üçün mühüm əhəmiyyət daşıyır.

Dövlət başçısı İlham Əliyevin ötən iln aprelindəki seçkilərdə yenidən qələbə qazanmasının əsasında, ilk növbədə, Azərbaycanın son üç beşillik müddətdə onun rəhbərliyi altında dinamik inkişaf dövrünü yaşaması, ölkəmizin qarşısında dayanan vəzifələrin uğurla icra edilməsi kimi ciddi amillər dayanmışdır. Xalq qəti əmin olmuşdur ki, İlham Əliyev 2003-cü ildən bəri ölkənin inkişafı, insanların əmin-amanlıq şəraitində yaşamasının təmin edilməsi üçün verdiyi bütün vədlərə yüksək səviyyədə əməl etmişdir.

Doğrudan da, ötən illərdə Azərbaycan bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələsini sürətlə adlayaraq, modernləşmə yoluna qədəm qoymuşdur. Son 16 ildə ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə

artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmışdır. Ölkəmizdə 2 milyondan çox yeni iş yeri açılmış, yoxsulluq 10 dəfəyə qədər azalaraq 5 faiz səviyyəsinə enmişdir. Azərbaycanın valyuta ehtiyatları 2004-cü ildəki 1,8 milyard dollardan 46 milyard dollara çatdırılmışdır. Bu dövrdə ölkə iqtisadiyyatına müstəqillik dövründə yatırılan sərmayənin 93 faizi qədər--250 milyard dollar investisiya qoyulmuşdur. Bütün bunlar dünyada ən sürətli inkişaf göstəriciləridir.

Nəticədə, Azərbaycan beynəlxalq reytinqlərdə yüksək yerlərə qalxmışdır. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Davos İqtisadi Forumu Azərbaycanda aparılan islahatlara yüksək qiymət vermişdir. Davos Forumunun 2017-ci ildə “İnklüziv inkişaf indeksi” adlı hesabatında ölkəmiz inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə yüksəlmişdir. Azərbaycan Cənubi Qafqazın aparıcı dövləti kimi dünya birliyində mövqelərini daha da möhkəmləndirmişdir. Azərbaycan enerji resurslarının dünya bazarlarına səmərəli və əlverişli yollarla çıxarılmasını nəzərdə tutan praqmatik siyasət həyata keçirir və şaxələndirilmiş nəqliyyat infrastrukturu ilə beynəlxalq birliyin diqqətini özünə cəlb edir. Bütün bunlar ölkəmizlə dünya dövlətləri arasında ticarət-iqtisadi əlaqələrin möhkəmlənməsi və ilk növbədə, Azərbaycanın geoiqtisadi maraqlarının təmin edilməsi baxımından böyük əhəmiyyət daşıyır. Respublikamız transmilli enerji-nəqliyyat layihələrinin əsas təşəbbüskarlarından biri olmaqla yanaşı, regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayır.

Artıq Azərbaycana hər il 2,5-3 milyon xarici vətəndaş və turist gəlir. Onlar mötəbər beynəlxalq təşkilatların hesabat və reytinqləri ilə tanış olmasalar belə, təkcə paytaxta nəzər salmaqla müstəqillik dövrünün son iki onilliyində Bakı şəhərində böyük bir sıçrayışın baş verdiyinə əmin olurlar. Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf konsepsiyasına əsasən 2003-cü ildən bəri həyata keçirilən abadlıq və quruculuq işləri sayəsində Bakı dünyanın ən gözəl şəhərlərindən birinə, regionun biznes və mədəniyyət mərkəzinə, cəlbedici turizm və istirahət məkanına çevrilmişdir.

Regionların inkişafı sahəsində həyata keçirilmiş dövlət proqramlarında və digər direktiv sənədlərdə nəzərdə tutulmuş vəzifələrin icrası qeyri-neft sektorunun inkişafına, bölgələrdə kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına mühüm təkan vermişdir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı 3 dövlət proqramı uğurla gerçəkləşdirilmişdir. Dördüncü proqram çərçivəsində bu ilin əvvəlindən bölgələrdə əhəmiyyətli infrastruktur layihələri icra edilmiş, yeni sənaye müəssisələri yaradılmışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə bir sıra bölgələrdə yeni idman komplekslərinin tikilməsi marafonu Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə şəhər və rayonlarda yeni məktəb binalarının tikilməsi ilə davam etdirilir ki, bu da sağlam bədən üçün görülən işlərin sağlam

ruh üçün görülən işlərlə tamamlanması deməkdir.

Ulu öndərin ideyalarının həmişəyaşar olmasını təmin edən ən mühüm hadisələr sırasında onun nəzəri-ideoloji irsinin öyrənilməsi, ideyalarının tədqiqi və təbliği ilə bağlı ictimai təşkilatların və elmi-tədqiqat müəssisələrinin fəaliyyəti, Heydər Əliyev Fondunun beynəlxalq miqyasda həyata keçirdiyi tədbirlər, bu məqsədə xidmət edən araşdırma və tədris mərkəzləri, universitetlər, akademiyalar və s. xüsusi yer tutur. Heydər Əliyev Fondunun Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirdiyi çoxşaxəli fəaliyyəti onun ideyalarını təkcə sözdə yox, həm də işdə yaşatmağın bariz nümunəsidir. Fərəhlə qeyd edilməlidir ki, təhsilin maddi-texniki bazasını gücləndirmək və yeni məktəb binaları tikmək haqqında Heydər Əliyevin arzu və istəklərini onun adını daşıyan fond böyük uğurla gerçəkləşdirməkdədir.

Gənclər millətin varlığının və gələcək inkişafının təməl daşıdır. Bu mövqedən çıxış edən dövlət başçısı ötən illər ərzində ölkəmizdə gənclərlə bağlı məqsədyönlü dövlət siyasəti həyata keçirilmişdir. Onun əsas qayəsini dövlətçiliyə, milli-mənəvi dəyərlərə sadiq və yüksək intellektual potensiala malik Azərbaycan gəncliyinin formalaşdırılması təşkil etmişdir. Bu sahədə atılan addımlar gənclərin cəmiyyətimizdə özlərini təsdiq etməsində mühüm rol oynamış, onların vətənimizə layiq vətəndaşlar kimi yetişməsinə böyük təsir göstərmişdir.

Ulu öndər Heydər Əliyevin siyasətinə uyğun olaraq, Prezident İlham Əliyevin müstəsna səyləri ilə Azərbaycanda dövlətimizin ərazi bütövlüyünü qoruyan, dünyanın ən güclü orduları ilə eyni sırada yer alan və yüksək döyüş hazırlığı olan Silahlı Qüvvələr yaradılmışdır. Beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri 2018-ci ildə dünyada ən güclü 50 ordu sırasında yer tutmuşdur. Bu güc və qüdrətin nəticəsidir ki, 2016-cı ilin aprel ayında Milli Ordumuz ermənilərin təxribatına layiqli cavab vermiş, düşmənə sarsıdıcı zərbələr endirmiş və zəbt olunmuş ərazilərimizin bir hissəsini işğalçılardan təmizləmişdir. Bununla da Böyük qayıdış üçün ciddi addım atılmışdır.

Bütün bunlardan göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin əldə etdiyi uğurları xalqımız əsl vətəndaş qədirbilənliyi ilə dəyərləndirir, onun daxili və xarici siyasətinin düzgünlüyünə inanır və bu strateji hədəflərin gerçəkləşdirilməsində fəal iştirak edir. Prezident İlham Əliyev cəmiyyəti düşündürən hər bir məsələdə xalqla həmrəylik nümayiş etdirir və irəli sürülən məsələlərin həlli ilə bağlı operativ tədbirlər görür. Bunun nəticəsi olaraq, ümumilikdə, 4 milyon insanı əhatə edən böyük sosial paket həyata keçirilmişdir. Ötən dövrdə qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində mühüm addımlar atılmışdır.

Ölkədə getdikcə dərinləşən islahatlar iqtisadi və sosial sahələrin inkişafına təkan verməklə yanaşı, demoqrafik proseslərin idarə edilməsində də mühüm rol oynamış, ona birbaşa və ya dolayısı ilə öz müsbət təsirini göstərmişdir. Son 16 ildə Azərbaycan mo-dernləşərək fərqli idarəçilik sisteminə çevrildiyindən hazırda siyasi, iqtisadi, ida-

rəçilik sahələrində uğurlu islahatlar aparılmaqdadır.

Prezident İlham Əliyev xalqın böyük əksəriyyətinin səsverməsi ilə növbəti müddətə dövlət başçısı seçildikdən sonra 2018-ci il aprelin 18-də keçirilmiş andiçmə mərasimindəki nitqində bütün sahələrdə islahatların davam etdiriləcəyini, dövlət siyasətinin mərkəzində Azərbaycan xalqının köklü maraqlarının, maddi, mənəvi və sosial tələbatlarının dayanacağını bildirmişdir: "Dəfələrlə bu məsələ ilə bağlı fikrimi bildirmişəm, bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır. Nəzərə alsaq ki, növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik, əminəm ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaqdır".

Ölkə rəhbəri İlham Əliyev dövlət idarəçiliyində əsaslı islahatları davam etdirərək Prezident Administrasiyasında, Nazirlər Kabinetində, yerli icra hakimiyyəti orqanlarında ciddi struktur və kadr dəyişikliklərinə start vermişdir. Son 2 ildə müasir idarəetmə sahəsində bilik və bacarıqları ilə seçilən cavan kadrlar hökumətdə və digər icra strukturlarında yüksək vəzifələrə təyin olunmuşlar. İctimai rəydə böyük rəğbətlə qarşılanan kadr siyasəti dövlət orqanlarının çevik və səmərəli şəkildə fəaliyyətinə mühüm təsir göstərmişdir. Dövlət həyatında baş verən islahatları tamamlamaq, qanunvericilik sistemində də çevik və daha səmərəli fəaliyyəti təmin etmək üçün Milli Məclisə də vaxtından əvvəl seçki keçirilir.

Bu islahatların aparılması, bütövlükdə, Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə reallaşan çoxşaxəli yeniləşmə konsepsiyasının əsas istiqamətlərindən birini təşkil edir. İslahatlar sürətli sosial-iqtisadi inkişafa, əhalinin sosial rifahının yüksəlməsinə önəmli təkan verməklə yanaşı, həm də Azərbaycanı beynəlxalq aləmdə islahatçı dövlət kimi tanıtmaqdadır.

Azərbaycan Prezidenti İlham Əliyev ölkəyə rəhbərlik etdiyi 16 illik bir müddətdə xalqın böyük etimadını qazanmış, qəti olaraq sübut etmişdir ki, Azərbaycanı həm daxili, həm də beynəlxalq miqyasda ən yüksək səviyyədə yalnız o təmsil edə bilir. İlk gündən hər bir azərbaycanlının prezidenti olacağını vəd edən, verdiyi sözü uğurla yerinə yetirən dövlət başçısı İlham Əliyev öz fəaliyyəti ilə ümummilli liderin başladığı tarixi işi davam etdirməyə qadir olduğunu sübut etməklə yanaşı, həm də özünü yeni zamanın yeni lideri kimi göstərmişdir. Ötən 16 ildə bir tərəfdən, mövcud ənənələr davam etdirilmiş, digər tərəfdən isə dövlət idarəçiliyinə zəruri novatorluq gətirilmişdir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətində əldə edilən hər bir uğur ulu öndər Heydər Əliyevin zəkasının təcəssümü, onun milli tərəqqi ideyalarını əhatə edən nadir irsinin canlı təzahürüdür.

**Nizami CƏFƏROV,**
**Azərbaycanda Atatürk Mərkəzinin müdiri, akademik.**

https:ataturk.az

# İMZASI DÖVLƏTİN SİMVOLUNA ÇEVRİLƏN DAHİ

***Müəyyən hadisələr var ki, üstündən illər keçməlidir ki, onun əhəmiyyəti, mahiyyəti daha aydın görünsün. Ancaq elə məqamlar da olur ki, nəticəsi göz qabağındadır. Onu şüanın sınmasına bənzətmək olar: işıq şüası ya udulur, ya da istiqamətini dəyişir.***

Bəzən bir xalqın taleyində də belə həlledici məqam yetişir. Olum ya ölüm dilemması qarşısında qalan millət həmin an qəti söz deyə bilən, vədinin üstündə duran bir şəxsə ehtiyac hiss edir. Əgər elə bir şəxsiyyət irəli çıxırsa və tarixin gedişinə öz təsirini göstərirsə, xalq yeni bir inkişaf xəttinə, yeni düşüncə müstəvisinə keçə bilir. Əks halda millətin varlığı sual altında qalır. O an dövlətlə liderin adı sanki eyniləşir və ondan sonra o liderin imzası dövlətin simvoluna çevrilir. Ən yeni tarixdə Azərbaycanın taleyində belə həlledici məqam Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi ilə əlaqəlidir.

Bir hadisənin mahiyyəti, miqyası daha böyük bir rakursda daha dolğun və aydın görünür.

Necə ki Türkiyə Atatürkün, Fransa Şarl de Qollun adı ilə bağlıdır, eləcə də Azərbaycan Heydər Əliyevin adı eyniləşib. Hər üç dövlətin bu gün olduğu vəziyyətinin səviyyəsi məhz bir vaxtlar bu şəxsiyyətlərin yönəltdiyi, təyin etdiyi istiqamətin nəticəsidir. Maraqlıdır ki, tarixin fərqli dövrlərində baş versə də, hər üç dövlət bəzi oxşar məqamlardan, taleyüklü sınaqlardan keçməli olub.

**Xalqının həm əsgəri, həm generalı...**

Xalq həmişə onu tanıyana və milli dəyərlərinə hörmət duyan şəxsə etibar edir, güvənir. Liderlik səviyyəsinə çatmaq üçün o mühitin özündə böyümək, onun güclü-zəif tərəflərini tanımaq, bütün mahiyyətini dərk etmək lazımdır ki, yolunu kəsən maneələri daha yaxşı görsün. Məsələ burasındadır ki, bu maneələr yalnız içəridən keçilməlidir, çünki xarici qüvvə belə bir "xidmət" göstərəndə, bunun adı olur işğal, müstəmləkə. Ölkə rəhbəri İlham Əliyev BDU-nun 100 illik yubileyində gənclər haqqında təsadüfən demirdi ki, "Əgər tarixi yaxşı bilsələr, görərlər ki, tariximizdə heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib, əksinə, bizi əzmək istəyib, özünə ram etmək istəyib, sərvətlərimizi talamaq istəyib, bizi alçaltmaq istəyib. Əgər belə olmasaydı, bizim çoxəsrlik tariximizin böyük hissəsi müstəmləkəçilik tarixi olmazdı". Başqa sözlə desək, xalq adlı ordunun generalı, Lideri olmağın yolu mütləq onun əsgəri olmaqdan keçir. Keçməlidir ki, hər daşının və vətəndaşının qədrini bilsin. Yalnız bu halda həlledici məqamı sezmək və zamanında müdaxilə etmək mümkündür.

Birinci Dünya müharibəsi dövründə Osmanlı ordusunda xidmət edən Mustafa Kamal bir il müddətində general rütbəsinə qədər yüksələ bilmişdi. Mövcud durumu düzgün dəyərləndirməklə o, nəinki uduzmaqda olan, hətta artıq ərazisi hərraca qoyulan Osmanlı İmperiyasının məğlubiyyətini Türk Qurtuluş Savaşına çevirə bildi və Ankara Hökumətini qurdu. Yalnız türk ruhunun gücünü bilən və özü də eyni hissi yaşadığına görə ən çətin döyüşlərdə qazi olan bir şəxs əsgərlərə belə bir əmr verə bilərdi: "Mən sizə savaşmağı əmr etmirəm, ölməyi əmr edirəm”. Məhz bu ruhu oyatmaqla böyük İmperiyanın dağılması prosesini yeni bir dövlətin yaranması üçün zəminə çevirə bildi. Və tarixdə Türkiyə adlı səhifənin yazılması başladı.

Bənzər hadisələr İkinci Dünya müharibəsi dövründə Fransada baş verdi. Faşist Almaniyası tərəfindən işğal olunan və bütün mümkün köməklərdən əli üzülən Fransanın köməyinə elə öz əsgəri Şarl de Qoll gəldi: "Fransa döyüşü uduzdu, ancaq müharibəni uduzmayıb! ...Gün gələcək, Fransa öz azadlığını və əzəmətini geri qaytaracaq”. Bu, həlledici məqam idi – fransız xalqını öz məhvi ilə barışmaqdan və uçurumun dibinə yuvarlanmaqdan qorumaq idi. Alman faşistlərinə qarşı Müqavimət hərəkatına rəhbərlik etməsi və iki il ərzində Fransada yaradılmış müvəqqəti hökumətin başçısı olması Şarl de Qollun öz missiyasına inanmağına və inandıra bilməsinə dəlalət edirdi.

Azərbaycanın taleyində ilk belə taleyüklü məqam 1990-cı ilin 20 Yanvarında yetişmişdi. Tərkibində olduğu sovet imperiyası ona xəyanət etdi və bir gecənin içində dinc əhalisinə divan tutdu. Əhali çaşmışdı – dünənə qədər "böyük qardaş” hesab etdiyi qatil çıxmışdı, arxalandığı şəxslər isə ümumiyyətlə kölgəyə çəkilib gizlənmişdi. Belə bir məqamda xalqa dəstək Ulu Öndər Heydər Əliyevdən gəldi. Faciənin sabahı Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlməklə və etiraz səsini ucaltmaqla o, özünün Ümummilli Lider olduğunu təsdiqlədi. Maraqlıdır, o zaman Heydər Əliyev sanki siyasi meydanda tək idi. Özü də vurğulayır ki, "Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram”. Ancaq bu ona öz düşüncələrini xalqa çatdırmağa mane olmadı: "Mən bu düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanunazidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı-kamallı olmağa, həmrəyliyə və birliyə çağırıram”. Başsağlığı və təəssüf hissini çatdırmaqla əslində Ulu Öndər xalqa daha böyük bir ismarıc çatdırdı: sizin Lideriniz mənəm, nə qaçmıram, nə gizlənmirəm və heç bir maneəyə, çətinliyə baxmayaraq yanınızdayam. Bununla insanların özünə inamı da, cəsarəti də bərpa olundu. Deyilənlərdə incə və çox əhə-

miyyətli bir məqam var: xalq böyük qüvvədir və onun istəyi qarşısında hər şey acizdir, ancaq bəzən qəfil təcavüz, arxalandığı şəxslərin satqınlığı, düşünülməmiş addımlar atması bu gücün üstünü örtür, sanki korşaldır. Xalq bir növ özündən bixəbər hala düşür. Buna görə də, Ulu Öndərin dediyi kimi, "səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaradan” şəxsdən başçı ola bilməz. Lider xalqa öz gücünü xatırladan, onu özünə qaytarandır. Düzdür, Lider tək şəxsdir, ancaq xalqın səsini bərpa etməklə onda bütün xalqın səsi ilə danışmaq qüdrəti yaranır. Hər üç dövlətin nümunəsində əhəmiyyətli məqam məhz budur: Liderin gücü və müqəddəs missiyası xalqla özünün birliyinə inanmaq və inandırmaq, istənilən addımında bu vəhdətin gücünə arxalanmaq.

1990-cı ilin yanvarında, uzun illər Azərbaycandan uzaqda, Moskvada olsa belə, Heydər Əliyevin bir Ümummilli Lider kimi önə çıxmağa, səsini ucaltmağa tam haqqı çatırdı. Prezident İlham Əliyevin də vurğuladığı kimi, "əgər 1970-ci illərdə onun gördüyü işlər xalq tərəfindən rəğbətlə və böyük məhəbbətlə qarşılanmasaydı, – 1990-cı illərin əvvəllərində Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdı, – Azərbaycan xalqı ona müraciət etməzdi. Məhz o illər ərzində gördüyü işlər Azərbaycan xalqının qəlbində ona inam hissini saxlayırdı”. Hələ Sovet dönəmindən xalqın xidmətində olan bu şəxsin fəaliyyətində bir özək xətti daim saxlanıb: Azərbaycan güclüdür, öndə durmalıdır və öz kökü ilə qürur duymalıdır. 15 respublika arasında ən öndə duranlardan, iki donor respublikadan biri olmaq, ən vacibi isə imperiyanın tərkibində ola-ola milli ruhunu qorumaq böyük hünər istəyirdi. Heydər Əliyev uzun illər təhlükəsizlik orqanlarında çalışmışdı və general-mayor rütbəsinə qədər yüksələ bilmişdi. Eyni zamanda o, universitetin tarix fakültəsini bitirmişdi. Bu ona Azərbaycanın tarixi və reallığı arasında paralellər aparmağa imkan verirdi.

Bunu deməyə əsas verən bir faktı göstərmək olar. 1969-cu ildən başlayaraq 1982-ci ilə qədər Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində çalışarkən Heydər Əliyev xalqın milli ruhunun qorunması, milli təfəkkürün daim oyaq qalması üçün əlindən gələni edirdi. Başqa sözlə desək, o, Azərbaycanı sovet imperiyasının ən qabaqcıl respublikalarından biri etməklə kifayətlənməyərək, həm də milli kimliyinin qayğısına qalırdı. Bu istiqamətdə onun gördüyü çox əhəmiyyətli və uzaqgörən fəaliyyətlərdən biri milli kadrların yetişdirilməsi idi. Ulu Öndər Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında (7 mart 1991-ci il) bunu özü də vurğulayır: "O dövrdə respublikamızda yaranmış güclü sosial-iqtisadi və intellektual potensial xalqımızın milli sərvətidir və Azərbaycanın müstəqilliyi üçün yaxşı zəmin yaradır”. Dövlət başçısı İlham Əliyev bugünün mənzərəsindən

çıxış edərək deyir: "Heydər Əliyev təhsil sahəsinə çox böyük diqqət göstərirdi, hər il böyük müşavirələr keçirirdi. Eyni zamanda, Azərbaycan gənclərinin Sovet İttifaqının aparıcı ali məktəblərində oxuması üçün böyük səylər göstərmişdi və bu, unikal xarakter daşıyırdı. Çünki sovet məkanında buna oxşar təcrübə yox idi. Hər il təqribən 800-ə yaxın Azərbaycan gənci Bakıda imtahanlar verməklə Sovet İttifaqının Moskva, Leninqrad və digər böyük şəhərlərindəki aparıcı ali məktəblərinə ezam edilmişdir. Beləliklə, Azərbaycanın gələcəyi üçün güclü kadr potensialı yaradılırdı". Deyilənlərdən çox aydın bir həqiqət müşahidə edilir: bir general layiqli əsgərlərin yetişməsi və irəli getməsi üçün əlindən gələni edir, çünki çox gözəl bilir ki, Vətənin rifahı məhz millətini sevən gənclərdən asılıdır.

**Köhnə tarixdə yeni səhifə**

Bir xalqın tarixinin zənginliyini təmin edən faktorlardan biri də onun kəsilməzliyidir. Əbu Turxanın dediyinə görə, "...cəmiyyətin inkişafında qazanılan hər hansı bir nailiyyət sonradan davam etdirilmirsə, o, böyük müddət intervalında tarixi prosesə daxil ola bilmir". Kontekstimizə uyğun olaraq onu da əlavə edək ki, Lider bu kəsilməzliyi təmin etməklə yanaşı, həm də xalqın taleyində yeni bir səhifə açan, yeni bir mərhələyə keçirdə biləndir. Başqa sözlə desək, xalqın ruhunun gücünü saxlamaqla və ondan düzgün istifadə etməklə Lider onu nəinki mövcud böhrandan çıxarır, üstəlik inkişaf üçün yeni, güclü bir təkan da verir. Onu da mütləq vurğulamaq lazımdır ki, hər nə qədər həlledici söz, hərəkət bir anda baş versə də, yeni müstəvidə başlayan inkişaf tədrici bir prosesdir və nəticəsini görmək üçün bir neçə il lazım olur.

Çanaqqala savaşı 1916-cı ildə, Qurtuluş Savaşı isə 1919-cu ildə bitdi. Böyük Millət Məclisi 1920-ci ildə açıldı, Türkiyə Cümhuriyyəti isə 1923-cü ildə elan edildi. Yəni ilk dönüş məqamı ilə onun tarixi nəticəsinin arası təqribən 7 il çəkdi. Mustafa Kamal Atatürk elan edilən cümhuriyyəti belə təqdim edir: "Hökumətimiz artıq despot bir hökumət deyil. Mütləq və konstitusional bir hökumət də deyil. Hökumətimiz nə Fransa, nə də Amerika respublikaları ilə oxşar deyil. Hökumətimiz xalq hökumətidir. Tam bir şura hökumətidir. Yeni Türkiyə dövlətində səltənət millətindir..." Hadisələrin sonrakı gedişi də göstərdi ki, ölkədə aparılan hər islahat xalqın özgüvənini və savadını artırmaq, xarici qüvvələrə duruş gətirə bilən bir səviyyəyə qaldırmaq məqsədi daşıyıb. Belə ki, əgər hökumət xalqındırsa, o zaman xalqın səviyyəsinin qalxması ilk şərtdir, çünki bilavasitə hökumətdə əks olunacaq. Bunu Atatürkün gəncliyə xitabında müşahidə etmək mümkündür: "İlk vəzifən Türk müstəqilliyini, Türk Cümhuriyyətini əbədi qorumaq və müdafiə etməkdir. Bu onun varlığının və gələcəyinin yeganə əsasıdır. Bu təməl ən qiymətli xəzinəndir. Lazım olan qüdrət damarlarındakı nəcib qanındadır!" İstər-

istəməz yada Bakı Dövlət Universitetinin yubileyində Azərbaycan Prezidentinin çıxışı düşür: "Gənclər bu tarixi bilməlidirlər. Müəllimlər bu tarixi onlara çatdırmalıdırlar ki, həm həqiqəti bilsinlər, həm də Azərbaycan gələcəkdə heç vaxt bu ağır vəziyyətə düşməsin. Azərbaycan heç vaxt gözü kölgəli olmasın, heç vaxt başqasının iradəsindən asılı olmasın, heç vaxt başqa dövlətlər qarşısında baş əyməsin". Bu, bir aksiomdur: bir dövlətin müstəqilliyinin qoruyucusu da, inkişafının da, ən vacibi isə müstəqilliyinin də təminatçısı gənclərdir. Gənclərə müraciət etmək, əslində ölkənin gələcəyinə səslənməkdir.

Hadisələrin təqribən eyni gedişatını Fransada da izləmək mümkündür. 1940-cı ildə Fransanın azadlığının məsuliyyətini üzərinə götürən Şarl de Qoll 1958-ci ildə yeni konstitusiyanı qəbul etməklə 5-ci Respublikanın təməlini qoydu. Şarl de Qollun konstitusiyanın da təməlini təşkil edən görüşləri bu prinsip üzərində bərqərar etdi: "Mənim fikrimcə, dövlətin başçısı, yəni rəhbəri olmalıdır ki, millət onun simasında dövlətin təməlinə cavabdeh olan şəxsi və öz taleyinin qarantını görə bilsin". Burada birbaşa millət-Lider vəhdəti göstərilməklə yanaşı, Liderin daha bir ağır məsuliyyəti də vurğulanır: xalqın taleyinə görə məhz o cavabdehdir. İkinci dəfə hakimiyyətə gələndə Şarl de Qoll məhz bu məqamın üzərində durur: "Nə vaxtsa, ağır saatda, ölkə mənə etibar etdi ki, onu xilas edim. Bu gün ölkə yeni sınaqlar qarşısındadır və qoy bilsin ki, mən respublikanın bütün səlahiyyətlərini öz üzərimə götürməyə hazıram". 1990-cı ilin yanvarından 1993-cü ilin iyununa qədər olan Azərbaycanda baş verən hadisələri xatırlayanlar üçün çox tanış bir mənzərədir...

Tarixdə bir dövlət kimi öz mövcudluğunu qorumaq istəyən Azərbaycanda da hadisələr bir növ millət-Lider tandeminin zərurətinə aparırdı. Buna ehtiyac var idi. 1990-cı ilin tarixi məqamından sonra Heydər Əliyev Azərbaycana qayıtdı və Ali Sovetinin deputatı, 1991-1993-cü illərdə isə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri kimi fəaliyyət göstərdi. Bu gəlişin hansı məqsəd daşıdığını elə ilk addımdan sezmək mümkün oldu: 1990-cı ildə Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq edildi. Bu, 1918-ci il Xalq Cümhuriyyətinin yarımçıq qalmış prinsiplərinin, Azərbaycanın həqiqi müstəqilliyinin davam etdiriləcəyinə ilk çağırış idi. 7 mart 1991-ci ildə Ulu Öndər Ali Sovetin sessiyasında yeni mərhələdə göstəriləcək fəaliyyəti belə təyin etdi: "Azərbaycan xalqının birliyi yeni, demokratik, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin oluna bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaqdır. Fəqət, nəyin bahasına olursa-olsun biz buna nail olmalıyıq. Biz bu yola düşməsək, bunu gələcək nəsillər edəcək. Və onlar, tarix bizi bağışlamayacaq. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır. Azərbaycan xalqı birləşməli, öz müqəddəs doğma torpağını

göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır".

Ulu Öndərə olan inam, etibar idi ki, 1993-cü ildə ölkə vətəndaş müharibəsi ilə üzbəüz qaldığı bir vaxtda xalq yenə ondan kömək umdu, onu çağırdı. Və elə həmin il xalqın seçimi ilə Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. İşin əhəmiyyətli məqamı budur ki, təqribən bir il sonra Azərbaycanda iğtişaş törətmək istəyənlərə cavab olaraq bu dəfə Heydər Əliyev xalqa üz tutdu: "Əziz həmvətənlər, Azərbaycanın vətəndaşları! Bu ağır dəqiqələrdə bir daha sizə müraciət edirəm. Sizi əmin edirəm ki, Azərbaycanın dövlətçiliyini qorumaq üçün son nəfəsimə qədər, son damla qanıma qədər öz yerimdəyəm. Xalqla birlikdəyəm. Xalqın təhlükəsizliyini qorumağa çalışacağam. Bundan ötrü lazımi imkanlardan istifadə edəcəyəm. Eyni zamanda əziz həmvətənlər, mən sizə güvənirəm, sizə arxalanıram" (1994-cü il 4 oktyabr). Bu çağırışda həm öz məsuliyyətini və gücünü bilən ölkə rəhbərinin, həm xalqının taleyini düşünən, həm də öz xalqına, onunla mənəvi bağına inanan rəhbərin səsi var. Təbii ki, artıq yaxın keçmişdə oxşar ssenarini və onun nəticələrini yaşamış xalq belə bir müraciəti cavabsız qoya bilməzdi və öz Liderinin arxasında durdu. Bu güvənin əks-sədası olaraq Ulu Öndər sonralar qürurla dedi: "Mən fəxr edirəm ki, mən Azərbaycanlıyam".

**Nəticə**

Lazımi məqamda xalqını sevən və tanıyan bir şəxsin – həqiqi Liderinin təklifini qəbul edib onun arxası ilə getməsi hər üç dövləti inkişafa apardı. Türkiyə keçən əsrin əvvəllərindən, Fransa ortalarından, Azərbaycan isə sonlarından başlayaraq yeni bir inkişaf mərhələsinə keçdi. Hazırda Fransa superdövlətlər sırasındadır, Türkiyə bütün çətinliklərə baxmayaraq dünyanın aparıcı dövlətlərini özü ilə hesablaşmağa məcbur etmək qüdrətindədir.

Əlbəttə, hər iki dövlətə baxanda Azərbaycan nisbətən gəncdir. Üstəlik nəzərə almaq lazımdır ki, hər nə qədər Şərqdə ilk demokratik cümhuriyyət Azərbaycanda qurulsa da, arada 70 illik bir fasilə, üstüstə yaşadığı böhranlar, məruz qaldığı işğal ölkəni bir neçə dəfə sıfırdan başlamağa məcbur edib. Buna baxmayaraq, Azərbaycan da məhz doğru istiqamətdə olduğuna görə, qısa müddətdə adını güclülər sırasına yazdırmaq iddiasındadır və artıq bir çox nailiyyət əldə edib və etməkdədir. Ölkə rəhbərinin də qeyd etdiyi kimi, "müstəqilliyi əldə etmək onu qoruyub saxlamaqdan daha asandır. Müstəqilliyi qorumaq, onu müdafiə etmək, onu gücləndirmək böyük siyasi biliklər, böyük cəsarət tələb edir". Cəsarəti verən isə kökünə bağlılıq və millət-Lider vəhdətidir.

**Könül BÜNYADZADƏ,**
**AMEA-nın müxbir üzvü.**

# AZƏRBAYCAN DÖVLƏTİNİN DAVAMLI REGİONAL SİYASƏTİNİN UĞURLARI

**Əgər biz 2004-cü ilə nəzər salsaq görərik ki, Azərbaycan ötən dövrdə dünya miqyasında iqtisadi və sosial baxımdan ən sürətlə inkişaf edən ölkə olmuşdur. Regionlarımız abadlaşıb, şəhərlərimiz gözəlləşib. İndi hər bir bölgəyə səfər edərkən gözəllik, abadlıq görürsən. Bütün bunları biz etdik. Bunlar bizim siyasətimiz nəticəsində mümkün olmuşdur.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

***Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin ən yaxın silahdaşı və layiqli varisi Prezident İlham Əliyev ulu öndərin dərin etimad və müdrik tövsiyəsi ilə ölkə Prezidenti seçiləndən sonra həyatın bütün sahələrində ümummilli liderin siyasətini yaradıcılıqla davam və inkişaf etdirəcəyini elan etmişdi. Ona görə də dövlət başçısı İlham Əliyevin ötən 16 ildəki siyasətinin hədəf və uğurlarından danışarkən, ilk növbədə, çoxminillik dövlətçilik tariximizin ən mükəmməl və ən nüfuzlu rəhbəri Heydər Əliyevin bənzərsiz şəxsiyyəti və daim Azərbaycanın yüksəlişinə, dünyada layiqincə tanınmasına göstərdiyi misilsiz xidmətlər yada düşür.***

Ulu öndər Heydər Əliyev görkəmli dövlət xadiminə, dünya miqyaslı siyasi liderə və dahi şəxsiyyətə məxsus ən uca keyfiyyətləri özündə birləşdirmişdi. Bu dəyərlər nadir bir vəhdətdə daim ona uğur və nüfuz qazandırmışdı. Heydər Əliyevin sovet dövründə və müstəqillik illərində qazandığı tarixi nailiyyətlərin, zəmanəmizin nadir şəxsiyyəti, görkəmli dövlət xadimi kimi tanınmasının əsas səbəbi də onun yeritdiyi siyasətin müdrikliyi və uzaqgörənliyi olmuşdur.

1969-cu il iyul ayının 14-də yerli rəhbərlikdə önəmli mövqe tutmuş, lider keyfiyyətləri ilə qısa müddətdə daha çox seçilmiş Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndə respublikamız iqtisadi durğunluq, siyasi və mənəvi tənəzzül vəziyyətində idi. Əvvəlki onilliklərdə öz nefti ilə SSRİ iqtisadiyyatında lider olmuş Azərbaycan SSRİ rəhbərliyinin diqqətindən kənarda qalmışdı. Bu səbəbdən qeyri-neft sektorunun inkişafına da kifayət qədər maliyyə vəsaiti ayrılmırdı. İqtisadiyyatın bütün sahələrində inkişaf sürətinə, əhalinin həyat səviyyəsi göstəricilərinə, əmək məhsuldarlığının artımına görə Azərbaycan digər respublikalar arasında sonuncu yerlərdən birini tuturdu.

Öz xalqının maraqlarını hər şeydən uca tutan, dərin zəkalı və tükənməz enerjili milli rəhbər olaraq Heydər Əliyevin çevik, obyektiv reallığa əsaslanan siyasəti cəmi 1-2 ilə respublikamızı həyatın bütün sahələrində öncül mövqeyə yüksəltmişdi. Azərbaycan inkişaf sürətinə görə on il müttəfiq respublikalar arasında ən qabaqcıl yerdə olmuşdu.

Ümummilli lider Heydər Əliyev dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkədə

siyasi-hərbi qarşıdurma, suverenliyin itirilməsi təhlükəsi yarananda-1993-cü ilin iyununda xalqın tələbi ilə hakimiyyətə qayıdanda Azərbaycanda vəziyyət 1969-cu ildəkindən müqayisə olunmaz dərəcədə ağır idi. Azərbaycan naşı və xəyanətkar rəhbərliyin bağışlanılmaz səhvləri nəticəsində dərin iqtisadi, siyasi, mənəvi-psixoloji böhrana düşmüşdü. İqtisadiyyat dağıdılmış, işsizlik, yoxsulluq ən yüksək səviyyəyə qalxmış, xalqın Azərbaycanın müstəqil yaşamaq imkanlarına inamı sarsılmışdı.

Böyük siyasət nəhəngi, təcrübəli dövlət başçısı Heydər Əliyev həyata keçirdiyi məqsədyönlü tədbirlərlə qısa müddətdə bu ağır problemləri aradan qaldırdı. 1996-cı ildən Azərbaycanda əsaslı sabitlik qərarlaşdı, ölkə tədricən davamlı, sürətli və hərtərəfli inkişaf yoluna çıxdı. 2000-2002-ci illərdə Azərbaycanda ÜDM hər il orta hesabla 10 faiz artdı. Ulu öndərin yeni neft strategiyasının, beynəlxalq şirkətlərlə bağlanan müqavilələrin uğurla gerçəkləşdirilməsi Neft Fonduna yüksək gəlirlər gətirdi, bu mənbədən dövlət büdcəsinə ayırmalar ciddi surətdə artdı.

Sahibkarlığa Kömək Milli Fondunun artan vəsaitləri hesabına özəl sektorda kiçik və orta sahibkarlığın inkişafı sürətləndi. 2002-ci ildə “Kiçik və orta sahibkarlığın inkişafı Dövlət Proqramı (2002–2005-ci illər)” qəbul edildi. Bu proqramda ilk dəfə olaraq regionlarda qeyri-neft sektorunun və sahibkarlığın inkişafına şərait yaratmaq və beləliklə, regionları inkişaf etdirmək məsələsi ayrıca qeyd olundu. 2003-cü ildə qəbul edilən “Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı”nda (2003–2005-ci illər) regionların inkişafı məsələsi daha əhatəli əksini tapdı.

2003-cü ilin mart ayında bu proqramın təqdimat mərasimində Prezident Heydər Əliyev Azərbaycan iqtisadiyyatının gələcək inkişaf konsepsiyasını və strateji məqsədlərini açıqlayaraq demişdi: “Bazar iqtisadiyyatının bütün sahələri inkişaf etməlidir. Neft Fondu onun inkişafının təminatçısıdır. Ancaq, eyni zamanda, bizim qeyri-neft sektorunda da böyük imkanlarımız vardır. Bu imkanlardan istifadə etməklə qeyri-neft sektorunu inkişaf etdirmək, yoxsulluğu və işsizliyi azaltmaq bizim vəzifəmizdir”. Qeyri-neft sektoru, əsasən, Azərbaycanın Abşerondan kənar iqtisadi rayonlarında olduğundan o zaman işsizlik və yoxsulluq da bölgələrdə daha yüksək idi. Bu səbəbdən Heydər Əliyev birinci növbədə regionlarda qeyri-neft sektorunun inkişafını və işsizliyin, yoxsulluğun azaldılmasını ciddi sosial-iqtisadi hədəf kimi qarşıya qoymuşdu.

Ulu öndər həmin çıxışında onu da qeyd etmişdi ki, bu strateji proqramın yerinə yetirilməsi gedişində onun müddəaları daha da təkmilləşdiriləcək, əlavə tədbirlər həyata keçiriləcəkdir. Tale ümummilli lider Heydər Əliyevin bu istəyinin yaradıcılıqla yerinə yetirilməsini onun ən layiqli davamçısı Prezident İlham Əliyevin üzərinə qoydu.

İlham Əliyev dövlət başçısı kimi fəaliyyətinin ilk addımlarında hazırlayıb imzaladığı “Azərbaycanda sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” 24 noyabr 2003-cü il tarixli fərmanında Heydər Əliyevin qarşıya qoyduğu həmin strateji vəzifəni dövlət siyasətinin üstün istiqamətlərindən biri elan etdi. Bununla ölkənin yeni rəhbəri İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olacağı barədə verdiyi vədə, ulu öndər Heydər Əliyevin Azərbaycanın hər bir bucağını inkişaf və tərəqqiyə

çatdırmaq yönündə fəaliyyətinə sadiqliyini, bu siyasəti yaradıcılıqla davam və inkişaf etdirəcəyini təsdiq etdi.

Prezident İlham Əliyev həmin fərmanla, ilk dəfə olaraq, Azərbaycanın hərtərəfli inkişafından zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsindən ibarət olan uzunmüddətli sosial-iqtisadi inkişaf strategiyasını müəyyənləşdirdi. Ölkə başçısı regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının hazırlanması və icrasını bu strateji vəzifənin yerinə yetirilməsinin başlıca formatı kimi irəli sürdü. Proqramın maliyyələşdirilməsi mənbələri, icraya məsuliyyət daşıyan hökumət, dövlət orqanları bu konseptual sənəddə konkret və aydın müəyyənləşdirildi.

Ölkə rəhbəri İlham Əliyev regional inkişaf dövlət proqramlarının təşəbbüskarı olmaqdan əlavə, həm də bu prosesə ümumi rəhbərlik etməklə onun uğurlu icrası üçün çoxsaylı və müxtəlif yönlü tədbirlərin həyata keçirilməsini təmin etdi. Bu tədbirlərin sırasında Prezidentin regionlara mütəmadi səfərləri və orada həyata keçirilən işlərlə yerindəcə tanış olması mühüm yer tutur.

Prezident hamıdan yaxşı bilir ki, dövlət proqramlarını hökumət strukturları, alimlər, mütəxəssislər işləyib hazırlasalar da onların icraçısı xalqdır. Yerlərdə adamların bu proqramlarda qarşıya qoyulan vəzifələrin əhəmiyyətini dərindən başa düşməsi, regional siyasəti dəstəkləməsi, onun icrası gedişində qarşıya çıxan problemlərin vaxtında aradan qaldırılması uğur qazanmağın başlıca təminatıdır. Odur ki, Prezident mütəmadi olaraq regionlara səfərlər etmiş, xalqın istəklərini öyrənmiş və qarşıya çıxan problemlərin həlli üçün lazımi tədbirlər görmüşdür. Bütün bunlar indiyə qədər icra edilmiş üç regional inkişaf dövlət proqramının (2004--2008, 2009–2013, 2014–2018) uğurla yerinə yetirilməsini təmin etmişdir.

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının köməyi ilə ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin yaradıcılıqla davam etdirdiyi strateji xəttin gerçəkləşdirilməsi neft strategiyasının və əsaslı islahatların uğurları ilə qazanılmış imkanlardan bütün ölkənin bəhrələnməsində konkret və həlledici addımlar olmuşdur.

Bu proqramların reallaşması nəticəsində respublikamız bazar iqtisadiyyatına keçid vəzifələrini müvəffəqiyyətlə yerinə yetirmiş, dünya iqtisadiyyatına hərtərəfli inteqrasiya olunmuş, ölkəmizin maliyyə imkanları artmışdır. Artıq Azərbaycan kənar kapitala möhtac dövlətdən böyük maliyyə ehtiyatlarını ixrac edən ölkəyə çevrilmişdir.

Bu proqramlarla Prezident İlham Əliyev iqtisadi sahələrin, sahibkarlıq formalarının proqramlarla idarə olunmasından regionların, bütövlükdə, respublika iqtisadiyyatının proqramlarla idarə olunmasına keçidi təmin etmişdir. Azərbaycan bu proqramlarla bütün dünyaya sübut etdi ki, o, müstəqil yaşamaq, problemlərini öz gücü ilə həll etmək qabiliyyətindədir. Xüsusilə, regionların sosial-iqtisadi inkişafı üzrə birinci proqramın müvəffəqiyyətlə yerinə yetirilməsi xalqda Azərbaycanın müstəqil yaşamaq imkanına, Prezidentin sosial-iqtisadi siyasətinin düzgünlüyünə inamı artırdı.

Məlumdur ki, həmin proqramların qəbulunda əsas məqsəd davamlı, hərtərəfli inkişafa nail olmaq idi. Keçən illərdə bu məqsədə nail olunmuşdur. Dövlət proqramlarının uğurlu icrası ilə ÜDM 3,3, qeyri-neft sektoru 2,8, sənaye məhsulu 2,6, kənd

təsərrüfatı məhsulu 1,7 dəfə artmışdır. Ölkənin maliyyə vəziyyəti xeyli möhkəmlənmişdir. Belə ki, hazırda valyuta ehtiyatı 50 milyard dollara çatmışdır.

Regional sosial-iqtisadi inkişaf proqramlarına uyğun olaraq bölgələrdə sənayenin müasir ərazi təşkili formaları- texnopark, sənaye parkı, sənaye məhəlləsi sürətlə inkişaf edir. Hazırda regionlarda 9 sənaye parkı, sənaye məhəlləsi, texnopark yaradılmışdır. Bunlardan 80-ə yaxın rezident qeydiyyatdan keçmişdir, əksəriyyəti artıq fəaliyyət göstərir.

Qeyd etmək lazımdır ki, 2015-ci ildən ölkədə aparılan dərin islahatlar 2017-ci ildən başlayaraq qeyri-neft sektorunun inkişafında yeni mərhələnin başlanmasına səbəb olmuş, 2017– 2018-ci illərdə, eləcə də bu il iqtisadiyyatın bütün sahələrində artım müşahidə olunmuşdur.

Regional inkişaf proqramlarına uyğun olaraq, Azərbaycanda əvvəllər kəskin xarakter daşıyan işsizlik, yoxsulluq kimi problemlər müvəffəqiyyətlə həll edilmişdir. Son illərdə Azərbaycanda sosial problemlərin daha əsaslı həlli, əhalinin sosial təminatının yaxşılaşdırılması istiqamətində böyük layihələr icra olunmuşdur. Bu il həyata vəsiqə alan sosial paketlər 4 milyondan çox insanı əhatə etmişdir.

Regionların inkişafı üzrə dövlət proqramlarını müvəffəqiyyətlə yerinə yetirməklə Azərbaycan 15 ildən artıqdır ki, iqtisadi inkişaf, əhalinin rifahının yaxşılaşması, davamlı insan inkişafı, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsini əks etdirən göstəricilərin artım sürətinə görə dünyanın 10 sürətlə inkişaf edən ölkəsi sırasındadır. Bu dövrdə əhalinin sağlamlığının qorunmasına, mədəni və təhsil səviyyəsinin yüksəlməsinə böyük diqqət yetirilmiş, yüzlərlə tibb müəssisəsi, minlərlə məktəb tikilmiş və təmir edilmişdir. Şəhərlərin bir çoxunda olimpiya idman kompleksləri inşa olunmuşdur.

Azərbaycan beynəlxalq miqyasda da kifayət qədər layiqli yer tutmuşdur. 2013-cü ildə "Qlobal rəqabət qabiliyyətlilik indeksi"nə görə Azərbaycan dünyada 46-cı yeri, 2018-ci ildə 35-ci yeri, MDB-də 1-ci yeri tutmuşdur. Dünya Bankının "Doing Business -2019" hesabatında Azərbaycan 32 pillə yüksələrək ən islahatçı ölkələr sırasında 57-ci pillədən 25-ci pilləyə yüksəlmişdir.

Regional inkişaf proqramlarının tam həcmdə yerinə yetirilməsi respublikanın bütün regionlarının inkişafında bir çox yeni keyfiyyətlərin əmələ gəlməsinə səbəb olmuşdur.

Əvvəla, bütün regionlarda iqtisadiyyatın gələcək inkişafı, güclü sənaye potensialının yaranması və əhalinin həyat və məşğulluq səviyyəsinin yüksəlməsi üçün əsas ola bilən güclü istehsal və sosial infrastruktur yaranmışdır. Regional proqramlara uyğun olaraq, respublikamızda əsas infrastruktur sahəsi olan energetikanın inkişafı və enerji sisteminin formalaşmasına böyük diqqət yetirilmişdir. 16 ilə yaxın müddətdə ümumi gücü 2900 meqavat olan elektrik stansiyaları, çoxsaylı güc şəbəkələri tikilib istifadəyə verilmişdir. Azərbaycanın hər bir iqtisadi rayonunda elektrik stansiyaları tikilmişdir və region əsasən öz istehsalı hesabına özünü enerji ilə təmin edir. Hazırda Azərbaycan elektrik enerjisi ixrac edən ölkəyə çevrilmişdir. Azərbaycan, Rusiya, Gürcüstan, İran regional enerji sistemi formalaşmışdır.

Bakı-Tbilisi-Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi, TANAP boru kəməri, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri, Bakı-

Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası ilə paralel gerçəkləşmiş tarixi layihələrdir. Bütün bunlar Azərbaycanın bir dövlət kimi beynəlxalq aləmdə rolunun artmasında, xarici əlaqələrinin genişlənməsində çox mühüm rol oynayır və əslində, Azərbaycanın inkişafında yeni dövrün başlanmasının əsasını təşkil edir.

Regional inkişaf proqramları ölkə əhalisinin qazla, su ilə təminatının yaxşılaşmasında müstəsna rol oynamışdır. Qazlaşdırma 2004-cü ildəki 51 faizdən 2019-cu ilə 96 faizə, içməli su ilə təminat 26 faizdən 80 faizə çatmışdır. Kənd təsərrüfatının su təminatını yaxşılaşdırmaq üçün 4 su anbarı tikilmiş, 100 min hektardan çox suvarılmayan torpaqlara su kanalları çəkilmiş, çoxsaylı müasir sutəmizləyici qurğular işə salınmışdır.

Yol-körpü həyatdır. Dövlət proqramlarında bu sahələrdə qarşıya qoyulan vəzifələrə uyğun olaraq, 15 min kilometrdən çox yol çəkilmiş, 443 körpü tikilmişdir. Bunun nəticəsində kəndlərlə rayon mərkəzləri və şəhərlər arasında gündəlik əlaqələr asanlaşmış və intensivləşmişdir.

İkincisi, keçən illərdə regionlarda qeyri-neft sektoruna aid başlıca olaraq kiçik və orta müəssisələr tikilmişdir. Bunların böyük bir hissəsi, əsasən, kiçik və orta şəhərlərdə yerləşdirilir. Belə ki, 2004--2008-ci illərdə istifadəyə verilmiş 27 min 572 müəssisənin 40 faizi, 2009--2013-cü illərdə işə düşmüş 20 mindən çox müəssisənin 75 faizi regionların payına düşmüşdür. Respublikada fəaliyyətdə olan sənaye müəssisələrinin təqribən 45 faizdən çoxu regionlarda, əsasən də kiçik və orta sahələrdə (Naxçıvan, Ağstafa, Şəmkir, Zaqatala, Qazax, Qəbələ, Şamaxı, Xaçmaz, Lənkəran, Masallı, Biləsuvar, Şabran, İsmayıllı, İmişli) yerləşir.

Bunlar isə 2008-ci ildən başlayaraq əvvəllər aqrar mərkəz olan kiçik şəhərlərdə yeni istehsal və xidmət müəssisələrinin yerləşməsinə, onların sənaye və aqrar sənaye mərkəzləri kimi inkişafına, yeni şəhər və qəsəbələrin yaranmasına səbəb olmuşdur. Son 15 ildə respublikada 9 yeni şəhər yaranmış, onların sayı 69-dan 78-ə, qəsəbələrin sayı 2 dəfə artaraq 130-dan 261-ə çatmışdır. Respublikada hər min kvadratkilometr əraziyə 3 qəsəbə və 1 şəhər düşür.

Digər tərəfdən tikilmiş və tikilməkdə olan müəssisələr regionların inkişafında fərqlərin müəyyən dərəcədə azalmasına və tarazlı regional inkişaf proseslərinin başlanmasına səbəb olmuşdur. 2009--2018-ci illərdə tikilmiş müəssisələrin və ümumi investisiya qoyuluşunun 70 faizindən çoxu Abşerondan kənar iqtisadi rayonların payına düşmüşdür. Son illərdə ÜDM-in ümumi artımına nisbətən qeyri-neft sektorunda məhsul istehsalının daha sürətlə artması da regionların tarazlı inkişafına müsbət təsir göstərmişdir. Nəticədə, Abşeron iqtisadi rayonunun Bakı şəhərilə birlikdə əsas kapitala investisiya qoyuluşunda xüsusi çəkisi 2003-cü ildəki 94,6 faizdən 2017-ci ildə 68 faizə düşmüşdür. ÜDM istehsalında isə bu rayonun payı 2008-ci ildəki 81 faiz 2017-ci ildə 70,9 faiz olmuşdur. Beləliklə, ÜDM istehsalında və əsas kapitala investisiya qoyuluşunda regionların xüsusi çəkisi sürətlə artmaqdadır.

Dağlıq Qarabağın və ona yaxın bir neçə rayonun Ermənistanın işğalı altında olması regionların iqtisadi göstəricilərdə xüsusi çəkisini azı 5--6 faiz aşağı salır. Əgər bu cəhəti də nəzərə alsaq, onda Abşeron iqtisadi rayonunun Bakı şəhərilə birlikdə xüsusi çə-

kisi, təqribən, ÜDM üzrə 65 faizə, sənaye məhsulu istehsalında isə 83--84 faizə, əsaslı kapital qoyuluşunda 60 faizə düşə bilər. Bütün bunlar regional inkişaf proqramları dövründə bölgələrin tarazlı inkişafında böyük nailiyyətlər qazanıldığını göstərir.

Üçüncüsü, 2009-cu ildən başlayaraq bir çox orta və böyük şəhərlərdə sənayenin müxtəlif sahələrinə aid nisbətən böyük müəssisələr (Gəncə Alüminium İstehsalı Zavodu, Bakı Gəmiqayırma və Məişət Tullantıları Emalı zavodları, Sumqayıtda, Mingəçevirdə, Neftçala, Masallı və s. şəhər və rayonlarda çoxsaylı müəssisələri birləşdirən texnopark, sənaye parkı, sənaye məhəlləsi və zonaları yaranmış, Qaradağda sement zavodu, Şirvan şəhərində 800 min kvt gücündə istilik elektrik stansiyası, Bakıda 409 min kvt gücündə Şimal- 2 elektrik stansiyası, Sumqayıtda 525 mvt gücündə elektrik stansiyası və s.) tikilmişdir. Bunlar da yaxın gələcəkdə sənayenin ərazi təşkilində yeni keyfiyyətlərin yaranmasına, Qaradağ-Səngəçal-Ələt qəsəbələri bazasında böyük ərazi-istehsal komplekslərinin formalaşmasına və sənaye istehsalının səmərəliliyinin yüksəlməsinə əlverişli şərait yaradır.

Prezident İlham Əliyev 2011-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına həsr edilmiş konfransda sənaye müəssisələrinin tikintisində əldə olunmuş nailiyyətləri xüsusi qeyd etmiş və demişdir: "Yaradılan və yaradılmaqda olan yeni sənaye müəssisələri bizim uzunmüddətli strategiyamızı müəyyən edəcəkdir". Beləliklə, bu müəssisələr və yeni tikilən nisbətən böyük müəssisələr Azərbaycanın müasir sənaye siyasətinin həyata keçirilməsində mühüm rol oynayır. 2014-cü ilin respublikamızda sənaye ili elan edilməsi və bu istiqamətdə həyata keçirilən tədbirlər bu çox vacib sahənin inkişafına yaxın illərdə də böyük diqqət yetiriləcəyini göstərir.

Dövlət başçısı İlham Əliyev Azərbaycanın uzunmüddətli sosial-iqtisadi inkişaf strategiyasının əsas məqsədinin respublikamızı hərtərəfli inkişaf etdirməkdən, zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevirməkdən ibarət olduğunu xüsusi mərasimlərdə, regionlara, xarici ölkələrə səfər və görüşlərində dönə-dönə qeyd edir. Bu məqsədə çatmağın əsas istiqamətləri isə Azərbaycan dövlətinin sosial-iqtisadi inkişaf konsepsiyasında çox aydın müəyyənləşdirilmişdir. Bunlar iqtisadiyyatın çoxşaxəli, davamlı və innovasiya yönümlü inkişafından, onun modernləşməsi, səmərəliliyinin və rəqabət qabiliyyətinin artmasından ibarətdir.

İndi əsas vəzifə bu strateji xəttin regionların inkişafına düzgün tətbiqindən, dövlət strukturları işçilərinin, elmi qüvvələrin və sahibkarların səylərinin bu vacib vəzifələrin yerinə yetirilməsinə səfərbər etməkdən ibarətdir. Bu yolda yaşlı nəslin təcrübəsindən, orta nəslin təşkilatçılıq qabiliyyətindən və gənc nəslin işgüzarlığından sıx əlaqədə istifadə olduqca vacibdir.

İnanırıq ki, ötən 16 ildə olduğu kimi, üzümüzə gələn yeni ildə də Prezident İlham Əliyevin müdrik və məqsədyönlü rəhbərliyi ilə dövlətimizin apardığı düzgün siyasət Azərbaycana yeni-yeni uğurlar gətirəcək, regionlarımızın inkişaf səviyyəsi daha da yüksələcəkdir.

**Əli NURİYEV,**
**AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor.**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DÜŞÜNÜLMÜŞ VƏ MƏQSƏDYÖNLÜ SİYASƏTİ NƏTİCƏSİNDƏ AZƏRBAYCAN DÜNYAYA GÜNƏŞ KİMİ DOĞDU

## XX əsrin sonu – Azərbaycan xalqının həyatında taleyüklü dövr

Tarixdə rolu olan şəxsiyyətlər haqqında bəhs etmək, onların gördüyü işlərin, dövlət, xalq qarşısında xidmətlərinin ümumi mənzərəsini yaratmaq daim keçilən yolu bir zərurət kimi ortaya qoyur. Adı dövlətçiliyin simvoluna çevrilən və onunla birgə çəkilən çox az sayda siyasi liderə rast gəlmək olar. XX əsr tarixində fenomen şəxsiyyət Heydər Əliyevin yaratdığı milli dövlətçilik tarixin bizə bəxş etdiyi sərvətdir və onun dəyəri illər keçdikcə daha dərindən dərk olunur, müxtəlif araşdırmaların, dissertasiya işlərinin mövzusuna çevrilir, daha fərqli yanaşmalar əsasında kitabların yazılmasını şərtləndirir. Bu, Heydər Əliyev siyasətinin böyüklüyünün, bugünümüzə və gələcəyə hesablanmasının aydın ifadəsidir. Tarixdə şəxsiyyətlərin rolunu daim xüsusi qeyd edən Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin fəaliyyətini buna bariz nümunə kimi göstərir: ”Bütün dövrlərdə – həm 1970-ci illərdə və 1980-ci illərin əvvəllərində Azərbaycan Kommunist Partiyasının rəhbəri olduğu dövrdə, həm də müstəqil Azərbaycanın Prezidenti kimi, Heydər Əliyev öz fəaliyyəti ilə doğma xalqına xidmət etmişdir.”

Tarixi faktlar bu reallığı da təsdiqləyir ki, siyasi liderliyin mahiyyəti dövlətinin, xalqının milli maraqlarına cavab verən inkişaf yolunu müəyyənləşdirmək, ölkəsinə uğur gətirən, daim yüksəklikləri fəth etməsini şərtləndirən siyasəti təmin etməkdir. Təbii ki, bu uğurlara yol açan ideyalardır. İdeyaların gerçəkləşməsi ilə sanki möcüzələr baş verir. Bu ideyalar ölkənin dünəninin, bu gününün, gələcəyinin əsası kimi dəyərləndirilir. “Əbədiyaşar lider” məfhumu da məhz bu kontekstdən yaranır. Necə ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev belə xatırlanır. O, həyatdan getsə də onun siyasi xətti siyasi idarəçiliyin, milli quruculuğun nəzəriyyəsinə, alternativi olmayan dövlətçilik fəlsəfəsinə çevrilib.

XX əsrin sonu Azərbaycan xalqının həyatında taleyüklü bir dövr kimi xarakterizə olunur. Həmin dövrdə baş verən hadisələr ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını şərtləndirdi.

Azərbaycan xalqı müstəqilliyimizin ilk illərində böyük faciələrlə, çətinliklərlə üzüzə qalsa da, 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı və davamlı uğurlara yol açılması bu gün harada yaşamasından asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı tərəfindən böyük qürur hissi ilə xatırlanır, gələcəyimizin daha parlaq, işıqlı olacağına böyük əminlik yaradır. Çünki bu yol hər günü Azərbaycanın tarixinə mühüm uğur səhifəsi kimi yazır. Məhz bunun nəticəsidir ki, ölkəmizin 28 ildə 100 ilə bərabər inkişaf yolu keçdiyi beynəlxalq səviyyədə də etiraf olunur və yüksək dəyərləndirilir.

**Azərbaycan sabitlik məkanına çevrildi**

Müstəqilliyimizin ilk illəri Azərbaycan tarixinə təlatümlü bir dövr kimi daxil olub. 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyini yenidən bərpa etməsindən sonra ilk illərdə ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi, idarəçilik qabiliyyətinin yoxluğu Azərbaycanı "olum, ya ölüm!" dilemması qarşısında qoymuşdu. Xalq müstəqilliyin sevincini yaşamaq imkanında deyildi. Xaos, anarxiya, özbaşınalıq, iqtisadi böhran baş alıb gedirdi. Digər tərəfdən isə Azərbaycan Silahlı Qüvvələrinin torpaqlarımızın deyil, ayrı-ayrı qüvvələrin maraqlarının müdafiəsinə xidmət etməsi ərazilərimizin işğalına səbəb olmuşdu. Belə çətin məqamda xalq üzünü ulu öndər Heydər Əliyevə tutmaqla bugünkü uğurlarımızı, müstəqil Azərbaycanın bir dövlət olaraq varlığının təsdiqini təmin etdi.

16 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev "Bizim artıq güclü dövlətimiz vardır-- müstəqil Azərbaycan dövləti. Bizim dəqiq konsepsiyamız, inkişaf proqramımız vardır. Bu proqramın reallaşması nəticəsində Azərbaycan inkişaf etmiş ölkələrin sırasına daxil ediləcəkdir. Əgər gələcəklə bağlı fikirlərimizi bir cümlə ilə ifadə etsək deməliyik: Biz inkişaf etmiş ölkəyə çevrilməliyik! İnkişaf etmiş ölkələrin meyarları vardır. Bunları bilirik və biz hər bir istiqamət üzrə o meyarlara çatmalıyıq – həm siyasi, iqtisadi islahatlar, sosial siyasət və digər istiqamətlərdə" – fikirləri ilə ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasətinin bu günümüz üçün möhkəm təməl yaratdığını əsaslı şəkildə diqqətə çatdırır.

Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən – məhz onun birinci dəfə hakimiyyətə gəlişindən sonra başlayıb. Ulu öndər Heydər Əliyev 1969-82-ci illərdə görülən işləri belə xarakterizə edirdi: "O dövrlərdə yaranmış iqtisadi potensial da bizim böyük sərvətimizdir. Bu sərvət də Azərbaycanın tam sərbəst, heç bir dövlətdən asılı olmayaraq yaşamasına imkan verir. Güman edirəm ki, biz müstəqilliyimizi tam bərqərar etdikdən və qarşıda duran vəzifələri həyata keçirdikdən sonra ölkəmizin bu iqtisadi potensialının bəhrələrini Azərbaycanın hər bir vətəndaşı görəcək və bunun sayəsində şən, firavan yaşayacaqdır."

1993-cü il 15 iyunun tarixə Milli Qurtuluş Günü kimi daxil olması Azərbaycanın müstəqilliyimizin ilk illərində yaşadıqlarına işıq salır. Prezident İlham Əliyev daim çıxışlarında bu çağırışı edir ki, indiki və gələcək nəsillərə Azərbaycanın müstəqillik yolunun heç də hamar olmadığını əsaslı şəkildə çatdırmalıyıq.

Heydər Əliyevin Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətlərindən bəhs edərkən ilk olaraq göz önünə ulu öndərin xilaskarlıq missiyası gəlir. Böyük qətiyyəti, siyasi iradəsi ilə xilaskarlıq missiyasını yerinə yetirən ümummilli lider yeni, müasir Azərbaycanı qurdu. O, "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır" fikirləri ilə xalqına, dövlətinə bağlılığını ifadə etməklə yanaşı, Azərbaycanın bir dövlət olaraq dünyada tanınmasını, yeri və rolunun möhkəmlənməsini, ən əsası sabitlik diyarı, iqti-

sadi möcüzələr ölkəsi kimi tanıtmaq istəyini yeganə həyat amalına çevirdiyini diqqətə çatdırdı. Dahi şəxsiyyət bildirmişdir: "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir." Düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində ölkədə daxili sabitliyi təmin edən ulu öndər Heydər Əliyev müstəqillik yolunda ilk addımlarını atan dövlətin qarşısında dayanan vəzifələri bəyan etdi. Sabitlik bütün inkişafın əsası kimi dəyərləndirildi. Bu çağırış xüsusi qeyd olundu ki, əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz. Bu mühüm məqamı da xüsusi qeyd etmək lazımdır ki, ümummilli liderin gərgin fəaliyyəti nəticəsində pərdəarxası oyunlara, siyasi anarxiyaya son qoyuldu, ölkədə cinayətkarlığın qarşısı tam alındı, bütün qanunsuz silahlı dəstələr ləğv olundu. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı ulu öndər Heydər Əliyevin qətiyyəti sayəsində alınaraq, dövlət müstəqilliyimizin qorunub saxlanılması təmin edildi. Bunlar isə öz növbəsində ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranmasını, bunun da əsasında ilk Konstitusiyanın qəbulunu şərtləndirdi. 1995-ci il 12 noyabrda ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanan və ümumxalq səsverməsi yolu ilə qəbul edilən Konstitusiyamızdan sonrakı dövr dövlətçiliyin möhkəmlənməsi, demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi dövrü kimi xarakterizə olunur. Ümummilli lider bildirmişdir ki, demokratik cəmiyyətin varlığını təsdiqləyən insan hüquq və azadlıqlarının qorunması, azad mətbuatın formalaşması, çoxpartiyalı sistemin yaradılması, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi və sair kimi bütün atributlar ölkəmizdə bərqərar edilməlidir.

Azərbaycanın bu gün demokratiya təcrübəsinin digər ölkələrə nümunə göstərilməsi də dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycanın gələcək inkişaf yolunun parametrlərini müəyyənləşdirərkən demokratik prinsipləri öndə saxlamasından irəli gəlir: "Müstəqil Azərbaycanda hüquqi, demokratik dövlət qurulmalıdır, Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir və tarixi ənənələrindən, milli ənənələrdən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir."

Məlumdur ki, Azərbaycanın demokratiya yolu heç də hamar olmamışdır. Ölkəmizin müstəqilliyini, uğurlarını gözü götürməyən daxili və xarici qüvvələr hər vəchlə Azərbaycanın demokratik inkişafına, bu yolda inamlı addımlarına mane olmağa səy göstərirdilər. Bu gün əlaqələrimizin yüksək səviyyədə olduğu Avropa Şurasına qəbul zamanı ölkəmizin hansı çətinliklərə üzüzə qaldığı məlumdur. Lakin Heydər Əliyev qətiyyəti və səyi bütün bu maneələri dəf etdi, Azərbaycan demokratik dövlət quruculuğu yolunu sözdə deyil, əməldə sübut edərək, dünyanın ən nüfuzlu təşkilatı olan Avropa Şurasına tamhüquqlu üzv qəbul

olundu. Dahi şəxsiyyət Heydər Əliyev bildirmişdir ki, Avropa Şurası Azərbaycana nə qədər gərəkdirsə, Azərbaycan da Avropa Şurası üçün bir o qədər önəmlidir.

**İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir**

Ulu öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də atəşkəsin imzalanması Azərbaycanda daxili sabitliyin təmin olunmasında, digər sahələrdə əhəmiyyətli addımların atılmasında mühüm rol oynadı. Məhz həmin il sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişi imzalandı. Bu mühüm addım Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirməklə yanaşı, xalqımızın uzun illərdən bəri ürəyində gəzdirdiyi bu istəyinin reallığa çevrilməsi oldu. Daim öz təbii sərvətlərinin əsl sahibi olmaq istəyən Azərbaycan xalqı ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurlarını gördükcə bundan daha da ruhlanır, gələcəyə böyük inamla addımlayırdı. Çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz layihələrinin 2006 və 2007-ci illərdə reallığa çevrilməsi, bunun ardınca dünyanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunu artıran Cənub Qaz Dəhlizinin rəsmi açılışı, 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanması, həmçinin Cənub Qaz Dəhlizinin əsas tərkib hissələrindən olan TANAP-ın istifadəyə verilməsi və sair kimi biri-birindən mühüm hadisələr "Əsrin müqaviləsi"nin ölkəmizə böyük uğurlar qazandırdığını bir daha dünyaya bəyan edir. Dövlətimizin başçısı İlham Əliyev 2006-cı ildə Azərbaycan neftinin Ceyhan terminalına çatması münasibətilə xalqa təbrikində bütün bu mühüm məqamı xüsusi qeyd etmişdir ki, "Əsrin müqaviləsi" imzalanmasaydı, bu gün Azərbaycanın iqtisadi imkanlarının, beynəlxalq münasibətlər sistemində yeri və rolunu təsəvvür etmək çətin deyildi. Təbii ki, BTC neft kəməri olmasaydı, BTƏ qaz kəmərindən, bunlar olmasaydı Cənub Qaz Dəhlizindən danışmaq qeyri-mümkün idi. Cənab İlham Əliyev Cənub Qaz Dəhlizini görülən işlərin zirvəsi kimi dəyərləndirir.

Təbii ehtiyatların xalqa məxsusluğunu sözdə deyil, əməldə göstərilməsinin tərəfdarı olan ümummilli lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan neft gəlirlərinin şəffaf və ədalətli bölünməsini təmin etdi. Dövlət siyasətinin prioritetlərini müəyyənləşdirən Dövlət Neft Fondu şəffaflıq kriteriyalarına görə nümunəvi qurum kimi dəyərləndirilir. Fondun vəsaitlərinin düzgün istiqamətləndirilməsi və şəffaflığın təminatı əhəmiyyətli sosial-iqtisadi layihələrin həyata keçirilməsini sürətləndirir.

Bu gün böyük inamla deyirik ki, neft siyasətinin məntiqi davamı kimi dəyərləndirilən iqtisadiyyatın şaxələndirilməsi siyasəti uğurla həyata keçirilir. İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya mühüm vəzifə kimi qoydu. Regionların malik olduğu potensial imkanlardan maksimum istifadə etmək üçün Dövlət proqramları təsdiqləndi və uğurla icra edilir. Bu gün ümumi daxili məhsulda özəl bölmənin payı 85 faiz təşkil edir. Möhtərəm Prezidentimiz İlham Əliyevin bölgələrə hər səfəri yeni obyektlərin açılışı və təməlqoyma

mərasimlərinin keçirilməsi ilə yadda qalır. Son 16 ildə 2 milyondan artıq yeni iş yeri yaradılıb ki, bunun böyük qismi regionların payına düşür.

Ulu öndər Heydər Əliyevin "Neft – Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur" – çağırışı bütün dövrlərdə öz aktuallığını qorumaqla yanaşı, dövlət siyasətinin əsasını təşkil edir. Bu mühüm məqama söykənərək, əhalinin sosial müdafiəsinin prioritetliyi daim önə çəkilir, neft gəlirlərinin ədalət prinsipi əsasında bölünməsi, istiqamətləndirilməsi mühüm uğurlara, ən əsası, Azərbaycanın özünü dünyaya sosial dövlət kimi təqdim etməsinə yol açır. Bugünümüzün statistikasına diqqət yetirmək kifayətdir. Təkcə cari ilin arxada qalan aylarında 4 milyondan artıq insanı əhatə edən 2 sosial paket təsdiqlənib. Minimum əməkhaqqı, minimum pensiya iki dəfə artırılıb.

Dövlətimizin başçısı İlham Əliyev 2003-cü ildə keçirilən andiçmə mərasimində bildirmişdir ki, iqtisadi inkişafa uyğun olaraq əməkhaqqı ildə ən azı iki dəfə artırılmalıdır. Ötən 16 ildə həyata keçirilən təkmil sosial-iqtisadi islahatlar Azərbaycanın ən islahatçı ölkə kimi tanınmasını şərtləndirib. Ölkəmiz yeni sosial və iqtisadi çağırışların müzakirəsi üçün ideal məkan kimi qəbul olunur.

## Azərbaycanı həm də zəngin tarixi, mədəniyyəti olan ölkə kimi tanıtmalıyıq

Ulu öndər Heydər Əliyev, eyni zamanda, bu çağırışı etmişdir ki, Azərbaycanı təkcə müstəqil bir dövlət, zəngin təbii sərvətlərə malik ölkə kimi yox, zəngin tarixi, mədəniyyəti olan ölkə kimi tanıtmalıyıq. Müstəqillik yollarında yenicə addımlarını atan hər bir dövlətin özünü təsdiqləməsində, varlığı barədə aydın təsəvvür yaratmasında vacib şərtlərdən biri xarici siyasətini düzgün qurması önə çəkilirdi. Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində istər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində münasibətlərin yüksək səviyyədə qurulması, ən əsası bir dövlətin xaricdə varlığı kimi dəyərləndirilən diaspor quruculuğuna xüsusi diqqət göstərilməsi Azərbaycan həqiqətlərinin, tarixinin dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli rol oynadı. Dahi şəxsiyyət harada yaşamasından asılı olmayaraq, bütün azərbaycanlıları bir amal--azərbaycançılıq ideyası ətrafında sıx birləşməyə çağırırdı. Öncə ayrı-ayrı dövlətlərdə Azərbaycan cəmiyyətləri, mərkəzləri yaradıldı. Sonra onların vahid mərkəzdən idarə olunmasını təmin etmək üçün 2001-ci il noyabrın 9-10-da Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Bu gün dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycanı öz Vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz ümummilli lider Heydər Əliyevin səylərinin nəticəsidir. O, dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən – müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim və əzmlə səy göstərmiş, bu istiqamətdə biri-birindən əhəmiyyətli qərarlar qəbul etmişdir.

Bu fakt inkaredilməzdir ki, müstəqilliyimizin ilk illərində Azərbaycan haqqında məlumatsızlıq bir sıra problemlərin yaranmasına, erməni yalanlarının ayaq tutub yeriməsinə səbəb olmuşdu. Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra fəaliyyətinin əsas istiqamətlərindən biri məhz ölkəmizin ətrafında yaradılan informasiya blokadasının yarılması oldu və uğurlu siyasəti ilə bu istəyini gerçəkləşdirdi. Məhz ümummilli liderin qətiyyətli addımları sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşdı, xarici siyasətimizin əsas məsələsi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişdi, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüququn normativ sənədlərində öz əksini tapdı. Ümummilli liderin xarici ölkələrə səfərləri zamanı orada yaşayan azərbaycanlılarla görüşməyə səy göstərməsi, onların problemləri ilə yaxından tanış olması, respublikamızla əlaqələrini daha da möhkəmləndirmələri üçün tövsiyələrini verməsi diaspor quruculuğu istiqamətində atılan addımlardan idi.

Dünya azərbaycanlılarının qurultaylarının ənənəvi olaraq keçirilməsi uğurlarımızın, Azərbaycan diasporunun gördüyü işlərin təqdimatı kimi dəyərləndirilir. Möhtərəm Prezidentimiz İlham Əliyev böyük inam və qətiyyətlə bildirir ki, güclü, qüdrətli Azərbaycan bütün dünya azərbaycanlılarının qürur mənbəyidir. Hazırda ölkəmizin sabitlik diyarı, iqtisadi möcüzələr ölkəsi kimi tanınması, müxtəlif mədəniyyətlərin, sivilizasiyaların qovuşduğu məkanda yerləşən ölkə olaraq beynəlxalq tədbirlərə ev sahibliyi etməsi, ən əsası dünya tərəfindən inkişafın Azərbaycan modelindən bəhs edilərək təqdir olunması təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan düzgün siyasətə əsaslanır. Bu gün Azərbaycan bayrağının dünyanın ən nüfuzlu təşkilatlarının qarşısında dalğalanması, ölkəmizin dünyada gedən proseslərə təsir imkanlarının artması da deyilənlərin təsdiqidir. Ən əsası, 2011-ci ilin mühüm uğurlarından olan Azərbaycanın 193 ölkədən 155-nin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 2019-cu ildə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisat olan, 120 üzvü sıralarında birləşdirən Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünə ev sahibliyi etməsi və sonda qəbul olunan sənəddə Azərbaycanın Dağlıq Qarabağla bağlı mövqeyinin dəstəklənməsi mühüm diplomatik uğurlarımız sırasındadır. Həmçinin dövlətimizin başçısı İlham Əliyevin Rusiyanın Soçi şəhərində dünyanın məşhur "beyin mərkəzləri"ndən biri olan "Valday" Beynəlxalq Diskussiya Klubunun "Şərq şəfəqləri və dünya siyasi quruluşu" mövzusunda XVI illik iclasında, MDB Dövlət Başçıları Şurasının Aşqabad Sammitində çıxışı, "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı, həmçinin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşünə evsahibliyi Heydər Əliyev ideyalarının, Prezident İlham Əliyevin uğurlu siyasətinin təntənəsidir. Azərbaycan haqqı, ədaləti müdafiə edən, bütün münaqişəli məsələlərin beynəlxalq hüququn norma və prinsipləri əsasında çözülməsini istəyən ölkə olaraq dünya birliyində rolunu artırır. Dövlət başçısı İlham Əliyevin qeyd

etdiyi kimi, əvvəlki dövrlərdə Azərbaycan haqqında məlumat vermək, təqdimatlar etmək üçün müxtəlif ölkələrə nümayəndələr göndərilirdisə, bu gün respublikamızın beynəlxalq tədbirlərin keçirilməsi üçün önəmli məkana çevrilməsi həqiqətlərimizin təbliğinə geniş imkanlar yaradır. Bütün bunlar Heydər Əliyev siyasətinin təntənəsidir.

Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin qorunması və inkişafı istiqamətində qoyduğu möhkəm təməl son 16 ildə davamlı uğurları təmin etdi. Dövlətimizin başçısı İlham Əliyevin bu istiqamətdə də atdığı addımların miqyası o qədər genişdir ki, onları tam əhatə etmək qeyri-mümkündür. Hər ilin konkret bir sahənin adı ilə bağlanması Azərbaycanın bu və ya digər istiqamətlərdə malik olduğu imkanlara, ən əsası həmin sahələrin inkişafına yol açır. 2016-cı il ölkəmizdə "Multikulturalizm ili", 2017-ci il "İslam Həmrəyliyi ili", 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti ili", 2019-cu il "Nəsimi ili" elan edilib. Bütün bunlar tariximizə, mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə bağlılığımızı əks etdirir. 2019-cu ildə Azərbaycanın UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etməsi bütün bu addımların, görülən işlərin ümumiləşdirilmiş ifadəsidir.

### Sülh və inkişaf Azərbaycan dövlətinin strategiyasının təməlini təşkil edir

Xarici siyasətində beynəlxalq hüququn norma və prinsiplərinə xüsusi önəm verən, hər bir məsələnin ədalət prinsipi əsasında çözülməsində maraqlı olan Azərbaycan dövləti daim dünyaya bu çağırışı edir ki, ikili standartlara son qoyulsun, beynəlxalq hüquq normalarının icrası üçün vahid mexanizm müəyyənləşdirilsin, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli təmin edilsin. Problemin həlli üçün möhkəm hüquqi baza mövcuddur. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Azərbaycanın ərazi bütövlüyü dəstəklənir, erməni işğalçılarının ərazilərimizdən qeyd-şərtsiz çıxarılması öz əksini tapıb. Eyni zamanda, digər beynəlxalq qurumların, dövlətlərin qərar və qətnamələrində də Azərbaycanın mövqeyi dəstəklənir. Əvvəldə təkcə cari ilin ötən dövründə Azərbaycan dövlətinin xarici siyasət uğurlarını qeyd etdik.

Rəsmi Bakı bəyanatlarında bu fikri də səsləndirir ki, problemin sülh yolu ilə həlli imkanları tükənərsə, hərb variantı istisna edilmir. Azərbaycanın tam haqqı var ki, işğal altında olan topaqlarını istənilən yolla azad etsin. Ulu öndər Heydər Əliyev bildirmişdir ki, sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır.

Bu kimi bəyanatlar, ən əsası 1994-cü il mayın 12-də cəbhə xəttində atəşkəs sazişinin imzalanması Azərbaycanın sülh siyasətinə sadiqliyini, həmçinin bütün münaqişəli məsələlərin beynəlxalq hüququn norma və prinsipləri əsasında çözülməsinin tərəfdarı olduğunu nümayiş etdirir. Amma qarşı tərəf, işğalçı Ermənistan qeyri-konstruktiv mövqeyindən əl çəkməzsə, problemin hərb yolu ilə həlli şəksizdir. Azərbaycan Ordusunun gücü, qüdrəti bu fikri böyük inamla söyləməyə əsas verir. Aprel döyüşləri, Naxçıvan qələbələri ordumuzun

gücünü və qüdrətini dünyaya nümayiş etdirdi.

Azərbaycan müharibə şəraitində olsa da, bütün sahələrdə böyük uğurları ilə diqqətdədir. İşğalçı Ermənistan Azərbaycanla heç bir sahədə rəqabət aparmaq iqtidarında deyil. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, Azərbaycanın hərbi büdcəsi Ermənistanın ümumi büdcəsi qədərdir. Xalqımız tam əmindir ki, dövlətimizin qətiyyətli mövqeyi, xalqın iradəsi, beynəlxalq dəstəyin artması fonunda Dağlıq Qarabağ problemi öz ədalətli həllini tapacaq, soydaşlarımız öz doğma yurd-yuvalarına qayıdacaqlar.

**YAP tarixin sınaqlarından şərəflə çıxaraq nüfuz qazanıb**

Ulu öndər Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərindən geniş bəhs edərkən bu gün milyonların sevgisini qazanan Yeni Azərbaycan Partiyasının yaradılmasını xüsusi qeyd etməliyik. 1992-ci il noyabrın 21-də təsis konfransını 550 nümayəndənin iştirakı ilə keçirən Yeni Azərbaycan Partiyasının sıralarında hazırda 750 minə yaxın üzv birləşib. Partiyanın hər bir üzvü Heydər Əliyev ideyalarının, onun siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin təbliğatçısıdır. Ulu öndər Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" tezisi bütün dövrlərdə partiyanın yoluna işıq salır, onun hədəflərini açıqlayır. Dövlətimizin başçısı İlham Əliyevin gerçəkliklərə əsaslanaraq söylədiyi "Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Uğurlarımızın səbəblərindən biri də məhz ondan ibarətdir ki, əldə edilmiş uğurlar bizə əlavə stimul verir" – fikirləri Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yolun aydın mənzərəsini yaradır. Yaranandan cəmi 6 ay sonra iqtidar partiyasına çevrilən YAP dövlətə, xalqa xidmət missiyasını Azərbaycanın davamlı inkişafına, əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılmasına verdiyi töhfələri ilə nümayiş etdirir.

Azərbaycanın hər uğurunda öz payı olan Yeni Azərbaycan Partiyasının ölkədə keçirilən bütün seçki proseslərindən uğurla çıxması da möhkəm təmələ əsaslanan siyasətə, xalq-iqtidar birliyinin möhkəmliyinə əsaslanır. Tarixə qısa nəzər salsaq, Yeni Azərbaycan Partiyasının 1993, 1998, 2003, 2008, 2013 və 2018-ci illərdə prezident, 1995, 2000, 2005, 2010, 2015-ci illərdə parlament, 1999, 2004, 2009, 2014-cu illərdə bələdiyyə seçkilərində uğur qazanmasını şərtləndirən də məhz bu amillərdir. Bununla yanaşı, partiyanın Konstitusiyamıza əlavə və dəyişikliklərin edilməsi məqsədilə bu günədək üç dəfə ümumxalq səsverməsinin keçirilməsi ilə bağlı irəli sürdüyü təşəbbüslər də xalqımız tərəfindən dəstəklənmişdir. "Ona görə iqtidar partiyasıyıq ki, bizim siyasətimiz xalq siyasətidir. Deyə bilərəm ki, biz ümumxalq partiyasıyıq. Çünki Azərbaycanın qarşısında duran bütün məsələlərdə biz fəal iştirak edirik. Biz öz

əməyimizlə bu siyasəti aparırıq" – söyləyən möhtərəm Prezidentimiz İlham Əliyev bildirir ki, əməlimiz, işlərimiz, verilən sözlərə sadiqliyimiz Yeni Azərbaycan Partiyasının nüfuzunu artırır, onun Azərbaycanın siyasi səhnəsində yeganə ciddi siyasi qüvvəyə çevirir.

Noyabrın 28-də Yeni Azərbaycan Partiyası Siyasi Şurasının parlamentdə təmsil olunan partiya üzvlərinə parlamentin buraxılması təşəbbüsünü irəli sürməsini tövsiyə etməsi, bu tövsiyəyə uyğun olaraq Milli Məclisin dekabrın 2-də keçirilən plenar iclasında dövlətimizin başçısı İlham Əliyevə müraciət, həmçinin ölkə Prezidentinin parlamentin müraciətində göstərilmiş məsələnin Konstitusiyaya uyğunluğu ilə bağlı Konstitusiya Məhkəməsinə sorğu göndərməsi, dekabrın 4-də Konstitusiya Məhkəməsinin Milli Məclisin buraxılmasının Konstitusiyaya uyğun olması barədə qərarı, dövlətimizin başçısı İlham Əliyevin 5 dekabr 2019-cu il tarixli "Azərbaycan Respublikasının beşinci çağırış Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" sərəncamı da Yeni Azərbaycan Partiyasının davamlı inkişafa, təkmilləşməyə verdiyi töhfələrin miqyasını genişləndirmək istəyindən irəli gəlir. Xalqımız tam əmindir ki, ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə davam etdirən, təkmil islahatların müəllifi kimi tanınan ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin gördüyü işlərin nəticəsində 23 dekabr bələdiyyə seçkiləri, eyni zamanda, gələn il fevralın 9-da keçiriləcək növbədənkənar parlament seçkiləri Azərbaycanın, partiyanın tarixinə növbəti uğur, qələbələr səhifəsini yazacaq.

**Heydər Əliyev yolu davamlı uğurların əsasıdır**

2003-cü ildən başlanan böyük yolun davamı Azərbaycana daha möhtəşəm uğurlar qazandırıb. Dayanıqlı inkişafın təmin edilməsi üçün ciddi islahatların aparılması əsas hədəflərdən biri kimi qarşıya qoyuldu: "İslahatlara alternativ yoxdur… Kadr islahatları labüddür, bu, qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər." Uğurlara yol açan düşünülmüş və məqsədyönlü siyasət, ayrı-ayrı sahələri əhatə edən dövlət proqramları, ənənəyə uyğun olaraq hər ilin bir sahənin adı ilə bağlanması və bu istiqamətdə təkmil islahatların həyata keçirilməsi Azərbaycanın beynəlxalq maliyyə qurumlarının, reytinq agentliklərinin hesabatlarında da liderliyini qorumasını şərtləndirir. İnkişaf modeli dünyaya nümunə göstərilən Azərbaycana bu gün hansı tərəfdən baxsaq təkmilləşməni, yeniləşməni görərik.

İdarəetmə sistemində təkmilləşmə, kadr hazırlığı, dövlətimizin gəncləşmə siyasəti yeni-yeni hədəflərin gerçəkləşməsini təmin edir. Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək istəyimiz reallıqdır. 2016-cı ildə keçirilən ümumxalq səsverməsinə çıxarılan məsələlər sırasında prezidentlik

müddətinin 7 ilə qədər artırılması, eyni zamanda, vitse-prezidentlik institutunun yaradılması ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. 2017-ci ildə dövlətimizin başçısı İlham Əliyevin sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməsi davamlı inkişafa böyük dəstək kimi dəyərləndirildi.

Ötən iki ildən artıq dövr ərzində Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi gördüyü işlərə diqqət yetirsək, miqyasının nə qədər böyük olduğunu görərik. Dövlətçiliyimizin möhkəmləndirilməsi, hərtərəfli inkişafın təmin edilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, Azərbaycanın mədəniyyətinin, tarixinin, milli-mənəvi dəyərlərinin təbliği Birinci vitse-prezidentin fəaliyyətinin əsasını təşkil edir. Mehriban xanım Əliyevanın xarici siyasətimizin əsas istiqaməti olan ikitərəfli əməkdaşlıq əlaqələrinin inkişafına töhfələri də böyükdür və yüksək dəyərləndirilir. Azərbaycanın Birinci vitse-prezidentinin bu günlərdə Rusiyaya rəsmi səfəri, iki ölkə arasında münasibətlərin inkişafına verdiyi töhfələrə görə Rusiya Prezidenti V.Putin tərəfindən "Dostluq" ordeni ilə təltif olunması Mehriban xanım Əliyevanın Azərbaycanın beynəlxalq aləmdə yeri və rolunun artması istiqamətində göstərdiyi səylərin tərkib hissələrindəndir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bilavasitə Heydər Əliyev irsinin təbliği missiyasını yerinə yetirən Heydər Əliyev Fondunun prezidenti kimi bu istiqamətdə atdığı addımlar da təqdirəlayiqdir. "Azərbaycanın taleyi Heydər Əliyevin taleyi ilə əbədi olaraq bağlandı" – söyləyən Mehriban xanım Əliyeva, eyni zamanda, bildirir ki, Heydər Əliyevin həyatı böyük bir epoxanın aynası kimi ölkəmizin sevincli-kədərli günlərini və anlarını, Azərbaycanın bu tarix yollarını özündə əks etdirir. Belə insanlar tarixin mürəkkəb anlarında bütün çətinlikləri dəf edərək həmişə zəfər çalır, qalib gəlirlər. Heydər Əliyev qalibiyyətinin nəticəsi müasir müstəqil Azərbaycan Respublikası və onun bugünkü nailiyyətləridir.

Təbii ki, bir yazıda Heydər Əliyev siyasətinin uğurlarını əhatə etmək mümkün deyil. Möhtərəm Prezidentimiz İlham Əliyevin fikirlərinə istinad etsək, uğurlarımızın ümumiləşdirilmiş ifadəsini yaradarıq: "Bu gün Heydər Əliyev siyasəti bütövlükdə bütün sahələrdə davam etdirilir. 2003-cü ildə Azərbaycan xalqı mənə böyük etimad göstərərək Prezident vəzifəsinə seçdiyi gündən bu günə qədər bu siyasətə sadiqəm. Mən 2003-cü ildə bu barədə sözümü demişəm. Mən bu siyasətə sadiq qalacağam və 2003-cü ildən bu günə qədər Azərbaycanda gedən uğurlu inkişaf Heydər Əliyev siyasətinin təntənəsidir, müstəqil Azərbaycanın təntənəsidir."

**Siyavuş NOVRUZOV,**
**YAP İcra katibinin müavini, Milli Məclisin regional məsələlər komitəsinin sədri.**

www.yap.org.az

# SAĞLIĞINDA ƏFSANƏLƏŞƏN LİDER

***Tarixdə elə şəxsiyyətlər yetişib ki, onlara nəinki təmsil etdikləri xalqın taleyində, eləcə də dünya siyasətində son dərəcə böyük missiyanı həyata keçirmək səadəti nəsib olub. Ümummilli liderimiz Heydər Əliyev də məhz belə bir tarixi şəxsiyyət, dünya siyasətinin mahir bilicisi idi. Azərbaycanın müasir tarixinin yarıməsrlik bir mərhələsi, eləcə də müstəqil dövlətimizin dinamik inkişafı və dünyaya inteqrasiya prosesi onun adı, fəaliyyəti və zəngin irsi ilə bağlıdır. Ulu öndərimiz Azərbaycan tarixində yeni parlaq səhifə açan nadir şəxsiyyət olmuşdur. Bu dahi, müdrik insan xalqımızın əsrlərin sınağından çıxmış özünəməxsus milli xüsusiyyətləri ilə yanaşı, bəşəri düşüncələrin də daşıyıcısı idi.***

Ümummilli liderimizə xas olan digər nadir keyfiyyət onun bir-birinə əks qütbdə dayanan müxtəlif ictimai-siyasi formasiyalarda ən yüksək idarəçilik üsuluna üstünlük verməsi idi. Heydər Əliyevin tarixi xidmətlərinə, xilaskarlıq və quruculuq missiyasına müasir dünyanın görkəmli dövlət xadimləri, siyasətçiləri çox yüksək qiymət veriblər. Azərbaycanın 50 ilə yaxın bir tarixi mərhələsi yaddaşlarda məhz Heydər Əliyev dövrü, böyük quruculuq illəri kimi qalıb.

İrimiqyaslı qlobal siyasi dəyişikliklərlə müşayiət olunan tarixi dönəmlərdə xalqın mənafeyinə uyğun iradə nümayiş etdirmək iqtidarında olan şəxsiyyətlərə daha böyük ehtiyac duyulur. Müstəqil dövlətimizin timsalında ötən illəri təhlil edərkən bir daha əminliklə söyləmək olar ki, həqiqətən də, tarixin millətə verdiyi şansı yalnız böyük tarixi şəxsiyyətlərin iştirakı ilə reallaşdırmaq mümkündür. Bu mənada Mustafa Kamal Atatürkün Türkiyə, Konrad Adenauerin Almaniya, Şarl de Qollun Fransa üçün etdiklərini Heydər Əliyev ən çətin məqamda Vətəni və xalqı naminə edib.

Heydər Əliyev Azərbaycanı inkişaf etmiş dövlətlərin, millətini firavan həyat sürən xalqların cərgəsində görmək istəyirdi. O, ömrünün son anınadək xalqının gələcək taleyi haqqında düşünürdü. Ulu öndər Vətən üçün, xalq üçün doğuldu, Vətənin, xalqın tərəqqisi, inkişafı, azadlığı, müstəqilliyi üçün cəsarətlə çalışdı. Bununla da xalqın gözündə, qəlbində dahi kimi ucaldı. Ona görə də xalqın öz dahi övladına məhəbbəti sonsuzdur, əbədidir. Ulu öndər əsl ümumxalq məhəbbəti qazanmış nadir siyasətçilərdən, dövlət xadimlərindəndir. Bu dahi şəxsiyyət Azərbaycanı yox olmaqdan qurtardı, müstəqilliyimizi dönməz etdi, sabitlik və təhlükəsizliyin qarantı oldu, Azərbaycanı inkişafa, firavanlığa doğru addımlayan, dünya birliyində layiqli yerini tutmuş bir dövlətə çevirdi.

Azərbaycan filosofları hesab edirlər ki, bu mütərəqqi dəyişikliklərin əsas tərkib hissələri bunlardır:

– ictimai-siyasi həyatın sabitləşdirilməsi, birliyin mədəni ənənələrinə uyğun olan demokratik prinsip və təsisatların yaradılması və təkmilləşdirilməsi;

– dövlət aparatının möhkəmləndirilməsi

və fəaliyyət göstərə bilən dövlət idarəetmə institutlarının formalaşdırılması;

– konstitusion, hüquqi dövlətin yaradılması;

– yeni – açıq və demokratik, ənənələrlə, tarixi yaddaş ilə əlaqələri üzməyən – vətəndaş mədəniyyətinin formalaşdırılması;

– 1994-cü ilin ortalarından başlayaraq Qarabağ cəbhəsində atəşkəs rejimi şəraitində iqtisadi inkişafın mühüm prioritetlərinin formalaşdırılması;

– müstəqil dövlətin neft strategiyasının yaradılması;

– "Böyük İpək Yolu" layihəsində fəal iştirakı ilə bağlı Azərbaycanın regional logistika mərkəzi kimi rolunun dəyişməsi;

–respublikanın həyat qabiliyyətli tarazlaşdırılmış, çoxvektorlu xarici siyasət modelinin formalaşdırılması;

– müasir və döyüş qabiliyyətli ordunun yaradılması və s.

Əslində, xalq millətin müasir şəraitdə inkişafı strategiyası və fəlsəfəsini cəmiyyətə təklif edən liderə etimad göstərdi. Ulu öndərin konkret hərəkətləri, tədbirləri, qəbul etdiyi qərarlar, onun xarizması, bəsirəti, iradəsi, təcrübəsi ölkə vətəndaşlarının müasir ümummilli dəyərləri dərk və qəbul etməsində mühüm rol oynamışdır.

Dövlətçilik, idarəetmə sistemi, vətəndaş cəmiyyəti, inkişaf etmiş iqtisadiyyat, milli mədəniyyət, mənəvi dirçəliş, transformasiya, tarazlıq və həmrəylik, mədəni müxtəliflik – bu anlayışlar müstəqil və güclü dövlət, cəmiyyət və millət dəyəri konseptinin mahiyyətini açıb göstərir. Bu dəyərli konsept azərbaycançılıq, milli ideologiya və multikulturalizm siyasəti adlanan fenomenin əsasını təşkil etdi.

Heydər Əliyevin mənəvi irsində milli ideya və ideologiyanın bir-birinə necə qarşılıqlı təsir göstərdiyi, dəyərlər və başqa mədəniyyətlərlə birgə dinc yaşayış və qarşılıqlı əlaqələr mədəniyyətinin cəmiyyətin inkişafı və zənginləşməsində hansı rol oynadığı dərindən və nəzəri cəhətdən əsaslandırılmış şəkildə öz əksini tapmışdır. Ulu öndər həmişə hesab edirdi ki, hər bir millətin mədəniyyətində ziyalılar xüsusi vəzifə yerinə yetirir. Lakin öz vəzifəsini həyata keçirməsi üçün onlar öz milli dəyərləri və tarixinə ehtiramla yanaşmaqla bərabər, digər xalqların mədəniyyətinin ən yaxşı xüsusiyyətlərini mənimsəməlidirlər.

Heydər Əliyevin hakimiyyətə qayıdışı, bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də tənəzzülün qarşısını aldı. Milli tərəqqiyə xidmət edən təhsilimizin inkişafı üçün əlverişli şərait yaradıldı. O, milli dövlət quruculuğu prosesində "Elmə, təhsilə göstərilən yüksək qayğı xalqın xoşbəxt gələcəyinə qoyulan təminatlı sərmayədir" meyarı ilə çıxış edirdi. Xalqımızın milli oyanışında və özünüdərkində misilsiz rol oynayan elm və təhsilin inkişafı ulu öndər Heydər Əliyevin nəhəng dövlətçilik fəaliyyətinin çox mühüm istiqaməti olmuşdur. Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə reallaşdırılan təhsil siyasəti özünün məqsədyönlülüyü, müasirliyi, dünyəviliyi və milli dəyərlərə söykənməsi ilə diqqəti cəlb edirdi.

Ümummilli lider Heydər Əliyev siyasətçi və dövlət xadimi kimi ən uca missiyanı gerçəkləşdirərək müstəqil Azərbaycan dövlətinin memarı oldu və tarixi öz əməlləri ilə yazdı. Onun həyatı və fəaliyyəti Azər-

baycan tarixinin bir hissəsi və bəlağətsiz deyə bilərik ki, ən şanlı səhifələrindəndir. Bu şəxsiyyətin həyatını öyrənmək, onun gördüyü işlərin, başladığı layihələrin tarixi əhəmiyyətini dərk etmək özü böyük bir məktəbdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə ölkənin həyatında, xalqın taleyində elə bir əzəmətli rol oynayıb ki, bu, əsrlər boyu unudulmayacaqdır. Azərbaycanın hər bir bölgəsində ulu öndərin quruculuq fəaliyyətinin silinməz izləri vardır.

Heydər Əliyev həyatı boyu xalqa arxalanmışdı: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Müstəqil Azərbaycan dövlətinin keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib. Heydər Əliyevin Azərbaycan üçün gördüyü işləri sadalamaqla bitib-tükənən deyil. Dahi şəxsiyyət bu gün sıralarımızda olmasa da, onun möhtəşəm əməlləri, misilsiz xidmətləri hamımıza bəllidir və bu gün də gözümüz önündədir. Milyonlarla insanın ümid çırağına çevrilərək, qəlblərdə əbədi yurd qurmaq heç də bütün rəhbərlərə, liderlərə nəsib olmur. Sağlığında canlı əfsanəyə çevrilmiş Heydər Əliyevin zəngin irsi hələ uzun illər xalqımızın müstəqillik yolunu işıqlandıracaq.

Heydər Əliyev dünyanın nadir insanlarındandır. O, hamının qəlbinə yol tapmağı bacarır, yaddaşlarda dərin iz qoyurdu. Təkrarsız, heyrətamiz yaddaşa sahib Heydər Əliyev əsl rəhbərə xas olan ensiklopedik biliyə malik idi. Ulu öndər milli və bəşəri dəyərlərin daşıyıcısı idi. Bu görkəmli dövlət xadimi əsrimizin siyasi həyatında mühüm yer tutmuş, uzun və şərəfli yol keçmiş, ən yüksək vəzifələrin məsuliyyətini daşımış, insanlara həmişə dərin hörmət və ehtiram bəsləmişdir.

Ümummilli liderimizin xalqın birliyi yolunda göstərdiyi titanik fəaliyyəti hər bir soydaşımız üçün örnək olmalıdır. Biz Azərbaycanı sevməyi Heydər Əliyevdən öyrənməliyik. "Azərbaycan mənim ürəyimdir, nəfəsimdir" – deyən böyük öndərimiz millətimizin və dövlətimizin əbədiyaşarlığı üçün əvəzsiz bir siyasi xətt, ideoloji baza miras qoydu. Şükürlər olsun ki, ulu Tanrı xalqımızın taleyinə çətin, əzablı günlər yazsa da, bu əzablara sinə gərə bilən, bütün düyünləri açmağa qadir olan Heydər Əliyev kimi böyük şəxsiyyət də qismət edib. Millətinə xidmət nümunəsi olan bu böyük şəxsiyyət həmişə xalqa arxalanır və deyirdi: "Xalq mənim dayağım, gücüm və inamımdır". Xalq yolunda canını fəda etmiş, bütün həyatı boyu Vətənini və millətini düşünmüş ümummilli liderimiz əbədiyaşarlıq qazanmışdır.

Allah Heydər Əliyevi sanki dünyaya xalq üçün, onun səadətə yetişməsi üçün göndərmişdi. Haqqın, ədalətin bərpası, ölkənin inkişaf etdirilib sivil cəmiyyətə çevrilməsi üçün çəkdiyi minbir əziyyət onun

tale yolu, ömür yolu olmuşdur. Ümummilli liderimiz əmanət olaraq xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş Azərbaycan dövlətini bəxş etdi. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Heydər Əliyevin uzaqgörən neft siyasətinin ilk konturları oldu. Məhz bu müqavilədən sonra inkişaf etmiş dünya dövlətlərinin Azərbaycana, burada cərəyan edən proseslərə marağı artdı. Ölkədə uğurlu islahatların bünövrəsi qoyuldu, kəmərlər çəkildi, turistik və nəqliyyat infrastruktu yaradıldı.

Dünya siyasətində nəhəng şəxsiyyət olan Heydər Əliyev qısa zaman kəsiyində ölkəmizi yetərincə tanıdıb. Məhz ulu öndərimizin səyi, zəhməti sayəsində respublikamız sürətli sosial-iqtisadi inkişaf yoluna çıxdı. Azərbaycan dövləti var olduqca, Heydər Əliyev dühası, ucalığı, böyüklüyü həmişə xatırlanacaq.

Ulu öndərimiz müqəddəs amalları və fəaliyyəti ilə xalqın gözündə, qəlbində dağ kimi ucaldı. Ona görə də xalqın öz sədaqətli, dahi övladına məhəbbəti sonsuzdur, əbədidir... Ümummilli lider respublikaya rəhbərlik etdiyi uzun illər ərzində gördüyü nəhəng işləri ilə xalqın qəlbində özünə əbədi abidə ucaldıb. Ona görə də nə qədər müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev də ürəklərdə yaşayacaqdır. Dahi və əzəmətli şəxsiyyətin yolunun davamı müstəqil Azərbaycan dövlətinin gələcəyi, onun daha da güclənməsi, ərazi bütövlüyünün bərpa olunması, hər bir vətəndaş üçün firavan və rahat həyat şəraitinin yaradılması deməkdir. Heydər Əliyevin başladığı işləri davam etdirmək, qurduğu dövləti yeni-yeni uğurlara çatdırmaq onun ruhu qarşısında ən ümdə borcumuzdur.

Azərbaycan xalqı, bütün türk dünyası Heydər Əliyevi heç vaxt unutmayacaq. Bütün ömrünü xalqımızın tərəqqisinə və türk dünyasının firavanlığına həsr etmiş ulu öndərin həyat və fəaliyyəti indiki və gələcək nəsillər üçün əsl örnək və güc mənbəyidir. Bugünkü Azərbaycanın sürətli inkişafının təməli məhz Heydər Əliyev tərəfindən yaradılıb. Bu siyasi kursa Azərbaycanda alternativ yoxdur.

Xalqımız xoşbəxtdir ki, ümummilli liderimizin strateji inkişaf kursu bu gün onun layiqli siyasi varisi, ölkə Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Dövlət başçımızın həyata keçirdiyi tədbirlər, imzaladığı fərman və sərəncamlar, islahatlar xətti xalqla birbaşa ünsiyyətdə olması ümummilli lider tərəfindən başlamış işlərin məntiqi davamıdır. Memarı və qurucusu Heydər Əliyev olan müstəqil dövlətimiz bu gün ulu öndərimizin Azərbaycan xalqına ən böyük töhfəsidir. Hər birimizin borcu isə Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan Respublikasını qoruyub yaşatmaqdır.

**İlham MƏMMƏDZADƏ,**
**AMEA Fəlsəfə İnstitutunun direktoru.**

www.philosophy.edu.az

# AZƏRBAYCANÇILIQ VƏ MÜSTƏQİL DÖVLƏTİN DİASPOR SİYASƏTİ

***31 dekabr tarixi 28 ildir ki, azərbaycanlıların ümumdünya həmrəyliyi günüdür. 1991-ci il dekabrın 16-da o zaman Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərlik edən ümummilli lider Heydər Əliyev bir il əvvəl Naxçıvandan başlayaraq Arazboyu zonada xalqımızın o taydakı və dünyadakı soydaşlarına qovuşmaq kimi təbii istəyinin qarşısıalınmaz ifadəsi olmuş sərhəd xətlərinin rəmzi sökülməsi gününü–31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etmişdir. Beləliklə, ulu öndər Yeni illə bir vaxtda xalqımıza ikinci bir əziz bayram bəxş etmişdir. Bununla soydaşlarımız bütün dünyada illərin qovuşub-ayrılması şərəfinə qeyd edilən beynəlxalq bayramı həm də milli həmrəylik duyğularının coşğusu və ikiqat təntənə ilə mənalandırmağa başlamışlar.***

**Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**

Artıq 31 dekabrı bütün dünyada yaşayan azərbaycanlılar Dünya Azərbaycanlılarının Həmrəylik Günü – millət günü kimi qeyd edirlər. Ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev ümummilli liderin ali azərbaycançılıq məramından qaynaqlanmış bu estafeti uğurla davam etdirir, milli həmrəylik gününün yeni ilin gəlişi ilə eyni vaxtda möhtəşəm təntənələrlə qeyd edilməsini yüksək səviyyədə təmin edir. Milli həmrəylik günü münasibətilə bütün dünyanı dolaşan şənliklər həm də müstəqil Azərbaycanın qazandığı tarixi uğurların dünyaya bütün əzəməti ilə nümayiş etdirilməsi, soydaşlarımızın Ana vətənə sıx bağlılığının təzahürü ilə əlamətdar olur.

Dünya müharibələri, inqilabi çevrilişlər, qanlı repressiyalar və 70 sənəlik bir dövrdə mövcud olmuş sosializm rejimi ilə tarixə həkk olan XX əsri, onunla birlikdə bizim eranın ikinci minilliyini də tarixin panteonuna yola salmışıq. Azərbaycan üçüncü minilliyə yeni müstəqillik qazanmış bir ölkə kimi daxil olmuşdur. Bu gün hər bir soydaşımız yaxşı dərk edir ki, ən ağrılı problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli dünyada yaşayan bütün azərbaycanlıların birliyindədir. Belə birliyi isə tarixin bütün zehni və mənəvi təcrübələrini özündə əks etdirən milli ideologiya yaradır.

Bu ideologiya azərbaycançılıqdır. Azərbaycançılıq coğrafi anlayış deyil, o daha

çox siyasi anlayışdır. İdeologiya cəmiyyətdə milli birliyi və ümumxalq münasibətlərini qorumaq, millətin və onun dövlətinin mövqeyini izah və təsdiq etmək üçün yaradılır. O, milli-mənəvi varlığın ilkin əlamətlərindəndir – xalqın kimliyini əks etdirən təfəkkür, adət və inanclar sistemidir. Dil, ərazi, din və ideoloji birlik xalqın, millətin və dövlətin tarixi varlığının əsas atributlarıdır.

Azərbaycançılığın ümummilli ideya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi məhz Heydər Əliyevin tarixi xidmətidir. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra ölkənin müstəqilliyini möhkəmləndirməklə, onun güclü dövlətçilik xəttini, siyasi-iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli inkişafının ideya təməli ola biləcək konsepsiyanın – azərbaycançılığın banisi olmuşdur. Vahid və bölünməz Azərbaycanın ideya əsası azərbaycançılıq düşüncəsidir.

Müstəqilliyimizin ilk illərində Azərbaycanın düşdüyü dərin böhran təkcə Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü, Qarabağdakı aqressiv erməni separatçılığı ilə bağlı deyildi. Həmin dövrdə, bütövlükdə, respublikada milli-etnik ixtilaf, bölücülük tendensiyası cücərməkdə idi və bu, ayrı-ayrı bölgələrdə özünü göstərirdi. Bu baxımdan Heydər Əliyevin azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi naminə göstərdiyi tarixi xidmətdir. Məhz azərbaycançılıq Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu. Çünki azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün konfessiya və etnosların həmrəylik və anlaşma içində birgəyaşayışının tarixi təcrübəsidir.

Böyük öndər həmişə bildirirdi ki, Azərbaycanın çoxmillətli, tolerant ölkə olması bizim böyük sərvətimizdir və biz bunu qoruyub saxlamalı, dünyaya ən yüksək səviyyədə təbliğ etməliyik: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycanın ən başlıca sərvətlərindən biri qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib".

Azərbaycançılıq ideologiyası, bir tərəfdən, Azərbaycan türklərinin ölkədəki digər etnik qruplara tolerant münasibətinin, sülh içində yaşamaq istəyinin bariz göstəricisidirsə, digər yandan, Azərbaycanın türk dünyasının ayrılmaz parçası olduğunun təsdiqidir. Odur ki, azərbaycançılığı realist milli inkişaf modeli olaraq qəbul edən Azərbaycan türk dövlətləri arasında da bəlağət və pafosdan uzaq, səmimi və qarşılıqlı-faydalı tərəfdaşlıqdan yana olduğunu daim nümayiş etdirir. Birlik və həmrəyliyin gerçək ifadəsi Azərbaycanda vətəndaş sülhünü, ümumxalq vəhdətini, milli və dini tolerantlığı təmin edən ideologiya olaraq azərbaycançılığın digər tarixi missiyası dünya azərbaycanlı-

larının, müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın birlik və həmrəyliyinin təmin olunmasından ibarətdir.

Heydər Əliyev hələ sovet Azərbaycanına rəhbərlik etdiyi zaman dövrün mövcud reallıqları çərçivəsində xaricdəki (təbii ki, ilk növbədə, SSRİ məkanında) azərbaycanlı diasporunun təşəkkül tapmasına mümkün dəstəyi göstərmişdir. Ulu öndər müstəqil Azərbaycanın prezidenti olduqdan sonra bu fəaliyyəti dövlətimizin xarici siyasətinin prioritet istiqamətlərindən birinə çevirmişdir. Prezident xarici dövlətlərə ilk səfərlərindən başlayaraq getdiyi hər bir ölkədə yaşayan həmvətənlərimizlə – oradakı azərbaycanlı icmasının böyük və ya kiçikliyindən asılı olmayaraq – görüşlər keçirir, onların problemləri, qayğıları ilə maraqlanır, tövsiyələrini verirdi. Azərbaycan diasporunun yeni mərhələdə inkişaf tezislərini də məhz böyük öndərin həmin görüş və çıxışlarda söylədiyi fikirlər, müddəalar təşkil etmişdir. Özü də bu hər zaman şüarçılıqdan uzaq, reallığı əks etdirən, zərurətdən doğan fikir və müddəalar olub.

Hakimiyyətə qayıtdıqdan sonra ulu öndər Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımızın vahid ideologiya və milli-mənəvi dəyərlər ətrafında birləşməsinə, onların malik olduğu güclü potensialın milli problemlərin həllinə yönəldilməsinə xidmət edən bir sıra tədbirlər həyata keçirmişdir. Ümummilli lider cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər görmüş, xalqın birliyinin siyasi və nəzəri əsaslarını irəli sürmüşdür.

“Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm və bu gun də fəxr edirəm ki, mən azərbaycanlıyam” – deyən ulu öndər yeritdiyi siyasətlə dünya azərbaycanlılarının liderinə çevrilmişdir. Ümummilli lider Heydər Əliyev dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşdirilməsi ideyasının müəllifidir. Xaricdə yaşayan soydaşlarımızın tarixi Vətənə bağlılığını təmin edən azərbaycançılıq ideologiyasının müəyyənləşdirilməsi də ulu öndərin tarixi xidmətləri sırasında daxildir.

Bu gün azərbaycançılıq həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün milli ideyaya çevrilmişdir. Ümummilli lider bütün dünyada yaşayan soydaşlarımıza bu ideya ətrafında birləşməyi təlqin edir və bildirirdi ki, azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafını təmin etməkdən ibarətdir. Ulu öndər xaricdə yaşayan azərbaycanlıların birliyi və təşkilatlanması məsələsini daim diqqət mərkəzində saxlamış, Azərbaycan diaspor cəmiyyətlərinin problem və qayğılarına böyük həssaslıqla yanaşmışdır.

1996-cı ildən başlayaraq, ölkəmizdə aparılan islahatlar nəticəsində ictimai-siyasi sabitliyin bərqərar olması, bazar iqtisadiyyatının əsaslarının formalaşması, hüquqi dövlət quruculuğunun uğurla davam etməsi kimi mühüm proseslər dünyanın müxtəlif bölgələrinə səpələnmiş soydaşlarımızın diqqət mərkəzində olmuş, onlarda qürur və Vətənin işıqlı gələcəyinə ümid hisslərini

artırmışdır. Məhz ümummili liderin həyata keçirdiyi uğurlu diaspor siyasətinin köməyi ilə müstəqil Azərbaycan Respublikası tarixən müxtəlif ictimai-siyasi və mədəni proseslər nəticəsində dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış soydaşlarımız üçün fəxarət, mənəvi dayaq və güvənc yerinə çevrilmişdir.

Heydər Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azəbaycan Res
publikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında mənəvi, siyasi birliyin və həmrəyliyin təmin olunması, Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsinin ətraflı müzakirəsinin zəruriliyini nəzərə alaraq 2001-ci ilin may ayının 23-də xüsusi sərəncam imzalamış, 2001-ci il noyabrın 9–10-da Bakıda keçirilmiş Dünya azərbaycanlılarının I qurultayı soydaşlarımızın azərbaycançılıq ideyası ərtafında sıx birləşməklə təşkilatlanması baxımından tarixi əhəmiyyət kəsb etmişdir. Bu addım diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdur.

Ümummilli lider Heydər Əliyevin dünya azərbaycanlılarının I qurultayında bəyan etdiyi tezislər, əslində, azərbaycançılığın, Azərbaycan təəssübkeşliyinin ən lakonik ifadəsi idi: "Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır".

Ulu öndər Heydər Əliyev həmin tarixi tədbirdəki çıxışında dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi, Azərbaycan dilinin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, inkişaf etdirilməsi zərurəti ilə bağlı fikirlərini söyləmişdir. Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması, müxtəlif ölkələrdə dilimizin, tariximizin, mədəniyyətimizin yüksək səviyyədə təbliği, Ermənistanın təcavüzkar siyasətinin ifşası, bədnam erməni lobbisinə qarşı sistemli və ardıcıl əks-hücumun təşkili məsələləri qurultayın qarşıya qoyduğu başlıca vəzifələr kimi diqqəti cəlb etmişdir.

Qurultaydan sonra Azərbaycan diaspor hərəkatı tamamilə yeni mərhələyə qədəm qoymuşdur. Ümummilli lider Heydər Əliyev bu sahədə sistemli dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə 2002-ci ildə "Xarici ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə" fərman imzalamışdır. Komitənin yaradılması xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən koordinasiyasına, habelə onların dövlət qayğısı ilə əhatə olunmasına geniş imkanlar vermişdir. Dövlət diaspor komitəsinin yaradılması dünya azərbaycanlılarının konsolidasiyasında, diaspordan lobbiyə doğru inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdur.

Artıq dünya azərbaycanlıları istədikləri vaxt öz paytaxtlarına gələ və öz problemlərini müzakirə edə bilirlər. Komitə qısa

bir müddətdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası və Azərbaycan dövləti ətrafında birləşməsi istiqamətində xeyli iş görməyə müvəffəq olmuşdur. 2002-ci ildə Milli Məclisdə qəbul olunmuş "Xaricdə yaşayan soydaşlarımıza dövlət qayğısı haqqında" qanun xaricdəki azərbaycanlılara dövlət qayğısının hüquqi əsaslarını müəyyənləşdirmidir. Qanuna əsasən, xaricdə yaşayan, fəaliyyət göstərən soydaşlarımızın hüquqları Azərbaycan dövləti səviyyəsində qorunur. İmkanlı azərbaycanlıların ölkə iqtisadiyyatına sərmayə qoyması üçün qanunda vergi, gömrük güzəştləri nəzərdə tutulur. Bu qanun ölkəmizin diaspor və lobbi quruculuğu sahəsindəki fəaliyyətinin hüquqi əsaslarını və prinsiplərini müəyyənləşdirən mühüm sənəd kimi təqdirəlayiqdir. Hazırda Azərbaycan diasporunun dünyanın müxtəlif ölkələrində yüzlərlə birlik, cəmiyyət və assosiasiyası fəaliyyət göstərir.

Bu gün Azərbaycan diasporunun dünyanın müxtəlif ölkələrində formalaşan birlikləri Azərbaycan dövlətinin, Azərbaycan mədəniyyətinin, Azərbaycan həqiqətlərinin tanınması və təbliği işində mədəni-kütləvi tədbirlərdən, medianın kütləvi yayım imkanlarından geniş istifadə edirlər. İndi soydaşlarımız keçmiş sovet məkanında, xüsusən Rusiyada, Avropanın inkişaf etmiş ölkələrində, ABŞ-da, Asiya dövlətlərində daha mütəşəkkil birləşərək, bütün səylərini ümumi işin xeyrinə yönəldə bilirlər. Bu gün Azərbaycan icmaları və cəmiyyətləri ötən illərlə müqayisədə daha fəaldırlar. Onlar yaşadıqları ölkələrin ictimai-siyasi həyatına təsir imkanlarını getdikcə artırır, xarici siyasətimizdə prioritet təşkil edən məsələlərə fəal dəstək verməklə Azərbaycanın beynəlxalq mövqeyini daha da gücləndirirlər.

Bütün dünya azərbaycanlıları, haqlı olaraq, müstəqil Azərbaycan dövlətinin qurucusu, azərbaycançılıq ideologiyasının əsaslarını dövlət siyasəti səviyyəsinə yüksəltmiş dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyevi xalqımızın ümummilli lideri hesab edirlər. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, "Dünya azərbaycanlılarının ancaq bir vətəni, müstəqil dövləti var, bu, Azərbaycan Respublikasıdır. Biz hamımız da onun ətrafında birləşməliyik".

Diaspor quruculuğu sahəsində dövlət siyasətinin məqsədi xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunu qorumaq və inkişaf etdirmək, Azərbaycanla əlaqələrini genişləndirməkdən ibarətdir. Ulu öndər hakimiyyətə qayıdışından sonra xaricdə yaşayan azərbaycanlıların birliyi və təşkilatlanması məsələsini dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirmiş, müxtəlif xarici ölkələrə çoxsaylı səfərlərində Azərbaycan diasporunun nümayəndələri ilə görüşlər keçirmiş, onların problem və qayğılarına daim böyük həssaslıqla yanaşmışdır. Azərbaycanın diaspor təşkilatlarına öz tövsiyələrini verən ulu öndər xarici ölkələrdəki səfirliklərimizi də diaspor quruculuğu prosesinə cəlb etmiş, həmvətənlərimizi Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştiraka istiqamətləndirmişdir.

Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu dövlət diaspor siyasətini bu gün uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev son 16 il ərzində dünya azərbaycanlılarının həmrəyliyinə nail

olmaq üçün üzərinə düşən tarixi missiyanı məsuliyyətlə yerinə yetirmiş, bu sahədə ardıcıl siyasət yürütmüşdür. Azərbaycan dövləti dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həllinə yönəltmək, daha sıx əlaqələr yaratmaq, milli birliyə nail olmaq və mütəşəkkil birgə qüvvə təşkil etmək səylərinə daim ciddi fikir verir.

Diaspor quruculuğunu xarici siyasətin prioritet istiqamətlərindən biri kimi qiymətləndirən və bu fəaliyyətin getdikcə daha da gücləndirilməsini vacib sayan Prezident İlham Əliyev milli mənafe və maraqların beynəlxalq aləmdə yüksək səviyyədə qorunması, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə dolğun, obyektiv şəkildə çatdırılması baxımından hər zaman xaricdə yaşayan soydaşlarımızın üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd edir, onların daha da təşkilatlanması, vahid hədəflər naminə mütəşəkkil mücadilə aparması ilə bağlı dəyərli tövsiyələrini verir. Ölkə Prezidenti Azərbaycan diasporunun fəaliyyətini keyfiyyətcə yeni, daha yüksək səviyyəyə qaldırmaq üçün ötən dövrdə sistemli, ardıcıl tədbirlər gerçəkləşdirmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı əsasında keçirilmiş dünya azərbaycanlılarının sonrakı 3 qurultayında xarici ölkələrdə yaşayan azərbaycanlıların problem və qayğıları daha dərindən və əhatəli nəzərdən keçirilmiş, Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, diaspor quruculuğu işinin təkmilləşdirilməsi sahəsində qarşıda duran vəzifələr ciddi müzakirə edilmiş, təsirli tədbirlər hazırlanıb həyata keçirilmişdir. Xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində yeni vəzifələri müəyyənləşdirən bu qurultaylar, ümumilikdə, Azərbaycanın inkişafında, ən yeni tarixində önəmli hadisələrə çevrilmişdir.

Hazırda dünya azərbaycanlılarının lideri sayılan İlham Əliyev dəfələrlə vurğulamışdır ki, ümummilli liderimizin irəli sürdüyü azərbaycançılıq ideologiyası etnik mənsubiyyəti, milli-mənəvi dəyərləri qoruyub saxlamağa, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnməyə, hər bir insanın inkişafını təmin etməyə yönəlmiş universal və milli-fəlsəfi dünyagörüşü formasıdır. Azərbaycançılıq dövrün, zamanın tələbindən irəli gələn, günümüzün gerçəkliklərini özündə əks etdirən hakim dövlət ideologiyasıdır. Bu ideya möhkəm dayağa çevrilərək son iki onillikdə Azərbaycan diasporunun təşkili işini sürətləndirmiş, xaricdə fəaliyyət göstərən müxtəlif ictimai birliklərin, cəmiyyətlərin, dərnəklərin ideoloji-siyasi cəhətdən təkmilləşməsini stimullaşdırmışdır.

Dövlət başçısı Azərbaycanın beynəlxalq arenadakı nüfuz və mövqelərinin daha da gücləndirilməsini, respublikamız haqqında tam obyektiv, dolğun informasiyaların dünya ictimaiyyətinə çatdırılmasını diaspor təşkilatları qarşısında vacib məsələ kimi müəyyənləşdirmişdir. Məhz Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı sayəsində dünyanın bütün ölkələrindəki Azərbaycan diasporu çox mütəşəkkil birləşib və onların fəaliyyət dairəsi daha da genişlənib. İndiki mərhələdə diasporumuzun qarşısında əsas məqsədlərdəm biri də yaşadıqları ölkədə digər xalqların diaspor təşkilatları ilə əmək-

daşlıq etmək, zərurət yarandıqla onlarla bir mövqedən çıxış edə bilmək və Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında onların dəstəyini qazanmaqdır.

Ötən il xalqımız Yeni dövrdə dövlətçilik tarixinin şanlı səhifəsini– Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümünü dünya miqyasında möhtəşəm təntənə ilə qeyd etdi. Cümhuriyyət bayramı harada yaşamasından asılı olmayaraq bütün dünya azərbaycanlıları üçün ortaq təntənə, şərikli sevinc bayramına çevrilmişdir. Bu tarixin qeyd olunması həm də bizim üçün öz keçmişimizə və onun aynasında bugünümüzə baxıb müəyyən nəticələr çıxarmaq, Xalq Cümhuriyyətinin varisi olan indiki Azərbaycan Respublikasının keçib gəldiyi istiqlal yolunu təkrar gözdən keçirmək üçün bir vəsilədir. Bir əsr öncə dünyaya bir müsəlman dövləti olaraq ilk cümhuriyyəti, demokratik respublikanı vermiş Azərbaycan və azərbaycanlılar üçün bu gün “biz kimik və çağdaş dünyada yerimiz haradadır” sualına cavab axtarmaqda bu tarix önəmli çıxış nöqtəsidir.

Prezident İlham Əliyevin dünya azərbaycanlılarının II qurultayında (mart 2006) demişdir: “Biz hər istiqamətdə çox sürətlə, düşünülmüş proqram və konsepsiya əsasında irəliləyirik. Bu işdə Azərbaycan diasporunun böyük rolu var. Mən istəyirəm ki, həm Azərbaycanın dünyada təbliğ edilməsində, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılmasında, azərbaycanlıların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakında bu rol daha da güclü olsun. Bu, bizim mövqelərimizi möhkəmləndirir. Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək”.

Azərbaycanı dünyaya tanıdan milli-mənəvi irs olaraq azərbaycançılıq həm də Azərbaycanın tarixinin, mədəniyyətinin dünyada təbliği deməkdir. Azərbaycanın böyük ədib və mütəfəkkirlərinin, alimlərinin, mədəni irsimizin beynəlxalq miqyasda tanıdılması da bu işin mühüm tərkib hissəsidir. Əlamətdar haldır ki, bu istiqamətdə dövlət qurumları ilə yanaşı, qeyri-dövlət xəttilə də mühüm işlər görülür. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın bu sahədə gördüyü işlər Azərbaycan mədəniyyətinin, tarixinin təbliğinə böyük töhfədir. Azərbaycanın zəngin mədəni irsinin beynəlxalq səviyyədə layiqincə təqdim olunması nəticə etibarilə ölkəmizin beynəlxalq nüfuzuna xidmət edir.

Dünyada qloballaşmanın yayıldığı zamanda bu prosesə öz milli-mənəvi irsi ilə qoşulmaq hər bir xalq üçün böyük önəm daşıyır. Azərbaycançılıq ideyası da məhz bu qlobal çağırışlara cavab verir. Bu nöqteyi-nəzərdən azərbaycançılıq Azərbaycanın dünya birliyinə inteqrasiyasının da ideya əsasını təşkil edir. Biz bu ideya ilə özümüzü dünyaya tanıdır, onu mütərəqqi dünya dəyərlərini (tolerantlıq, etnik müxtəliflik) özündə birləşdirən ideologiya kimi təbliğ edirik. Avropa ilə Asiyanın qovuşuğunda yerləşən Azərbaycan üçün bu ideologiya mədəniyyətlərarası dialoqa mühüm bir körpüdür.

**Nizaməddin ŞƏMSİZADƏ,**
**Əməkdar elm xadimi, professor.**

# HEYDƏR ƏLİYEV İRSİ AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ TARİXİNDƏ

***Hazırkı dövrdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərin bir şəkildə inteqrasiya prosesi hələ 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır.***

**“İndi Azərbaycan Respublikası müstəqil dövlət kimi öz dövlətçiliyinin bütün sahələrində çox iş görməlidir.**

**Dünya miqyasında bir müstəqil dövlət kimi yaşamaq, beynəlxalq aləmdə layiqli yer tutmaq üçün Azərbaycan xalqı həm bugünkü potensialından səmərəli istifadə etməli, həm də öz gələcəyi haqqında düşünməlidir”.**

**Heydər ƏLİYEV.**

Bu, bir danılmaz faktdır ki, respublikamızın çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev dövrü misilsiz əhəmiyyət kəsb edir. Dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyev öz müdrik fəaliyyəti ilə çağdaş Azərbaycan tarixinin ən şanlı və parlaq səhifələrini yaradıb. Ulu öndər Azərbaycanı dünyaya tanıdıb, onun etibarlı və nüfuzlu tərəfdaş olduğunu sübut edib. Bu dahi şəxsiyyət bir qərinəni əhatə edən dövrdə Azərbaycana rəhbərlik edib, 5 ildən artıq SSRİ kimi böyük bir dövlətin ali rəhbərlərindən olub. Müasir Azərbaycanın memarı Heydər Əliyev bu barədə belə deyirdi: “14 il burada çalışdım. Beş ildən artıq Moskvada işləyərkən yenə də Azərbaycana daha çox vəsait ayırmaqla, respublikamızın işini daha da irəliyə aparmaqla məşğul oldum. Mən üst-üstə 20 il bu işləri gördüm”.

Haqlı olaraq bu gün biz fəxrlə qeyd edə bilərik ki, indiki dövlət suverenliyimiz və iqtisadi müstəqilliyimizin təməli 1970-1985-ci illərdə qoyulmuşdur.

Böyük rəhbərimiz Heydər Əliyev haqqında ilk doktorluq dissertasiyasının müəllifi kimi və ulu öndərin irsini, həyat və fəaliyyətini dərindən araşdıran tarixçi-alim kimi bu illərdə bir çox maraqlı faktların üzə çıxarılmasına nail olmuşam. Qeyd etdiyim kimi, ümummilli liderin hakimiyyətinin birinci dövründə respublikamız, iqtisadiyyatımız tənəzzüldən inkişafa doğru istiqamət götürdü. Həmin dövrün statistikasına nəzər salanda bunu əyani şəkildə görmək olar. Məsələn, 1971-ci ildə respublikanın neftçıxarma tarixində ilk dəfə olaraq milyardıncı ton neft çıxarılmışdı. Pambıq istehsalı 1971-ci ildə 381,6 min ton idisə, 1981-ci ildə 1 milyon tona, üzüm istehsalı 381,9 min tondan 1 milyon 616 min tona, taxıl istehsalı 211,9 min tondan 1 milyon 150 min tona çatmışdı. Ulu öndərin ölkəmizə rəhbərlik etdiyi birinci dövrdə (yəni cəmi 14 ildə) iri sənaye müəssisələrinin ümumi sayı 1048-ə çatdırılmışdı. Əsas istehsal sa-

həsi olan neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesi inkişaf etdikcə Azərbaycan keçmiş SSRİ-nin ən qabaqcıl respublikalarından birinə çevrilirdi. 1982-ci ildə kimya və neft-kimya sənayesinin, maşınqayırma və metal emalının, yüngül və yeyinti məhsulları sənayesinin xüsusi çəkisi sənayenin strukturunda 1913-cü ildəki 14,8 faizə qarşı 75,6 faiz təşkil edirdi.

Sovet hakimiyyəti dövründə qeyri-adi sayılan rəsmi mərasimlərdə ana dilində danışmaq təşəbbüsü ilk olaraq Heydər Əliyev tərəfindən qaldırılmışdı və bununla da bu sahədə olan "status-kvo"ya son qoyulmuşdu. Böyük rəhbərin doğma dilimizlə bağlı mühüm addımları bununla bitməmişdi. Belə ki, böyük müqavimətləri dəf edərək Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması barədə məşhur 73-cü maddənin salınması Heydər Əliyevin böyük siyasi iradəsinin və gələcək məqsədinin ifadəsi idi. 1995-ci il oktyabrın 31-də müstəqil Azərbaycan Respublikasının Konstitusiya layihəsinin dövlət dili haqqında maddəsinin müzakirəsində Konstitusiya Komissiyasının sədri Heydər Əliyev 1978-ci il Azərbaycan SSR Konstitusiyasına 73-cü maddənin salınmasının əhəmiyyətindən danışaraq demişdir: "...O zamanın şəraitində respublikamızda, ümumiyyətlə, ölkəmizin tarixində çox böyük hadisə idi".

Heydər Əliyev fenomeninin unikallığı ondadır ki, o, öz siyasətini heç bir zaman birtərəfli qurmurdu. Ümummilli liderin gördüyü işlər kompleks tədbirlər sistemindən ibarət idi. Bu baxımdan, 1970-ci illərdə Azərbaycanda milli hərbi kadr hazırlığına başlanılması xüsusi olaraq maraq doğurur. Məlumdur ki, sovet hakimiyyəti illərində azərbaycanlılar hərbi kadr hazırlığına və SSRİ hərbi elitasına yaxın buraxılmırdılar. Halbuki, Azərbaycan ərazisində SSRİ səviyyəsində strateji əhəmiyyət kəsb edən bir neçə ali hərbi məktəb var idi. Həmin məktəblərdə təhsil alan kursantların milli mənsubiyyəti Azərbaycan üçün həqiqətən acınacaqlı idi. Respublika ərazisində yerləşməsinə baxmayaraq, bu məktəblərin minlərlə məzunu arasında yalnız beş-altı azərbaycanlı vardı və onların da çoxu "beynəlmiləl" ailələrin üzvləri idilər. Təbii ki, bu tendensiya həmişə azərbaycanlı olması ilə fəxr edən Heydər Əliyev kimi böyük şəxsiyyəti narahat etməyə bilməzdi. Dövlət başçısının şəxsi müdaxiləsi və qayğısı ilə 70-ci illərdən başlayaraq, Bakıdakı ali hərbi məktəblərə qəbul olunan gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başladı. Artıq 1979-cu ilin statistikasına görə, kursantların 65 faizini azərbaycanlılar təşkil edirdi.

Azərbaycan xalqının dahi oğlu, tarixi şəxsiyyət Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyi onun keçmiş SSRİ-də ən görkəmli siyasi xadim, rəhbər və dövlət başçısı olduğunu göstərdi. Nəticədə, 1982-ci ilin sonunda o, Moskvaya, partiya və dövlət hakimiyyətinə, yüksək vəzifəyə irəli çəkildi. SSRİ Ali Sovetinin 22 noyabr 1982-ci il tarixli qərarı ilə Heydər Əlirza oğlu Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi.

Ulu öndərimiz 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi

Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa verdi. Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması, hər şeydən öncə, ermənipərəst M.Qorbaçovun Azərbaycana qarşı mənfur siyasətini reallaşdırmaq üçün əvvəlcədən düşünülmüş planlarını həyata keçirmək kimi çirkin məqsədindən irəli gəlirdi.

Ümummilli liderin SSRİ rəhbərliyindən uzaqlaşdırılmasının səbəbləri və xalqımız üçün ağır nəticələri tezliklə aşkar oldu. O, bu haqda demişdir: "Siyasi Bürodan istefa verdikdən 15 gün sonra Qarabağ məsələsi ortaya çıxdı. Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan professor Aqanbeqyan Parisdə keçirdiyi bir mətbuat konfransında "Dağlıq Qarabağ Ermənistana verilməlidir" – demiş, bu məsələ ilə əlaqədar Qorbaçovu da qızışdırmışdı. Moskvanın Qarabağ əməliyyatı mənim Siyasi Bürodan getməyimdən 15 gün sonra həyata keçirilməyə başladı. Deməli, bu plan hələ əvvəlcədən hazırlanmışdı, lakin tətbiq olunmasında mən ciddi maneə imişəm".

1991-ci ilin iyulunda Heydər Əliyev Moskvada olarkən Sovet İttifaqı Kommunist Partiyasından çıxmaq haqqında bəyanat verdi. O vaxtkı Kreml sarayında verilmiş həmin sənədi gizlətdilər, mətbuatda açıqlamadılar. Bunun isə ciddi səbəbləri vardı. Çünki həmin bəyanatda Heydər Əliyevin partiyadan çıxmasının səbəbləri göstərilmişdi. Birinci səbəb Kommunist Partiyasının rəhbərliyi tərəfindən Azərbaycan xalqının başına gətirilmiş bəla və Qarabağ məsələsi ilə bağlı Azərbaycan xalqına olan təcavüz, ikinci səbəb 20 Yanvar faciəsi, Azərbaycan xalqına qarşı təcavüz və həmin təcavüzün ört-basdır edilməsi idi. Əlbəttə, hələ Sov.İKP-nin yaşadığı və güclü olduğu bir zamanda onu ifşa etmək insandan xüsusi cəsarət və mərdlik tələb edirdi. Üstəlik, vətəndaş yanğısı və aydın mövqeyinin olması da vacib idi. Nəhayət, ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət vermək mümkün olmuşdur. Respublika Prezidentinin 1994-cü il 5 yanvar tarixli fərmanına müvafiq olaraq ölkə parlamenti – Milli Məclis bu məsələ ilə bağlı xüsusi iclas keçirmiş və 1994-cü il 29 mart tarixli qərarı ilə 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət vermişdi.

Ulu öndər Vətənin ağır günlərində xalqının yanında olmağa qərar verdi və bu məqsədlə də Azərbaycana qayıtdı. 20 iyul 1990-cı ildə Moskvadan Bakıya, iki gün sonra isə ağır blokada vəziyyətində olan Naxçıvana gələn Heydər Əliyevi xalq böyük coşqunluqla qarşıladı. 22 iyul 1990-cı il tariximizə böyük bir mərhələnin başlanğıcı kimi daxil olmuşdur. Muxtar respublikanın əhalisi müxtəlif şəhər və kəndlərdən ümummilli liderimizin ziyarətinə gəlirdilər, onun ətrafında sıx birləşmək arzusunda olduqlarını bəyan edirdilər.

"Doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq ... üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmi-

şəm”, – deyən ulu öndər xalqın ən ağır günündə onun yanında oldu. Naxçıvana gəlişindən az sonra, 1990-cı ilin avqustunda gənclərlə görüşdə Heydər Əliyevin dediyi aşağıdakı sözlər onun əsas amalını konkret şəkildə ifadə edirdi: “Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir”.

30 sentyabr 1990-cı ildə keçirilən seçkilərdə Naxçıvan Muxtar Respublikasının əhalisi yekdilliklə ulu öndəri Azərbaycan SSR-in və Naxçıvan MSSR-in xalq deputatı seçdi. 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyası Heydər Əliyevin sədrliyi ilə fəaliyyətə başlamışdı. Həmin sessiyada təkcə Naxçıvan üçün deyil, ümumən, Azərbaycan üçün son dərəcə böyük əhəmiyyətə malik taleyüklü qərarlar qəbul olunmuşdu. Belə ki, sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözlərinin çıxarılması, Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması, milli istiqlal rəmzi olan üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında tarixi qərarlar qəbul olunmuşdu. Həmçinin, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həmin bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət də qaldırmışdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında müzakirə edilən ən mühüm məsələlər sırasında 1990-cı ilin 20 Yanvar faciəsi və Dağlıq Qarabağ münaqişəsi də var idi. Yeri gəlmişkən, qeyd edək ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi bu tarixi əhəmiyyətli qərarlar xeyli sonra Azərbaycan parlamenti tərəfindən də qəbul olunmuşdu. 1990-cı ilin 21 noyabrında Naxçıvan Muxtar Respublikasının Ali Məclisi böyük dövlət xadimi Heydər Əliyevin işləyib hazırladığı “1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında” tarixi qərar qəbul etmişdi. Ümumiyyətlə, həmin vaxt böyük rəhbərimiz muxtar respublikanın ictimai-siyasi həyatında yaxından iştirak etmiş, xalqımızın demokratiya və müstəqillik uğrunda mübarizəsinə misilsiz xidmətlər göstərmişdir.

Azərbaycanda siyasi şəraitin ağırlaşması, o zamankı ölkə rəhbərliyinin səriştəsizliyi, daxildə çəkişmələrin artması respublikanın dövlət müstəqilliyi üçün təhlükə yaradırdı. Müstəqilliyimizin ilk illərində hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı tələbi ilə ayağa qalxdı. Yeni Azərbaycan uğrunda siyasi hərəkat genişləndi. 1992-ci il oktyabrın 16-da Azərbaycanın bir qrup ziyalısı Heydər Əliyevə müraciətlə Azərbaycanda yeni siyasi partiyanın yaradılmasını və onun bu partiyada iştirak etməsini xahiş edirlər.

Böyük vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə şübhəsiz ki, kənardan baxa bilməzdi. O, müraciətə müsbət cavabı ilə bir daha xalqla bir, həmrəy olduğunu nümayiş etdirdi. Oktyabrın 24-də ulu öndər müraciətə cavabında bildirmişdi: “Azər-

baycanın bugünkü həyatı və gələcək taleyinə dair digər problemlər də məni narahat edir. ... Zənnimcə, onların ən qısa müddətdə həlli müstəqil Azərbaycan dövləti üçün son dərəcə vacibdir. Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərinə biganə qalmağa heç kəsin haqqı yoxdur".

Noyabrın 5-də Yeni Azərbaycan Partiyası Təşkilat Komitəsinin yığıncağında Heydər Əliyev Təşkilat Komitəsinin sədri seçildi. Noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Heydər Əliyev partiyanın sədri seçildi.

Müstəqil, müasir Azərbaycan dövlətini yaratmaq xilaskar kimi ulu öndər Heydər Əliyevə nəsib oldu. Onun 1993-cü ildə hakimiyyətə qayıdışı ilə milli ideologiyamızın əks olunduğu dövlətçilik konsepsiyası hazırlandı. Prezident İlham Əliyevin 21 yanvar 2013-cü il tarixli "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" sərəncamında vurğulandığı kimi, "Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin Əsas Qanunu – Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissəsidir".

Heydər Əliyevin çağdaş tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Milli Məclisinin sədri seçilməsi ilə respublikada demokratiyanın, qanunçuluğun, hüquqi dövlət quruculuğunun bünövrəsi qoyuldu. 1993-cü ilin iyun-oktyabr ayları və sonrakı dövrdə müstəqil Azərbaycan dövlətinin qorunması və möhkəmləndirilməsi uğrunda Heydər Əliyevin mübarizəsi strateji məqsəd daşıyırdı. O, strateji və demokratik yolun mahiyyətini belə səciyyələndirirdi: "Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir".

1993-cü ildə Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlişilə Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental mahiyyət kəsb etməyə başladı. Eyni zamanda, 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində Heydər Əliyev Azərbaycan dövlətçiliyini faciələrdən və iflasdan xilas edə bildi. 1994-cü ilin oktyabr hadisələri zamanı televiziya və radio ilə xalqa müraciətində milli təhlükəsizliyimizə qarşı yaranmış vəziyyətlə əlaqədar hamını həmrəy olmağa çağıran Heydər Əliyev deyirdi: "Əziz həmvətənlər, Azərbaycan vətəndaşları! Bu ağır

dəqiqələrdə bir daha sizə müraciət edirəm. Sizi əmin edirəm ki, Azərbaycanın dövlətçiliyini qorumaq üçün son nəfəsimə qədər, son damla qanıma qədər öz yerimdəyəm. Xalqla birlikdəyəm. Xalqın təhlükəsizliyini qorumağa çalışacağam. Bundan ötrü lazımi imkanlardan istifadə edəcəyəm. Eyni zamanda, əziz həmvətənlər, sizə güvənirəm, sizə arxalanıram".

Ümummilli lider Heydər Əliyev Azərbaycanda demokratik dövlət quruculuğu prosesini həyata keçirərkən aşağıdakı əsas prinsip və meyarları prioritet hesab etmiş və onların yüksək səviyyədə təmin olunmasını daim nəzarətdə saxlamışdır: 1) Çoxluğun hakimiyyətinin bərqərar olması, çoxluğun qəbul etdiyi qanun və qərarların həyata keçirilməsində hamının iştirakının təmin edilməsi; 2) Cəmiyyətdə qanunun aliliyinin təmin edilməsi, bunun üçün real maddi, sosial-siyasi və mənəvi təminat sisteminin formalaşdırılması, hüquqi dövlət anlayışının reallaşdırılması; 3) Milli, dini, siyasi mənsubiyyətindən asılı olmayaraq vətəndaşların hüquq bərabərliyi və azadlıqlarının qorunması; 4) Millətlərarası etnik və dini ədavət, ayrı-seçkilik hallarına yol verilməməsi, xalqlar dostluğu ideyasının gündəmə gətirilməsi; 5) Qanunvericilik və icraedicilik orqanlarının seçkili əsaslarla formalaşdırılması, xalq qarşısında hesabatlılıq, konstitusiyanın toxunulmazlığı; 6) Çoxpartiyalılığa, fikir plüralizminə meydan verilməsi.

Ulu öndər Heydər Əliyevin bir qərinədən artıq davam edən ölkəyə rəhbərlik, millətə liderlik fəaliyyətində təhsilə və elmə, bütövlükdə, xalqın intellektual səviyyəsinin yüksəldilməsinə qayğı bütün dövrlərdə üstün yer tutmuş, prioritet istiqamətlərdən biri olmuşdur. Əslində, Heydər Əliyevin rəhbərliyi ilə tariximizin 34 illik milli intibahı mahiyyət etibarilə xalqın təhsillənmə səviyyəsinin yüksəlişi, fundamental elmin yaranması, milli mədəniyyətin tərəqqisi ilə sıx bağlı olmuşdur. Bütün bunların hamısı təhsil sistemi və ondan səmərəli istifadə edilməsi nəticəsində mümkün olmuşdur. Bu mənada, təhsilin milli tərəqqidəki böyük rolundan danışarkən, Heydər Əliyevin dediyi kimi, "...təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycanın elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq..."

Güclü, inkişaf etmiş iqtisadiyyat güclü, qüdrətli dövlət deməkdir. Azərbaycanda neft sənayesi yalnız müstəqil Azərbaycan Respublikasının yaranmasından sonra xalqın milli sərvətinə, malına çevrilmişdir. Neft Azərbaycanın gələcək inkişafı üçün əsas, təməl, bünövrədir. Neft sənayesinin inkişaf etdirilməsi Azərbaycan dövləti qarşısında duran ən ümdə vəzifələrdəndir. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev 1994-cü il sentyabrın 16-da keçirdiyi brifinqdə demişdi: "... biz indi də, gələcəkdə də Azərbaycanın təbii sərvətlərindən, xü-

susən, ən böyük təbii sərvətimiz olan neft yataqlarından çox ehtiyatla, səriştəli istifadə olunmasına çalışmalıyıq. Çalışmalıyıq ki, bu sərvətlərdən Azərbaycan xalqının bu günü və gələcəyi üçün maksimum mənfəət götürək".

Üç ildən çox müddətdə aparılan danışıqlar nəticəsində 1994-cü il sentyabrın 20-də Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Bakıda, "Gülüstan" sarayında Xəzər dənizinin Azərbaycan sektorunda olan "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından birgə neft çıxarılması haqqında ilk neft müqaviləsi imzalandı. İndi bütün dünyada "Əsrin müqaviləsi" adı ilə tanınmış bu müqavilənin imzalanması və gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və böyük siyasətçi Heydər Əliyev tərəfindən hazırlanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Azərbaycanın "Əsrin müqaviləsi"ndən başlanan yolu haqqında Heydər Əliyev demişdir: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir".

Neft müqaviləsi – "Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev böyük iftixarla bildirirdi: "Mən bu müqavilənin hazırlanmasında, imzalanmasında iştirak etdiyimə görə özümü çox xoşbəxt hesab edirəm. Üzərimə götürdüyüm məsuliyyəti dərk edirəm və ümidvaram ki, gələcək nəsillər bu gün burada baş verən tarixi hadisəni layiqincə qiymətləndirəcəklər".

Azərbaycanın iqtisadi həyatında əldə etdiyi yuxarıda vurğuladığımız uğurlar onun siyasi nüfuzunun artmasına da öz təsirini göstərdi. Əbədi rəhbərimiz Heydər Əliyev 1994-cü il sentyabrın 29-da BMT Baş Məclisinin 49-cu sessiyasındakı çıxışında Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırır, respublikamızın dünya iqtisadiyyatına inteqrasiyası sahəsində atdığı ilk addımları bəyan edirdi. Xüsusi məmnuniyyətlə qeyd edirdi ki, "Biz addım-addım irəliləyərək xarici dünya ilə əməkdaşlıq binasını ucaldırıq. Biz beynəlxalq əməkdaşlığa xüsusi əhəmiyyət veririk və mən böyük məmnuniyyət hissi ilə Sizə bildirmək istəyirəm ki, Azərbaycan Respublikası sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının birgə istismarı sahəsində bir sıra iri dünya şirkətlərinin konsorsiumu ilə 30 illik müqavilə imzalamışdır".

Azərbaycan Respublikasının TASİS və TRASEKA proqramları çərçivəsində Avropa İqtisadi Komissiyası ilə sıx əməkdaşlığı yaradılmışdır. Bunun nəticəsində 1995-1998-ci illərdə Avropa-Asiya istiqamətində tranzit yüklərinin daşınmasında respublikamızın nəqliyyat-kommunikasiyasından istifadə edilmiş və onun yükdaşıma dövriyyəsi 10 dəfə artmışdı. Bu sahədə fəaliyyətin genişlənməsində Heydər Əliyevin uzaqgörən, genişmiqyaslı və böyük perspektiv əhəmiyyətli xarici siyasəti Azər-

baycanın beynəlxalq birliyə iqtisadi inteqrasiyası işində yeni bir addım olmuşdu. 1993-cü ildə "Avropa-Qafqaz-Asiya Transqafqaz nəqliyyat dəhlizi (TRASEKA)" proqramı qəbul olunmuşdu. Avropa Birliyi Komissiyasının təklifi ilə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Ermənistan, Tacikistan, Türkmənistan, Özbəkistan nümayəndələrinin 1993-cü ilin mayında Brüsseldə görüşü keçirilmiş və orada regionun nəqliyyat infrastrukturunun inkişafı məsələləri müzakirə edilmişdi. Heydər Əliyev Azərbaycanın əlverişli coğrafi-siyasi mövqeyindən respublikamız üçün səmərəli istifadə etmək üçün bu proqramın reallaşmasında təşəbbüsü ələ almış və 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində tarixi "Böyük İpək Yolu"nun bərpası üzrə beynəlxalq konfransın keçirilməsinə nail olmuşdu.

Heydər Əliyev ölkədə demokratik, dünyəvi, hüquqi dövlət quruculuğunun əsasını qoydu və apardığı islahatlarla dövlətçiliyimizi getdikcə daha da inkişaf etdirməyə başladı. Ulu öndər ölkə prezidenti seçildikdən cəmi bir il sonra - 1994-cü il sentyabrın 29-da BMT Baş Məclisinin 49-cu sessiyasındakı çıxışında insan hüquqları və azadlıqlarının qorunmasının onun üçün prioritet əhəmiyyət kəsb etdiyini nəzərdə tutaraq söyləmişdir: "Respublikamızda artıq çoxpartiyalı sistem mövcuddur, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri möhkəm bərqərar olmuşdur. Dərisinin rəngindən, din və dil mənsubiyyətindən asılı olmayaraq, çoxmillətli Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlardan istifadə edirlər. Qarşımızda duran ən mühüm vəzifə Konstitusiyanın əsas prinsiplərini dərindən mənimsəmək, respublika həyatına tətbiq etmək və onun verdiyi təminatları reallaşdırmaqdan ibarətdir".

Böyük rəhbərimizin Azərbaycan xalqı qarşısında heç vaxt unudulmayacaq xidmətləri onun tanınmış dünya liderləri tərəfindən də obyektiv və düzgün qiymətləndirilməsinə səbəb olmuşdur. Onlardan cəmi ikisini göstərmək istərdik:

Amerika Birləşmiş Ştatlarının keçmiş prezidenti Corc Buş ulu öndərimizə böyük qiymət verərək demişdir: "Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlərdə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Məhz onun rəhbərliyi altında Amerika Birləşmiş Ştatları və Azərbaycan Əfqanıstanda və İraqdakı əməliyyatlar da daxil olmaqla, terrorizmə qarşı mübarizədə tərəfdaş olmuşlar. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Eyni zamanda, onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının

həyatını yaxşılaşdırmış və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır". Türkiyə Cümhuriyyətinin o zamankı prezidenti Əhməd Necdət Sezər isə aşağıdakıları söyləmişdir: "Uzaqgörən və istedadlı idarəçiliyi sayəsində Azərbaycanın hər sahədə inkişaf etməsini və bugünkü nüfuzlu mövqeyə çatmasını təmin edən Heydər Əliyevi şəxsən tanıdığıma görə böyük şərəf və xoşbəxtlik hissləri keçirirəm. Azərbaycanın əmin-amanlığı və çiçəklənməsi üçün göstərdiyi səylərlə yanaşı, Heydər Əliyev bütün Qafqaz bölgəsinin sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətindəki fəaliyyəti ilə də daim xatırlanacaqdır. Heydər Əliyevin dəyərli töhfələri ilə başlanmış müştərək layihələr dost və qardaş dövlətlərimizi bir-birinə daha da yaxınlaşdıraraq, ölkələrimiz arasındakı münasibətlərin sarsılmaz təməllər üzərində qurulduğunu bir daha sübut etmişdir".

Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında saysız-hesabsız xidmətlərindən biri də Əsas Qanunun - Azərbaycan Konstitusiyasının hazırlanması və qəbul edilməsidir. Müstəqil Azərbaycan Konstitusiyasının yaradılması missiyasını məhz Heydər Əliyev öz üzərinə götürdü. Bununla da, o, Azərbaycan Respublikası Konstitusiyasının yaradıcısı kimi tarixi missiyanı uğurla həyata keçirdi. Müstəqil dövlətimizin ilk Konstitusiyasının yaradılmasının təşəbbüsçüsü, rəhbəri və yaradıcısı məhz Heydər Əliyev oldu.

1995-ci ilin iyul ayında Milli Məclisin iclasında Prezident Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiyasını hazırlayan Dövlət Komissiyası təşkil edildi. Prezident öz fəaliyyətində həm də aşkarlığa xüsusi əhəmiyyət verirdi. O qeyd edirdi: "Bu da təsadüfi deyil. Çünki bizim işimiz tam aşkarlıq şəraitində keçir. Azərbaycan Respublikasında aşkarlıq, demokratik prinsiplər bərqərar olub və bərqərar olmaqdadır". Elə həmin iclasda Konstitusiya Komissiyasının qarşısında duran vəzifələr müəyyən edildi.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin hüquqi bazasını yaratdı və onun inkişafına təkan verdi. Konstitusiya qəbul edilən gündə, noyabrın 12-də respublika parlamentinə – Milli Məclisə ilk dəfə olaraq çoxpartiyalılıq əsasında demokratik seçkilər də keçirildi. Azərbaycan Prezidenti ilk Konstitusiyanın qəbul edilməsinin milli dövlətçilik tarixində müstəsna əhəmiyyətini nəzərə alaraq 1 noyabr 1996-cı il tarixli fərmanı ilə hər il noyabrın 12-nin ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilməsini qərara aldı.

Ulu öndərin dövlətçilik konsepsiyasının uğurlu istiqamətlərindən biri də ölkəmizin 2001-ci il yanvarın 25-də Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmasıdır. Bu nüfuzlu qurumla hərtərəfli əməkdaşlıq edən ölkəmizin qazandığı ən mühüm nailiyyətlərdən biri müstəqillik tarixində ilk dəfə olaraq Azərbaycan nümayəndəsinin Avropa Şurasının rəhbərliyində təmsil olunması idi. Avropa Şurası Parlament Assambleyasının 2003-cü ilin yanvarında keçirilən qış sessiyasında Azərbaycanı bu nüfuzlu qurumda təmsil edən nümayəndə heyətinin

rəhbəri İlham Əliyevin AŞPA-nın vitse-prezidenti və Büro üzvü seçilməsi Azərbaycanın beynəlxalq aləmdə qazandığı nüfuzun ən uğurlu və ən bariz göstəricilərindən biri sayılmalıdır.

Elmin, təhsilin, mədəniyyətin böyük himayəçisi, əvəzsiz maarifpərvər Heydər Əliyevin 1993-cü ilin iyununda yenidən Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı ilə bütün sahələrdə olduğu kimi, elm, təhsil və mədəniyyət sahəsində də tənəzzülün, böhranın, dağılmanın qarşısı alındı. Qeyd etmək lazımdır ki, təhsilə, elmə və mədəniyyətə böyük qayğı Heydər Əliyev şəxsiyyətinin həmişə aparıcı əlaməti, onun daxili ziyalılığının, maarifpərvərliyinin mühüm təzahürü olub. Bu, onun öz xalqını, millətini sivil dünyanın inkişaf etmiş xalqlarından biri kimi görmək istəyinin parlaq ifadəsidir.

Heydər Əliyev tərəfindən belə bir konsepsiya, strateji xətt hazırlanıb həyata keçirilməyə başladı ki, dövlətin, dövlətçiliyin təməl prinsipləri içərisində milli təhsil, bəşəri elm və milli mədəniyyət müstəsna yer tutur.

Bu gün Azərbaycan Respublikası Heydər Əliyevin müəyyənləşdirdiyi yolla inamla irəliləyir. Son 16 ildə Heydər Əliyev siyasətinin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın ən yüksək zirvələri fəth etməsini stimullaşdırmışdır. Prezident kimi fəaliyyətə başladığı gündən xalqı qarşısında görəcəyi işlərin prioritetlərini açıqlayan cənab İlham Əliyev "Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacaq, heç vaxt bu yoldan dönməyəcəyəm" söyləyərək, bu vədini əməli işi ilə təsdiqlədi. 2003-2018-ci illərdə gördüyü işlər, qazanılan uğurlar onun 2018-ci il prezident seçkilərində yenidən qələbəsini təmin etdi.

Dövlətimizin başçısı Azərbaycanın seçdiyi yolun yeganə düzgün yol, inkişaf və tərəqqi yolu olduğunu vurğulayaraq demişdir: "Bugünkü Azərbaycan uğurla inkişaf edir. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Heydər Əliyevin əsəridir. Bu, sadəcə olaraq sözlər deyildir. Bu, reallıqdır, bu, həqiqətdir. 1993-2003-cü illərdə siyasi sistemin möhkəmlənməsi, dövlətçilik ənənələrinin yaradılması, azərbaycançılıq məfkurəsinin bərqərar olunması nəticəsində bu gün Azərbaycan uğurla inkişaf edən ölkəyə çevrilibdir. O illərdə həm siyasi islahatlar, dünya birliyinə inteqrasiya siyasətimiz, həm daxildə aparılan iqtisadi və sosial islahatlar uğurlu inkişaf üçün möhkəm zəmin yaratmışdır. Bu gün müasir Azərbaycan bu möhkəm təməl üzərində uğurla inkişaf edir. Azərbaycan bu gün Heydər Əliyev yolu ilə gedir. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və özünü bütün istiqamətlərdə göstərir".

**İradə HÜSEYNOVA,**
**Bakı Dövlət Universitetinin Qafqaz xalqları tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi, YAP Siyasi Şurasının üzvü.**
www.bsu.edu.az

# PREZİDENT İLHAM ƏLİYEVİN PRAQMATİK SİYASƏTİ AZƏRBAYCANI BÜTÜN DÜNYADA NÜFUZLU ÖLKƏ KİMİ TANIDIB

***Xalqımız 2003-cü il oktyabrın 15-də öz seçimini müəyyənləşdirdi: Azərbaycan xalqının və dövlətinin xilaskarı olan ulu öndər Heydər Əliyevin siyasi varisi cənab İlham Əliyev ölkə Prezidenti seçildi. O zaman Prezident İlham Əliyevin qarşısında dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi, iqtisadi artımın yüksək sürətinin təmin edilməsi və yeni iş yerlərinin yaradılması, xalqın sosial rifah səviyyəsinin yüksəldilməsi, Silahlı Qüvvələrin modernləşdirilməsi yolu ilə ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, xarici siyasət sahəsində milli maraqların təmin olunması və Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası kimi taleyüklü məsələlər dururdu.***

**Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti.**

Dövlətimizin başçısı həmin vaxt qarşıya qoyulan hədəflərin gerçəkləşdirilməsi üçün mükəmməl strategiyanın istiqamətlərini özündə ifadə edən "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" (noyabr 2003), "Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafının dövlət proqramının təsdiq edilməsi haqqında (2004-2008)" (fevral 2004) fərmanları imzaladı. Məhz bu fərmanlar ölkənin inkişafı ilə bağlı problemlərin yeni, innovasiyalı həllinə əsaslı şərait yaratdı. Beləliklə, Prezident İlham Əliyev Azərbaycanın innovasiya texnologiyaları əsasında modernləşdirilməsinə yönələn dövlət idarəçilik sistemini formalaşdırmağa başladı.

Dövlət başçısı ötən 16 il ərzində rəqəmsal texnologiyaların geniş tətbiqinə, infrastrukturun inkişafına üstünlük verib. Ölkədə tikinti, quruculuq-abadlıq işləri görülüb, məktəblərin və tibb müəssisələrinin təmiri, şəhərlərin və kəndlərin yeniləşməsi, yolların, yeni nəqliyyat qovşaqlarının və körpülərin inşası, müasir rabitə sistemlərinin yaradılması və yeni kommunikasiya texnologiyalarının tətbiqi geniş miqyas alıb.

Əhali ilə birbaşa təmasa hər zaman mühüm önəm verən Prezident cəmiyyətdə narahatlıq doğuran hər bir məsələdə xalqla həmrəylik nümayiş etdirib. İnsanları

düşündürən problemlərin həlli ilə bağlı operativ tədbirlər görüb. Məhz buna görə də hazırda ölkəmizdə işsizlik 45 faizdən 5 faizə, yoxsulluq

50 faizdən 5 faizə enib, ölkə ərazisinin 95 faizi qazlaşdırılıb. On altı ildə 16 min kilometrə yaxın yol çəkilib. Üç mindən çox məktəb tikilib, 600-dən çox tibb müəssisəsi yenidən inşa olunub və ya təmir edilib. Bu müddətdə 30-dan çox elektrik stansiyası istifadəyə verilib və Azərbaycan elektrik enerjisi ixrac edən ölkəyə çevrilib.

Son 16 ildə iqtisadiyyata 250 milyard dollardan çox sərmayə qoyulub. Nəticədə bu gün Azərbaycan şaxələndirilmiş iqtisadiyyat sisteminə malikdir. Bu sahədə ciddi nailiyyətlər qazanılıb. Neft sənayesi ardıcıl inkişaf edib, müasir texnologiyalarla təchiz olunan onlarca yeni sənaye müəssisəsi fəaliyyətə başlayıb. "2015-2020-ci illər üçün Azərbaycan Respublikasında sənayenin inkişafı üzrə Dövlət Proqramı" əsasında ölkədə çoxsaylı sənaye parkları və sənaye məhəllələri, texnoloji parklar yaradılıb, mövcud istehsal obyektləri genişləndirilib. İnnovasiyalı istehsal iqtisadiyyatda, o cümlədən aqrar sahədə aparıcı istiqamətə çevrilib. İxrac üçün sənaye məhsulları istehsalı yüksək sürətlə artıb.

İqtisadiyyatın aqrar sektorunda aparılan islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçıları üçün güzəştlər və dövlət yardımı bu sahənin inkişafına güclü təkan verib. Pambıqçılıq, taxılçılıq, ipəkçilik, üzümçülük, çayçılıq, tərəvəzçilik, çəltikçilik və arıçılıq kimi ənənəvi kənd təsərrüfatı sahələri dirçəldilib. Meyvə bağlarının sahəsi xeyli genişləndirilib. Aqroparklar ölkənin landşaftını tanınmaz dərəcədə dəyişib, xarici dövlətlərin Azərbaycanın kənd təsərrüfatı məhsullarına tələbatı xeyli artıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli nəqliyyat layihələri gerçəkləşdirilib: Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, 2014-cü il sentyabrın 20-də təməli qoyulan Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyində mühüm rol oynamağa başlayıb. Dəyəri 40 milyard dollardan artıq olan Cənub Qaz Dəhlizi layihəsi yüksək sürətlə reallaşdırılaraq, 2018-ci il mayın 29-da Bakıda rəsmi açılış mərasimi keçirilib. Həmin il iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi qeyd edilib. TAP layihəsinin reallaşdırılması da qrafik üzrə həyata keçirilir.

Dövlətimizin başçısının təşəbbüsü ilə Avropanı Asiya ilə birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılmasına başlanıb, 2017-ci il oktyabrın 30-da paytaxtımızda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı olub. Xatırladaq ki, bu dəmir yolunun tikintisi 2007-ci ildə başlanılmışdı. Bununla yanaşı, Azərbaycanın Rusiya, İran və Gürcüstan ilə sərhədlərinə qədər

yeni magistral avtomobil yolları çəkilib. Azərbaycan böyük siyasi, iqtisadi və strateji əhəmiyyət kəsb edən bu beynəlxalq layihələri reallaşdırmaqla Avrasiyanın çox mühüm tranzit və logistika mərkəzinə çevrilib.

Yeri gəlmişkən, 2013-cü il fevralın 8-də Azərbaycanın birinci, 2014-cü il iyunun 30-da ikinci, 2018-ci il sentyabrın 26-da isə üçüncü telekommunikasiya peyki orbitə çıxarılıb. Bununla da kosmik orbitə 3 peyk çıxaran ölkəmiz, həm də kosmik ölkələr klubuna daxil olub.

Ötən 16 il ərzində Oğuz-Qəbələ-Bakı su kəməri xətti çəkilib, ən iri sutəmizləyici qurğu tikilib, regionlarda çoxsaylı subartezian quyuları qazılıb, yüzlərlə modul tipli sutəmizləyici qurğu istifadəyə verilib, əhalinin içməli su ilə fasiləsiz təchizatı təmin olunub.

Bu illər ərzində qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə böyük iş aparılıb. Ölkədə bütün çadır düşərgələri və “fin evləri”ndən ibarət qəsəbələr ləğv edilib, yüzdən çox yeni qəsəbə və şəhərcikdə 300 mindən çox insan yerləşdirilib. Şəhid ailələri, müharibə veteranları və əlilləri xüsusi qayğı ilə əhatə olunub. Onlara dövlət hesabına 5500-dən çox mənzil, 6 mindən çox minik avtomobili verilib.

Sosial sahədə gerçəkləşdirilən islahatlar inqilabi xarakter daşıyıb. Bu il sentyabrın 1-dən etibarən pensiyalar, əlilliyə görə müavinətlər, tədris müəssisələrində təqaüdlər yüz faizdən çox artırılıb. Dövlət qulluqçularının, hüquq-mühafizə orqanlarının işçilərinin, hərbi qulluqçuların əməkhaqları artırılıb.

Ölkədə ictimai və sosial xidmətlər sahəsində ciddi institusional islahatlar aparılıb. Dövlət orqanları tərəfindən əhaliyə göstərilən xidmətləri vahid sistem şəklində birləşdirən “ASAN xidmət” və DOST Azərbaycanın brendlərinə çevrilib.

Hazırda ölkənin strateji valyuta ehtiyatlarının həcmi 50 milyard ABŞ dollarından çox, xarici borcun məbləği isə ÜDM-in cəmi 17 faizi qədərdir. Qeyd edim ki, Azərbaycanın strateji valyuta ehtiyatları 5 il ərzində idxalın maliyyələşdirilməsi üçün kifayətdir. Tədiyyə balansının və konsolidə edilmiş büdcənin profisiti isə makroiqtisadi sabitliyin və davamlı inkişafın əsasıdır. Cari ilin yanvar-noyabr aylarında ölkədə istehsal olunan ümumi daxili məhsulun həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,1 faiz artaraq 72 milyard 852,2 milyon manat təşkil edib. İqtisadiyyatın qeyri-neft-qaz sektorunda əlavə dəyər 3,5 faiz, neft-qaz sektorunda 0,2 faiz artıb. Əhalinin hər nəfərinə düşən ÜDM-in həcmi isə 7357,8 manata bərabər olub.

Yeri gəlmişkən, qeyd edək ki, son bir il ərzində islahatların aparılması ilə Azərbaycanda sosial-iqtisadi sahələr öz inkişafının yeni mərhələsinə daxil olub. Başqa sözlə, iqtisadi islahatlar (vergi-gömrük, tikinti, enerji şəbəkəsinə qoşulma, sa-

hibkarlığın dəstəklənməsi və s.), məhkəmə-hüquq islahatları (ədalət mühakiməsinin keyfiyyətinin, səmərəsinin və şəffaflığının artırılması), sosial islahatlar (institusional islahatlar və sosial paket) və kadr islahatları ölkədə sosial, siyasi və makroiqtisadi sabitliyin, əhalinin sosial firavanlığı və davamlı iqtisadi artımın təmin edilməsini gerçəkləşdirib.

Cari ilin əvvəlindən Azərbaycan iqtisadiyyatının imkanlarının çoxalması büdcənin gəlir hissəsinin 18 faiz artmasına gətirib çıxarıb. Prezidentin siyasi iradəsi ilə artan büdcə imkanları bilavasitə əhalinin sosial rifahının yaxşılaşdırılmasına yönəlib. Bir məqam xüsusi əhəmiyyət kəsb edir ki, sosial təminat üzrə irimiqyaslı tədbirlər paketinin reallaşması Prezident tərəfindən müəyyənləşdirilib, maliyyə sabitliyini təmin edən büdcə qaydaları çərçivəsində həyata keçirilib. Ümumiyyətlə, inqilabi sosial paketin reallaşması inflyasiya təzyiqi yaratmadan və manatın sabitliyi şəraitində mümkün olub.

Prezident İlham Əliyev fəaliyyətində dərin struktur islahatlarına xüsusi diqqət yetirir. Bu islahatlar dünyada baş verən sarsıntılar fonunda sosial-iqtisadi göstəricilərin yaxşılaşmasında mühüm rol oynayır. Xatırladım ki, Azərbaycanda kompleks islahatların növbəti mərhələsinə 2016-cı ildə başlanılıb və 2019-cu ildə davam etdirilib. Milli iqtisadiyyatın perspektivləri barədə 2016-cı ildə qəbul edilən strateji yol xəritəsində də əsas hədəf struktur islahatlarının davam etdirilməsi və daha səmərəli idarəetmə sisteminə keçid idi.

Prezident İlham Əliyevin strateji idarəetmə siyasətinə uyğun olaraq reallaşdırılan kadr və struktur islahatları müstəqilliyimizin daha da gücləndirilməsi, vətəndaş məmnunluğunun artırılması, dövlət və bazar tənzimləmələri arasında optimal nisbətin qurulması məqsədi daşıyır.

Artıq Prezident Administrasiyası və Nazirlər Kabinetinin yeni strukturu təsdiqlənib. Hazırda isə icraedici hakimiyyətdə struktur islahatları davam etdirilir, yerli icra hakimiyyəti qurumları qarşısında yeni tələblər qoyulur. Bu tələblər mərkəzi icra hakimiyyəti orqanlarında elektron hökumətin inkişafını sürətləndirir, mobil və məqsədyönlü fəaliyyəti stimullaşdırır, kölgə iqtisadiyyatından leqallaşmaya keçidi gerçəkləşdirir. Struktur islahatları, həmçinin dövlət--vətəndaş dialoqunun yeni mərhələyə daxil olmasını şərtləndirir.

Prezident İlham Əliyev hələ Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında sürətlə dəyişən müasir dünyada daha səmərəli fəaliyyətin ümumi prinsiplərindən danışaraq, idarəetmənin çevik, məqsədyönlü və səmərəli gerçəkləşdirilməsi üçün islahatların sürətləndiriləcəyini vurğulamışdı. Şübhəsiz ki, bu zərurət dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadiyyatın tə-

rəqqisi və vətəndaşların rifahının daha da yaxşılaşdırılması ilə bağlı idi.

Dövlət başçısı sözügedən iclasda demişdi: "İndi struktur islahatı gözlənilir. Çünki indi idarəetmədə struktur köhnəlib. Yeni idarəetmə strukturu olmalıdır – daha çevik, daha yığcam, daha məqsədyönlü. Çünki illər boyu yeni qurumlar yaranır. Onlar yarananda o qədər də hiss olunmur. Biri orada, biri burada yarandı, bir agentlik, bir xidmət yarandı. Sonra da baxanda görürük ki, bizim idarəetmə strukturumuz böyük dərəcədə şişirdilib".

Buradan aydın görünür ki, dövlətimizin başçısı idarəetmədə şəffaflıq, yığcamlıq və demokratikliyə mühüm önəm verir, eyni zamanda, kadrlardan məsuliyyətli, dəqiq və fəal olmağı tələb edir. Prezident İlham Əliyev Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edərkən, onların qarşısında konkret vəzifələr qoymuşdur.

Ölkə rəhbəri adıçəkilən qəbulda dövlət məmurlarının vəzifəyə gəlir mənbəyi kimi baxmamalarını, xalqa xidmət etmələrini, başlıca missiyalarının, vəzifələrinin isə məhz bundan ibarət olduğunu tövsiyə edib. Prezident İlham Əliyev bununla bağlı yeni təyin olunan icra hakimiyyəti başçılarına bildirib: "Sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, rəhbərlik edəcəyiniz şəhər və rayonda iqtisadi inkişaf təmin edilsin, işsizliklə bağlı problemlər öz həllini tapsın. Siz vətəndaşlarla daim təmasda olmalısınız. Mövcud bütün olan problemləri, ilk növbədə, çox dərindən təhlil etməlisiniz və problemlərin həlli üçün iş planı tutulmalıdır. Təbii ki, problemlərin bir hissəsinin həlli mərkəzi icra orqanlarının səlahiyyətindədir. Belə olan halda, mərkəzi icra orqanları qarşısında məsələ qaldırmalısınız, eyni zamanda, Prezident Administrasiyasına məlumat verməlisiniz. O məsələlər ki, sizin fəaliyyətinizdən asılıdır, onları özünüz həll etməlisiniz və daim vətəndaşlardan onları narahat edən məsələləri eşitməlisiniz. Ona görə vətəndaşlarla sizin ünsiyyətiniz formal xarakter yox, işgüzar xarakter daşımalıdır və bu, sizin iş qrafikinizdə prioritet məsələ olmalıdır".

Bütün qeyd edilənlərdən belə bir qənaət hasil olur ki, ümummilli lider Heydər Əliyevin radikal iqtisadi islahatlar strategiyası Prezident İlham Əliyevin iqtisadi inkişafın diversifikasiyası əsasında Azərbaycanda hərtərəfli inkişaf edən dövlət sistemi quruculuğu xəttinin fundamental əsasıdır. Belə yüksələn xətlə inkişaf edən iqtisadi bazis cəmiyyətin transformasiyasının əsasını təşkil edir, ölkənin qlobal üfüqlərə çıxışı üçün əlverişli zəmin yaradır.

**Dünyamalı VƏLİYEV,**
**iqtisad üzrə elmlər doktoru, AMEA Şərqşünaslıq İnstitutunun şöbə müdiri.**

www.science.gov.az

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVIN İQTİSADİ SİYASƏTİ AZƏRBAYCANI REGİONUN QÜDRƏTLİ DÖVLƏTİNƏ ÇEVİRMİŞDİR

***XX əsr bəşəriyyətə bir çox görkəmli dövlət xadimləri, müdrik siyasətçilər bəxş etmişdir. Azərbaycan xalqı fəxr edir ki, zəmanəmizdə onun da Heydər Əliyev kimi dünya şöhrətli siyasət və dövlət xadimləri sırasında layiqli yer tutmuş dahi rəhbəri olmuşdur.***

**Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq bu gün hər bir azərbaycanlıdan müqqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ümummilli lider Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Ulu öndərin 35 illik rəhbərliyi dövründə respublikamız əsrlərə bərabər inkişaf yolu keçmişdir. Heydər Əliyev öz ölkəsinin ali rəhbəri kimi var qüvvəsini və bacarığını həmişə Azərbaycanın yüksəlişinə həsr etmiş, nəhəng quruculuq işlərinin təşəbbüskarı və icraçısı olmuşdur.

Yaxın kecmişə nəzər salsaq görərik ki, 1988–1993-cü illərdə Azərbaycanın ictimai-siyasi həyatında çaxnaşmalar, cəbhədəki məğlubiyyətlər, ölkədəki anarxiya, xaos, vətəndaş müharibəsi təhlükəsi xalqı cana doydurmuş, sabaha inamı sarsıtmışdı. Belə bir təhlükənin və davam edən faciələrin qarşısını almaq üçün xalq özünün xilaskarını ikinci dəfə hakimiyyətə dəvət etdi. 1993-cü ilin 15 iyunu Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Xalqımız hər il həmin tarixi Milli Qurtuluş Günü kimi bayram edir.

Ümummilli lider xalqın tələbi ilə hakimiyyətə qayıdanda deyirdi: "Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram". O zaman Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi və uzaqgörənliyi sayəsində dağıdıcı proseslər dayandırıldı. Milli Ordumuzun döyüş qüdrətinin artırılması nəticəsində torpaqlarımızın işğalına son qoyuldu və atəşkəs əldə olundu. Qısa bir zamanda ulu öndərin bilavasitə rəhbərliyi altında respublikamızda ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş təmin edildi. Siyasi aləmdə dövlətimizin beynəlxalq nüfuzu möhkəmləndi və müstəqilliyimiz dönməz xarakter aldı.

Prezident Heydər Əliyevin rəhbərliyi ilə hüquqi və sivil dövlət quruculuğu prosesi başlandı. Müstəqil respublikamızın ilk Konstitusiyası qəbul olundu, parlamentə seçkilər keçirildi. Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv edildi. Dünya dövlətləri ilə iqtisadi və siyasi əlaqələrimiz genişləndi. İqtisadi islahatların həyata keçirilməsi geniş vüsət aldı. Bütün bunlar məhz ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin əməyi nəticəsində mümkün oldu.

Xalqımızın dahi oğlu Heydər Əliyev tükənməz enerjisini nəinki öz xalqının, dövlətinin inkişafına, bütövlükdə, dünya xalqlarının iqtisadi, mədəni yüksəlişinə, onların arasında mehriban münasibətlərin dərinləşməsinə sərf edirdi. Məhz Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə bərpa edilən tarixi İpək yolu dünyanın Şərqi ilə Qərbini yenidən birləşdirdi və bütün dünya dövlətlərinin inkişafına öz mühüm töhfəsini verdi.

Ümummilli lider Heydər Əliyev BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM, MDB və başqa beynəlxalq təşkilatların toplantılarında daim qlobal, bəşəri problemlərə öz orijinal baxışını ardıcıl və ucadan səsləndirirdi. Sözün həqiqi mənasında, bu böyük insanın amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqa xidmət etməkdən ibarət idi. Ulu öndər Heydər Əliyev indi bütün dünyada Azərbaycanın rəmzinə çevrilib. Məhz ona görə də böyük öndərimizin adı xalqımız tərəfindən həmişə dərin hörmət və ehtiramla anılır.

Tarixi təcrübə sübüt edir ki, yalnız güclü siyasi lider yetişdirən xalqlar milli sərvətlərinə sahib olmaq və ölkələrinin inkişafına yönəltmək imkanı qazanırlar. Dünyanın bir çox ölkəsi zəngin neft ehtiyatına malikdir. Lakin bu ölkələrin heç də hamısı həmin sərvətdən xalqın rifahı üçün lazımi səviyyədə istifadə edə bilmir. Ümummilli liderimiz Heydər Əliyev isə neft-qaz ehtiyatından əldə edilən gəliri xalqın rifahına yönəldə bildi.

1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" ilə müstəqil Azərbaycanın yeni neft strategiyası həyata keçirilməyə başlandı və ölkə iqtisadiyyatına yatırılan investisiyanın həcmi ilbəil artdı. Keçmiş sovet respublikaları arasında Azərbaycan ilk dəfə Qərbin iri neft şirkətləri ilə belə irimiqyaslı saziş imzaladı və Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını qoydu. Bununla da Prezident Heydər Əliyev o dövrdə növbəti dəfə böyük siyasi cəsarət, dönməz iradə, dəqiq iqtisadi hesablama və dərin müdriklik nümayiş etdirərək, müstəqil Azərbaycanın yeni neft doktrinasını irəli sürdü.

"Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi müstəqilliyinin təməl daşına çevrildi, azad iqtisadi mexanizmlərin tətbiq edilməsini və respublikamızın dünya iqtisadiyyatına dinamik inteqrasiyasını təmin

etdi. Bu beynəlxalq əməkdaşlıq xarici investorların ölkəmizə axınını sürətləndirdi və Azərbaycanda yeni neft-qaz müqavilələrinin bağlanmasına güclü təkan verdi.

Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan Bakı-Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsi isə ölkəmizdə istehsal edilmiş neftin dünya bazarına çıxarılmasında mühüm rol oynayır. Heydər Əliyev kəmərin təməlinin qoyulması mərasimindəki nitqində demişdi: "Bakı–Tbilisi–Ceyhan çox böyük iqtisadi xarakter daşıyır. Ancaq təkcə iqtisadi deyil, hesab edirik ki, siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əminamanlığın, təhlükəsizliyin təminatçısı ola bilər".

Alfred Nobelin XX əsrin əvvəllərində "Burada neft, qaz və siyasət çox sıx şəkildə bir-birinə qarışıb–deyə xarakterizə etdiyi Azərbaycan artıq XX əsrin sonunda xalqın dahi oğlu Heydər Əliyevin dərin zəkasının və böyük zəhmətinin bəhrəsi olan inkişaf strategiyası nəticəsində sabitliyin və əmin-amanlığın hökm sürdüyü bir ölkə halına gətirildi. Gündən-günə artan neft gəlirləri, xarici investisiya axını ölkənin iqtisadi mənzərəsini dəyişdi, Azərbaycanı regionun lider dövlətinə çevirdi.

Respublikamızda istehsal edilən neft-qaz müstəqillik şəraitində xalqımızın güzəranının yaxşılaşmasında, onun ictimai-siyasi həyatında böyük rol oynaydı. Ulu öndər Heydər Əliyevin memarı olduğu neft strategiyasının uğurla həyata keçirilməsi sayəsində ölkəmizdə dinamik inkişafın təmin edilməsi, əhalinin rifahının yaxşılaşması, dünya təsərrufat sisteminə inteqrasiya əlaqələrinin güclənməsi mümkün oldu.

Son 16 ildə bu siyasi kursun ardıcıl olaraq həyata keçirilməsi isə möhtərəm Prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır. Regionda qlobal enerji layihələrinin təşəbbüskarı və iştirakçısı olan Azərbaycan hazırda bir sıra dünya və Avropa ölkələrinin "mavi yanacaq"la təminatında mühüm rol oynayır. "Şahdəniz" yatağı ölkəmizi dünyanın potensial qaz ixracatçılarından birinə çevirmişdir. Azərbaycan Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişlənləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, Bakı–Tbilisi–Qars dəmir yolu, Cənub Qaz Dəhlizi, TRASEKA kimi nəhəng layihələrinin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlətə, eləcə də dünyanın neft mərkəzlərindən birinə çevrilmişdir.

Azərbaycanda 1993-cü ildən başlayaraq, əsası Heydər Əliyev tərəfindən qoyulan və həyata keçirilən enerji siyasəti çox maraqlı mərhələlər keçib. Bu yaxınlarda isə son mərhələnin qlobal layihəsi olan Cənub Qaz Dəhlizin orta hissəsi olan TANAP layihəsinin açılış mərasimi keçirildi. Azərbaycan böyük geosiyasi əhəmiyyətli bu dəhliz layihəsini 7 ölkə ilə birgə reallaşdırır. TANAP layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yata-

ğından və digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və bu ölkədən Avropaya nəqlini nəzərdə tutur.

Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyinə xidmət edən bir proqramın önəmli seqmentidir. TANAP və TAP layihəsi çərçivəsində Avropa üçün nəzərdə tutulan qaz Türkiyə–Bolqarıstan və ya Türkiyə–Yunanıstan sərhəddində təhvil veriləcək 2020-ci ildə kəmərin buraxılış qabiliyyəti ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq.

Qeyd edək ki, Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir. Onun icrasına 45 milyard dollardan çox sərmayə qoyulub. İndiki maliyyə böhranı şəraitində bir layihəyə bu dərəcədə kapital qoyulması onun iqtisadi önəmi ilə yanaşı, siyasi və geosiyasi əhəmiyyətini də göstərir. Burada, şübhəsiz ki, Azərbaycanın kifayət qədər qaz ehtiyatına malik olmasına olan inam da mühüm rol oynayıb. Hazırda Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir.

Cənub Qaz Dəhlizi, bütövlükdə, qlobal əməkdaşlığın enerji təhlükəsizliyinə verdiyi çox böyük töhfədir. Bu beynəlxalq kəmərin Yeni İpək yolu layihəsi ilə qarşılıqlı əlaqədə müsbət nəticələr verə biləcəyi şəksizdir. Prezidenti İlham Əliyev bu irimiqyaslı əməkdaşlığı belə qiymətləndirmişdir: “Azərbaycan, Gürcüstan və Türkiyə Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və digər önəmli layihələri, o cümlədən nəqliyyat sahəsində Bakı–Tbilisi–Qars layihəsini icra edərkən artıq çox güclü üçtərəfli regional əməkdaşlıq formatı yaratmışlar. Ona görə bu layihələrin icra edilməsində bu üç ölkənin birgə səyləri xüsusi yer tutur”.

Azərbaycan iqtisadiyyatı müasir dövrdə şaxələndirmə, başqa sözlə, diversifikasiyalaşdırılma dövrünü yaşayır. Prezident İlham Əliyevin təsdiq etdiyi “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi”ndə göstərilir ki, Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və innovasiyalaşdırılmasında iki mühüm iqtisadi inkişaf istiqaməti–milli istehsalçıların məhsullarına olan tələbatın daxili bazarda ciddi artırılmasının təmin olunması və xarici bazarların əldə edilməsi mühüm prioritet kimi qəbul olunmalıdır.

Bu baxımdan ölkənin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsində əsas element kimi sənayenin, kənd təsərrüfatının, turizmin, İKT və s. sahələrin kompleks və sürətli inkişafı, ölkə iqtisadiyatının müxtəlif sektorlarının potensialından səmərəli istifadə olunması, yüksək standartlara cavab verən milli məhsulların və malların istehsal şəbəkəsinin genişləndirilməsi, ixrac yönümlü malların çeşidinin artırılması və qeyri-neft ixracının coğrafiyasının şaxələndirilməsi həcminin yüksəldilməsi, yeni xarici əmtəə bazarlarına çıxışın təmin olunması vacib şərtlər kimi çıxış edir.

Hazırda iri enerji layihələrinin əksəriyyəti başa çatdırılıb və yaxud icra edilməkdədir. Artıq qeyri-neft sektorunda irihəcmli layihələr başlanılıb, ölkənin iqtisadi

inkişafının neftdən asılılığının azaldılması prosesləri müşahidə olunur. Kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi Azərbaycanda qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələr hesab edilir.

Beynəlxalq maliyyə institutları bu sahələr arasında kənd təsərrüfatı və turizmin əhəmiyyətini xüsusi qeyd edirlər. Belə ki, ölkənin məşğul əhalisinin 44 faizə yaxını məhz kənd təsərrüfatında çalışır. Bu səbəbdən ölkədə kənd təsərrüfatının inkişafına yönələn ardıcıl dövlət proqramları, islahatlar və yeni texnologiyaların cəlb edilməsi həyata keçirilməkdədir. Azərbaycanla sıx tərəfdaşlıq edən Asiya İnkişaf Bankı da kənd təsərrüfatı və turizmi ölkədə qeyri-neft sektorunun inkişafının aparıcı istiqamətləri hesab edir.

İndi Azərbaycanda istehsal edilən qeyri-neft məhsulları, o cümlədən elektrik maşınları və avadanlıqları, onların hissələri, kimya sənayesi məhsulları, tikinti materialları, hazır toxuculuq məmulatları və s. müxtəlif ölkələrə ixrac edilir. İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafına zəmin yaratmaq üçün inkişaf proqramları əsasında kiçik və orta sahibkarlığın dəstəklənməsinə, bu fəaliyyətlə məşğul olanlara güzəştli dövlət kreditlərinin ayrılmasına, kənd təsərrüfatına subsidiyaların yönəldilməsinə, ölkə boyu nəqliyyat-kommunikasiya infrastrukturunun yenidən qurulmasına milyardlarla dollarlıq vəsait xərclənib. Bu kapital çox keçmədən öz bəhrəsini verməyə başlayıb və iqtisadiyyatın qeyri-neft sektorunda böyük canlanmaya səbəb olub.

Prezident İlham Əliyev Azərbaycana rəhbərliyinin 15 ilinin tamamında bildirmişdir: "Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edildi, iqtisadi rifah yaxşılaşdı və respublikamızın gələcək inkişafı üçün zəmin yaradılmışdır".

Müasir mərhələdə iqtisadi sahədə qarşıya qoyulan əsas vəzifə qeyri-neft sektorundakı mövcud potensialın hərəkətə gətirilməsi, bu sahədə dinamik inkişafın təmin edilməsi üçün yeni iqtisadi islahatların həyata keçirilməsidir. Bu məqsədlə qeyri-neft sektorunda müşahidə edilən proseslərə çevik adaptasiya, habelə postneft iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün sənayenin qarşısında duran yeni çağırışlar və imkanların tətbiq ediləməsi üçün Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə Strateji Yol Xəritəsi təsdiq edilmişdir.

Bu yol xəritələri Azərbaycanın gələcək inkişaf perspektivlərini dərin elmi əsaslarla müəyyənləşdirən konseptual əhəmiyyətli sənəddir. Təsdiq edilmiş xəritədə, bütövlükdə, milli iqtisadiyyat və 11 sektor üzrə yaxın orta və uzunmüddətli perspektivlər öz əksini tapmışdır. Strateji Yol Xəritəsinin icrası nəticəsində sənayenin strukturu təkmilləşdiriləcək, qeyri-neft sənayesi iqtisadi artımın əsas hərəkətverici qüvvələrindən birinə çevriləcək, ağır sənaye və maşınqayırmanın sənayedə və məşğulluqda payı artacaq, ümumi iqtisadi potensial 2020-ci

ildən sonrakı dövr üçün nəzərdə tutulmuş məqsədlərin reallaşdırılması üçün hazır vəziyyətə gətiriləcək, yəni mövcud resurslardan optimal istifadəyə, habelə müəssisələrdə səmərəli istehsal metodlarının tətbiqinə başlanacaq.

Qeyri-neft sektorunun inkişafı ölkənin iqtisadi potensialının gücləndirilməsi üçün mühüm amillərdən biridir. Bunun nəticəsidir ki, son illər uğurla həyata keçirilən dövlət proqramları və bu sahədə görülən tədbirlər qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin yaradılmasına səbəb olmuşdur.

İqtisadiyyatın şaxələndirilməsi siyasətinin prioritet istiqamətlərindən biri də regionların inkişafı strategiyasının həyata keçirilməsidir. Bu baxımdan qəbul edilmiş regional inkişafa dair dövlət proqramları uğurla icra olunmuş və bu proqrama əsasən, digər böyük layihələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına da şərait yaratmışdır.

Hazırda respublikada kimya, təkrar emal, gəmiqayırma, yüngül sənaye, əczaçılıq və digər sahələrdə ixtisaslaşmış 5 sənaye parkı və 4 sənaye məhəlləsi yaradılıb. İxracyönümlü məhsulların istehsalının dəstəklənməsi, investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə investisiya təşviqi mexanizminin tətbiqi öz töhfəsini verir. İndiyədək 251 sahibkarlıq subyektinə 283 investisiya təşviqi sənədi verilib ki, bu layihələrin reallaşması nəticəsində yerli istehsala 2,5 milyard manatdan artıq investisiyanın yatırılması və 19 minədək yeni iş yerinin açılması imkanı yaradılıb, bunlardan investisiya dəyəri 1 milyard manatdan çox olan 141 müəssisə artıq fəaliyyət göstərir.

Bütün bunlara görə Dünya Bankı "Doinq Business" 2018-ci ilin hesabatında Azərbaycanı 25-ci yerə layiq görmüşdür. Azərbaycan son 1 il ərzində 32 pillə irəliləmiş və ən islahatçı 10 ölkə sırasına daxil edilmişdir. Əlbəttə, xarici investorlar, eyni zamanda, sahibkarlar buna görə də ölkəyə daha çox sərmayə qoyurlar.

Beləliklə, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirilən xarici və daxili siyasət, gerçəkləşən iqtisadi doktrina belə deməyə əsas verir ki, Azərbaycan növbəti illərdə bu siyasətin davamı sayəsində hərtərəfli inkişaf sürətini daha da artıracaq, həm regional, həm də qlobal səviyyədə öz mövqelərini durmadan möhkəmləndirəcək. Bütün bunlar isə onu deməyə əsas verir ki, yaxın gələcəkdə Azərbaycan dünyanın ən qüdrətli və sürətlə inkişaf edən dövlətlərindən birinə çevriləcək.

**Arif ŞƏKƏRƏLİYEV,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri, Beynəlxalq Menecment Akademiyasının üzvü, Əməkdar elm xadimi, professor.**
www.unec.edu.az

# AZƏRBAYCAN ZƏNGİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRƏ MALİKDİR

**Hər bir xalqın, millətin mövcudluğu onun milli adət-ənənələrinə, öz mədəniyyətinə, ədəbiyyatına, tarixinə bağlılığından asılıdır.**

Müasir Azərbaycan tarixinə nəzər saldıqda milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı prinsiplərinin banisi kimi Ulu Öndər Heydər Əliyevi görmək olar. Müstəqillik dövrünün təməl daşları üzərində tarixi imzası olan Ulu Öndər azərbaycançılıq ideologiyasının əsasını qoyaraq milli-mənəvi dəyərlər sistemimizi daha da gücləndirmiş, aşınmadan xilas etmişdir.

Heydər Əliyev azərbaycançılığı milli ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Azərbaycançılığın əsasında yer alan ünsiyyət birliyi isə vahid ana dilimiz vasitəsilə həyata keçirilir. Azərbaycan dili milliliyin ifadə vasitəsi olduğu üçün azərbaycançılıq ideologiyasının komponenti kimi çıxış edir. Çünki ana dili onun dünyada tanınmasında ən mühüm milli atributlardan biridir.

Müstəqil Azərbaycana rəhbərliyi dövründə Ulu Öndər Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi və dilimizin qorunması sayəsində mühüm işlər gördü. Azərbaycan xalqının mədəni, intellektual, milli-mənəvi inkişafının təməllərindən biri kimi milli dil siyasətinə böyük əhəmiyyət verirdi. Onun 18 iyun 2001-ci il tarixində imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman da dilimizə olan dərin ehtiramın nümunəsi idi.

Ümummilli Liderin müstəqil Azərbaycana rəhbərlik dövrü təkcə ölkənin siyasi, sosial-iqtisadi, mədəni böhrandan qurtuluşu, demokratik islahatların, hüquqi dövlət quruculuğu proseslərinin uğurla həyata keçirilməsi ilə xarakterik olmadı. Cəmiyyətin milli-mənəvi dəyərlərimizə, o cümlədən islama münasibətinin düzgün və sağlam əsaslarla formalaşdırılmasının əsası da məhz bu dövrdə qoyuldu. Heydər Əliyev ölkəmizdə hüquqi və dünyəvi dövlət quruculuğunun əsasını qoymaqla yanaşı, müqəddəs dinimizə, bütün mənəvi dəyərlərə çox həssaslıqla yanaşır, xalqımızın mental keyfiyyətlərini hər şeydən uca tuturdu.

* * *

Xalqımızın zəngin milli-mənəvi dəyərləri sistemində azərbaycançılıq məfkurəsi də mühüm yer tutur. Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri, onların Azərbaycana münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, habelə azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır. Azərbaycançılıq millətindən asılı olmayaraq, özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm

istinad mənbəyi, ideoloji bünövrədir. Bu ideologiyanın mühüm müsbət xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur. Milli-mənəvi, islami-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyillərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi, ünsiyyət birliyini ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz buna görə də müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün cəlbedicidir.

Azərbaycançılıq ideologiyasının öz həqiqi təsdiqini tapmasında da Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri vardır. Ulu Öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Heydər Əliyevin azərbaycançılıq ideologiyası ilə dilindən, dinindən, millətindən, irqindən, sosial mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşlarını ümumi vətən naminə həmrəyliyə dəvət edirdi. Ulu Öndər azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail oldu. Onun "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" məşhur sözləri bu gün də azərbaycanlıların ana şüarına çevrilibdir. 2001-ci ilin ən yaddaqalan və milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olmuşdur. Ümummilli Lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən, keçirilmiş bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratmışdır.

Həmin qurultaydan sonra Azərbaycan diaspor hərəkatı tamamilə yeni mərhələyə qədəm qoymuş, Ümummilli Lider Heydər Əliyev bu sahədə sistemli dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə 2002-ci ildə Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi ( indiki Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılmışdır. Komitənin yaradılması xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən koordinasiyasına, habelə onların dövlət qayğısı ilə əhatə olunmasına geniş imkanlar vermişdir. Dövlət Komitəsinin yaradılması dünya azərbaycanlılarının konsolidasiyasında, diaspordan lobbiyə doğru inkişafında yeni bir mərhələnin başlanğıcını qoymuşdur.

Azərbaycanda diaspor və lobbi quruculuğu Prezident İlham Əliyevin fəaliyyətində də mühüm yer tutmuş, bu istiqamətdə ardıcıl və sistemli tədbirlər həyata keçirilmişdir. Dövlət başçısı müxtəlif ölkələrə səfərləri çərçivəsində soydaşlarımızla

keçirdiyi görüşlərdə milli diasporun vahid, mütəşəkkil qüvvə kimi təşkilatlanması zərurətini önə çəkmiş, bunun ideoloji-siyasi konturlarını müəyyənləşdirmişdir. Ölkə rəhbəri müasir dövrdə bu sahəyə xüsusi diqqət ayırmadan xarici siyasətdə ciddi uğur qazanmağın qeyri-mümkünlüyünü çıxışlarında dəfələrlə vurğulamışdır.

Prezident İlham Əliyevin 8 fevral 2006-cı il tarixli sərəncamı ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə yeni nəfəs verməklə ən əlamətdar hadisələrdən biri kimi yadda qalmışdır. Qurultayda Azərbaycan diasporunun hazırkı vəziyyəti müzakirə edilmiş, bu sahədə çalışan təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, ölkə həqiqətlərinin, xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktları ilə əlaqədar çoxsaylı faktların dünya ictimaiyyətinə çatdırılmasının daha müasir metodlarının hazırlanması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsi məsələləri xüsusilə önə çəkilmişdir.

* * *

Milli-mənəvi dəyərlərin mühüm göstəricilərindən olan multikulturalizm (çoxmədəniyyətlilik), tolerantlıq (dini dözümlülük) da mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda qədim dövrlərdən müxtəlif xalqların nümayəndələri yaşamış, bir çox xalqların dinləri mövcud olmuşdur. Azərbaycan və onun xalqı həmişə dini dözümlülüyü ilə fərqlənmişdir. Ölkəmizdə heç vaxt dini zəmində münaqişə, toqquşma olmamışdır. Hətta ötən əsrin 80-ci illərinin axırı və 90-cı illərinin əvvəllərindəki ağır dövrdə belə heç bir mənfi fakt qeydə alınmamışdır.

Məhz Heydər Əliyevin əsasını qoyduğu sağlam dövlət-din münasibətlərinin nəticəsi olaraq bu gün dünyanın bəzi ölkələrində olduğu kimi, islam dininin alətə çevrilərək gözdən salınmasına imkan verilmədi. Ölkəmizdə bu sahədə həyata keçirilən siyasət, dövlət-din münasibətlərinin Azərbaycan modeli xalqın və dövlətin maraqları üzərində qurularaq özünün mənəvi saflığı ilə bütün ziyanlı ideologiyaların, arzuolunmaz dini-siyasi məqsədlərin qarşısında sipər oldu. Bu siyasətin uğurlu nəticələri sağlam cəmiyyətlə dövlətçiliyimizin sütunlarını daha da sarsılmaz etdi.

Ulu Öndərin bizə əmanət etdiyi tolerantlıq, dini dəyərlərə yüksək ehtiram Prezident İlham Əliyevin apardığı siyasətin də mühüm istiqamətlərindəndir. "Azərbaycan xalqı həmişə öz milli-mənəvi dəyərlərinə sadiq olub. Bu gün Azərbaycan dövləti milli dəyərlərimizin qorunması üçün ardıcıl siyasət aparır. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik" deyən Prezident İlham Əliyev hər zaman mənəvi irsimizin mühafizəçisi rolunu oynayır. Onun birbaşa diqqəti sayəsində tarixi-mədəni irsimizin yaşadılması və milli-mənəvi dəyərlərimizin dirçəldilməsi, dini ziyarətgahların əsaslı təmiri və yenidən qurulması böyük vüsət alıb. Bunun nəticəsidir ki, Təzəpir, Bibiheybət, Əjdərbəy məscidlərində geniş tikinti və yenidənqurma işləri həyata keçirilib. Eramızın 743-cü ilində inşa olunan və Cənubi Qafqazda,

eləcə də Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidi əsaslı bərpa və yenidənqurmadan sonra istifadəyə verilib. Bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyev tarixi keçmişimizin unudulmasına imkan vermir və çalışır ki, gələcək nəsillər xalqımızın milli-mənəvi dünyasına daha çox bağlı olsunlar.

2014-cü ilin dekabrında isə Bakıda Azərbaycanın ən böyük məscidi olan Heydər Məscid-Kompleksi istifadəyə verilib.

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən Gəncədəki tarixi memarlıq abidəsi – xalq arasında "Göy günbəz", "Göy məscid", yaxud "Göy İmam" kimi tanınan "İmamzadə" Dini-Mədəniyyət Kompleksində təmir-bərpa işləri aparılıb. Bu kompleksin ən qiymətli abidəsi türbədir. Burada beşinci imam Məhəmməd Baqirin oğlu İbrahim dəfn olunub. Türbə sonralar ziyarətgaha çevrilib və onun ətrafında müxtəlif binalar inşa edilib. Azərbaycan memarlığının dəyərli nümunələrindən olan "İmamzadə" piri Şərqin qədim karvan-ticarət yolunun üzərində yerləşib.

* * *

İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan Azərbaycan hər iki qurumda layiqincə təmsil olunmaqla dünyada baş verən hadisələrə tək islami deyil, bəşəri dəyərlər baxımından münasibətini bildirir. İƏT-in fəal üzvü kimi sivilizasiyalararası əlaqələrin möhkəmləndirilməsinə, inkişafına, dünyada irqi ayrıseçkilik hallarının aradan qaldırılmasına layiqli töhfələrini verən Azərbaycan islam aləminin təhsil, elm, mədəniyyət təşkilatı olan ISESCO-da da uğurlu fəaliyyət göstərir. 2009-cu ildə ISESCO tərəfindən Bakı şəhərinin islam mədəniyyətinin paytaxtı elan edilməsi, 2018-ci ildə bu ada Azərbaycanın ən qədim diyarı Naxçıvanın layiq görülməsi bir daha təsdiqləyir ki, islam aləminin ayrılmaz parçası olan ölkəmiz dünyada dinlər, millətlərarası münasibətlərin tənzimlənməsi, mültikultural dəyərlər, bərabərlik prinsipləri əsasında inkişafı üçün səylərini əsirgəmir.

Ölkəmizdə "Multikulturalizm ili", "İslam Həmrəyliyi ili"nin qeyd olunması, I Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi, 10 ildən artıqdır ki, hər il keçirilən "Bakı prosesi"nin bütün dinlər və millətlər üçün humanitar tribunaya çevrilməsi Azərbaycanın dünyada sülhün təminatına verdiyi töhfələrdəndir. Prezident İlham Əliyevin Bakıda "2017-İslam Həmrəyliyi ili: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda keçirilən beynəlxalq konfransda çıxışı zamanı qeyd etdiyi kimi, Azərbaycan xalqı öz milli-mənəvi köklərinə çox bağlıdır. Müstəqil Azərbaycan dövlətinin təməli məhz bu milli dəyərlərdir. Bizim milli-dəyərlərimiz isə ümumbəşəri dəyərlərin tərkib hissəsidir. Həm coğrafi yerləşməyimiz, tariximiz, sivilizasiyaların Azərbaycan ərazisindəki keçmişi və rolu, əlbəttə ki, Azərbaycanı dinlərarası, mədəniyyətlərarası dialoqun aparılmasında əvəzolunmaz ölkəyə çevirir.

2018-ci ilin iyun ayında Naxçıvanda keçirilən "Naxçıvan İslam Mədəniyyətinin

Paytaxtı-2018" tədbirinin keçirilməsi də milli-mənəvi dəyərlərimizə olan beynəlxalq diqqətin mühüm ifadəsi idi. Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsi barədə qərarın qəbulu tarixi hadisə olmaqla sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. "İslam Həmrəyliyi ili" çərçivəsində Bakıda IV İslam Həmrəyliyi Oyunları ən yüksək səviyyədə keçirildi. Oyunlar ərzində bütün müsəlman ölkələri məhz Azərbaycanın paytaxtında birləşdi, Bakı 54 ölkəni "Sülh, həmrəylik" şüarı altında birləşdirdi.

* * *

Milli-mənəvi dəyərlərimizin qorunmasında Prezident İlham Əliyevlə birgə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva da yaxından iştirak edir. Fond milli-mənəvi dəyərlərimizin yaşadılmasını, onun təbliğini, tarixi-dini, mədəni abidələrin qorunmasını və bərpasını daim diqqət mərkəzində saxlayır.

Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində bugünədək Azərbaycanda və digər ölkələrdə onlarla tədbir həyata keçirmişdir. Fondun maliyyə dəstəyi ilə Bakıdakı Pravoslav və Müqəddəs Məryəm kilsələrində də təmir-bərpa işləri aparılmış, yəhudi uşaqları üçün təhsil və mədəniyyət mərkəzinin tikintisinə dəstək verilmişdir. Göründüyü kimi, Heydər Əliyev Fondu təkcə islam dininə aid tarixi-dini abidələrin bərpasına deyil, həmçinin Azərbaycandan kənarda olan digər dinlərə məxsus abidələrin də bərpasına qayğı ilə yanaşır ki, bu da xalqımızın tolerantlığının və sülhpərvərliyinin əyani sübutudur.

Fond tərəfindən reallaşan layihələr beynəlxalq aləmdə ciddi marağa səbəb olur. Belə ki, bəşəriyyətin xilasına yönələn milli-mənəvi ideallar, ictimai şüura hakim kəsilən layihələr zəngin mənəvi və intellektual potensialdan qaynaqlanır və birmənalı olaraq cəmiyyət tərəfindən qəbul edilir. BMT, İƏT, UNESKO, ISESCO və onlarca belə mötəbər qurumların fondun layihələrinə verdiyi qiymətlər dediklərimizi əsaslandıran amildir.

Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktual məsələlərdəndir. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu var. Müasir dövrdə şəxsiyyətin formalaşmasında milli dəyərlərin təsirini gücləndirmək işində keçmiş tarixi ənənələrə və dəyərlərə qayğı ilə yanaşmaq, eyni zamanda müasir dünyada gedən qloballaşma proseslərinin yaratdığı ümumbəşəri dəyərlərin müsbət tərəflərini mənimsəmək də çox vacibdir. Milli dəyərlərimizin qorunmasında gənc nəslin və gələcək nəsillərin də üzərinə böyük məsuliyyət düşür.

**Qəzənfər ABBASOV,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, iqtisad elmləri doktoru.**

www.unec.edu.az

# HEYDƏR ƏLİYEV İRSİ GƏLƏCƏK NƏSİLLƏR ÜÇÜN ZƏNGİN XƏZİNƏDİR

***Ömrünü xalqının rifahına, Vətəninin çiçəklənməsinə, inkişafına, müstəqilliyimizin əbədi olmasına, Azərbaycanın dünya birliyində mövqeyinin möhkəmləndirilməsinə həsr edən ümummilli lider Heydər Əliyev hər bir azərbaycanlının qəlbində əbədi yer tutur. Xalqımız bugünkü əmin – amanlığa, firavanlığa və sabitliyə görə ulu öndər Heydər Əliyevə borcludur. Onun tərəfindən təməli qoyulmuş siyasi kursun uğurlu davamı, Azərbaycanın nüfuzunu daha da artırmış, əlaqələrini genişləndirmişdir. Bu gün respublikamızın dünyanın sayılıb- seçilən dövlətləri sırasna qoşulması Heydər Əliyev siyasi kursunun bəhrəsidir.***

XX əsrdə Azərbaycan xalqı dünyaya mütəfəkkir, ictimai-siyasi xadim, fenomen şəxsiyyət – Heydər Əliyev kimi lider bəxş etmişdir. Ulu öndər xalqını zamanın sərt sınaqlarından çıxarmış, müstəqilliyimizi məhv olmaqdan, Azərbaycanı parçalanmaqdan xilas etmişdir. Heydər Əliyevin həyat və fəaliyyətini, azərbaycançılıq ideyasını təbliğ edən, mərkəzlərin, muzeylərin yaradılması, "Heydər Əliyev siyasi məktəbləri"nin fəaliyyəti ulu öndərə olan böyük ehtiramın bariz nümunəsidir.

Heydər Əliyevin zəngin irsi gələcək nəsillər üçün örnəkdir. Azərbaycanda elə bir sahə yoxdur ki, orada ulu öndərin misilsiz xidmətləri olmasın. Heydər Əliyev irsi gələcək nəsillər üçün zəngin xəzinədir, Vətənə, xalqa, dövlətə xidmət nümunəsidir. Ona görə də ulu öndərin adı ilə bağlı hər hansı bir araşdırma böyük bir elmi əsər və ya monoqrafiyadır. Bu mənada, Heydər Əliyev və Azərbaycanın müasir dünyada yeri haqqında düşünərkən yaranan böyük təəssürat sözlə dilə gətirmək belə çətindir. Mən də belə bir böyük şəxsiyyətin zamanında yaşamağıma, fəaliyyət göstərdiyimə və onun siyasi məktəbindən dərs aldığıma görə özümü hədsiz dərəcədə xoşbəxt hiss edir, mənim üçün yazılmış bu alın yazısına görə Yaradanıma sonsuz şükürlər edirəm.

Müstəqillik əldə etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş ölkəmizin üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həlli onun beynəlxalq aləmdəki mövqeyi, ayrı-ayrı ölkələrlə milli dövlət mənafelərinə cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi. Gənc Azərbaycan dövləti həm özünün xalqını dünya birliyinə tanıtmalı, həm də beynəlxalq aləmə inteqrasiya yolunda qətiyyətli addımlar atmalı idi.

Azərbaycan xalqı tarix boyu məşhur dövlət xadimləri, o cümlədən XX əsrdə həm Sovetlər Birliyində, həm də müstəqillik illərində siyasi xadim və görkəmli dövlət adamı, müasir müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev kimi şəxsiyyət yetirən bir xalqdır. Bu mənada, Azərbaycanın beynəlxalq əlaqələr sistemində layiqli yer tutması üçün onun dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı

münasibətlərinin tənzimlənməsi və inkişaf etdirilməsi istiqamətində dövlət siyasətinin formalaşdırılması böyük əhəmiyyət kəsb edir. Ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə fəaliyyətinin başlıca istiqamətlərinin prioritetni Azərbaycanın dünya birliyinə tam hüquqlu üzv kimi daxil olması, ikitərəfli və çoxtərəfli münasibətlərin, beynəlxalq və məhəlli təşkilatlarla əlaqələrin yaradılması və Ermənistanın hərbi təcavüzü nəticəsində pozulmuş ərazi bütövlüyümüzün təmin olunması təşkil edib. Müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yerinin və rolunun gücləndirilməsi ulu öndərin xarici siyasətinin əsasını təşkil edib.

Heydər Əliyevin gərgin əməyi sayəsində Azərbaycan özünün geosiyasi mövqeyini, ictimai-siyasi və mənəvi psixoloji inkişaf xüsusiyyətlərini nəzərə alaraq mövcud inkişaf modellərindən heç birinə birmənalı şəkildə üstünlük vermədən Qərb və Şərqin yaratdığı dəyərlərdən yaradıcılıqla və səmərəli şəkildə bəhrələnməyə, tarazlaşdırılmış çoxşaxəli xarici siyasət yeritməyə nail oldu. 1993-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkəmizdə hansı şəraitdə hakimiyyətə gəlməsini nəzərə alsaq, Azərbaycanın çağdaş dünyada qazandığı yer və mövqenin çətinliklər hesabına başa gəlməsi bir daha aydın olur.

1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycanın geosiyasi vəziyyətinin və beynəlxalq siyasətə təsiretmə imkanlarının dərin nəzəri təhlili əsasında xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafeyinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə, müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri, daha doğrusu, Avroatlantik strukturlara inteqrasiya və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlərlə, İslam dünyası, Asiya, Afrika və Cənubi Amerika ilə əlaqələrinin yaxın dövr üçün prioritetləri, istiqamətləri, aparıcı strategiyası müəyyənləşdirildi. Hər qrupa daxil olan ölkələrlə ayrı-ayrılıqda və birgə münasibətlərin düşünülmüş, bütün amilləri nəzərə alan münasibətlər yaradıldı. Yəni, bu yöndə əsas vəzifə həm çox tərəfli, həm də ikitərəfli münasibətlərdə ən etbarlı tərəfdaş olmaq prinsipini həyata keçirmək idi.

Azərbaycanın yeni xarici siyasət kursunda, bütövlükdə Avropanın böyük dövlətləri ilə münasibətlər məsələsi mühüm bir istiqamət təşkil edir. Hər bir ölkənin özünəməxsus xüsusiyyətlərini bütün incəliklərinə qədər nəzərə alan bu yeni xətt qısa bir müddətdə çevik taktiki gedişlərlə həyata keçirildi. Qısa müddət ərzində Azərbaycanın özünə Böyük Britaniya, Almaniya, Fransa, İtaliya kimi çox nüfuzlu tərəfdaşlar qazanması Heydər Əliyev xarici siyasətinin Avropa istiqamətinin çox mühüm bir uğuru oldu.

Ulu öndərin müəllifi olduğu xarici siyasət konsepsiyası dərin elmi nəzəri və zəngin təcrübə üzərində qurulmuş konsepsiya idi. Bu fəaliyyətdə hər bir amil, faktor, şərait və xüsusiyyət nəzərə alınmışdı. Məhz bu siyasi kursun nəticəsidir ki, Azərbaycan bu gün dünyanın, demək olar ki, bütün ölkələri ilə diplomatik münasibətlər quraraq əməkdaşlıq edir. Hazırda ölkəmiz planetin beynəlxalq əməkdaşlıq regionlarından birinə, bəlkə də, ən mühümünə çevrilibdir. Məhz bunun nəticəsidir ki, yalnız adı çə-

kilən ölkələr yox, Cənubi Amerikanın, Afrikanın bir sıra ölkələrinin, Kanadanın və digərlərinin Azərbaycana marağı günbəgün artmaqdadır.

Heydər Əliyevin xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə də böyük diqqət yetirilirdi. Hazırda dünyada təxminən 4 mindən çox beynəlxalq və məhəlli təşkilat mövcuddur ki, bunlardan 300-dən çoxu hökumətlərarası təşkilatlardır. Beynəlxalq təşkilatlara üzv olmaq, onların tədbirlərində iştirak etmək, səmərəli iş qurmaq Azərbaycanın problemlərini, həqiqətlərini, dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Məhz buna görə, hazırda Azərbaycan Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Avropa Şurası (AŞ), Müstəqil Dövlətlər Birliyi, GUAM, İslam Konfransı Təşkilatı (İKT), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT), Parlamentlərarası İttifaq (Pİ), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), Qoşulmama Hərəkatı kimi beynəlxalq nüfuzlu təşkilatların üzvü olmaqla bərabər, Avropa Birliyi, NATO, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və digər təşkilatlarla da fəal əməkdaşlıq edir. Azərbaycan bu əməkdaşlığı bu gün də uğurla davam etdirərək yeni-yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulur.

Dərin mənəvi, mədəni, elmi - iqtisadi potensiala, əlverişli coğrafi-siyasi mövqeyə malik Azərbaycan həm də özünün zəngin təbii sərvətləri ilə məşhurdur. Bu sərvətlər içərisində neft əsas yer tutur. Ümummilli liderin müdriklik və uzaqgörənliklə, dərin inam və qətiyyətlə, məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasət nəticəsində bu gün neftdən gələn gəlir onun əsl sahibi olan Azərbaycan xalqına xidmət edərək ölkəmizin siyasi müstəqilliyinin, iqtisadi tərəqqisinin, insanlarımızın rifahının təmin edilməsinə yönəldilmişdir.

Bu gün dünyada baş verən müxtəlif proseslər – yeni müharibə ocaqlarının yaranması, münaqişələrin artması, ölkələr arasında enerji daşıyıcılarının nəqli sahəsində problemlərin və mübahisələrin yaşanması göstərir ki, ayrı-ayrı dövlətlər enerji təhlükəsizliyi üçün daha ciddi düşünməli, xüsusən, alternativ nəql sistemlərinin yaradılması ilə mövcud ideyaların reallaşdırılması istiqamətində əməli hərəkətə keçməlidirlər. Bütün bunlara baxmayaraq, hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında böyük rol oynayır.

Ulu öndərin möhkəm təməllər üzərində qurduğu xarici siyasət kursu hazırda qloballaşan dünyada, mürəkkəb proseslər baş verdiyi dönəmdə Azərbaycanı sabitlik adasına çevirib. Belə bir vəziyyətdə Azərbaycanın bölgənin lider dövlətinə çevrilməsi hər birimiz üçün qürurverici haldır. Heydər Əliyev tərəfindən elmi-konseptual şəkildə əsasları qoyulan və möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən yeni çalarlar qatılaraq, daha da zənginləşdirilən müstəqil Azərbaycanın təhlükəsizlik strategiyası, bu baxımdan, öz dövrünün ən qabaqcıl təcrübəsini də əxz edərək, ölkəmizi nəhəng və geniş miqyaslı nailiyyətlərə qovuşdurur.

Regional təhlükəsizlik qlobal təhlükəsizlik sisteminin mühüm tərkib hissəsi olmaqla bərabər onun davamlılığını şərtləndirən mühüm amillərdəndir. Dünya xəritəsinə nəzər salsaq, geopolitik subyektlərin daim qarşılıqlı təsirdə olmasına, hətta bir

sıra hallarda bir regiondakı vəziyyətin digərinin təhlükəsizlik vəziyyətini şərtləndirdiyini müşahidə edə bilərik. İstənilən dövlətin təhlükəsizliyi hazırda geniş siyasi, iqtisadi və mədəni inteqrasiyaya məruz qalan dünyada beynəlxalq təhlükəsizlik anlayışından kənar təsəvvür edilə bilməz. Məhz bu baxımdan, bir çox beynəlxalq təşkilatların nizamnamə və sənədlərində də beynəlxalq təhlükəsizliyin qorunması problemi daim öz əksini tapmaqdadır.

Ötən dövrdə Azərbaycanın enerji siyasəti daha da güclənib və respublikamız dünyada təchizatçı kimi mövqeyini möhkəmləndirib. Azərbaycan bölgənin bir çox ölkəsinə yanacaq ehtiyatlarının nəqlini həyata keçirməklə diversifikasiya siyasətini gücləndirib. Belə ki, hazırda ölkəmizin nefti və qazı mövcud enerjidaşıyıcı sistemlərlə müxtəlif istiqamətlərə nəql edilir. Lakin, hazırkı imkanları genişləndirmək, şaxələndirmək və sayını artırmaq üçün də yaxşı potensial mövcuddur. Rəsmi Bakı neft- qaz təchizatı marşrutlarının şaxələndirilməsi ilə bağlı səslənən təklifləri hər zaman dəstəkləyib, bu sahədə müxtəlif layihələr üzərində düşünən Avropa İttifaqının enerji təhlükəsizliyinə töhfələr verməyə hazır olduğunu bəyan edib. Ona görə bir çox ölkələrin enerji təhlükəsizliyinin təminatına böyük töhfələr verən respublikamız dünya birliyində etibarlı və strateji tərəfdaşı kimi yerini möhkəmləndirib.

Azərbaycanın təşəbbüsü ilə BTC, Bakı –Supsa neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin işə düşməsindən sonra karbohidrogen ehtiyatlarının nəqli ilə bağlı regionda tamamilə yeni vəziyyət yarandı. Yəni, Xəzərin karbohidrogen ehtiyatları ilk dəfə olaraq alternativ yollarla dünya bazarlarına çıxarılmağa başlandı ki, bu da Azərbaycanın enerji siyasətinin müstəqil olmasından xəbər verir. Bu layihələrdən sonra Trans–Anadolu (TANAP) və Trans–Adriatik (TAP) boru kəmərləri layihələrinin həyata keçirilməsi Avropa və dünyanın enerji təhlükəsizliyi baxımından böyük əhəmiyyətə malikdir.

Əlbəttə, Azərbaycanın əlverişli geosiyasi mövqeyinin, multikultural müxtəlifliyin və çoxmədəniyyətliliyinin, yüksək insan potensialının və zəngin təbii ehtiyatlarının olmasına baxmayaraq, balanslı siyasətin həyata keçirilməsi bir o qədər də asan olmamışdır. Ulu öndərimiz özünün zəngin siyasi-diplomatik bilik və bacarığına, yüksək dövlət idarəçiliyi və uzaqgörən qabiliyyətinə istinad edərək, elə bir dövlət siyasəti formalaşdırdı ki, bu siyasət ölkəmizin ildən-ilə müasir dünyada imicinin və mövqeyinin güclənməsinə zəmin yaratdı.

Sözsüz ki, dövlətimizin siyasətinin ölkəmizin maraqlarına uyğun olaraq həyata keçirilməsi həm ümummilli liderimizin, həm də möhtərəm Prezidentimiz İlham Əliyevin misilsiz xidmətlərinin bariz nümunəsidir. Xalqımız əmindir ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasət və Azərbaycanın beynəlxalq aləmdə getdikcə artan nüfuzu onun dünya birliyindəki yerini və mövqeyini daha da möhkəmləndirəcək.

**Məlahət İBRAHİMQIZI,**
**Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri, V çağırış Milli Məclisin deputatı.**

www.yap.org.az

# QƏLBLƏRDƏ YAŞAYAN DAHİ İNSAN

**Ümummilli liderimiz, milli dövlətimizin memarı və qurucusu Heydər Əliyevin siyasi və idarəçilik fəaliyyəti tariximizdə müstəsna yer tutur. Ulu öndər Azərbaycan tarixində yeni parlaq səhifə açan nadir şəxsiyyət olmuşdur. 1993-cü ilin yayında xalqımız son ümid yeri kimi ona üz tutanda Azərbaycan "olum, ya ölüm" qarşısında qalmışdı. Heydər Əliyev Azərbaycanı parçalanıb məhv olmaqdan qurtardı, müstəqilliyimizi dönməz etdi, sabitlik və təhlükəsizliyin qarantı oldu. Ölkəmiz inkişafa, firavanlığa doğru addımlayan, dünya birliyində layiqli yerini tutmuş bir dövlətə çevrildi. Ulu öndər Heydər Əliyev siyasətçi və dövlət xadimi kimi üzərinə düşən ən uca missiyanı gerçəkləşdirdi, müasir Azərbaycan dövlətini yaratdı və onun şanlı tarixini öz əlləri ilə yazdı.**

Ulu öndərin həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və mübaliğəsiz deyə bilərik ki, bu tarixin ən şanlı səhifələrindəndir. O Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə ölkənin həyatında, xalqın taleyində elə bir əzəmətli rol oynayıb ki, bu, əsrlər boyu unudulmayacaq. Azərbaycanın hər bir bölgəsində Heydər Əliyevin quruculuq fəaliyyətinin silinməz izləri var. Ulu öndər həyatı boyu həmişə xalqına arxalanıb və bunu fəxrlə bəyan edib: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Müstəqil Azərbaycan dövlətinin üzləşdiyi sınaqlar, dövlətimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət bu sözlərin gerçəkliyini dəfələrlə təsdiqləyib. Ulu öndərin Azərbaycanla, xalqımızla bağlı arzuları bitib-tükənməz, Vətənə, xalqa olan məhəbbəti hədsiz-hüdudsuz idi. O dünyanın hansı nöqtəsinə gedirdisə, Azərbaycanı, onun problemlərini də ürəyində aparırdı. Bu dahi insan Vətən üçün, xalq üçün doğuldu. Vətəni, xalqın tərəqqisi, inkişafı, azadlığı, müstəqilliyi üçün çalışdı və bu yolda ömrünü şam kimi əritdi. Müqəddəs amalları və fəaliyyəti ilə xalqın gözündə, qəlbində dağ kimi ucaldı. Ona görə də xalqın öz sədaqətli, dahi övladına məhəbbəti sonsuzdur, əbədidir...

Azərbaycanın 1970-ci illərdən sonrakı inkişafı, uğurları və yüksəlişi demək olar ki, bütünlüklə ümummilli liderimiz, müdrik zəka sahibi Heydər Əliyevin adı ilə bağlıdır. Böyük rəhbərin hakimiyyətdə olduğu dövr Azərbaycan elminin, təhsilinin, səhiyyə və mədəniyyətinin, iqtisadiyyatının sürətli inkişafı ilə yadda qalmışdır. Bu illər milli-mənəvi dəyərlərimizin qorunması, vətəndaşların sosial həyat tərzinin yaxşılaşdırılması, demokratiyanın inkişafı, dünya

azərbaycanlılarının monolit bir qüvvə kimi təşkilatlanması Heydər Əliyevin strategiyasının uğuru kimi qeyd olunmalıdır.

Ulu öndərimizin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövr quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olub. Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının inkişafındakı xidmətləri özünü hələ sovet dövründə göstərib. Ötən əsrin 70-ci illərində bol nefti və xam pambığı ilə deyil, soyuducuları və kondisionerləri ilə tanınan Azərbaycan əsrin sonunda Heydər Əliyevin sayəsində ən irimiqyaslı iqtisadi layihələrin mərkəzinə çevrilib. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi hələ 70-80-ci illərdə təməli qoyulmuş potensiala söykənir. Məhz o illərdə ölkəmizin gələcəyi üçün çox mühüm addımlar atılıb. İnfrastruktur yenilənib, neft sənayesi yenidən qurulub, nəhəng kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma müəssisələri yaradılıb, elmi, mədəni tərəqqiyə nail olunub, ölkəmizin iqtisadi, sosial, elmi-texniki potensialı möhkəmləndirilib.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ərzində xalq üçün, vətən üçün etdiklərini bəzən adi insan təfəkkürünün əhatə dairəsinə sığışdırmaq olmur. Böyük öndərimiz tariximizə xilaskar kimi daxil olub və respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə bu missiyanı çox böyük uğurla yerinə yetirib. Müasir Azərbaycanın bir dövlət kimi formalaşması və qurulması birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, ümummilli liderimiz azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük sənət əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşı olmaqdan qürur duyur, böyük öndərə sayğı və məhəbbətini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.

Heydər Əliyev əsl ümumxalq məhəbbəti, sevgisi qazanmış nadir siyasətçilərdən, dövlət xadimlərindəndir. O, respublikaya rəhbərlik etdiyi illər ərzində gördüyü nəhəng işləri ilə xalqımızın qəlbində özünə əbədi abidə ucaldıb. Ona görə də nə qədər ki müstəqil Azərbaycan dövləti var, Heydər Əliyev də ürəklərdə yaşayacaqdır. Bu isə əbədiyyət deməkdir. Ulu öndərin yolu xalqımızı firavan gələcəyə aparır. Dahi və əzəmətli şəxsiyyətin yolunun davamı müstəqil Azərbaycan dövlətinin gələcəyi, onun daha da güclənməsi, ərazi bütövlüyünün bərpa olunması, hər bir vətəndaşımız üçün firavan və rahat həyat şəraitinin yaradılması deməkdir. Heydər Əliyevin başladığı işləri davam etdirmək, qurduğu dövləti yeni-yeni uğurlara çatdırmaq onun ruhu qarşısında ən ümdə borcumuzdur.

Heydər Əliyev nələr yaratmadı, tikdirmədi Azərbaycanda?! “...dağıtmaq asan işdir, amma yaratmaq çox çətindir. Tarix, insanlar isə həmişə quranları, yaradanları qiymətləndirir”, – deyirdi Heydər Əliyev. O, özü üçün də, milləti, xalqı üçün də Azərbaycan adlı abidə qoyub getdi. Tikmədi, qurmadı ki, özü qala, tikdi, yaratdı ki, izi qalsın. Həqiqətən də bu gün ölkəmizin hansı guşəsinə baxsan bu böyük insandan

orada bir iz görərsən. Heç bir vaxt, tarixin heç bir dönəmində silinib pozulmayacaq bir iz!

Müasir Azərbaycanın yaradıcısı, xalqımızın fədakar oğlu öz həyatının mənasını doğma Vətəninə və xalqına xidmətdə görürdü, bu məqsədlə gecə-gündüz çalışırdı. Ulu öndərin mənalı ömür yolu Vətənə sədaqət nümunəsidir. Dünyanın ən tanınmış siyasətçiləri bu böyük zəka sahibinin işlərini — Heydər Əliyev irsini örnək kimi qəbul edirlər. Çünki onlar hələ keçmiş SSRİ zamanından Heydər Əliyevin nəyə qadir olduğunun şahidi idilər. Təkrarsız təşkilatçılıq qabiliyyətinə malik olan ulu öndərimiz milli iqtisadiyyatımızın dinamik inkişafından ötrü əlindən gələni edirdi. Xüsusən ən müxtəlif sahələrdə işləyəcək kadr potensialını yaratmaq Heydər Əliyev fəaliyyətinin əsas istiqamətlərindən biri olmuşdu. Ulu öndər müstəqil Azərbaycan dövlətini daxili və xarici təhlükələrdən xilas edərək onu inkişaf və tərəqqi yoluna çıxardı. Ölkəmizdə bərqərar olan sabitlik, həyatın bütün sahələrində qazanılan uğurlar Heydər Əliyevin müdrik və dahi şəxsiyyət olduğunu göstərdi.

Bu sabitlik və əmin-amanlıq nəticəsində nəhəng islahatlar həyata keçirildi. Bu islahatlar respublikanın hərtərəfli inkişafına təkan verdi. Hər bir Azərbaycan vətəndaşı dərin iftixar hissi ilə qeyd edir ki, müstəqil Azərbaycan dövləti ümummilli liderimizin şah əsəri, onun öz xalqı qarşısında tarixi xidmətidir. Məhz buna görə Heydər Əliyevin adı tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır. Ulu öndərin vaxtilə bölgələrə etdiyi səfərlər yaxşı xatirimizdədir. O, pambıq tarlalarında, tikinti meydançalarında tez-tez olur, zəhmətkeşlərlə səmimi görüşlər keçirir, insanların firavan yaşaması üçün yerindəcə tapşırıqlar verirdi. Hakimiyyətdə olduğu 34 illik dövr ərzində rayonlarda yaradılmış istehsal və xidmət müəssisələri onun bilavasitə göstərişləri, layihələri və iradəsi sayəsində meydana gəlmişdir. Böyük öndərin bir diplomat kimi fəaliyyəti də hər birimizin gözləri qarşısındadır.

Siyasət aləmində misli-bərabəri olmayan bu dahi şəxsiyyət Azərbaycanı qısa müddətdə bütün dünyaya tanıtdı. Təkcə "Əsrin müqaviləsi"ni göstərmək kifayətdir ki, bu barədə aydın təsəvvür olsun. Onun dünya miqyasında, gördüyü işlər ölkəmizin beynəlxalq nüfuzunun möhkəmlənməsində əvəzsiz rol oynadı. Azərbaycanın Avropa Şurasına qəbul edilməsi Heydər Əliyevin şəxsi nüfuzu sayəsində mümkün olmuşdur.

Müstəqil Azərbaycanın inkişafında müstəsna rolu olan Yeni Azərbaycan Partiyasının yaradılması da ümummilli liderimizin xalqı qarşısında əvəzsiz xidmətlərindəndir. Ulu öndərin 1992-ci ildə hələ Naxçıvanda ikən Azərbaycan ziyalılarının böyük bir hissəsinin çağırışına səs verərək Yeni Azərbaycan Partiyasını yaratması zərurətdən doğan bir hadisə kimi ölkəmizin taleyində önəmli rol oynadı.

Təsadüfi deyil ki, 1992-ci ilin sonlarında, 1993-cü ilin əvvəllərində o vaxtkı iqtidarın bütün təzyiq və maneələrinə baxmayaraq Bakıda və Azərbaycanın digər bölgələrində YAP-ın ilk təşkilatları formalaşdı. Heç bir

il keçmədən Yeni Azərbaycan Partiyası və onun dahi rəhbəri, lideri Heydər Əliyev respublikamızda yaranmış siyasi-iqtisadi, sosial böhranın, vətəndaş müharibəsinin aradan qaldırılması vəzifəsini öz üzərinə götürdü. YAP-ın gücü dünya səviyyəli siyasi-ictimai xadim Heydər Əliyevdə, bu dahi şəxsiyyətə sonsuz ümumxalq məhəbbətində öz təcəssümünü tapmışdı. Odur ki, qısa zamanda onun sıraları mətin, vətənpərvər insanlar hesabına yüz minləri keçdi, monolit və sarsılmaz qüvvəyə çevrildi.

Bu gün Yeni Azərbaycan Partiyası regionumuzun yeni praqmatik lideri, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələri fəth etməyə doğru inamla irəliləyir. Yeni Azərbaycan Partiyasının rəhbərliyi partiyanın daim yeniləşməsinə və güclənməsinə mühüm önəm verir. Çünki bu partiya, eyni zamanda, Heydər Əliyev siyasi irsinin ideoloji bazasını təşkil edən güc mərkəzidir.

Müasir Azərbaycan dövlətinin 1993-cü ildən sonra yazılan tarixi də deyilənlərin aydın təsdiqidir. Dahi və uzaqgörən dövlət rəhbəri kimi məhz ulu öndər Heydər Əliyevin başladığı və bu gün adı dünyanın ən nüfuzlu liderləri ilə bir sırada çəkilən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs güclü Azərbaycan dövlətinin qurulmasını, onun yerləşdiyi bölgənin liderini, dünyada isə söz sahibinə çevrilməsini təmin edib.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmizdə sistemli, hərtərəfli islahatlar həyata keçirilir. Həmin proses 2019-cu ilin əvvəlindən daha geniş vüsət alıb və bir çox sahələri əhatə edir. Bu islahatlar ölkəmizin ümumi inkişafına yeni dinamizm gətirir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan nailiyyətlər xalqımız tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan xalqı həyata keçirilən səmərəli, məqsədyönlü daxili siyasətin və müstəqil xarici siyasət kursunun uğurlu nəticələrini yüksək dəyərləndirir. Dövlətimizin başçısı Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə həmin məqamlara da toxunaraq "...Xalq bizi dəstəkləyir və sonuncu rəy sorğuları onu göstərir. Əhalinin mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir", – deyə bildirib. Prezident İlham Əliyev əhalinin mütləq əksəriyyətinin iqtidara alternativ görmədiyini də söyləyib. Həqiqətən də, Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətə alternativ görmür. Tam əminliklə deyə bilərik ki, ulu öndər Heydər Əliyevin ideyaları yaşayır və qalib gəlir, Azərbaycan xalqını daha böyük qələbələrə aparır. Bu gün hər bir azərbaycanlının qəlbində Heydər Əliyev sevgisi dünənkindən daha güclüdür, daha parlaqdır. Nə qədər ki bu vətən var, Heydər Əliyev yaşayacaqdır, nə qədər ki Odlar yurdu Azərbaycan var olacaqdır, ürəklərdə Heydər Əliyev məhəbbəti daha da alovlanacaqdır!

Bu gün ümummilli lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, onun milli dövlətçilik ideyalarının yeni nəsillərə aşılanması məqsədi ilə 2004-cü ildə yara-

dılmış Heydər Əliyev Fondu məhz Mehriban xanımın rəhbərliyi altında Azərbaycanın, eləcə də regionun ən böyük ictimai təşkilatına çevrilib.

Ulu öndərin adını daşıyan Fond milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına xüsusilə köməklik göstərib. Bununla yanaşı, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirlər, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələr Heydər Əliyev Fondu tərəfindən daim dəstəklənib. Fond uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılması istiqamətində də mühüm tədbirlər həyata keçirib. Ona görə də Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən daim yüksək qiymətləndirilib.

Azərbaycanın Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini, ölkənin birinci xanımı Mehriban xanım Əliyeva ölkəmizin ictimai-siyasi, mədəni həyatında daim mühüm və fəal rol oynayır. Mehriban xanım vaxtilə Milli Məclisin deputatı kimi də çoxşaxəli fəaliyyəti ilə diqqət çəkir. O, təmsil etdiyi dairənin sosial-ictimai problemlərinin həllində böyük addımlar atıb, vaxtilə fəal deputat kimi də seçiciləri ilə daim təmasda olub. Mehriban Əliyevanın fəaliyyətində yaddaqalan məqamlardan biri də onun ədalət, humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq genişmiqyaslı amnistiya aktlarının qəbul edilməsi təşəbbüsü ilə çıxış etməsidir. Bu təşəbbüslərin dövlət başçısı İlham Əliyev tərəfindən dəstəklənməsi sayəsində minlərlə məhbus azadlığa qovuşub. UNESCO və İSESCO-nun xoşməramlı səfiri kimi ölkə daxilində və xaricində mühüm layihələrə imza atan Mehriban Əliyeva Azərbaycanın birinci xanım statusunu da şərəflə daşıyıb. Mehriban Əliyevanın bütün çıxışları, müsahibələri özünün zənginliyi, dərin məzmunu, yenilikçi düşüncəsi ilə böyük maraq doğurur. Bu, fitri istedad sahibinin milli-bəşəri ideallara sadiqliyi, dünya cəmiyyətinə nikbin baxışlarının məntiqi ifadəsidir. Onun genişmiqyaslı fəaliyyəti ölkənin ictimai, sosial, mədəni həyatını əhatə etməklə tükənmir. Mehriban Əliyeva Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu, özəlliklərini, dünya cəmiyyətində böyük fədakarlıqla, uğurla təbliğ edir. Qədim ənənələrimizlə bağlı olan multikultural dəyərləri, tolerantlığı başqa ölkələrdə əməli işləri ilə nümayiş etdirir. Mehriban Əliyeva bütün dünyaya xeyirxahlığın zirvə nümunəsini sərgiləməkdə davam edir. Ən parlaq işlər isə hələ qabaqdadır. Onun getdikcə yeni çalar qazanan ictimai-siyasi fəaliyyəti bunu diktə edir. Burada Prezident cənab İlham Əliyevin fikrini xatırlatmaq yerinə düşür: “O, insanlara xoş münasibəti, xoş niyyəti, xoş ünsiyyəti ilə seçilib. Bu, onun xasiyyətinin ən fərqləndirici cəhətidir. Mən əminəm ki, Mehriban Əliyeva xeyriyyəçilik, insansevərlik, mərhəmət, Azərbaycan xalqının

mentalitetinə, mədəniyyətinə, düşüncəsinə, əsrlərdən bəri formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətləri davam etdirməyə çalışacaq”.

Mehriban xanım Azərbaycan Prezidentinin dövlətçilik ideyalarından güc alır. Dövlət rəhbərimizin vətənpərvərliyi, ölkəmizin maraqlarını sədaqətlə, iradə ilə, cəsarətlə qorumağı, xalqımızla sarsılmaz birliyi onun üçün də parlaq bir nümunədir. Bu nümunə Mehriban xanımın fəaliyyətini istiqamətləndirir. Ölkəmizdəki müsbət meyillərə, dəyişikliklərə, inkişafa, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasına öz töhfələrini verməyə ruhlandırır. Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsində də öz fəaliyyətini məhz bu prinsiplər əsasında qurub. Onun bu vəzifədə irəli sürdüyü və icrasına birbaşa rəhbərlik etdiyi layihələrin hər biri sosialyönümlüdür. Hər biri vətəndaşları narahat edən köklü problemlərin həllinə yönəlib. Həm xalqımıza, həm də beynəlxalq ictimaiyyətə məlum olduğu kimi, Mehriban xanım Əliyevanın deputatlıq fəaliyyəti dövründə də ölkə həyatının elə bir sahəsi olmayıb ki, oradakı problemli məsələlər diqqətindən kənarda qalsın. Bütün imkan və bacarığını insanların yüksək rifahı naminə humanitar proqramların reallaşmasına, Azərbaycanın dünyada sivil ölkə kimi tanınmasına yönəldən Birinci vitse-prezident köməyə ehtiyacı olan insanlara hər an yardım etməyə hazır olub. Qarşıya qoyulan növbəti prioritet vəzifə isə qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, həyat səviyyəsinin yüksəldilməsidir. Xalq onu sevir və ona inanır. Elə buna görə də Mehriban Əliyevanın sayəsində cəmiyyətin sosial həyatında xeyriyyəçilik ənənələri canlanıb. Birinci vitse-prezident insanlara xeyirxahlığa meyil, başqasının dərdinə şərik olmaq, köməyə ehtiyacı olana yardım əlini uzatmaq kimi hiss və bacarıqları aşılayıb. Mehriban xanım Əliyevanın həyata keçirdiyi böyük missiya Azərbaycanda qadın hüquqlarının yüksək səviyyədə təmin edilməsinə sübut və bütün xanımlarımız üçün örnəkdir. Onun fəaliyyəti Prezident cənab İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla tamamlayır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Vətənin və xalqın taleyində bundan sonra da misilsiz rolu olacağına, ölkənin vüsətli inkişafına yeni və davamlı töhfələr verəcəyinə inamımız böyükdür. Bu inamı yaradan başlıca amil də qeyd etdiyimiz kimi, onun hər zaman dövlətçiliyimizə, xalqımıza xidmət etmək istəyi, arzusudur.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva həyata keçirdiyi bütün layihələr xalqa layiqli xidmət prinsipinə söykənir. Onun dövlət idarəçiliyi fəlsəfəsində insanlara yaxşılıq kimi mütərəqqi bir ideya, nəcib amal yenə də ön plandadır. Əminik ki, Mehriban xanım Əliyeva bu xeyirxah, nəcib missiyanı bundan sonra da davam etdirəcək, ulu öndər Heydər Əliyevin ölməz ideyalarına tapınmaqla milli intibah prosesinə layiqli töhfələrini verəcəkdir.

Azərbaycanın müasir tarixini ümummilli lider Heydər Əliyevin fəaliyyətindən kənar təsəvvür etməyin mümkünsüzlüyü ictimai fikirdə birmənalı şəkildə qəbul edilən real həyat həqiqətidir. Bu həqiqət nəinki Azərbaycanın müasir mövcudluğunda, həm də ona aparan yollarda qarşıya çıxan saysız-hesabsız maneələrin aradan qaldırılmasında ulu öndər Heydər Əliyevin nümayiş etdirdiyi uzaqgörənlikdə, iradə və qətiyyətdə, müdriklik və dərin zəkada təzahür edir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən müdrik dövlətçilik siyasəti nəticəsində bu gün Azərbaycan Respublikasında mütərəqqi və dünyəvi dəyərlərə uyğun islahatlar aparılmaqla demakratik, hüquqi və sivil dövlət qurulmuş, dönməz və dayanıqlı ictimai-siyasi sabitlik əldə edilməklə qanunun aliliyinə və insan hüquq və azadlıqlarına real təminat verən vətəndaş cəmiyyəti formalaşmışdır.

Ümummilli liderimiz bu gün cismən aramızda olmasa da, təsəllimiz odur ki, Heydər Əliyevin sönməz ideyalarının davamçısı olan layiqli siyasi varis, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında gələcəyə addımlayırıq. Bu isə o deməkdir ki, dövlətimiz etibarlı əllərdədir. Təməli hələ 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş xarici və daxili siyasət kursumuzun dəyişməz olduğu, bu siyasətin yalnız milli maraqlar çərçivəsində aparıldığı göz qabağındadır. İndi bu siyasət qloballaşan bəşəriyyətin tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir. Ulu öndərimiz Heydər Əliyevin adı bu gün sözün həqiqi mənasında Azərbaycan dövlətinin rəmzi kimi səslənir. Bugünkü güclü, qüdrətli Azərbaycanı o yaradıb, ölkənin müstəqilliyini möhkəmləndirib inkişaf etdirib, bütün dünyaya tanıdıb. Ümummilli liderimiz ölkəmizin siyasi, sosial-iqtisadi konsepsiyalarını işləyib hazırlayıb, onların dönmədən həyata keçirilməsini təmin edib. Dövlət başçısı İlham Əliyev həyata keçirdiyi islahatları məhz ulu öndər Heydər Əliyevin müəllifi olduğu möhkəm təməl üzərində davam etdirir və yeni dövrün tələblərinə uyğun zənginləşdirməyə çalışır. Xalqımızı Heydər Əliyev ideyaları ətrafında birləşdirən cənab İlham Əliyev özünü azərbaycanlı sayan, bu mənsubiyyətdən qürur duyan hər kəsi ulu öndərimizin işıqlı, nurlu arzularının, ideyalarının həyata keçirilməsi istiqamətində səfərbər edir. Bütün bunlar tam mənada deməyə əsas verir ki, Prezident cənab İlham Əliyevin dövlətçilik təcrübəsində siyasi varislik ənənələrinin davamı, üstəlik, mütərəqqi inkişaf meyillərinin gücləndirilməsi ideyası üstünlük təşkil edir. Bu gün xalqımız ümummilli liderin siyasi varisi - yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını dərindən bilən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşmişdir.

**Tahir SÜLEYMANOV,**
**V çağırış Milli Məclisin deputatı.**

# İSLAHATLAR SOSİAL-İQTİSADİ İNKİŞAFI DAHA DA SÜRƏTLƏNDİRİR

**Dövlət başçısı İlham Əliyev prezidentlik fəaliyyətinə başladığı vaxtdan ötən 16 il ərzində sosial-iqtisadi sahələrin inkişafı məqsədilə qətiyyətli addımlar atılıb, genişmiqyaslı islahatlar gerçəkləşdirilib, idarəetmə fəaliyyətinn yenilənməsinə xüsusi əhəmiyyət verilib. Respublikada həm yeni nazirliklər yaradılıb, ayrı-ayrı nazirliklərin təkrarlığı aradan qaldırılıb, birləşmə prosesi gedib, həm də bəziləri ləğv edilib. Bir sözlə, dövlət başçısı hər zaman çevik idarəetmə mexanizminə xüsusi diqqət yetirib. Neftin ucuzlaşması və kəskin devalvasiyadan sonra isə ölkədə idarəetmənin daha çevik mexanizmlərinin təşkili ilə bağlı məsələ mühüm önəm daşıyıb, bu, sosial-iqtisadi islahatların daha sürətlə aparılmasına təkan verib.**

İslahatlar fəaliyyət istiqamətləri oxşar olan dövlət qurumlarının konsolidasiyasının həyata keçirilməsinə, dövlət aparatının saxlanılması xərclərinin maksimum dərəcədə optimallaşdırılmasına, büdcə yükünün azaldılması istiqamətində tədbirlərin reallaşdırılmasına müsbət təsir göstərib.Bu, eyni zamanda, korrupsiya və rüşvətxorluğun aradan qaldırılması, sahibkarların fəaliyyətinə dolayısı və birbaşa mane olan, onlara qarşı əsassız tələblər irəli sürən dövlət qurumlarının ləğv edilməsi ilə nəticələnib.

Prezident İlham Əliyev çıxışlarında kadr islahatlarının davamlı olacağını, təyin edilən bütün yeni kadrlar qarşısında konkret vəzifələr qoyulduğunu və kadrlara o vəzifələrin icrasının zəruriliyini diqqətə çatdırıb. Eyni zamanda, dövlət məmurlarının vəzifəyə gəlir mənbəyi kimi baxmamalarını, xalqa xidmət etmələrini, başlıca missiyalarının, vəzifələrinin məhz bundan ibarət olduğunu tövsiyə edib.

Bu fikirlə bağlı bir məqamı xatırlatmaq istərdim. Prezident İlham Əliyev bir müddət əvvəl yeni icra başçılarının vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edərkən deyib: “Sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, rəhbərlik edəcəyiniz şəhər və rayonda iqtisadi inkişaf təmin edilsin, işsizliklə bağlı problemlər öz həllini tapsın. Siz vətəndaşlarla daim təmasda olmalısınız. Mövcud bütün olan problemləri, ilk növbədə, çox dərindən təhlil etməlisiniz və problemlərin həlli üçün iş planı tutulmalıdır. Təbii ki, problemlərin bir hissəsinin həlli mərkəzi icra orqanlarının səlahiyyətindədir. Belə olan halda, mərkəzi icra orqanları qarşısında məsələ qaldırmalısınız, eyni zamanda, Prezident Administrasiyasına məlumat verməlisiniz. O məsələlər

ki, sizin fəaliyyətinizdən asılıdır, onları özünüz həll etməlisiniz və daim vətəndaşlardan onları narahat edən məsələləri eşitməlisiniz. Ona görə vətəndaşlarla sizin ünsiyyətiniz formal xarakter yox, işgüzar xarakter daşımalıdır və bu, sizin iş qrafikinizdə prioritet məsələ olmalıdır".

Ölkə rəhbəri nitqində yuxarıda qeyd edilənlərlə yanaşı, Azərbaycanda işsizliklə bağlı problemlərin bütövlükdə həllini tapdığını, yeni iş yerlərinin yaradılması üçün investisiya layihələrinin icrasının zəruriliyini, bunun üçün icra başçılarının da həm yerli, həm də xarici biznes dairələri ilə sıx təmaslar qurmağı diqqətdə saxlamalarını qeyd edib:

"Sizə göstərilən bu etimad doğrudan da sizin üçün böyük avansdır. Çünki indiki şəraitdə kadrlara qarşı tələbkarlıq artır. Kadrlar qarşısında çox ciddi vəzifələr qoyulur, xüsusilə pozuntularla bağlı, rüşvətxorluq, korrupsiya sıfır dərəcəsində olmalıdır. İnvestorları incitməməlisiniz, əksinə, onlara kömək göstərməlisiniz, onları cəlb etməlisiniz ki, vətəndaşlar sizin işinizdən razı qalsınlar. Əgər vətəndaşlar razı olsalar, – atalar sözü var, "Xalqın gözü tərəzidir", – mən də razı olacağam və sizin fəaliyyətinizə yüksək qiymət verəcəyəm.Yox əgər mənim etimadımı doğrultmasanız, onda sizi çox ciddi cəza gözləyir.Əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və müasir dövrün tələblərinə cavab verərək rəhbərlik edəcəyiniz Naftalan şəhərinin, Hacıqabul rayonunun inkişafına öz töhfənizi verəcəksiniz".

Respublikamızda dövlət idarəetmə islahatlarının diqqət mərkəzində saxlanılması iqtisadi və sosial islahatların sistemliliyini və dayanıqlılığını təmin edir, ölkənin davamlı inkişafına zəmin yaradır. Ən əsası isə islahatların sistemli şəkildə gerçəkləşdirilməsi bu prosesə inamı daha da artırır. Azərbaycan ictimai-siyasi kataklizmlər yolu ilə deyil, təkamül yolu ilə inkişaf edir. Hazırda dünyada rəqabət idarəetmə sistemləri arasında gedir. Azərbaycan məhz idarəetmənin səmərəliliyini artırmaqla qlobal səviyyədə rəqabətlilik potensialını gücləndirir.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, ölkəmizdə səmərəli dövlət idarəetmə sistemi qurulub. Bu, beynəlxalq hesabatlarda da öz təsdiqini tapıb. Məsələn, Dünya Bankının hesabladığı "Hökumətin səmərəliliyi" subindikatoru üzrə Azərbaycan 2007-2018-ci illərdə regionda ən çox irəliləyiş edib. Belə ki, müqayisə olunan dövrdə Azərbaycan 7, Qazaxıstan 6, Özbəkistan 5, Gürcüstan 5 və Qırğızıstan 2 pillə irəliləyə bilib. Azərbaycan "Qlobal Rəqabətlilik hesabatı"nda 140 ölkənin arasında məhkəmənin müstəqilliyi meyarına görə 39-cu, hökumət tənzimlənməsinin yükü meyarına görə 3-cü, hökumətin siyasətin davamlılığını təmin etməsi meyarına görə 11-ci, hökumətin dəyişikliklərə reaksiyası meyarına görə 5-ci, hökumətin uzunmüddətli vizyonu

meyarına görə 10-cu pillədə qərarlaşıb. "ASAN xidmət", DOST, ABAD, "Bir pəncərə" İxraca Dəstək Mərkəzi, Şəbəkə və digər xidmətlərdən vətəndaşların məmnunluq səviyyəsi 100 faizə yaxınlaşıb.

Bütün bunlar isə respublikamızın dünyada ən çox islahat aparan ölkələrdən biri kimi elan olunmasına gətirib çıxarıb. Belə ki, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan 10 ən islahatçı dövlət siyahısına daxil edilib.

Yeri gəlmişkən, struktur islahatları "yaxşı idarəetmə" və "açıq hökumət" prinsiplərinə uyğun şəkildə dövlət idarəetməsinin dünya standartlarına əsasən həyata keçirilməsini təmin edir. Davos İqtisadi Forumunun "Qlobal Rəqabətlilik 2019" hesabatına görə, Azərbaycan 140 ölkə arasında "Dövlət tənzimlənməsinin yükü" alt-indikatoru üzrə əvvəlki illə müqayisədə 3 pillə irəliləyərək 12-ci yerdə qərarlaşıb və Avstriya, Belçika və Danimarka kimi ölkələri geridə qoyub. Bu fakt Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə səmərəli dövlət idarəetmə sisteminin formalaşmasını göstərir.

Prezident İlham Əliyev ölkədə kadr və struktur islahatları ilə yanaşı, sosial-iqtisadi inkişafa da daim diqqət yetirib.Son 16 ildə qarşıya qoyduğu əsas vəzifələrdən biri respublikamızı iki nəqliyyat dəhlizinin habına çevirmək olub. Bunlardan biri Avropa İttifaqı ölkələrindən Çinə tərəf uzanan Şərq-Qərb, digəri isə Rusiyanı İran və Hindistanla əlaqələndirən Şimal-Cənub dəhlizləridir. Bu baxımdan Ələt limanının yaradılması və bu ərazidə sərbəst iqtisadi zona qurulması təşəbbüsü diqqət çəkir. Yeri gəlmişkən, Rusiya, Mərkəzi Asiya və ya İrandan Ələtə gətirilən yükün 2017-ci ilin oktyabrında işə salınan Bakı-Tbilisi-Qars dəmir yolu marşrutu ilə qısa müddətdə Avropadakı təyinat məntəqələrinə göndərilmə imkanlarının gerçəkləşdirilməsi mühüm önəm daşıyır.

Son 16 ildə iqtisadiyyata 250 milyard dollar məbləğində sərmayə qoyulub. Nəticədə bu gün Azərbaycan şaxələndirilmiş iqtisadiyyat sisteminə malikdir. Bu sahədə ciddi nailiyyətlər qazanılıb.Neft sənayesi ardıcıl inkişaf edib, müasir texnologiyalarla təchiz olunmuş onlarca yeni sənaye müəssisəsi tikilib və fəaliyyətə başlayıb."2015-2020-ci illər üçün Azərbaycan Respublikasında sənayenin inkişafı üzrə Dövlət Proqramı" əsasında ölkədə çoxsaylı sənaye parkları və sənaye məhəllələri, texnoloji parklar yaradılıb, mövcud istehsal obyektləri genişləndirilib. İnnovasiyalı istehsal iqtisadiyyatda, o cümlədən aqrar sahədə aparıcı istiqamətə çevrilir. İxrac üçün sənaye məhsulları istehsalı yüksək sürətlə artmaqdadır.

İqtisadiyyatın aqrar sektorunda islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçıları üçün güzəştlər və dövlət yardımı iqtisadiyyatın bu sahəsinin inkişafına güclü təkan verib. Pambıqçılıq, taxılçılıq, ipəkçilik, üzümçülük, çayçılıq, tərəvəz-

çilik, çəltikçilik və arıçılıq kimi ənənəvi kənd təsərrüfatı sahələri dirçəldilib. Meyvə bağlarının sahəsi xeyli genişlənib. Aqroparklar ölkənin landşaftını tanınmaz dərəcədə dəyişib, xarici dövlətlərin Azərbaycanın kənd təsərrüfatı məhsullarına tələbatı xeyli artıb.

Ümumiyyətlə, kənd təsərrüfatının inkişafını daha da sürətləndirmək, aqrar sahəni modernləşdirmək, bu sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı reallaşdırmaq məqsədi ilə həyata keçirilən islahatlar nəticəsində hazırda müsbət göstəricilər qeydə alınır. Prezident İlham Əliyevin yanında pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı keçirilən müşavirədə dövlətimizin başçısı nitqində bu barədə ətraflı bəhs edib. Ölkə rəhbəri diqqəti son illərdə aqrar sektorun ayrı-ayrı sahələrində nəzərə çarpan inkişafa yönəltməklə bərabər, pambıqçılıqda da əldə olunan yüksək göstəriciləri xüsusi vurğulayıb. Dövlətimizin başçısı prezidentlik fəaliyyətinin bütün dövrlərində əsas ixracyönümlü kənd təsərrüfatı məhsullarından olan pambıqçılığın inkişafını daim diqqət mərkəzində saxladığını, pambıqçılıq ənənələrinin son illər yüksək templə inkişaf etdirildiyini xatırladıb. Prezident qeyd edib ki, cari il rekord göstərici əldə olunub, 294 min ton pambıq yığılıb və hər hektardan məhsuldarlıq orta hesabla 29,4 sentner təşkil edib: "Bu, doğrudan da çox böyük göstəricidir və onu göstərir ki, son illər ərzində pambıqçılıqda inkişafla bağlı atılmış bütün addımlar öz səmərəsini verməkdədir. Bu, bir daha onu göstərir ki, dövlət dəstəyi olmadan pambıqçılıq inkişaf edə bilməz. Biz demək olar ki, Azərbaycanda pambıqçılığı dirçəltmişik, bunu çox gəlirli sahəyə çevirmişik, pambıqçılıqla məşğul olan rayonlarda məşğulluq problemlərini həll etmişik. Beləliklə, biz qarşımızda duran bütün vəzifələrə nail olmuşuq, bu vəzifələri icra etmişik".

Bunu statistik rəqəmlər də aydın göstərir. Belə ki, 2015-ci ildən sonrakı dövr ərzində pambıq istehsalı 8,2 dəfə artıb. Bugünədək 100 min hektar sahədən 294 min tondan çox pambıq istehsal olunub və hektardan orta məhsuldarlıq 29,4 sentner təşkil edib. Əkin sahəsinin ötən ilə nisbətən 32 min hektar azalmasına baxmayaraq, pambıq istehsalı 61 min ton, hektardan orta məhsuldarlıq isə 11,8 sentner artıb.

Builki yüksək nəticələr isə, ilk növbədə, ölkə rəhbərinin bu sahəyə diqqəti və dövlət tərəfindən göstərilən dəstəklə bağlıdır. Belə ki, 2018-ci ildə xam pambığın fermerlərdən alış qiyməti hər ton üçün 150 manat artırılaraq 650 manata çatdırılıb. Fermer satdığı hər ton xam pambığa görə dövlətdən 100 manat subsidiya alıb. İstehsalçıların texnikaya və avadanlığa olan ehtiyaclarını ödəmək məqsədilə son üç ildə 529 milyon manat dəyərində 15 min 700 ədəd kənd təsər-

rüfatı texnikası, o cümlədən 403 pambıqyığan kombayn alınıb.

Dövlətimizin başçısının müşavirədəki nitqi bir daha göstərdi ki, kənd təsərrüfatının ənənəvi sahəsi olan pambıqçılığın inkişafı dövlət səviyyəsində diqqət mərkəzində saxlanılır, bu sahəyə xüsusi qayğı göstərilir. Elə buna görə də böyük potensiala malik pambıqçılıqda məhsul istehsalı ildən-ilə artır.

Dövlətimizin başçısının prezidentlik fəaliyyəti dövründə sosial sahədə də yüksək göstəricilər əldə edilib. Belə ki, ötən illər ərzində 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilib və ya təmir edilib. Yüzlərlə tarixi bina, muzey, teatr və kitabxanada genişmiqyaslı yenidənqurma və təmir işləri aparılıb, onlar yeni avadanlıqla təchiz edilib. Ölkənin ali məktəblərində, elmi mərkəzlərdə, Milli Elmlər Akademiyasının müəssisələrində də analoji işlər aparılıb. Ölkədə 16 il ərzində 15 min kilometrdən çox asfalt yol çəkilib, 443 körpü inşa edilib. Bakı Metropoliteninin 4 yeni stansiyası istifadəyə verilib. Bu müddətdə Azərbaycanda altısı beynəlxalq olmaqla, 7 aeroport tikilib.

2003-2019-cu illərdə ölkədə 31 elektrik stansiyası tikilib istifadəyə verilib. Nəticədə Azərbaycan qonşu ölkələrə elektrik enerjisi ixrac etməyə başlayıb. Ölkənin yaşayış məntəqələrinin təbii qazla təmin edilməsi göstəricisi artaraq 51 faizdən 95 faizə çatdırılıb. Oğuz-Qəbələ-Bakı su kəməri xətti çəkilib, ən iri sutəmizləyici qurğu tikilib, regionlarda çoxsaylı subartezian quyuları qazılıb, yüzlərlə modul tipli sutəmizləyici qurğu istifadəyə verilib, əhalinin içməli su ilə fasiləsiz təchizatı təmin olunub.

Son 16 ildə qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə böyük iş aparılıb. Ölkədə bütün çadır düşərgələri və “fin evləri”ndən ibarət qəsəbələr ləğv edilib, yüzdən çox yeni qəsəbə və şəhərcikdə 300 mindən çox insan yerləşdirilib. Şəhid ailələri, müharibə veteranları və əlilləri xüsusi qayğı ilə əhatə olunub. Onlara dövlət hesabına 5500-dən çox mənzil, 6 mindən çox minik avtomobili verilib.

Sosial sahədə islahatlar inqilabi xarakter daşıyıb. Bu il sentyabrın 1-dən etibarən pensiyalar, əlilliyə görə müavinətlər, təddris müəssisələrində təqaüdlər yüz faizdən çox artırılıb. Dövlət qulluqçularının, hüquq-mühafizə orqanlarının işçilərinin, hərbi qulluqçuların və başqalarının əməkhaqqı artırılıb.

Ölkədə ictimai və sosial xidmətlər sahəsində ciddi institusional islahatlar aparılıb. Dövlət orqanları tərəfindən əhaliyə göstərilən xidmətləri vahid sistem şəklində birləşdirən “ASAN xidmət” və DOST Azərbaycanın brendlərinə çevrilib.

**Emil NƏSİRLİ,**
**Beynəlxalq Elmlər Akademiyasının fəxri akademiki, Ümumdünya Elmi Əməkdaşlıq Təşkilatının eksperti (WOSCO, Almaniya).**

# MÜASİR DÖVLƏT İDARƏÇİLİYİ VƏ HEYDƏR ƏLİYEV

**Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə keçirilmiş mərasimdə Prezident cənab İlham Əliyev demişdir: "Müstəqillik 1993-cü ildə əldən gedirdi, əgər Heydər Əliyev gəlməsəydi. O müstəqilliyi qorudu, saxladı, gücləndirdi, bizi düz yola gətirdi. Biz də onun yolu ilə gedirik, müstəqilliyi möhkəmləndiririk və möhkəmləndirəcəyik".**

Tarixi şərait, zaman etibarı ilə ümummilli lider Heydər Əliyevi xalqı düşdüyü bəlalardan xilas etmək, ölkəni vətəndaş müharibəsindən xilas etmək, dövləti məhv olmaqdan, tarixin səhnəsindən silinməsindən qorumaq, sivil, dünyəvi, hüquqi dövlət qurmaq üçün dövlət idarəçiliyinin sükanına yenidən keçməsini zəruri etmişdir. İlk gündən dövlət idarəçilik sükanına yiyələnən ulu öndər xalqın qarşısında and içdi ki, ilk növbədə müstəqilliyin möhkəmlənməsinə, ərazi bütövlüyünün qorunmasına, suverenliyin təmin olunmasına və əhalinin rifahının yaxşılaşdırılmasına çalışacaqdır. Həqiqətən də xalqın lideri həmin vəzifələri həyata keçirmək üçün dövlət nizamının, qanunçuluğun, hüquqmühafizə orqanlarının və ordunun möhkəmləndirilməsi işini mükəmməl təşkil etmişdir. Ulu öndər Heydər Əliyevin hakimiyyətə yenidən gəlməsi tarixi-geosiyasi baxımdan mürəkkəb və risklərlə dolu fərqli şəraitin tələbi idi. Belə ki, Azərbaycan Qarabağ münaqişəsi ilə süni yolla qloballaşan dünyanın bir subyektinə çevrilmişdi. Lakin bu reallıq onun geosiyasi mövqeyində və təbii resurslarının xarici dövlətlərin iqtisadi maraqlarında gizlənmişdi. SSRİ dağıldıqdan sonra onun təbii sərvətlərinə göz dikənlər müstəqil, suveren, bütöv və güclü Azərbaycanın varlığına sevinmirdilər. Ona görə də Qarabağ münaqişəsinin daha da qızışması üçün əllərindən gələn hər şeyi edirdilər.

Çox təəssüf ki, qloballaşma Azərbaycanın üzərinə düşən Qarabağ müharibəsi kimi taleyüklü məsələni daha da düyünə saldı. İllər ötdükcə məsələnin həlli düşünülmüş tərzdə uzadılmaqla, həllinin tapılmaması kimi yanlış düşüncələrə gətirmişdi. Bu illər ərzində Azərbaycana külli miqdarda maddi və mənəvi zərər dəymişdir. Azərbaycanın 20 faiz torpaqları işğal olunmuşdur, Qarabağdan və Ermənistandan qaçqın və məcburi köçkün axını, hərbi münaqişə nəticəsində insan təlafatı, on minlərlə əlil və şikəst, habelə yetim uşaqlar ölkədə vəziyyəti daha da gərginləşdirdi.

Baş verən hadisələr göstərdi ki, bütün bunların kökündə köhnəlmiş idarəetmə mexanizmlərinin mütəmadi olaraq sıradan çıxması və yeniləri ilə əvəz olunmaması dayanır. Heydər Əliyevin müdrikliyi onda idi ki, o, uğursuzluqların səbəbini aydın dərk edərək təxirəsalınmaz tədbirlərin aparılmasını (yeni dövlət quruculuğu işlərinin görülməsini) daha üstün məsələ hesab etdi.

Beləliklə, ulu öndər Heydər Əliyevin hakimiyyətə yenidən gəlişi faktiki olaraq Azərbaycan milli dövlətçiliyində bir dönüş nöqtəsi idi.

1993-cü ilin iyununda Azərbaycan xalqı yenicə müstəqilliyə qovuşmuş dövlətin idarə olunmasını ulu öndər Heydər Əliyevə etibar etdi. Yuxarıda bir neçə dəfə vurğulamışıq ki, bu zaman ölkənin vəziyyəti ağır idi. Ölkədə hakimiyyətsizlik, qarmaqarışıqlıq və hərc-mərclik hökm sürürdü. İnflyasiya, sənaye və kənd təsərrüfatının səviyyəsinin günü-gündən aşağı düşməsi, ən zəruri ərzaq mallarının çatışmazlığı, seperatçılıq əhvalruhiyyəsinin artması, cinayətkar meyillərin güclənməsi, əhalinin ölkəni tərk etməsi, siyasi qruplaşmalar arasında hakimiyyət üstündə silahlı toqquşmaların artması halları ölkəni məhvə aparırdı. Digər bir tərəfdən isə Ermənistanla aparılan müharibədə birbirinin ardınca baş verən uğursuz əməliyyatlar və ərazilərin günbəgün itirilməsi, kütləvi insan itkisi bu vəziyyəti daha da ağırlaşdırırdı. Səbəb isə ölkədə hakimiyyətdə olan siyasi qüvvələrin idarəetmə təcrübəsinin olmaması və səriştəsizliyi ilə izah oluna bilər.

Hələ hakimiyyətə gəlməmişdən öncə ulu öndər Heydər Əliyev bilirdi ki, belə bir vəziyyətdə Ermənistan-Azərbaycan müharibəsi Azərbaycan üçün heç bir uğur gətirə bilməz. Çünki ölkə müharibəyə hazır deyil, Rusiyanın maddi və hərbi köməyinə arxalanan ermənilərin siyasi və hərbi imkanları bizdən çoxdur. Öz ərazi bütövlüyünü qoruyub saxlamaq ölkəmiz üçün ədalətli hesab olunsa da, müharibə Azərbaycanın inkişafına mane olan ən böyük sədd idi. Azərbaycan bu müharibəyə məqsədli şəkildə, zorla cəlb olunmuşdu. Bu münaqişədə Rusiyanın geosiyasi maraqları ilə yenicə müstəqilliyini əldə etmiş Qafqaz ölkələrinin maraqları üstüstə düşmədiyindən, münaqişənin uzanması yalnız bu dövlətə xeyir gətirə bilərdi. Ona görə də Azərbaycanın varlığını saxlamaq üçün ilk növbədə münaqişəyə son qoymaq lazım idi, onun dinc yolla həlli yollarını axtarmaq gərək idi. Ancaq bu, elə bir siyasi iradə, müdriklik və səbir tələb edirdi ki, həyata keçirilməsi çox çətin proses idi. Tarixi təcrübəyə əsasən deyə bilərik ki, yalnız daxili dövlətçilik potensialı güclü olan cəmiyyətlər belə vəziyyətdə meydana layiqli lider çıxara bilir. Azərbaycan xalqı ulu öndər Heydər Əliyevə inanmaq, dövlətçiliyi ona etibar etməklə belə bir keyfiyyətə malik oldğunu dünyaya nümayiş etdirdi. Fəlsəfi aspektdə bu, bütövlükdə cəmiyyətin yeni sosial-siyasi, iqtisadi, mədəni və hərbi struktura transformasiya olmağa hazırlığının göstəricisi idi. Hüquqi olaraq da idarəçiliyin yeni formaya keçməsi üçün bütün daxili potensialın səfərbər edilməsi anlamını verirdi. Bu iki aspektin vəhdəti yekunda müstəqil dövlət quruculuğunda idarəetmənin strateji rolunun yerinə yetirilməsinə ciddi təkan verdi. Bu kontekstdə fikrən keçmişə keçən əsrin 90-cı illərinin əvvəllərinə qayıdanda ibrətverici məqamlara rast gəlirik.

Xatirimizdədir, ulu öndərin hakimiyyətə qayıdışının ilk günləri idi. Hər yerdə söz-söhbət gəzirdi ki, Heydər Əliyev general paltarını geyinib ordunu, xalqı arxasınca aparacaq və xalqı bu bəladan

qurtaracaq. Xalqın inamı böyük idi. Xalq hər şeyin dava ilə, müharibə ilə həll ediləcəyi inamında idi. Hamı kimi mən də belə düşünürdüm. Ancaq düşündüyümün tam əksinə olaraq, Heydər Əliyev hakimiyyətə gəlişi ilə sülh əldə etmək üçün var gücü ilə çalışdı və ona nail ola bildi. Sonralar mənə aydın oldu ki, ən optimal yol seçilmişdir. Həmin vaxt Azərbaycan dövləti müharibə aparmağa qadir deyildi, hakimiyyətdə, iqtisadiyyatda, mədəniyyətdə olan böhran, iqtisadiyyatın bütün infrastrukturlarının dağıdılması, ölkənin əmlakının talan edilməsi, hakimiyyətin əsas nöqtələrinin hələ də səriştəsiz şəxslərin əlində olması, həmin şəxslərin hakimiyyətə iddiaları, bu məqsədə çatmaq üçün də həmin şəxslərin torpaqları belə verməkdən çəkinməmələri, siyasətdə olan uğursuzluqlar, dünya dövlətləri tərəfindən dəstəklənməmək, ölkənin vətəndaş müharibəsi həddinə gətirilməsi, vətəndaşların ümidsizliyə uğraması, onların döyüş ruhunun sındırılması, bir milyondan çox qaçqın və köçkünün taleyüklü məsələləri, orduda pərakəndəliyin, intizamsızlığın hökm sürməsi, ordu quruculuğu ilə məşğul olunmaması, cinayətkarlığın tüğyan etməsi, eyni zamanda həm də müharibə aparılmasını istisna edirdi. Sülhün əldə olunması ilə Azərbaycan zorla, düşünülmüş şəkildə cəlb edildiyi müharibədən uzaqlaşır, taleyüklü məsələləri həll etmək üçün imkan əldə edir.

Böhranlı vəziyyət sadə azərbaycanlıların psixoloji durumuna olduqca mənfi təsir göstərirdi, insanlarda elə bir fikir formalaşırdı ki, sanki bu vəziyyətdən çıxış yolu tapmaq mümkün deyil. Belə bir böhranlı vəziyyətdə xalq Heydər Əliyevə Azərbaycan dövlətinin idarəetmə sükanını etibar etdi. O, heç kəsin zənn etmədiyi məqsədyönlü şəkildə, ölkəni düşdüyü çox ağır vəziyyətdən xilas etməyə başladı. Ulu öndərin ilk addımı ölkədə siyasi sabitliyə, ictimai əmin-amanlığa, barışığa nail olmaq, müstəqillik və milli dövlətçilik uğrunda mübarizəyə stimullaşdırmaqdan ibarət oldu ki, təcrübə bunun çox doğru seçim olmasını sübuta yetirdi. Ən müsbət hallardan biri o idi ki, Azərbaycan xalqında ruh yüksəkliyi yarandı, onun öz gələcəyinə ümidi yüksəldi.

Tarixi baxımdan qısa bir müddətdə ümummilli lider ölkəni dərin ictimai, siyasi və iqtisadi böhrandan çıxara bildi. Heydər Əliyev xalqının milli dəyərlərinin, insanların mənəvi sağlamlığının, özlərinə inamının qorunub saxlanmasına müvəffəq oldu. Bununla Azərbaycanda müstəqil dövlət və demokratik cəmiyyət quruculuğu tarixi bir məzmun kəsb etməyə başladı. Ulu öndər cəmiyyətin sosial-psixoloji nikbinləşməsini dövlət quruculuğunun siyasi və hüquqi tərəfləri ilə uzlaşdırdı. Bir tərəfdən də uğurlu neft strategiyasını inamla reallaşdırmaqla, həm ölkənin geosiyasi obrazını yaratdı, həm də daxili sosial-iqtisadi infrastrukturu müasir tələblərə uyğun formalaşdırmaq şansı qazandı. Bunlarla paralel olaraq ordu quruculuğu dayanmadan intensivliklə aparıldı. Təbii ki, belə vacib strateji xarakterli problemlərin həlli birbaşa idarəetmədə yeniləşmələr və təkmilləşmələr olmadan mümkün deyildi.

Bu xüsusda keçən əsrin 90-cı illərinə xas olan bir məqamı da vurğulayaq. Əvvəlki iqtidarın ordu quruculuğu ilə, demək olar ki, məşğul olmaması nəticəsində hərbi hissələrin siyasiləşməsi, müxalif qüvvələrin təsiri altına düşməsi, səfərbərlikdən yayınma hallarının və fərariliyin çoxalması ölkənin ərazi bütövlüyünü qorumaq imkanlarını azaldırdı. Belə bir təxribatlardan biri də 1993-cü il oktyabrın 30-da Zəngilan rayonunun işğalı oldu. Heydər Əliyevin təşəbbüsü ilə noyabrın 1-də Dövlət Müdafiə Şurası yaradıldı, ordu quruculuğu, müdafiə məsələləri geniş müzakirə olundu. Müvafiq qərarlar qəbul edildi.

Noyabrın 2-də televiziya və radio vasitəsilə xalqa müraciət edən Prezident ölkənin qeyrətli oğlu və qızlarını azadlıq uğrunda birliyə dəvət etdi. Prezidentin çağırışı xalqı hərəkətə gətirdi. Azərbaycan ordusunun döyüş hazırlığının yüksəldilməsi dövlət rəhbərliyinin ciddi nəzarəti altında könüllülərdən ibarət taborlar yaradılıb cəbhəyə göndərildi. Prezident şəxsən cəbhə bölgələrində olub ordunun döyüş əhval-ruhiyyəsi ilə tanış oldu. Orduya xalq və dövlət yardımı daha da gücləndi. Nəticədə Beyləqan istiqamətində hücuma keçən düşmən xeyli itkiyə məruz qalaraq geri oturduldu.

Ordu quruculuğu öz bəhrəsini verirdi. 1994-cü ilin əvvəllərində Milli Ordunun hücumları nəticəsində Füzuli rayonunun Horadiz qəsəbəsi və 22 kəndi, Cəbrayıl rayonunun bir sıra yaşayış məntəqələri düşməndən azad edildi, Kəlbəcər-Laçın yolu istiqamətində müvəffəqiyyətlər qazanıldı. Lakin təəssüf ki, Azərbaycanın uğurları Rusiyanı narahat etdiyindən, hər vəchlə Azərbaycanı Ermənistanın xeyrinə müqavilə bağlamağa sövq edir, Ermənistana hərbi və maliyyə yardımları göstərir, erməni təcavüzünün genişləndirilməsinə kömək edirdi. Ulu öndər Heydər Əliyev bu problemin qarşısını almağa çalışırdı. Onun uğurlu xarici siyasəti nəticəsində 1994-cü il mayın 12də nəhayət ki, atəşkəs əldə olundu. Atəşkəsin əldə olunması ilk növbədə ordu quruculuğunun möhkəmləndirilməsi üçün vaxt qazanmaq məqsədini daşıyırdı.

Ulu öndər Heydər Əliyev anlayırdı ki, ölkəni iqtisadi gerilikdən xilas etmədən, uğurlu daxili və xarici siyasətə, ərazilərimizin geri qaytarılmasına nail olmaq mümkün olmayacaq. Azərbaycanı labüd fəlakətdən xilas edən dahi rəhbər ölkənin iqtisadi yüksəlişi üçün də tədbirlər görməyə başladı. Elə ilk günlərdən ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyev danışıqlar prosesinə cəlb edildi, yeni neft strategiyasının hazırlanması və uğurla həyata keçirilməsi üçün tədbirlər planı hazırlandı. Heydər Əliyev deyirdi: "Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir".

"Əsrin müqaviləsi" ilə bağlı 1994-cü ilin yazında və yayındakı danışıqlar asan keçmədi. Həmin vaxtları Prezident cənab

İlham Əliyev belə xatırlayır: "Biz xarici şirkətlərə deyirdik: siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu, sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcəkdir. Başqa sözlə, biz heç cür, heç bir səhvə yol verə bilmərik". Bütün çətinliklərə baxmayaraq, müqavilə Azərbaycanın milli mənafeyinə uyğun hazırlandı.

1994-cü il sentyabrın 20-də Prezident Heydər Əliyev iqtisadi və siyasi mübarizənin bəhrəsi olan, milli həyatımızda böyük əhəmiyyətə malik olan "Əsrin müqaviləsi"ni imzaladı. Bu müqavilənin imzalanması ilə Azərbaycan qlobal dünyanın bərabərhüquqlu subyektinə çevrildi. Ulu öndər Heydər Əliyevin özü də qeyd edirdi: "Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır".

Bakıda Gülüstan sarayında bağlanan "Əsrin müqaviləsi" Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" tipli müqavilə idi. Müqavilə təxminən 400 səhifə həcmində və 4 dildə hazırlanıb. Burada dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, Mak Dermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak edirdi. Bununla da ümummilli lider Heydər Əliyevin "Yeni neft strategiyası" uğurla həyata keçirilməyə başlandı.

"Əsrin müqaviləsi"nin perspektivlərini Azərbaycanın düşmənləri çox gözəl başa düşürdülər və qısqanclıqla yanaşırdılar. Cəmiyyətdə vahimə yaratmaq üçün müxtəlif üsul və vasitələrə əl atırdılar. Belə üsullardan biri də 1994-cü il oktyabrın 3-dən 4-nə keçən gecə ölkədə dövlət çevrilişinə edilən cəhd oldu. Heydər Əliyev burada da öz sayıqlığını göstərərək dövlət müstəqilliyinin xilası naminə xalqa müraciət etdi. Gecəyarısı olmasına baxmayaraq, televiziya vasitəsilə edilən müraciətdən sonra Prezident sarayı qarşısına toplaşan minlərlə insan dövlətçiliyin müdafiəsinə qalxdıqlarını nümayiş etdirdilər. Xalq və Heydər Əliyev birliyini görən qiyamçılar geri çəkilməli oldular.

Digər bir çevriliş cəhdi isə 1995-ci ildə martın 13-də Xüsusi Təyinatlı Polis Dəstəsi əməkdaşlarının Ağstafa və Qazax rayonlarında dövlət idarələrini ələ keçirmələri ilə R.Cavadovun Prezidentin və Milli Məclis sədrinin istefası tələbi ilə çıxış etməsi oldu. Hökumət qüvvələrinin çevik əməliyyatları nəticəsində bu cəhdin də qarşısı alındı.

Belə bir şəraitdə respublika üçün Konstitusiyanın hazırlanması təxirəsalınmaz məsələ olaraq qarşıya qoyuldu. Hey-

dər Əliyev anlayırdı ki, müasir Azərbaycan Respublikasının idarəetmə siyasətinin başlıca prinsipləri azadlıq, yaşamaq və mülkiyyət hüquqları üzərində formalaşdırılmalıdır. Ona görə də bu prinsiplər 1995-ci ildə referendum vasitəsilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapdı. Bu məqsədlə Prezident tərəfindən ilk Konstitusiya layihəsinin hazırlanması üçün özünün rəhbərliyi altında komissiya təşkil olundu. Komissiya Azərbaycan milli-mənəvi dəyərlərini nəzərə almaqla, qabaqcıl demokratik dövlətlərin təcrübəsi əsasında "Azərbaycan Respublikasının Konstitusiya layihəsini" hazırladı. Layihə ümumxalq müzakirəsindən keçdikdən sonra 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edildi.

Yeni Konstitusiyanın qəbulu dövlətçilik baxımından mühüm hadisə idi. O cümlədən dövlət idarəçiliyinin inkişafı və təkmilləşməsi üçün əhəmiyyətli idi. Çünki müasir tarixi mərhələdə hüquqi dövlət qurulmalıdır. Konstitusiyada isə hər bir dövlətin "hüquqi siması" ifadə olunur, idarəetmənin ana xətləri əks edilir. Buna görə də Heydər Əliyevin Konstitusiyaya böyük diqqət yetirməsi dövlət quruculuğu strategiyası aspektində çox vacib məqamı təşkil edir. Burada o dövrdə mövcud olan bir özəlliyi də qeyd etmək gərəkdir.

Ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə gəldiyi zaman yuxarıda qeyd etdiyimiz kimi, ölkə ağır iqtisadi böhran yaşayırdı. Müəssisələrin əksəriyyəti fəaliyyətsiz, əhali arasında isə işsizlik hökm sürürdü.

Hələ SSRİ-də 80-ci illərin ikinci yarısında başlayan siyasi proseslər müttəfiq respublikaların, o cümlədən Azərbaycanın da iqtisadiyyatına ağır zərbələr vurmuşdu. Sovet imperiyasının dağılması ilə respublikanın əvvəlki iqtisadi əlaqələri kəsilmiş, müəssisələrin istehsal gücü azalmışdı. İşləyən müəssisələrin isə xammal və materiallara tələbatı ödənilmirdi, əsas istehsal vasitələri xeyli azalmışdı. Bu cür vəziyyət neft sektoruna da aid idi.

Belə bir şəraitdə hakimiyyətə gələn Heydər Əliyev yeni iqtisadi münasibətlərin yaradılmasına, əsaslı iqtisadi islahatların keçirilməsinə çalışdı. Heydər Əliyev tez bir zamanda dövlət intizamını gücləndirib, siyasi sabitlik yaratdıqdan sonra iqtisadi tənəzzülün qarşısını almaq üçün ciddi tədbirlər görməyə başladı. Onun sərəncamı ilə 1994-cü ilin əvvəllərində milli valyuta manat respublika ərazisində yeganə ödəniş vasitəsi elan olundu. Beynəlxalq Valyuta Fondu və Ümumdünya Bankı ilə müqavilələr bağlandı. Azərbaycan Avropa Yenidənqurma və İnkişaf Bankına qoşuldu. Büdcə kəsrinə ciddi nəzarət edildi, inflyasiyanın qarşısı alındı. 1998-ci ildə artıq ölkə ərazisində inflyasiya tam aradan qalxmışdır. Özəlləşdirmə və sahibkarlara yardım proqramları həyata keçirildi.

Beləliklə, dövlətin inkişaf modelinin hazırlanması bir tərəfdən idarəçiliyin təkmilləşdirilməsini, digər tərəfdən isə yeni təsiretmə və tənzimləmə mexanizmlərinə malik idarəetmə sisteminin formalaşdırılmasını tələb edirdi. Bu mexanizmlərin fəaliyyəti isə, ilk növbədə,

cəmiyyətin vahidliyini təmin etməyə, hüququn aliliyini, insan hüquqlarını, vətəndaş azadlıqlarını, iqtisadi liberalizmi və plüralizmi, demokratiyanı təmin edə biləcək siyasi doktrinanın müəyyənləşməsindən asılıdır. Buna görə də qarşıda duran başlıca vəzifələrdən biri kimi cəmiyyətlə hakimiyyət arasında vəhdəti təmin edə biləcək idarəetmə sisteminin yaradılması dururdu.

Heydər Əliyevin başçılığı ilə müasir mərhələdə formalaşan dövlətçilik ənənəsi "bir tərəfdən güclü dövlət hakimiyyətini, digər bir tərəfdən isə iqtisadi fəaliyyət sərbəstliyini dəstəkləyən" kursun yaradılmasını tələb edirdi. Bu, Azərbaycanın dövlətçilik ideologiyasının işlənib hazırlanmasının prioritet məsələ kimi qəbul edilməsi demək idi. Aydındır ki, Heydər Əliyev dövlət quruculuğunun əsasında möhkəm, sarsılmaz dövlətçilik ənənələrinin formalaşdırılmasını görürdü. Bunun ən lakonik ifadələrindən biri kimi, ulu öndərin 2001-ci il noyabrın 21-də keçirilmiş Yeni Azərbaycan Partiyasının II Qurultayındakı çıxışından bir məqamı göstərə bilərik: "... biz elə bir cəmiyyət yetişdirməliyik ki, təkcə bizim vaxtımızda yox, bizdən sonra da onlar Azərbaycanın xatalara düşməsinə imkan verməsinlər. Onlar düz yolla, doğru yolla, milli hissiyyatlar yolu ilə getməlidirlər".

Ulu öndər Heydər Əliyev güclü dövlət qurmağı prioritet hesab etməklə paralel olaraq demokratik islahatlar aparmaq kursunu seçdi. Tarix ulu öndərin tam haqlı olduğunu göstərdi. Qərbin aparıcı tədqiqatçıları da sonradan etiraf etdilər ki, güclü dövlət olmayan cəmiyyətdə demokratiyanın bərqərar olması mümkün deyildir. Azərbaycan təcrübəsi F.Fukuyamanın Heydər Əliyevdən təqribən 23 il sonra etdiyi etirafı tam təsdiq etməkdədir. Ulu öndərin müəyyənləşdirdiyi güclü dövlət kursu ilə inkişaf edən dövlətimiz indi regionun əsas geosiyasi oyunçusu, siyasi, iqtisadi, energetik və hərbi lideridir.

Azərbaycan Respublikasının müasir idarəetmə fəlsəfəsi "azərbaycançılıq" ideyasını rəhbər tutaraq, dövləti sosial həyatı formalaşdıran ali struktur olaraq götürür. Öz vətəndaşlarının sərbəst fəaliyyətini, təhlükəsizliyini, sosial rifahını təmin etməyə qadir ən böyük qüvvə unitar, dünyəvi, demokratik, hüquqi dövlət hesab olunur. Məhz dövlət bütün sosial elementlərin özünü təşkilini və institutlaşmasını təmin etmiş olur. Bu mənada, azərbaycançılıq ideyası əhalinin sosial təbəqələri arasında əlaqələrin qurulmasına xidmət edən inteqrativ xüsusiyyətlərə malikdir.

İdarəetmə fəlsəfəsinə tarixi-coğrafi aspektdə yanaşanda da, Azərbaycanla bağlı maraqlı və incə məqamlara rast gələ bilərik. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Azərbaycan həm coğrafi, həm də tarixi baxımdan daim Şərq və Qərb, türk, zərdüştlük, yəhudi, xristian və islam mədəniyyətlərinin qovuşduğu məkan olub. Bu prosesdə mərkəzi və aparıcı rolu türk mədəniyyəti oynayıb. Lakin azərbaycanlılar başqa mədəni dəyərlərə də tam açıqdırlar və daimi təmaslarla öz milli mədəniyyətlərini çox zənginləşdiriblər. Bu proses milli təfəkkürün

sərhədlərini genişləndirməyə imkan yaratmış və azərbaycanlıların təsəvvüründə tolerant baxışların möhkəmlənməsinə gətirib çıxarmışdır. Bu baxımdan dövlətçilik ideyalarının üstün tutulması dəyər anlayışını kosmopolit baxışlardan uzaq etsə də, dünyəvi düşüncələrdən ayrı salmır, milli identiklik proseslərinə zərbə vurmur, insanların fərdi meyillərini birləşdirməyə çalışır. Bu ideya dövlət və xalq anlayışlarının vəhdətləşməsinə, həmçinin idarəetmə subyekti ilə obyekti arasında əlaqələrin daha da sıxlaşmasına şərait yaradır.

Bu gün qloballaşma dünya ölkələrini bir-bir, ardıcıl olaraq tərəfdar olduğu öhdəliklərin qəbul edilməsi ilə eyni münasibətlər çərçivəsinə salmaqdadır. Coğrafi məkan etibarilə çərçivə nə qədər böyük olsa da, mahiyyətcə onun sədləri elə də geniş deyil. Dünya ölkələri iqtisadi baxımdan bir-birindən asılı subyektlərə çevrildikcə dünya iqtisadiyyatının simasında daha da vəhdətləşən bir sistemin tərkibinə daxil olmaqdadırlar. Bu gün həmin iqtisadiyyatın tələbləri milli suverenliyin itirilməsinə qədər artmaqdadır. Bu proses daxili sosial münasibətlərin korlanması, milli identikliyin itirilməsi, milli-mənəvi dəyərlərin transformasiyası, universal bir mədəniyyətin (sosial, iqtisadi, siyasi sahələri əhatə edən bir mədəniyyətin) formalaşması ilə ifadə olunmaqdadır.

“Azərbaycançılıq” ideyasının səmərəliliyi müxalifət-iqtidar münasibətlərində də ifadə olunur. Məlumdur ki, cəmiyyətin siyasi həyatında müxalifətlə dövlət idarəçiliyini öz əlində saxlayan partiya arasında həmişə kəskin münasibətlərin olması bütün dövlətlərə xas xüsusiyyətdir. Lakin tarix göstərir ki, bəzi məsələlərdə Azərbaycanda müxalifətlə iqtidarın baxışları üst-üstə düşür. Bu partiyaların proqram və nizamnamələrində əks olunan müstəqil, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu məsələlərində, habelə xarici siyasətdə, beynəlxalq münasibətlərdə əks olunmuşdur. Eyni zamanda, bunu erməni təcavüzünə, Qarabağ probleminin həllinə dair məsələlərdə də görə bilərik. Bu baxımdan, “azərbaycançılıq” ideologiyası etnik mənsubluğundan, dinindən, sosial durumundan və cinsindən, habelə yaşından və fəaliyyət növündən (siyasətçi, məmur, idmançı, elm və mədəniyyət xadimi və ya sahibkar) asılı olmayaraq bütün xalqın diqqətini bir nöqtəyə cəmləşdirə bilmişdir. Bunu isə real həyatda ulu öndərin daxili siyasət kursu təmin etmişdir.

Müasir Azərbaycan Respublikasının idarəetmə sistemi qarşısında duran vəzifələrdən biri də idarəetmə strukturlarında çalışan siyasi və mənəvi əxlaqa malik məmurların yetişdirilməsi və onların zamanın tələblərinə uyğun təkmilləşdirilməsindən ibarətdir.

Ümumiyyətlə, Azərbaycanda yeni nəsil idarəçilik etikası ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu etikanın özülü möhtərəm Prezidentin 1990-cı ilin yanvar ayında Moskvada Azərbaycanın daimi nümayəndəliyindəki çıxışı ilə qoymuşdur. Bu hadisə Azərbaycanda yeni siyasi elitanın mənəvi və siyasi amalının başlanğıcı idi. Heydər Əliyev ətrafında formalaşan siyasi birlik və bu birliyin əsasında yaranan YAP müasir Azərbaycanın idarə-

etmə aparatının kadr mənbəyinə çevrildi. Bu kadrların əsas məqsədi Heydər Əliyevin qoyduğu kursdan, daha doğrusu, yeni dövlət quruculuğu və sosial, iqtisadi, siyasi sahələri əhatə edəcək islahatlardan ibarət idi. "Yəni Azərbaycanın tutduğu yol ilə, demokratiya yolu ilə, bazar iqtisadiyyatı yolu ilə ardıcıl surətdə inkişaf etdirməkdən ibarətdir". Təbii ki, bu kursa uyğun olan yeni idarəçilik sistemi də hazırlanmalı idi. Problemin məğzi bundan ibarətdir. Məhz Heydər Əliyev bu vacib məsələni böyük uzaqgörənlik ilə həll etdi. Ulu öndər Azərbaycanın timsalında güclü dövlət idarəçiliyinin cəmiyyətin şəffaflığına və demokratikliyinə necə səmərəli təkan verdiyini əyani sübut etdi. Əslində, bu proses hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu kontekstdə çox mühüm bir məqam vardır ki, onun üzərində dayanmaq gərəkdir.

Biz hər bir dövlətin iqtisadi və siyasi müstəqilliyi, suverenliyi ilə onun kadr potensialı arasındakı sıx bağlılığı nəzərdə tuturuq. Kadr siyasəti müasir Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində öndə duran məsələlərdən biridir. Azərbaycanın kadr potensialının, intellektual və professional ehtiyatların yetişdirilməsi ölkənin sosial-iqtisadi inkişafını təmin edən dövlət siyasətinin başlıca məqsədlərindən birinə çevrilmişdir. Vətəndaşların öz peşə qabiliyyətlərini inkişaf etdirmək həm də konstitusiya təminatlarının reallaşdırılması deməkdir. Buna görə də kadr və bundan idarəetmə sahəsində istifadə etmək siyasətinin reallaşdırılması strateji məsələdir. Onun əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndər müstəqil Azərbaycan dövlətinin intellektual kadr potensialının yaradılması və ondan səmərəli istifadə olunması sahəsində fundamental işlər görə bilmişdir. Heydər Əliyev bütün siyasi qüvvələrə, ziyalılara dövlətin yenidən qurulması prosesində iştirak etmək çağırışı ilə müraciət etmişdir. O, ifadə etmişdi ki, dövlət siyasətinin həyata keçirilməsinə kömək göstərmək istəyən hər bir adamı dövlət idarəçiliyinə cəlb etməyə hazırdır. Dövlətin idarə olunmasında iştirak etmək istəyən hər bir kəs bu imkandan səmərəli istifadə etmək hüququ qazanmışdır. Həmin çağırışın nəticəsində minlərlə vətəndaş dövlət idarəetmə aparatının fəaliyyətinə, nəhəng iqtisadi layihələrin həyata keçirilməsinə cəlb olunmuşlar.

Heydər Əliyevin uzaqgörən dövlət xadimi olmasını sübut edən faktlardan biri ölkədə mövcud olan siyasi, iqtisadi və sosial problemlərin mahiyyətinin düzgün dərk edilməsində və onların həlli yollarını axtarıb, araya bilməsindədir. O, qlobal dünyanın inkişaf tendensiyalarını görə bilmiş və onun perspektivlərini Azərbaycan reallıqları ilə uzlaşdıra bilmişdir. Ulu öndər Azərbaycanın müasir tarixində iki dəfə dövlət idarəçiliyinin qarşılaşdığı problemlərə, onun ağır durumuna son qoymağı bacaran yeganə lider olmuşdur. Onun simasında dünya Azərbaycan Respublikasının böyük intellektual potensiala malik olmasını aşkar edə bildi. O, yeni Azərbaycan üçün yeni idarəetmə sistemi yaratdı. Elə bir idarəetmə ki,

dövlətin bütün resursları səmərəli şəkildə istifadə olunmağa və tənzimlənməyə başlandı. Bu sistem Azərbaycanın milli sərvətlərini artırmaq, hər bir vətəndaşın layiqli yaşayışını təmin etmək əzmi ilə dövlətçiliyə xidmət etməkdədir. Bu sistemin dayaqları o qədər möhkəmdir ki, onu sarsıtmaq, yerindən tərpətmək qeyri-mümkündür.

Ulu öndər Heydər Əliyev fenomenini araşdıran tədqiqatçıların əksəriyyəti onun fəaliyyətini Azərbaycanın müstəqil dövlət qurmağa doğru aparan yol kimi qiymətləndirir. Məhz buna görə də müasir Azərbaycanın müstəqillik uğrunda mübarizəsinin tarixinin də 1969-cu ildən sonra başlandığı qeyd olunur. Belə ki, məhz onun simasında Azərbaycan xalqı öz milli liderini tapa bilmişdir. Bir tərəfdən keçmiş SSRİ-də sovet və partiya həyatında hakim olan bütün normalara son dərəcə dəqiq əməl etməklə, kommunizm amallarına xidmət göstərmiş, digər tərəfdən isə sosialist mədəniyyətinin ənənəvi məzmununa milli motivlər daxil edərək ona tamamilə yeni məna verə bilmişdir.

Onun fəaliyyətini araşdırarkən görünür ki, standart sovet ideologiyasının tələblərini yerinə yetirərkən belə, oraya daxil edə bildiyi yeniliklər milli ruhun dirçəlməsinə xidmət etmişdir. Azərbaycan milli mədəniyyətinin dirçəlməsinə və bütövlükdə inkişafına nail olmaq isə xalqın diqqətini onun soykökünə, tarixinə və mədəni qaynaqlarına yönəltməyə imkan yaradır. Bu baxımdan deyə bilərik ki, Azərbaycan dilinin, ədəbiyyatının, tarixinin və musiqisinin sosial həyatın bütün sahələrində ifadə olunmasına göstərdiyi qayğı, millətlərin bərabərhüquqlu imkanlara malik olduğunu iddia edən saxta beynəlmiləlçi sovet ideologiyasının hökm sürdüyü bir şəraitdə Azərbaycan xalqına sovet identikliyindən fərqli milli identiklik xüsusiyyətlərini gücləndirmək, öz milli-mənəvi dəyərlərinə sadiq olduğunu nümayiş etdirmək imkanı vermişdir (Nümunə olaraq ulu öndərin Azərbaycanın tarixi-siyasi, ədəbi-mədəni şəxslərinə verdiyi yer, yubileylər, abidələrin qoyulması, filmlərin çəkilməsi, tarixi faktların yenidən araşdırılması, bölgədə adların yenidən milliləşdirilməsi kimi faktları və sair göstərmək olar). Bu mənada ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi birinci dövrü milli özünüdərkin oyanışı, xalqın öz kökünə qayıtmasını şüurlarda müstəqillik cücərtilərinin baş qaldırması ilə birgə müstəqilliyə aparan yeni yol kimi dəyərləndirmək olar.

Heydər Əliyevin apardığı ən mühüm dəyişikliklərdən biri də idarəetməyə milli kadrların cəlb olunması ilə bağlıdır. Məlumdur ki, SSRİ dönəmində Azərbaycanda beynəlmiləlçilik adı altında idarəçilik şüurlu surətdə titul millətə aid olmayanların, xüsusilə, rusların və ermənilərin öhdəsinə buraxılmışdı. Məmurlar arasında azərbaycanlı kadrların sayı digərlərinin sayından xeyli az idi. Bu isə milli kadrların irəli çəkilməsində böyük maneə idi. Ümummilli lider Heydər Əliyevin Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırması azərbaycandilli məmurlara ehtiyac yaratdı. Nəticədə idarəetmənin müxtəlif pillələrinə azərbaycanlıların kütləvi axını başladı. Məhz bu siyasətin nəticəsidir ki, ulu öndər Heydər Əliyev

kadr korpusunun təmin olunmasında gənclərə xüsusi diqqət yetirirdi, amma Sovet İttifaqında gənclərə istinad etmək ənənəsi demək olar ki, yox idi. O anlayırdı ki, Azərbaycanın gələcəyi məhz bu gənclərdən asılıdır. Buna görə də yeni istedadlı və intellektual gənclərin yetişdirilməsi ulu öndərin siyasətinin prioritet məsələlərindən biri idi. Onun təşəbbüsü ilə milli hərbçi kadrların yetişdirilməsi məqsədilə C.Naxçıvanski adına hərbi məktəbin əsası qoyuldu. Təsadüfi deyil ki, məhz bu məktəbin kadrları sonradan Azərbaycanın müstəqillik illərində Milli Müdafiə korpusunun yuxarı pilləsinin əksəriyyətini təşkil edirdi.

O illərdə də Heydər Əliyev çox gözəl bilirdi ki, yüksək səviyyəli idarəetmənin təzahürü respublikanın iqtisadi inkişafında ifadə olunmalıdır. Buna görə də ölkənin resurslarına uyğun şəkildə inkişaf planı işləyib hazırlayır, xalq təsərrüfatında əsaslı struktur dəyişiklikləri edir, təsərrüfatda və iqtisadiyyatda yeni mexanizmlərin və metodların işlənib hazırlanmasına çalışırdı.

İnkişaf etmiş iqtisadiyyat həm də siyasi müstəqilliyin rəhnidir. Buna görə də tədqiqatçılar yuxarıda qeyd etdiyimiz kimi, 1969-cu ili Azərbaycan Respublikasının tarixində dönüş ili kimi dəyərləndirirlər. Məhz bu illərdə işlənib hazırlanmış inkişaf proqramları 1970-85-ci illərdə öz bəhrəsini verə bildi.

Beləliklə, Heydər Əliyev fenomeninin dərki Azərbaycanın idarəetmə tarixinin 30 ilini əhatə etmiş bir dövrün idarəetmə fəlsəfəsini anlamağın açarıdır. Bu epoxa Azərbaycanda idarəetmə işinin təşkilində, sistemləşdirilməsində, tənzimləmə aparatının əməli fəaliyyətində, idarəetmənin fəlsəfəsində öz əksini tapmaqdadır. Onun idarəetmə fəlsəfəsi Azərbaycanın qlobal dünyadakı yerini müəyyənləşdirmək, milli dövlətçiliyimizin sarsılmaz dayaqlarını yaratmaq, Azərbaycanda dövlət idarəçiliyinin davamlılığını təmin etməkdən ibarət olmuşdur. Buna görə də “dövlət quruculuğu” konsepsiyası onun fəaliyyətinin ana xəttini təşkil edirdi. Məhz bu dövrdə işlənib hazırlanmış layihələr və planların gerçəkləşməsi sayəsində müasir Azərbaycanın suverenliyinin, iqtisadi müstəqilliyinin, xarici münasibətlərinin, qlobal dünyaya inteqrasiyasının reallaşması mümkün olmuşdur.

Bunlarla yanaşı, Heydər Əliyevin idarəçilik məktəbinin başlıca tezisləri göstərir ki, müstəqil dövlət quruculuğunda milli ilə bəşərinin harmoniyasına nail olmaq əhəmiyyətli faktordur. Hər bir konkret ölkə üçün bunun özəl nisbəti ola bilər. Uğurlu lider rəhbərlik etdiyi cəmiyyətdə səmərə verən modeli tapmalıdır. Heydər Əliyev bu kontekstdə tarixi fəaliyyət göstərmişdir. Müasir Azərbaycan, sözün həqiqi mənasında, ulu öndərin əsəridir! Bu gün idarəetmədə ulu öndər Heydər Əliyevin yolu ilə gedən, həyatımızın bütün sahələrində böyük islahatlar aparan Prezident İlham Əliyev ciddi nailiyyətlər əldə edir.

**Rəşid HÜSEYNOV,**
**Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi.**

https:courts.gov.az

# XXI ƏSRİN MİLLİ LİDERİ: İLHAM ƏLİYEV VƏ AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN İNKİŞAFI

**Prezident İlham Əliyev artıq on altı ildir ki, müstəqil Azərbaycan Respublikasına rəhbərlik edir. Ulu öndər Heydər Əliyevin siyasi kursunu inamla inkişaf etdirən dövlət başçısının fəaliyyəti çoxşaxəlidir. Aparılan təhlillər göstərir ki, Azərbaycan Cənubi Qafqazda müstəqil dövlət kimi özünü uğurla təsdiq edən ölkədir. Bunun kökündə əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət quruculuğu konsepsiyası dayanır. Prezident İlham Əliyev XXI əsrin keşməkeşləri şəraitində həmin inkişaf kursunu yeni şərtlər müstəvisində səmərəli şəkildə davam etdirir. Bunun nəticəsidir ki, Azərbaycan hazırda Cənubi Qafqazın lider dövlətidir. Ekspertlərin qiymətləndirmələrinə görə, bu proses daha da inkişaf edəcək. Azərbaycan Prezidenti daxili və xarici siyasətdə həyata keçirdiyi proqramlar sayəsində müstəqil dövlətçiliyi yeni zirvələrə qovuşduracaq. Bunların fonunda Prezident İlham Əliyevin simasında yeni siyasi lider modelinin formalaşdığı aydın görünür. İlham Əliyev hazırda XXI əsrin milli liderliyinin uğurlu nümunəsidir. Həmin kontekstdə Azərbaycan Prezidentinin fəaliyyətinin bir sıra mühüm saydığımız məqamları üzərində geniş dayanmağa ehtiyac duyuruq.**

### Siyasət və vətənpərvərlik: Azərbaycanda sintezi

İndiki tarixi mərhələdə hər bir siyasi liderin fəaliyyətini bütün dünya izləyə bilir. İnformasiya-kommunikasiya vasitələri elə inkişaf edib ki, dövlətə başçılıq edən şəxsin gördüyü işlər sürətlə hər yerə yayılır. Bu, bir tərəfdən, liderlərin göz önündə olmasını təmin edir. Digər tərəfdən, hər bir siyasətçinin fəaliyyətinə dünya miqyasında qiymət vermək işini asanlaşdırır. Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti haqqında dünyanın aparıcı dövlətlərinin rəhbərləri dəfələrlə fikir bildiriblər. Onların hamısı Azərbaycan Prezidentindən müdrik, uzaqgörən, əməkdaşlığa açıq və etibarlı, dövlət işlərini dərindən bilən və yüksək diplomatik bacarığa sahib lider kimi bəhs ediblər.

Əlbəttə, hər bir azərbaycanlı üçün ölkənin başçısına digər ölkələrin rəhbərlərinin yüksək qiymət verməsi qürur mənbəyidir. Həm də bu hörmətin arxasında İlham Əliyevin gərgin zəhmətinin, yüksək ailə, siyasətçi tərbiyəsinin, Vətənə böyük sevgisinin dayandığını anlamaq gərəkdir. Belə qiymətlər heç zaman asan verilmir – onu qazanmaq lazımdır, konkret əməldə layiq olduğunu göstərmək gərəkdir. Müqayisə üçün deyək ki, Cənubi Qafqazda heç bir siyasi lider barəsində bu cür fikirlər bildirmirlər. Bunlar İlham Əliyevin siyasətçi, lider və şəxsiyyət kimi dərindən öyrənilməsinə böyük ehtiyac duyulduğunu göstərir.

Burada bir vacib məqamı vurğulamaq gərəkdir. Ulu öndər Heydər Əliyevin İlham

Əliyev kimi liderin yetişməsində zəhməti və xidməti olduqca böyükdür. Ümummilli liderin fəaliyyətinə yaxından bələd olması ilə bərabər, onun təcrübəsini də tam əxz edib, praktiki fəaliyyətdə tətbiq etmək, əlbəttə, insanın özündən yüksək bacarıq tələb edir. Bununla yanaşı, Heydər Əliyevin yeni siyasi lider yetişdirmək qabiliyyətinin çox yüksək səviyyədə olduğunu etiraf etmək gərəkdir. Bütün bunlara görədir ki, Heydər Əliyev məktəbini keçmiş bir Prezidentin, siyasi liderin və şəxsiyyətin müstəqil dövlət quruculuğunda əldə etdiyi nailiyyətlər təsadüf sayıla bilməz. İlham Əliyev uğurlu siyasi varisliyin ən gözəl nümunəsidir!

Alimlər bir məqama diqqət çəkirlər: İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi on altı il müstəqillik dövrünün yarıdan çoxunu təşkil edir. Bu müddətdə Azərbaycan müstəqillik və suverenlik yolunda böyük məsafə qət edib. Konkret deyilsə, on altı il mürəkkəb bir geosiyasi məkanda yerləşən dövlət üçün daim uğurlar ili olub. Buna nail olmağın nə qədər çətin olduğunu sübut etməyə ehtiyac yoxdur. Adi müqayisələrdə həmin reallığı açıqca görmək mümkündür. Burada başqa bir məqam önəm kəsb edir.

Hazırkı tarixi şəraitdə davamlı uğur qazanmağa imkan verən liderlik hansı keyfiyyətlərə malik olmalıdır? Yəni, İlham Əliyevi lider-şəxsiyyət kimi necə xarakterizə etmək olar? Bu suala indi filosoflar, tarixçilər, sosioloqlar, siyasətşünaslar və başqa humanitar ixtisas sahibləri cavab axtarırlar. Əlbəttə, bu istiqamətdə araşdırmaları davam etdirmək zəruridir.

Son on altı ili dövlət quruculuğu prosesi kontekstində üç aspektdə əhəmiyyətli hesab etmək olar. Birincisi, bu illər keçid proseslərinin yekunu baxımından əhəmiyyət daşıyır. İkincisi, keyfiyyətcə yeni inkişaf mərhələsinə start verilib. Üçüncüsü, cəmiyyətin bütün sferaları bir-biri ilə həmahəng şəkildə hərəkətə gətirilib və sürətli, davamlı inkişaf xətti müəyyənləşdirilib. Vurğulanan faktorların hər birinin dövlət quruculuğunda konkret yeri və rolu vardır. Onlar bir-birini mərhələ kimi ideal şəkildə tamamlayırlar. Bu şərt bütövlükdə dövlət quruculuğunu sistemli və müntəzəm olaraq həyata keçirməyə imkanlar yaradır. Onun müəllifi isə Prezident İlham Əliyevdir.

### Keçid mərhələsinin yekunu: yeni inkişaf dövrünün təməli

Müstəqillik mərhələsinin keçid proseslərinin yekunu son dərəcə ciddi əhəmiyyəti olan məsələdir. Çünki bu, faktiki olaraq, 1993-cü ildən etibarən aparılan dövlət quruculuğu prosesinin səmərəsini və tarixi əhəmiyyətini ifadə edir. Həmin mərhələdə Ulu öndər öncə daxili sabitliyə nail oldu. Buna paralel olaraq Azərbaycanın beynəlxalq əlaqələrini dövrün tələbləri səviyyəsində qurdu. Neft siyasəti bu bağlılıqda prinsipial rol oynadı. Paralel şəkildə həyata keçirilən sosial-iqtisadi islahatlar cəmiyyətin bir sistem olaraq dayanıqlı sabitlik mərhələsinə keçməsinə imkan yaratdı.

Bununla ulu öndər sonrakı mərhələdə keçid prosesini uğurla başa vurmağın təməllərini sağlam əsasda formalaşdıra bildi. 2003-cü ildən başlayaraq bu proses

daha böyük sürətlə aparıldı. Və 2009-cu il noyabrın 2-də Bakı Dövlət Universitetinin 100 illik yubileyində Prezident İlham Əliyev bəyan etdi: "Mən hesab edirəm ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq". Ekspertlər hesab edirlər ki, bu, bütövlükdə müasir dövlətçilik tarixində çox əhəmiyyətli bir mərhələnin başa çatması deməkdir. Keçid dövrünün yekunu kimi üç prinsipial məqamı vurğulamaq zəruridir.

Birincisi, Azərbaycan iqtisadiyyatında keçid dövrünün son mərhələsi bənzərsiz özünəməxsusluğu ilə fərqlənən qeyri-sabit mərhələyə təsadüf edirdi. Həmin dövrdə bütün dünyanı iqtisadi-maliyyə böhranı bürümüşdü. Konkret desək, uzun illərin gərgin əməyi və düzgün strateji seçim əsasında Azərbaycan iqtisadiyyatını davamlı inkişaf relsinə salmaq mümkün olmuşdu və o, kənar təsirlərə deyil, daxili potensial imkanlarına görə inkişaf edən sistem halına gəlmişdi.

İkincisi, Prezidentin bəyanatı bütövlükdə cəmiyyətdə sosial, iqtisadi, siyasi, mənəvi-mədəni və digər münasibətlər sferasında prinsipial olaraq keçid mərhələsinin sona yetdiyini də ifadə edirdi. Bu, Azərbaycanda dövlət quruculuğunun bütün sahələrinin bir-biri ilə sıx əlaqədə aparıldığının göstəricisi idi. Sosial-iqtisadi sferada isə çox ciddi nailiyyətlər əldə edilmişdi. Belə ki, 1995-2003-cü illərdə Ümumi Daxili Məhsul (ÜDM) 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3 dəfə artmışdı. Ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi isə 25,2 faiz artmışdı. Kənd təsərrüfatı istehsalının həcmi 53,9 faiz, xarici ticarət dövriyyəsi, o cümlədən ixrac 4 dəfə çoxalmışdı. İqtisadiyyatda çalışanların orta aylıq real əmək haqqı təxminən 5,6 dəfə artmışdı. Bu müddətdə inflyasiyanın səviyyəsi 2-3 faizə endirilmişdi. Bütün bunlar seçilən inkişaf kursu nəticəsində keçid mərhələsində sıçrayışlı sosial-iqtisadi inkişafa qədəm qoyulmasını təmin etdi. 2003-cü ildən sonra da uğurla aparılan siyasət nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanıldı, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sahələrinin, regionların inkişafı sürətləndi. Bunun fonunda strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin edildi, milli valyutanın sabitliyi və sahibkarlığa dövlət dəstəyi gücləndirildi. 2004-2008-ci illərdə isə Ümumi Daxili Məhsulun həcmi 2,6 dəfə artırıldı. Bu, 1990-cı ilin səviyyəsindən 2 dəfə çoxdur. Bu dövrdə yoxsulluq səviyyəsi 13 faizə endi, ölkədə 760 mindən çox yeni iş yeri açıldı.

Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan "Doing Business 2009" hesabatında Azərbaycan biznes mühitinin yaxşılaşdırılması sahəsində ən islahatçı ölkə elan edildi. 2010-cu ildə də ölkəmiz öz mövqelərini qoruyub saxladı. "Qlobal Rəqabətlilik Hesabatı"nda isə göstərilirdi ki, 2009-2010-cu illərdə Azərbaycan 18 pillə irəliləyərək, 133 ölkə arasında 51-ci yerə çıxıb. Bu, MDB ölkələri arasında 1-ci göstərici idi. Yuxarıda ifadə edilənlər açıq təsdiq edir ki, Azərbaycanda keçid dövrünün yekunu ciddi sosial-iqtisadi inkişafla xarakterizə olunur. Həmin mərhələdə ölkəmiz bütün istiqamətlərdə keyfiyyətcə yeni təkamül mərhələsinə qədəm qoydu.

Üçüncüsü, yuxarıda vurğulananlardan məntiqi olaraq belə bir qənaətə gəlmək olur ki, keçid dövrünün başa çatması özlüyündə yeni bir mərhələnin əsasının hazırlanması demək idi. Yəni, Azərbaycan rəhbərliyi düşünülmüş, elmi əsaslandırılmış və məqsədləri dəqiq müəyyən edilmiş inkişaf kursu işləyib hazırlamaqla növbəti inkişaf mərhələsinin təməlini qoyub. Bu, dövlət quruculuğunda çox mühüm bir məqamdır. Çünki o, davamlı və dayanıqlı inkişafın əsas şərtlərindən biridir. Bununla aydın olur ki, Azərbaycan sadəcə bir mərhələni arxada qoymayıb, eyni zamanda, yeni mərhələnin sağlam tərzdə getməsi üçün lazım olan bütün təməl şərtləri də hazırlayıb.

Beləliklə, Azərbaycanda keçid dövrünün ən böyük yekunu ölkənin yeni sürətli inkişaf mərhələsinə qədəm qoyması ilə xarakterizə olunur. 2010-cu ildən başlayaraq Azərbaycan modernləşmə sahəsində daha sistemli və keyfiyyətli dəyişmələr mərhələsinə keçib. Prezident İlham Əliyevin siyasi liderliyi, qətiyyəti, uzaqgörənliyi və mükəmməl idarəetmə bacarığı yeni mərhələnin də Azərbaycan üçün son dərəcə uğurlu olmasını təmin edir. Bu bağlılıqda ABŞ-ın nüfuzlu Con Hopkins Universiteti nəzdindəki Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutunun rəhbəri, professor Frederik Starrın Azərbaycan Prezidenti barədə ifadə etdiyi fikirlər çox maraqlıdır. Amerikalı professor vurğulayıb: "Prezident İlham Əliyevin ən güclü cəhətlərindən biri odur ki, onun üçün daim diqqət mərkəzində olmaq əhəmiyyətli deyildir. O, bacarıqlı, tarazlı, düşünülməmiş qərarlara yol verməyən, rəyi ilə razılaşmadığı insanlara ehtiramla yanaşan bir şəxsiyyətdir… O, şəxsi hissləri siyasətdən ayıra bilən adamdır. Bunların hamısı çox məsuliyyətli insana xas olan xüsusiyyətlərdir. Məncə, o, indiyə qədər ölkəsinə çox gözəl xidmət edib".

Amerikalı alimin bu fikirləri İlham Əliyevin konkret fəaliyyətinin nəticələri əsasında formalaşıb. Prezidentin bir şəxsiyyət kimi tutduğu mövqe də göz qabağındadır. Baxın, 2003-2018-ci illər ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb. O cümlədən qeyri-neft sektoru 2,8 dəfə çoxalıb. Sənaye istehsalı isə 2,6 dəfə artıb. Kənd təsərrüfatı 1,7 dəfə böyüyüb. Qeyri-neft məhsulları sahəsində ixracat 4,1 dəfə çoxalıb. Azərbaycanın valyuta ehtiyatları 2004-cü ildəki 1,8 milyard dollardan 2018-ci ildə 46 milyard dollara çatdırılıb, hazırda isə 50 milyard dolları keçir. Təkcə bu ilin ilk 6 ayı ərzində 6,4 milyard dollar sərmayə qoymaq planlaşdırılmışdı ki, artıq bu, yerinə yetirilib. Bütövlükdə isə son on altı il ərzində ölkə iqtisadiyyatına 250 milyard dollardan artıq sərmayə qoyulub. Təsadüfi deyil ki, Davos İqtisadi Forumunun hesablamalarına görə, "hökumətin dəyişikliklərə çevik reaksiyası" göstəricisinə görə Azərbaycan dünyanın 140 ölkəsinin arasında 5-ci yerdə qərarlaşıb.

## Liderlik keyfiyyəti: İlham Əliyev nümunəsi

Bütün dünya liderləri etiraf edirlər ki, İlham Əliyev mükəmməl və səmərəli enerji siyasəti yeridən Prezidentdir. Bu baxımdan 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz

kəmərinin (uzunluğu 980 kilometrdir) istifadəyə verilməsi mühüm tarixi hadisə kimi qəbul edilir. Bundan əlavə, 2014-cü il sentyabrın 20-də Cənub Qaz Dəhlizinin təməlinin qoyulması növbəti strateji xarakterli uğur sayılır. Bu, layihənin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın böyük rol oynadığının faktiki təsdiqidir.

Bölgədə ən böyük infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizinin uzunluğu 3500 kilometr, ümumi dəyəri isə 40 milyard dollardır. 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi keçirilib. Nəhayət, bu ilin payızında Türkiyədə TANAP-ın Avropa ilə birləşəcək hissəsinin açılış mərasimi keçirilib.

Onu da xatırladaq ki, 2017-ci il sentyabrın 14-də "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in ("Əsrin müqaviləsi") müddətinin 2050-ci ilə qədər uzadılması ilə bağlı sənədlər imzalanıb. Yeni şərtlərə görə, SOCAR-ın payı 11 faizdən 25 faizə qaldırılmalı və mənfəət neftinin 75 faizi Azərbaycana verilməlidir. Bundan əlavə, 8 il ərzində xarici investorlar tərəfindən ölkəyə bərabər hissələrlə bonus kimi 3,6 milyard dollar ödəniləcəkdir.

Bunların fonunda Azərbaycanın Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb nəqliyyat dəhlizlərinin Cənubi Qafqazda geosiyasi qovşağı olması ekspertlər tərəfindən yüksək qiymətləndirilir. Bütövlükdə isə Azərbaycan "Bir kəmər, bir yol" layihəsi çərçivəsində aktiv bir iştirakçıdır. Bütün bunlar birbaşa İlham Əliyevin xidmətləri ilə bağlıdır.

Əlbəttə, İlham Əliyevin xarici siyasət kursunun uğurları müstəqil dövlətçiliyimizin inkişafı aspektində böyük əhəmiyyət kəsb edir. Hələ 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdi. Ölkəmiz 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik edir. İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə nail olmaq üçün var gücü ilə fəaliyyət göstərir. Bu istiqamətdə dövlət başçısının əldə etdiyi uğurlar hamıya məlumdur. Həmin kontekstdə ölkə rəhbərinin sivilizasiyalar, mədəniyyətlər və dinlərarası dialoqa verdiyi töhfələr çox qiymətlidir. İlham Əliyev bu sferada bir çox təşəbbüslər irəli sürüb və onlar uğurla həyata keçirilir. Məsələn, "Bakı prosesi" və Bakı Beynəlxalq Humanitar Forumu buna nümunədir. Regional əməkdaşlığın yeni formatları da həmin bağlılıqda olduqca yüksək qiymətə layiq nəticələr verməkdədir. Bununla bağlı Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində ifadə etdiyi fikirlər olduqca maraqlıdır. Dövlət başçısı həmin iclasdakı nitqində bildirib: "Hesab edirəm ki, bu il qonşu ölkələrlə əlaqələrimiz yeni pilləyə qalxıbdır. Mənim qonşu ölkələrin dövlət,

hökumət başçıları ilə çoxsaylı görüşlərim olub. Əldə edilmiş razılaşmalar həm ikitərəfli əlaqələrimizi möhkəmləndirir, eyni zamanda, regionda sabitliyin, təhlükəsizliyin, əməkdaşlığın inkişafına xidmət göstərir. Müsəlman ölkələri ilə bizim əlaqələrimiz həmişə olduğu kimi, diqqət mərkəzindədir. Bu, bizim xarici siyasətimizin prioritet məsələlərindən biridir. Azərbaycan müstəqil dövlət kimi dünya miqyasında nüfuzunu daim artırmaqdadır".

Vurğulanan məqamlar onu deməyə əsas verir ki, İlham Əliyev müstəqil Azərbaycan tarixində yeni bir eradır. Bu eranın başlıca xüsusiyyəti məxsusi inkişaf mərhələsi olmasındadır. Eyni zamanda, bu mərhələ müstəqil dövlətçiliyin özünütəsdiq dövrüdür. Dövlətçiliyin özünütəsdiqi tarixi əhəmiyyətli hadisədir. Təcrübə göstərir ki, heç də bütün ölkələr bu mərhələni uğurla keçə bilmirlər. Onlar bir sıra hallarda, ümumiyyətlə, müstəqil dövlətçiliyin özünütəsdiqinə nail ola bilmirlər.

Azərbaycanda isə bu mərhələ uğurla keçilib. Bütün dünya Azərbaycanı müstəqil, suveren, özünün inkişaf kursu olan ölkə kimi qəbul edir. Cənubi Qafqazda ancaq Azərbaycan həmin istiqamətdə sistemli fəaliyyət göstərir. Burada siyasi liderlərin və ekspertlərin vurğuladığı bir özəlliyi də xatırlamağa dəyər. Onlar qeyd edirlər ki, Azərbaycan nəinki regional təhlükəsizliyin təmintaçılarından biri, həm də yeni təhlükəsizlik modelləri təşəbbüsünü göstərən aktiv regional geosiyasi oyunçudur. Bu, İlham Əliyevin həyata keçirdiyi siyasi kursdan məntiqi olaraq alınan nəticədir.

İlham Əliyevin xarici siyasət kursunda təhlükəsizlik modelinin əsasında regional əməkdaşlıq fəlsəfəsi dayanır. Regional əməkdaşlıq qarşılıqlı fayda gətirən, bərabərhüquqlu və bir-birinin daxili işlərinə qarışmadan həyata keçirilən proqramların sintezidir. Bu üsulla regionda yerləşən dövlətlər ancaq qarşılıqlı fayda verən və kimsənin haqqını pozmayan münasibətlər çərçivəsində fəaliyyət göstərirlər. Bununla da regional təhlükəsizlik səmərəli əməkdaşlıq prinsipləri üzərində bərqərar olan proses kimi özünü təsdiq edir.

İlham Əliyevin bu siyasi xətti özünü tam doğruldur. Regionun ən böyük dövlətləri səmərəli əməkdaşlıq edə bilirlər. Onların maraqlarının balanslaşmasında isə Azərbaycan ciddi rol oynayır. Bunlara görədir ki, Azərbaycan Prezidentinə regionun bütün böyük dövlətlərinin başçıları xüsusi hörmət və rəğbətlə yanaşırlar.

Bunlar, eyni zamanda, İlham Əliyevin XXI əsrin xarizmatik milli lideri olduğunu göstərən özəlliklərdir. XXI əsrdə milli lider obrazı özlüyündə zəngin çalarlara malikdir. İlham Əliyev Cənubi Qafqazın mürəkkəb geosiyasi özəlliklərinə və Azərbaycanın keçdiyi xüsusi dövlətçilik tarixi yoluna görə son dərəcə maraqlı keyfiyyətlərə sahib liderdir. Şübhə yoxdur ki, Azərbaycan Prezidenti İlham Əliyevin liderlik və şəxsi keyfiyyətlərini geniş və dərindən təhlil edən araşdırmalar aparılacaqdır. Azərbaycan xalqının öz rəhbərinə inamı sonsuzdur!

**Kamal ADIGÖZƏLOV.**
e-mail: info@xalq qazeti.com

# GÜCLÜ LİDERİ OLAN XALQ YENİLMƏZDİR

**Tarixən inkişafı hədəfləyən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini gənc nəslin potensialı ilə uzlaşdırır və tərəqqiyönümlü siyasətin prioritetlərini müəyyənləşdirir. Əbədi müstəqillik, həmçinin planlaşdırılan nəticələrin əldə olunması üçün intellektual və sağlam gəncliyin yetişdirilməsi əsas məsələlərdən hesab edilir. Cəmiyyət üçün perspektivli gənclərin prototipində yaxşı təhsilli, intellektual, çevik, sosial-iqtisadi inkişafın tələblərinə adekvat fəaliyyət göstərmək bacarığına malik, eləcə də həyata keçirilən islahatların aparıcı qüvvəsinə çevrilə bilən cavan və dinamik zümrələr durur.**

Sadalanan məziyyətləri özündə birləşdirən gənc nəsillər cəmiyyətin elm, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak etməklə, ölkədə baş verən bütün proseslərin mərkəzində dayanırlar. Müsbət dəyişkənlik, o cümlədən inkişaf tendensiyaları hər nə qədər tərəqqini hədəfləyən ölkələr üçün real vəziyyətin qiymətləndirilməsində başlıca meyar hesab edilsələr də, tərəqqi naminə sabit və dəyişməz dəyərlər (ənənələrə sadiqlik, milli keçmişi yaddaşında həkk etmək və hər bir fəaliyyətində onları rəhbər tutmaq və s.) də var ki, onlar xalqın iradəsinin möhkəmliyində, varlığının əbədiyyətində bir o qədər həlledici amilləri formalaşdırırlar. Bu mənada Azərbaycanda həyata keçirilən gənclər siyasətinin reperində keçmişimizə, milli-mənəvi dəyərlərimizə bağlılıqla inkişafı hədəfləyən fəaliyyətin təşkilinə hesablanan harmonik və proqressiv tendensiyaları görürük. Əslində, Azərbaycan Prezidenti İlham Əliyevin gənclər siyasətilə bağlı müəyyənləşdirdiyi inkişaf strategiyasında, həmçinin islahatlar dövrünun intibahında səsləndirdiyi çıxışlarının hər birində keçmişə bağlılıq, gənc nəslə inam kimi çağırışların təsadüfi olmadığı qənaətinə cəsarətlə varmaq olar.

Ölkə Prezidenti müraciətlərində Azərbaycan gəncliyinin mənəvi ruhuna üz tutur, gənc nəslin vətən sevgisinə əsaslanır. Tarixə nəzər salsaq görərik ki, Azərbaycan gənci yeri gəldikdə döyüş meydanlarında zəfərlər üçün igidlik göstərmişdir. Gənclərimiz dünya mədəniyyətinə töhfələr vermişdir. Böyük elmi ixtiraları və kəşfləri ilə dünyanı heyrətə gətirən gənclərimiz az olmamışdır. Bu gün böyük iftixarla deyə bilərik ki, müasir Azərbaycan gəncliyi tarixi kökündən, genindən qidalanan milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalarımızın hər bir mirasını göz bəbəyi kimi qoruyub yaşadır. Onlar Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilir, müstəqilliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində də yaxından iştirak

edir, tarixi nailiyyətlərin episentrində dururlar. Azərbaycan gənci öz həyatını qurarkən öncə müstəqil ölkəmizin bugünü və gələcəyi haqqında düşünür, öz fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir. Əlbəttə, buna gənclərimizin yüksək potensialı, əldə etdikləri bilikləri və güclü vətənpərvərlik hissləri tam imkan verir.

Prezidentin nitqlərində də ən vacib amil gənclərin bilikli, savadlı olmaları, yeni peşələri mənimsəmələri, dəyişən dövrün tələbləri ilə uyğunlaşmaları ön plana çəkilir. Bilik və savad gənclərin yaxşı təminatlı gələcəyini müəyyən edən dəyər kimi qiymətləndirilir. Deməli, gənclər savadlı böyüməli, o cümlədən dərin biliklərə yiyələnməli və daim mütaliəli olmalıdırlar. Bütün bunlar onlara iş tapmaqda, karyera qurmaqda, ölkəmizi ən yüksək səviyyələrdə təmsil etməkdə, bir sözlə, hərtərəfli inkişaf etmiş intellektual fərdin yetişməsində Azərbaycanın firavan gələcəyinə xidmət etmək nöqteyi-nəzərindən mühüm rol oynayır.

Gənc nəsillərimiz üçün müasir milli-mənəvi dəyərlərin, eləcə də inkişafları ilə bağlı intihab dövrünün formalaşmasının təməlində müdrik siyasi baxışlar və onların nəticələri durur. Əgər bu gün Azərbaycan gəncliyi yüksək intellektli aparıcı qüvvə kimi formalaşıbsa, bu prosesin ritmində davamlılıq göz oxşayırsa, onda birmənalı olaraq dövlətimizin yürütdüyü yaxın keçmişimizə bağlı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin tarix nöqteyi-nəzərindən başlanması və bərqərar olması Ümummilli Lider Heydər Əliyev fenomeninin şah əsərlərindəndir. Ulu Öndərin Azərbaycan xalqı üçün müəyyənləşdirdiyi gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı Heydər Əliyevin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının qarantıdır. Ümummilli Lider həmişə gənclərimizə böyük ümidlər bəsləmiş, dəfələrlə qeyd etmişdir ki, Azərbaycanın xoşbəxt gələcəyi gənclərin əlindədir. Prezident İlham Əliyevin çıxışlarında səsləndirdiyi "Milli ruhda, ənənəvi dəyərlər əsasında tərbiyə alan gənclər müstəqil Azərbaycanı gələcəyə inamla aparacaqlar" fikri də siyasi varislik və dəyişməz hədəflər baxımından olduqca əhəmiyyətlidir.

Dövlət başçısının çıxışlarının demək olar ki, əksəriyyətində, o cümlədən son dövrlərdə ölkəmizdə keçirilən böyük islahatların mərkəzində Azərbaycan gənclərinin fəaliyyətinə xüsusi diqqət yetirilməsi gənclərə göstərilən böyük etimadın ifadəsidir. Eyni zamanda bu etimad, diq-

qət, qayğı bizim qarşımızda böyük vəzifələr müəyyənləşdirir və məsuliyyətimizi artırır. Bu mənada Azərbaycan Milli Elmlər Akademiyasında, o cümlədən ölkəmizin ali təhsil müəssisələrində fəaliyyət göstərən elmi gəncliyin üzərinə də mühüm vəzifələr düşür. Hazırda ölkə elminin nailiyyətlərinin dünyanın inkişafına töhfələr verməsi, Azərbaycan həqiqətlərinin elmi obyektivlik prinsiplərinə əsaslanmaqla dünyada təbliğ edilməsi məhz bu vəzifələrdəndir. Həmin vəzifələrin yerinə yetirilməsi üçün son illər ərzində gənc alimlərimiz yorulmadan çalışırlar. AMEA-da elmlə təhsilin vəhdətinin yaradılması, elmin populyarlığının artırılması, Azərbaycan gəncliyinin potensialının müasir dövrün tələblərinə uyğun inkişaf etdirilməsi, gənc mütəxəssislərin dünya elminə inteqrasiyası, eləcə də onların sosial şəraitinin yaxşılaşdırılması, asudə vaxtlarının səmərəli keçirilməsi istiqamətində çoxşaxəli işlərin həyata keçirilməsi gənc alim və mütəxəssislərin fəaliyyətini daha da stimullaşdırır. Alimlərimizin tədqiqatlarında Azərbaycanda tarixən formalaşmış dini və milli dözümlülük mühitinin, multikulturalizmin Azərbaycan modelinin elmi əsaslarla öyrənilməsi də mühüm yerlərdən birini tutur.

Müasir tariximizdə gənclərə milli-mənəvi dəyərlərin aşılanması prosesinin əsas hədəfində Azərbaycanın müstəqilliyini qorumaq, o cümlədən onları yad təsirlərdən mühafizə etmək məqsədləri durur. Məlumdur ki, respublikamız son illər hər sahədə ciddi irəliləyişlər əldə etmiş, siyasi arenada nüfuz baxımından xeyli güclənmişdir. İqtisadi müstəqilliyimizin qorunması istiqamətində aparılan balanslaşdırılmış siyasət öz hədəflərinə hər ötən gün daha da yaxınlaşmaqdadır. Lakin təbii ki, qazanılan uğurlar, böyüyən hədəflər ölkəmizə qarşı yönələn təhdidlərin miqyasının artmasına rəvac vermişdir. Bununla bağlı bir sıra qüvvələr Azərbaycan gənclərini milli dövlətçilik təfəkküründən və dəyərlərdən uzaqlaşdırmağa çalışırlar. Belə qüvvələr Azərbaycan dövləti əleyhinə yalan üzərində formalaşdırılan müzakirələrin təşkilinə çalışırlar. Yalan gerçəklik kimi təqdim edilməklə informasiya manipulyasiyası formalaşdırılır. Bu mənfur məqsədin gerçəkləşdirilməsi üçün ilk növbədə cəmiyyətimizin ən dinamik və çevik qüvvələri hədəfə alınır. Lakin Azərbaycan gəncləri adından bütün anti-Azərbaycan təbliğatı aparan xarici və yerli qüvvələrə bəyan edirik ki, bizim böyük ümidlərimiz və hədəflərimizlə Prezident İlham Əliyevin ideyaları və yürütdüyü siyasət tamamilə üst-üstə düşür. Gəncliyə güvənən, onun xoşbəxtliyi üçün çalışan lideri olan xalq yenilməzdir, məğlubedilməzdir!

**Famin SALMANOV,**
**AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri, dosent.**
https:gencalimler.az

# МЕЖДУНАРОДНО-ПРАВОВЫЕ ПРОБЛЕМЫ БЕЗОПАСНОСТИ И СТАБИЛЬНОСТИ КАСПИЙСКОГО РЕГИОНА

**Гаджиев Джавид Миргасан оглы, д.ф. по праву, преподаватель Бакинского Государственного Университета.**

*Эта статья связана с вопросами безопасности и стабильности в Каспийском регионе. В статье исследуются перспективы создания системы безопасности в Каспийском регионе и проблема пятистороннего участия на равноправном участии прикаспийских государств в ее создании. Упоминается, что основными компонентами системы безопасности Каспийского региона являются энергетическая, транспортно-коммуникационная, военная и экологическая безопасность, и, соответственно, объектами безопасности Каспийского региона являются нефтяные и газовые месторождения, транспортные коммуникации, порты, флот и экология Каспийского моря. Рекомендуется применение базовых принципов международного права в системе безопасности Каспийского региона.*

**Ключевые слова:** прикаспийские государства, энергоресурсы Каспия, правового статуса Каспия, международный терроризм, система безопасности Каспийского региона, основные принципы, военные столкновения между прибрежными государствами.

В современный период, обеспечение национальной безопасности любого государства напрямую зависит от обеспечения энергетической безопасности, являющейся главным политическим приоритетом государств.

В связи с существованием целого комплекса сложных, противоречивых взаимоотношений между прикаспийскими государствами, а также геополитической борьбы вокруг региона, в которую вовлечены такие силы, как США, ЕС, НАТО, Китай, Россия, Турция, ситуация в Каспийском регионе является довольно сложной.

В условиях противоречий между самими прибрежными государствами и геополитической борьбы внешних акторов актуальным стал вопрос безопасности и стабильности региона, а именно вопрос создания системы безопасности в Каспийском регионе, которая стала бы действенным механизмом обеспечения безопасности региона с участием всех прикаспийских государств.

Огромное значение энергоресурсов в мировой политике вызывает обострение как скрытого, так и открытого противоборства между ведущими державами за контроль над ними. Кроме того, с каждым годом растет взаимозависимость между внутренней политической стабильностью государств и их энергетической безопасностью, зависимость текущего развития государств от колебаний мировых цен на

энергоносители. Современный энергетический режим обладает сильно сконцентрированным политическим влиянием [1, с. 20-21].

Необходимость создания системы безопасности в Каспийском регионе объясняется существованием целого ряда актуальных и потенциальных для всех прикаспийских государств угроз и рисков, к числу которых можно отнести следующие: политическая и экономическая дестабилизация региона; экологическая катастрофа; терроризм; наркотраффик; военные столкновения между прибрежными государствами.

Угроза политической и экономической дестабилизации, которая может привести к военному конфликту между государствами региона, обусловлена нерешенностью вопроса о правовом статусе Каспийского моря, который слишком политизирован геополитическим соперничеством крупных держав и тенденцией милитаризации.

Это лишний раз подчеркивает тот факт, что нерешенность проблемы правового статуса Каспия создает определенные трудности для международного бизнеса, что, в конечном счете, может привести к серьезным столкновениям интересов как прикаспийских, так и неприкаспийских государств.

Другой, не менее важной, угрозой является вероятность экологической катастрофы на Каспийском море. Интенсивная нефтедобыча прибрежных государств, которая ведет к сбросу отходов, аварии и катастрофы при добыче и транспортировке нефти ведут к значительному ухудшению состояния морской среды и экологической системы Каспийского моря и региона в целом. Экология Каспийского моря во многом и определяется экологическим состоянием его водосборного бассейна, где экологические проблемы многочисленны и разнообразны по характеру и напрямую зависят от экономической направленности развития той или иной области бассейна, то есть самого моря, прибрежных территорий и водосборных бассейнов рек, впадающих в него [8, р. 65-77].

Проблема международного терроризма также является актуальным

вопросом для прикаспийских государств. Особенно реальной данная угроза стала после событий 11 сентября, обостривших ситуацию в мире в целом и приведших к дестабилизации многих регионов.

Гипотетически и в то же время основываясь на потенциальной обстановке конфликтности в Каспийском регионе, нельзя сбрасывать со счетов «технологический терроризм», направленный на повреждение или уничтожение морских платформ или нефтепроводов с целью нанесения ущерба окружающей среде. Использование нефтепромыслов и нефтепроводов как объектов террора наблюдалось во время иракского вторжения в Кувейт и первой и второй чеченских войн [3, с. 197].

Все эти угрозы и риски могут еще более обостриться, если прикаспийские государства не предпримут меры по стабилизации ситуации. При всей сложности соотношений интересов прикаспийских государств, все они однозначно заинтересованы в одном – в стабильности и

безопасности Каспийского региона. Именно эта общая заинтересованность может стать основой создания действенной системы безопасности в регионе.

Создание эффективной системы безопасности в Каспийском регионе является вполне выполнимой задачей для прикаспийских государств, так как потенциал для сотрудничества в сферах энергетики, транспортных коммуникаций, военно-технического взаимодействия весьма высок. Несмотря на тенденцию милитаризации и разногласия по вопросу о правовом статусе моря, прикаспийские государства, тем не менее, более склонны к сотрудничеству, чем к соперничеству. Для создания общей системы безопасности региона имеются все необходимые предпосылки.

Таким образом, система безопасности Каспийского региона может быть основана на следующих компонентах: энергетическая; транспортно-коммуникационная; военная; экологическая безопасность.

Соответственно объектами безопасности Каспийского региона должны быть: нефтегазовые месторождения; транспортные коммуникации; порты и флотилии; экология Каспийского моря.

Основными принципами системы безопасности Каспийского региона могут быть: принцип мирного разрешения спорных вопросов и отказа от угрозы или применения военной силы; принцип равноправных отношений, основанный на взаимном уважении суверенных прав и интересов; принцип пятистороннего паритетного участия в построении региональной системы безопасности на Каспии.

Построение системы безопасности в Каспийском регионе на основе вышеуказанных принципов возможно при условии, если все прикаспийские государства проявят политическую волю и осознают необходимость проявления гибкости и уступок в обмен на получение более значимых дивидендов в настоящем и будущем от конструктивного сотрудничества.

Сохранение экономического, экологического и политического единства Каспия является одним из основных условий стабильности в прикаспийских странах и в регионе, предпосылкой развития интеграции [2, с. 24].

Решение такого актуального вопроса, как создание системы безопасности региона, невозможно без участия всех сторон. Необходимо найти такие условия и решения, при которых стороны могли бы пойти на взаимные уступки и компромиссы, учитывая, при этом права и интересы друг друга. Развитие и сближение отношений между региональными силами – Россией и внерегиональными силами – США в определенном русле может способствовать формированию региональной системы безопасности.

Россия и США желают быть ключевыми игроками на Каспии, как в военном, так и политическом отношении, исключив при этом, военно-политическое присутствие друг друга в регионе. В этих целях, например, Россия предусматривает реализацию проекта «КАСФОР», а США – «Caspian Guard».

Для прикаспийских государств обеспечение безопасности и стабильности на Каспии силами самих прибрежных государств является возможным вариантом,

однако при условии, что военная мощь будет использоваться как гарант безопасности прикаспийских государств, а не как средство давления. Создание именно такой системы безопасности с уважением национальных интересов всех участников возможно при наличии таких факторов, которые способны повлиять и способствовать стремлению прикаспийских государств поддерживать взаимовыгодное сотрудничество в этой области. Такими факторами являются сотрудничество в сфере энергетики и влияние внешних сил на ситуацию в регионе. Только путем взаимовыгодного и равноправного сотрудничества прикаспийских государств возможно укрепление политических позиций этих государств в регионе. Для соблюдения принципа равноправных отношений, основанного на взаимном уважении интересов всех сторон, необходимо понять, что попытки доминирования как военной силы могут быть сбалансированы более тесными военными отношениями прикаспийских государств для совместного противостояния международному терроризму. Намерение некоторых прикаспийских государств привлечь нерегиональные силы в регион вызвано необходимостью реализации экономических интересов, особенно в сфере транспортных коммуникаций. Поэтому в Интересах России создать такие условия в регионе, при которых названные государства не будут иметь мотив привлекать внешние силы к урегулированию противоречий.

Международные отношения в регионе отягощены затяжным конфликтом вокруг Нагорного Карабаха и другими региональными и потенциальными конфликтами [7, с. 137].

Соблюдение принципа мирного разрешения спорных вопросов и отказа от угрозы или применения военной силы в регионе можно обеспечить международным механизмом обеспечения безопасности, таким, как Организация Объединенных Наций.

В случае нарушения принципа мирного разрешения спорных вопросов одной из сторон регионального объединения на Каспии и применения военной силы, всегда существует возможность прибегнуть к ООН, которая призвана обеспечивать безопасность и стабильность при возможной неэффективности региональных объединений.

Подобная гарантия международного вмешательства необходима для тех прикаспийских государств, которые располагают сравнительно меньшим военным потенциалом. Поэтому построение равноправных и доверительных отношений между всеми пятью сторонами должно стать более привлекательной перспективой, чем удовлетворение непомерных амбиций отдельными государствами.

Прикаспийские государства могут придерживаться принципа пятистороннего формата формирования системы безопасности, не прибегая к военным гарантиям западных стран. Данный принцип отвечает интересам России и Ирана, которые не заинтересованы в каком-либо военном присутствии внешних сил в регионе. Пятисторонний формат сотрудничества каспийских государств не означает исключение нерегиональных сил из процесса обеспечения региональной безопасности. Заинтересованность в американских и европейских инвестициях, доступ к при-

влекательному европейскому рынку, политическая поддержка США – все это входит в интересы прикаспийских государств. Поэтому в построении системы безопасности Каспийского региона следует учитывать и интересы США и ЕС, которые также заинтересованы в безопасности региона, где вложены значительные инвестиции и доминируют американские и европейские нефтяные компании.

Конструктивное сотрудничество и создание общей системы безопасности возможно в силу того, что уже наблюдаются некоторые положительные сдвиги в отношениях между некоторыми прикаспийскими государствами.

Участие Казахстана и Азербайджана в военных учениях российской Каспийской флотилии в 2002 году свидетельствует о готовности данных государств к конструктивному сотрудничеству с Россией. Иран присутствовал в качестве наблюдателя. Из пяти прикаспийских государств от участия отказалась лишь Туркмения. Целью учений было продемонстрировать готовность как бороться с терроризмом, так и пресекать наркотрафик, провести отработку взаимодействия сил по борьбе с браконьерами и террористами и т.д. Учения стали шагом к комплексному использованию всех силовых и правоохранительных структур, что демонстрировало новый подход государств к защите интересов своих рубежей и конкретных субъектов экономики [5, с. 152].

Позитивные шаги во взаимоотношениях прикаспийских государств могут стать фундаментом для формирования полноценной и эффективной системы безопасности региона. Вероятность и успешность создания системы безопасности зависят не только от самих прикаспийских государств, но и в определенной степени от стратегической ситуации в мире, а именно от внешних сил, особенно от политики США в регионе. США уделяют особое внимание обеспечению безопасности и стабильности поставок через сеть трубопроводов.

Особое беспокойство вызывает развитие американо-иранских отношений. Так, США считают Иран одним из государств, составляющих так называемую «ось зла». Нефтяной и трубопроводный фактор предопределяет и активное участие США в процессе урегулирования региональных конфликтов, а также в ослаблении позиций некоторых стран в регионе, в первую очередь Ирана [6, с. 318].

*Beynəlxalq Cinayət Məhkəməsinin necə fəaliyyət göstərdiyini başa düşmək üçün bir institut kimi onun hüquqi təbiətini aydınlaşdırmaq vacibdir. Bu məqalədə BCM-nin beynəlxalq hüquq subyektliyi və beynəlxalq təşkilat kimi təsnifləndirilməsi nəzərdən keçiriləcəkdir. Bundan əlavə, şəxslərə görə və predmet yurisdiksiyası aspektindən BCM-nin beynəlxalq hüquq subyektliliyi məsələsinə toxunulmuşdur.*

**Əsas sözlər:** Beynəlxalq Cinayət Məhkəməsi, beynəlxalq hüquq subyektliyi, beynəlxalq təşkilat, statut, yurisdiksiya, İştirakçı dövlətlərin Assambleyası.

**Ключевые слова:** Международный Уголовный Суд, субъективность международного права, международная организация, статут, юрисдикция, Ассамблея государств-участников.

**Key words:** The International Criminal Court, international legal personality, international organization, statute, jurisdiction, The Assembly of States Parties.

Beynəlxalq Cinayət Məhkəməsi beynəlxalq hüququn subyekti kimi. Məlumdur ki, beynəlxalq hüququn subyekti müəyyən hüquqlara malikdir, beynəlxalq hüquqa uyğun olaraq birbaşa vəzifələr daşıyır və beynəlxalq sferada ümumi gücə malikdir. Məhkəmənin beynəlxalq hüquq subyektliyinə malik olması isə 17 iyul 1998-ci ildə qəbul olunan, Məhkəmənin əsas təsis aktı hesab olunan Roma Statutunun 4-cü maddəsinin birinci bəndində təsbit olunur. Burada göstərilmişdir ki, Məhkəmə beynəlxalq hüquq subyektliliyinə malikdir. (1) O, həmçinin, funksiyalarının həyata keçirilməsi və məqsədlərinə nail olması üçün zəruri ola bilən hüquq qabiliyyətinə də malikdir. Bu müddəanın dəqiq şəkildə təsbit olunması uğurlu hal hesab olunsa da, qeyd etməliyik ki, belə bir müddəa təsbit olunmamış olsaydı belə, BCM-nin hüquq subyektliyinin müəyyən olunması mümkün olardı. Fikrimizi əsaslandırmaq üçün BMT Nizamnaməsində də təşkilatın beynəlxalq hüquq subyektliyinin mövcud olması ilə bağlı müddəanın göstərilməməsini qeyd edə bilərik. Birləşmiş Millətlərin əsas orqanlarından biri kimi çıxış edən Beynəlxalq Ədalət Məhkəməsinin istər məhkəmə qərarlarında, istərsə də məhkəmənin məsləhət xarakterli rəylərində təşkilatın hüquq subyektliyi məsələsinə aydınlıq gətirilmişdir. Zərərin ödənilməsi haqqında işdə BMT-nin Beynəlxalq Məhkəməsi qeyd etmişdi ki, öz funksiyalarını səmərəli həyata keçirmək üçün BMT-yə beynəlxalq hüquqi subyektlik zəruridir. (2)

Bu əsaslandırmanı BCM-nə də tətbiq edərsək görərik ki, onun beynəlxalq hüquq subyektliliyi ilə bağlı müddəalar Statutun

bir sıra maddələrində nəzərdə tutulmuşdur. Məsələn, Məhkəmənin beynəlxalq müqavilə bağlaması səlahiyyəti Statutun 2-ci maddəsində göstərilir: Məhkəmə Birləşmiş Millətlər Təşkilatı ilə münasibətlərini həmin Statutun İştirakçı dövlətlərinin Assambleyasının bəyəndiyi və sonra Məhkəmə sədrinin Məhkəmənin adından bağladığı saziş vasitəsilə müəyyənləşdirir. Buna əlavə olaraq, Statutun 3-cü maddəsinin ikinci bəndinə əsasən Məhkəmə yerləşdiyi dövlətlə İştirakçı dövlətlərin Assambleyasının bəyəndiyi və sonra Məhkəmənin sədrinin Məhkəmənin adından bağladığı mənzil-qərargah haqqında sazişə daxil olur. Həmçinin, 87-ci maddənin beşinci bəndi Məhkəməyə icazə verir ki, o, bu Statutun iştirakçısı olmayan hər hansı dövlətə xüsusi müqavilə, bu dövlətlə razılaşma və ya hər hansı digər müvafiq əsaslarla bu hissəyə uyğun olaraq, kömək göstərməyi təklif edə bilər. (3)

Şəxslərə görə yurisdiksiyası baxımından BCM-nin beynəlxalq hüquq subyektliyi. Məlumdur ki, bir qayda olaraq, yalnız iştirakçı dövlətlərə münasibətdə beynəlxalq təşkilatlar yurisdiksiyaya malikdir. Üzv olmayan dövlətlər tərəfindən isə onun beynəlxalq hüquq subyektliliyi açıq və ya gizli formada tanına bilər. Bununla yanaşı, müstəsna hallarda beynəlxalq hüquq subyektliliyi erga omnes tanınır. BCM özünün məsləhət xarakterli rəyində bildirmişdir ki, beynəlxalq cəmiyyət üzvlərinin böyük əksəriyyətini təmsil edən 50 dövlət beynəlxalq hüquq normalarına uyğun olaraq beynəlxalq hüquq subyektliyinə malik olan qurum yaratmaq gücünə sahibdir. (4) Bu əsaslandırma Məhkəmənin özünə də aid edilə bilər. Buna görə Statutun 125-ci maddəsinin birinci və üçüncü bəndlərinə istinad etməyimiz kifayətdir. Belə ki, göstərilir ki, bu Statut 1998-ci il iyulun 17-də Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Romadakı mənzil-qərargahında bütün dövlətlər tərəfindən imzalamaq üçün açıq olacaq. Sonra o, 1998-ci il Oktyabr 17-nə qədər Romada, İtaliya Xarici İşlər Nazirliyində imzalamaq üçün açıq olacaq. Bu tarixdən sonra Statut 2000-ci il dekabrın 31-nə qədər Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı Mərkəzi təsisatlarında imzalamaq üçün açıq olacaq. Statut bütün dövlətlərin qoşulması üçün açıqdır. Qoşulma haqqında sənədlər Birləşmiş Millətlər Təşkilatının Baş Katibinə saxlamaq üçün təhvil verilir.

BCM, mahiyyət etibarilə, BMT-ni dəqiq şəkildə tamamlayır: Statut, BMT Nizamnaməsinin kollektiv təhlükəsizlik sistemini gücləndirən kollektiv cinayət ədliyyə sistemini yaradır və hansı ki bu sistemlər sülhün qorunmasına həsr olunmuş beynəlxalq hüquqi nizamın əsas komponentlərini təşkil edir. Qeyd etmək lazımdır ki, BCM-nin əsas funksiyası Statuta əsasən, bütövlükdə beynəlxalq ictimaiyyəti narahat edən cinayətlərlə mübarizə etməkdir.

Predmet yurisdiksiyası aspektindən BCM-nin beynəlxalq hüquq subyektliyi. Statutun 4-cü maddəsinin birinci bəndinin ilk cümləsi predmet yurisdiksiyası baxımından Məhkəmənin beynəlxalq hüquq subyektliyinə hər hansı məhdudiyyət qoymamışdır. Lakin bu, o demək deyildir ki, o, məhdudiyyətsiz beynəlxalq hüquq subyektliyinə malikdir. Ümumi beynəlxalq hüquq subyektliliyi beynəlxalq hüququn əsas subyekti kimi yalnız suveren dövlətlərə şamil olunur. Digər hallarda beynəlxalq subyektlilik bu hüquq subyektinə verilmiş səlahiyyətlərdən asılı olaraq qismən olur. Beynəlxalq hüquq subyektinin üç əsas səlahiyyəti isə onun

hüquqyaratma qabiliyyətinin olması, beynəlxalq hüququn digər subyektləri ilə diplomatik münasibətlərin qurulması, beynəlxalq hüquqi məsuliyyət daşıması ilə bağlıdır.

BCM-nin beynəlxalq hüquq yaradıcılığında iştirakı ilə bağlı artıq yuxarıda qeyd etmişik. Bununla bərabər, çox vacib, eyni zamanda onun üçün faydalı olan bir digər məsələ Məhkəmənin diplomatik münasibətlərdə iştirak etməsidir. Bununla bağlı göstərməliyik ki, Statut komplementarlıq prinsipindən başlayaraq hüquqi qüvvəyə minmə mərhələsinə qədər milli və beynəlxalq səviyyədə sıx qarşılıqlı əlaqəyə əsaslanır. Praktikada yeni beynəlxalq cinayət ədliyyə sisteminin rəvan işləməsi yalnız BCM və dövlətlər arasında müntəzəm əlaqələr yolu ilə artırıla bilər. Bununla da, deyə bilərik ki, diplomatik münasibətlərin qurulması BCM-nin funksiyalarına tam uyğun olardı. (3)

Məhkəmənin beynəlxalq hüquqi məsuliyyət daşıması məsələsinə gəldikdə isə qeyd etməliyik ki, bununla bağlı Statutda dəqiq göstəriş olmasa da, onun beynəlxalq məsuliyyət məsələləri, hər şeydən əvvəl, Statutun 9-cu hissəsi olan beynəlxalq əməkdaşlıq çərçivəsində və 10-cu hissəsi icra rejimi çərçivəsində ortaya çıxacaqdır. Bu zaman əsas problem dövlətlərin öz vəzifələrini icra etməməsi ilə əlaqədar olaraq yaranır. Buna misal olaraq Statutun 87-ci maddəsinin yeddinci bəndini göstərə bilərik: İştirakçı dövlətin bu Statutun müddəalarına zidd olaraq məhkəmənin əməkdaşlıq haqqında xahişini yerinə yetirmədiyi, bununla da Məhkəməyə onun funksiyalarını və bu Statuta uyğun olaraq səlahiyyətlərini yerinə yetirməyə imkan vermədiyi hallarda Məhkəmə bu barədə rəy çıxara və məsələni İştirakçı dövlətlər Assambleyasına yaxud həmin məsələnin Təhlükəsizlik Şurası tərəfindən Məhkəməyə verildiyi hallarda Təhlükəsizlik Şurasına verə bilər. (1)

BCM beynəlxalq təşkilat kimi. Beynəlxalq ümumi hüquqa əsasən beynəlxalq təşkilatın əsas xüsusiyyətləri qismində dövlətlərin davamlı birliyi, özünəməxsus bir struktur, təşkilatla üzv dövlətlər arasında aydın fərq, beynəlxalq səviyyədə həyata keçirilə bilən beynəlxalq hüquqa uyğun səlahiyyətlərin mövcudluğu, qanuni məqsəd və vəzifələr çıxış edir. (5)

BCM bütün bu meyarlara açıq şəkildə cavab verir. İlk növbədə, Məhkəmə beynəlxalq müqavilə əsasında yaradılıb və Statutun 1-ci maddəsinə əsasən o, bu Statutda nəzərdə tutulan, beynəlxalq birliyin narahatlığına səbəb olan ən ağır cinayətlərə görə məsuliyyət daşıyan şəxslərə münasibətdə yurisdiksiyasını həyata keçirməyə səlahiyyətli olan daimi orqandır. 34-cü maddədə isə məhkəmə orqanları sadalanır: a) Rəyasət heyəti b) Apellyasiya şöbəsi, Məhkəmə şöbəsi və ilkin icraat şöbəsi: c) Prokuror dəftərxanası d) Katiblik. Bu orqanlar iştirakçı dövlətlərin göstərişlərinə tabe olmayıb, öz fəaliyyət sahələrində müstəqil olaraq fəaliyyət göstərir. Buradan belə nəticə çıxır ki, BCM özü beynəlxalq bir təşkilatdır və beynəlxalq təşkilatın yalnız köməkçi bir orqanı olaraq fəaliyyət göstərmiş keçmiş Yuqoslaviya və Ruanda Beynəlxalq Cinayət Tribunallarından da bununla fərqlənir.

Beynəlxalq təşkilatların növləri və BCM. Beynəlxalq təşkilatları təsnif etmək üçün bir sıra meyarlar var. Birinci fərq qarşıya qoyulan məqsədlərə görə edilir. Beynəlxalq təşkilatların tarixi inkişafından asılı olaraq ənənəvi beynəlxalq hüquqda ilk növbədə xüsusən də onların iqtisadi məqsədlərinə

görə beynəlxalq sülh təşkilatları ilə digər beynəlxalq təşkilatlar fərqləndirilmişdir. Sülh termininin ədalət mühakiməsi anlayışı ilə də sıx bağlı olduğunu nəzərə alaraq qeyd edə bilərik ki, BCM beynəlxalq sülhə xidmət edən bir təşkilatdır. Yuxarıda deyildiyi kimi, Məhkəmə BMT-nin kollektiv təhlükəsizlik sistemini özünün kollektiv cinayət ədalət sistemi ilə tamamlayır. BCM qanunun aliliyinə əsaslanan beynəlxalq hüquq nizamının vacib bir komponenti olacaqdır, odur ki, bununla da fərdi cinayət məsuliyyətini, xüsusən də, dövlət rəhbərliyindəki şəxslərin məsuliyyətini gücləndirəcəkdir.

Bundan əlavə, beynəlxalq təşkilatlar təşkilati quruluşlarına görə də təsnif edilir. Bir çox fərqə baxmayaraq, burada bəzi ümumi xüsusiyyətlər müəyyən edilmişdir. Xüsusilə, üç növ orqan arasında fərq qoyulur: təşkilatın ümumi maraqlarını təmsil edən orqanlar, üzv dövlətlərin maraqlarını təmsil edənlər və nəhayət, məhkəmə orqanları. Yenə də, ənənəvi olaraq, beynəlxalq təşkilatlar çərçivəsində diqqət qanunvericilik və icra sahəsinə yönəlir. (6)

BCM isə təşkilati quruluşuna görə ənənəvi modellərdən fərqlənir. Bu fərqlilik onun beynəlxalq ədalət təşkilatı olmasından irəli gəlir. Bununla bağlı olaraq Statutun 112-ci maddəsinə əsasən fəaliyyəti tənzimlənən İştirakçı dövlətlərin Assambleyasını qeyd edə bilərik. Belə ki, hər bir iştirakçı dövlət Asambleyada müavinləri və məsləhətçilərinin müşayət etdiyi bir nümayəndəyə malikdir. Assambleyanın səlahiyyət dairəsi Məhkəmənin funksiyalarını daha da genişləndirir, çünki İştirakçı Dövlətlərin Assambleyası ilk növbədə qanunverici və icraedici orqandır. Belə ki, Assambleya Hazırlayıcı komissiyanın tövsiyələrinə baxır və müvafiq hallarda təsdiq edir. Burada əsas maraq doğuran məqamlardan biri Assambleyanın Məhkəmə orqanı hesab olunub-olunmaması məsələsidir. Məlum olduğu kimi, Statutun 34-cü maddəsində İştirakçı Dövlətlərin Assambleyası məhkəmə orqanları sırasında sadalanmamışdır. Formal baxımdan o, məhkəmə orqanı hesab olunmur. Buna görə də, Assambleya sui generis müqavilə orqanı kimi görünür. Lakin bununla bərabər, qeyd etməliyik ki, bu orqanın Məhkəmənin qanunverici orqanı olaraq əsas sənədində təsbit edilməsi struktur baxımından daha da mürəkkəbliyə gətirib çıxarardı. Eləcə də Assambleyanın qanunverici orqan kimi təsbiti Məhkəmə orqanları sırasında icraedici orqanın da təşkil olunması ehtiyacı doğuracaqdı. (6) Lakin qeyd etməliyik ki, bu orqanın ayrılması keçmiş Yuqoslaviya və Ruanda Beynəlxalq Cinayət Tribunallarına münasibətdə irəliyə doğru atılmış bir addım hesab olunmalıdır.

**Ədəbiyyat siyahısı:**


1. Allahverdiyev Ə.V. Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2017, 376 s.
2. Beynəlxalq (publik) hüquq. Dərslik. / E.Ə. Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B» nəşriyyatı, 2018, I cild. Ümumi hissə, 752 səh.; II cild. Xüsusi hissə, 704 səh.
3. See K. Dörmann, “The first and second sessions of the Preparatory Commission for the International Criminal Court”, in YIHL, Vol. 2, 1999, p. 283.
4. Reparation for injuries suffered in the service of the United Nations, Advisory Opinion: I.C.J. Reports 1949, p. 182.
5. Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı: Qanun Nəşriyyatı, 2012, 368 s.
6. S.R.Lüder. RICR Mars IRRC. March 2002 Vol. 84 No 845, p.79-91.

# GƏNCLƏR İSLAHATLARDAN BƏHRƏLƏNİR VƏ ONU DƏSTƏKLƏYİRLƏR

**Prezident İlham Əliyevin həyata keçirdiyi köklü islahatlar kursu geniş, sistemli və olduqca əhatəli xarakter daşıyır. Belə ki, keçirilən islahatlar hakimiyyətin hər üç qolunu əhatə etməklə inkişaf etmiş dövlətlərin təcrübəsində rast gəlinən, effektiv idarəçilik modeli hesab olunan, eyni zamanda, beynəlxalq aləmdə də rəğbətlə qarşılanan və dövlət idarəçiliyində yeni üsul kimi tanınan idarəçilikdən xidmət modelinə keçidə mühüm töhvələr verir. Yeni model xalq tərəfindən də olduqca rəğbətlə qarşılanır. Bu baxımdan dövlət başçısının yeni sosial paketi kimi təqdim olunan 18 iyun 2019-cu il tarixli sərəncamları, minimum əməkhaqqının, minimum pensiyanın artırılması üçün yeni qanunvericilik təşəbbüsü vətəndaş rifahı naminə atılan son dərəcə əhəmiyyətli addımlardır.**

“Minimum aylıq əməkhaqqının artırılması haqqında” sərəncama əsasən, ölkədə minimum əməkhaqqının məbləği 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırıldı. Beləliklə də ötən il icra edilən iki sosial paket nəticəsində Azərbaycanda minimum əməkhaqqının məbləği 93 faiz artırıldı. Bu tarixdə imzalanan digər sərəncamlarla, eyni zamanda, hərbi qulluqçular, hüquq mühafizə orqanları əməkdaşları, dövlət sektorunda işləyən müəllimlər və digərlərindən ibarət 400 min nəfərin əməkhaqları da ötən il sentyabrın 1-dən 20–100 faiz səviyyəsində artırıldı. Ümumiyyətlə, 2003-cü ildən bəri cənab İlham Əliyevin prezidentliyi dövründə minimum əməkhaqqı 27,7 dəfə artırılaraq, 250 manata, orta aylıq əməkhaqqı isə 7,5 dəfə artaraq 77,4 manatdan 581,2 manata çatdırılmışdır.

Aparılan islahatlara, uğurlu daxili və xarici siyasətə dəstək və yüksək qiymət yalnız ölkə daxilində xalq tərəfindən verilmir. Bu, çoxşaxəli fəaliyyət beynəlxalq arenada da böyük rezonans doğurur. Elə bunun nəticəsidir ki, dövlət başçısının həyata keçirdiyi uğurlu daxili və xarici siyasət digər dövlətlərin prezidentləri, hökumət başçıları tərəfindən də yüksək qiymətləndirilir. Belə ki, Gürcüstanın Prezidenti Salome Zurabişvili son illər həyata keçirilən beynəlxalq layihələrdə Azərbaycanın yeri və roluna, xüsusilə cənab Prezident İlham Əliyevin uğurlu siyasi fəaliyyətinə diqqət çəkib. Salome Zurabişvili deyib: “Azərbaycanın enerji resurslarının Gürcüstan ərazisindən keçməklə Avropaya nəqli ondan xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zəmanəmizin ən uğurlu liderlərindən biridir”.

Ölkə başçısı tərəfindən aparılan uğurlu siyasətin müsbət nəticəsi özünü ABŞ-ın “U.S. News & World Report” jurnalının 2019-cu ildə dünyanın ən güclü ölkələrinin reytinq siyahısında Azərbaycanın 80 güclü

dövlət arasında 45-ci yerdə qərarlaşmasında büruzə verib. Siyahı tərtib edilərkən ölkələrin iqtisadi vəziyyəti, hərbi gücü, siyasi təsir dairəsi, eyni zamanda beynəlxalq təşkilatlara üzvlük və iştirakı daxil olmaqla bir sıra mühüm amillər nəzərə alınıb. Ölkəmiz cari ildə əldə etdiyi uğurlara görə hətta bir neçə Avropa ölkəsini – Xorvatiya, Çexiya, Latviya, Rumıniya, Slovakiya, Sloveniya, Estoniya və Portuqaliyanı geridə qoymağa müvəffəq olub.

Azərbaycanın siyasi təsir dairəsi getdikcə genişlənməkdədir. Belə ki, Almaniya Bundestaqında Xristian Demokratik Partiyasını təmsil edən Nikolas Löbel Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağı Ermənistanın tərkib hissəsi kimi şərh etməsini cəfəngiyyat adlandırıb. Bu amil onu deməyə əsas verir ki, bu gün Azərbaycan səsini eşitdirməyə çalışan bir dövlətdən, müstəqil mövqe nümayiş etdirən, qlobal arenada çəkisi olan bir dövlətə çevrilir. Göründüyü kimi, siyasi, sosial, iqtisadi, hərbi sahədə aparılan bütün islahatlar müasir və qloballaşan dünyada Azərbaycanın dünyanın sivil ölkələri sırasında layiqli yerini tutmasına bilavasitə xidmət edir.

Bütün bunlarla yanaşı, dövlətin tərəqqisində dayanıqlı inkişaf, kadr siyasəti, ictimai-siyasi sabitliyin təmin olunması hər zaman mühüm əhəmiyyət kəsb edir. Məsələyə geniş kontekstdən yanaşdıqda, hər bir hakimiyyət sütununun əldə etdiyi uğurların əsasında geniş və qlobal miqyasda fəaliyyət göstərməyi bacaran, keçmişlə gələcəyin analizini sistemli şəkildə apara bilən, siyasi savada və müxtəlif xarici dil biliklərinə malik olub ölkəsinin haqlı səsini beynəlxalq kürsülərdən dünyaya çatdırmağı bacaran dinamik, aktiv, milli-mənəvi dəyərlərə sadiq gənclərin olması vacibdir. Dövlətimizin başçısı da biz gənclərin ürəyincə olan bu məsələni prioritet sahələrdən birinə çevirib.

Gənclər müstəqil Azərbaycanın ilk qığılcımları, sinəsində vətənpərvərlik hissi olan, Qarabağ ağrı-acısını lap körpəliyindən ağ vərəq kimi beyinlərinə həkk edən bir nəsildir. Dövlət idarəçiliyində savad və peşəkarlıqla bərabər bu xüsusiyyətlər də olduqca əhəmiyyətlidir. Axı səngərdə döyüşən zaman əsgərə ən son məqamda savadı yox, məhz canından keçməyə hazır olacaq cəsarəti lazım gəlir. Bu baxımdan hər bir gənc kadrın qəlbində böyük Azərbaycan sevgisinin olması əsas şərtlərdəndir. Bununla yanaşı, bir faktı da unutmaq olmaz ki, Azərbaycan mühafizəkar, böyük-kiçik məsələsinə önəm verən bir cəmiyyətdir. Biz gənclər bu məsələyə xüsusi həssaslıqla yanaşmalıyıq. Çünki bizim də dərin dövlət idarəçiliyində böyüklərimizin təcrübəsindən öyrənəcəyimiz çox şey var. Bu səbəbdən də cavan kadrların cəlb olunması məqsəd yox, vasitədir. Ölkəmizin xoşbəxt gələcəyi hədəfinə aparan bir vasitə. Sevinirik ki, bu məsələ dövlət başçısının daim diqqət mərkəzindədir.

Bu gün ölkədə hökm sürən sabitlik, əmin-amanlıq, təhlükəsizlik mühitinin qorunmasında cənab Prezidentə dəstək olaraq,

onun sadiq əsgəri olmaq yolunda gənc kadrlar ordusu yetişir. Aydındır ki, belə kadrlar sürətlə dəyişən reallıqlarla ayaqlaşmağı bacarır, daha praqmatik düşünür, uzunmüddətli hədəflərə fokuslanır, daha cəld və çevik qərar qəbuletmə xüsusiyyətlərinə malik olurlar. Bilikli, savadlı, müasir dünyagörüşlü, innovativ düşüncə tərzinə malik, ilk növbədə, vətənpərvər gənclərə etimad göstərilməsi, bu gün olduqca mühüm əhəmiyyət kəsb edən məsələdir.

Yeni nəsil sovet mirası olan korrupsiya, rüşvətxorluq və bu kimi neqativ hallara yad insanlardır. Möhtərəm Prezidentimiz Şamaxıda "ASAN həyat"ın açılışı zamanı kompleksin əməkdaşları ilə görüşündə bu məsələni diqqətə çatdırdı: "Bilirsiniz, korrupsiya və rüşvətxorluq bizə qalan mirasdır. Ona görə bundan canımızı qurtarmaq üçün əlbəttə ki, həm maarifləndirmə işləri aparılmalı, həm də düzgün siyasət aparılmalı və nəsillər dəyişməlidir".

"Mənim ümidim gənclərədir", – deyən dövlət başçısı bildirdi ki, biz bu mübarizədə təkcə inzibati, yaxud da ki, cəza tədbirləri ilə məqsədə müvəffəq ola bilmərik: "Bütün bu tədbirlərlə yanaşı, institusional, sistem xarakterli islahatlar aparılmalıdır. İslahatların yeni dövrü keçən il prezident seçkilərindən sonra başlamışdır. Mən andiçmə mərasimindəki çıxışımda bizim əsas strateji inkişaf parametrlərini xalqın diqqətinə çatdırdım və hazırda biz ardıcıllıqla bu yolla gedirik. Baxın, Prezident Administrasiyası tamamilə yenidən formalaşıb, gənclər cəlb olunubdur. Nazirlər Kabineti yenidən formalaşıb, gənc nəsil cəlb olunur. İndi artıq parlament seçkiləri elan olunub. Ümid edirəm ki, gənclər də bu seçkilərə çox fəal qoşulacaqlar. Çünki yeni simalar, yeni ideyalar, yeni yanaşma lazımdır."

İslahatlar kursunun çoxşaxəli olmasının nəticəsidir ki, Prezident Administrasiyası, Nazirlər Kabineti tamamilə yenidən formalaşmış və gənclərə etimad götərilmişdir. Eyni zamanda, fevralın 9-na təyin olunmuş parlament seçkilərinə gənclər çox maraqlı və iddialıdırlar. Cənab Prezidentin də birbaşa üzünü ölkə gənclərinə tutaraq ümidinin gənc nəsil olduğunu ifadə etməsi biz gənclərin üzərinə düşən yükün məsuliyyətini xeyli artırır, ölkəmizin maraqlarının qorunması, haqq səsinin dünyaya çatdırılmasında fəal iştirak etmək həvəsimizi daha da təşviq edir.

Bütün sadalanan amillərdən və reallıqlardan irəli gələrək, möhtərəm Prezidentimizin həyata keçirdiyi islahatlar və onun uğurlu nəticələri böyük rəğbətlə qarşılanır və əhalinin bütün təbəqələri tərəfindən dəstəklənir. Bu islahatlar cəmiyyətin səsinə səs, qatmaqla yanaşı, həm də insanların çağırışına, gözləntilərinə bir cavab hesab olunur.

**Şəbnəm HƏSƏNOVA,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının doktorantı, politoloq.**

# AZƏRBAYCAN MULTİKULTURALİZMİ: MİNİLLİK ƏNƏNƏLƏRİMİZİN MÜASİR DÜNYA İNFORMASİYA MƏKANI

**Vətənimiz hər zaman irqindən, milliyyətindən, dinindən asılı olmayaraq bütün insanların rahat yaşadığı və birgə fəaliyyət göstərdiyi bir məkan olub. Tarixin müxtəlif dövrlərində ölkəmizin ayrı-ayrı bölgələrində nəinki coğrafi nöqteyi-nəzərdən yaxın olan regionların nümayəndələri, həmçinin, uzaq hesab edilə biləcək arealların sakinləri olan almanlar, polyaklar, yunanlar və bir sözlə, Avropa və Asiya xalqlarının nümayəndələri məskunlaşmış, dini və ya etnik mənsubiyyətinə görə təqib edilən malokanlar, yəhudilər və başqa qövmlər səfalı Azərbaycan torpaqlarında qonaqpərvərliklə qarşılanmışlar. Burada onlar yerli əhalidən xoş münasibət görərək əməklərini əsirgəmədən ikinci vətən olmuş ölkənin rifahı naminə çalışmışlar.**

Tariximizə nəzər salsaq görərik ki, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanan, üzərində Bakı, Bərdə, Gəncə, Şəki, Ərdəbil, Təbriz, Naxçıvan kimi qədim Azərbaycan şəhərlərinin yerləşdiyi Böyük İpək yolunun ölkəmizin siyasi, iqtisadi, mədəni inkişafında önəmli rol oynamış, Şərqlə Qərbin, Şimalla Cənubun qovşağında yerləşməsi vətənimizin çoxmillətli məkana çevrilməsinə səbəb olmuşdur. Həmçinin, Azərbaycan təbiətinin zənginliyi, flora və faunasının müxtəlifliyi, yaşayış üçün müstəsna dərəcədə əlverişli olması da tarixin bütün dövrlərində bu əraziyə fərqli xüsusiyyətlərə və düşüncə tərzinə malik insan toplumlarını cəlb etmişdir.

Dünyanın başqa bölgələrində nadir hallarda rast gəlinən və yurdumuz üçün xarakterik olan xüsusiyyətlərdən biri də bəşəriyyətə məlum olan əksər dini inancların və böyük dinlərin burada mövcud olması, bir-birini əvəz etməsi, bir çox hallarda bərabər yer alması olmuşdur. Aşkar edilən arxeoloji tapıntılar burada təbiət qüvvələrinə ən qədim inanclardan tutmuş, odpərəstliyə, zərdüştliyə, xristian, yəhudi və müsəlman dinlərinədək teoloji tarixin əksər bölmələrinin mövcud olmasını sübut edir.

Məhz qeyd etdiyimiz faktorlar ölkəmizdə mədəniyyətlərarası dialoqun formalaşmasını, milli-mədəni, linqvistik, etnik və dini müxtəlifliyi, qarşılıqlı mədəni zənginləşməni şərtləndirən əsas amillər olmuşdur. Əsrlər keçmiş, xalqımızın multikultural dəyərlərə verdiyi önəm ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi müstəvilərdə yaratdığı irsin hər bir nümunəsində yer almış, tolerantlıq Vətənimizdə həyat tərzi kimi formalaşmışdır.

Azərbaycan multikulturalizminin əsas özəlliyindən biri də burada yaşayan dil qruplarının bir-birindən uzaq olmasıdır.

Linqvistik ağacın yaxın qollarında olan dillərdə danışan qruplar mədəniyyətcə də yaxın olurlar. Azərbaycanın nümunəsində görmək mümkündür ki, ölkənin etnik kompozisiyası kifayət qədər zəngin olmaqla bir-birindən dil cəhətdən kifayət qədər uzaq olan etnik qruplardan formalaşıb. Burada yaşayan 10 milyonluq əhali arasında dünyada mövcud olan 14 əsas dil ailəsindən 3-ü (Altay, Hind-Avropa, Qafqaz) vardır. Yəni ölkəmizdəki etno-mədəni qrupların bir-biri ilə əlaqələri çox uzaqdır. Amma dil uzaqlığı Azərbaycanda rəngarəng cəmiyyətin yaranmasına mane olmamışdır. Tarix boyu ölkəmizin ərazisində mövcud olmuş xalqlar qarşılıqlı hörmət və sülh şəraitində yaşamışlar. Cəmiyyətin gündəlik həyat tərzinə çevrilmiş birgəyaşama Azərbaycanda dövlət siyasəti kimi multikulturalizmin ictimai əsasını təşkil edir.

Bu gün ölkəmizdə yaşayan müxtəlif millətlərin nümayəndələri öz dillərində danışır, milli adət-ənənəlirinə əməl edirlər. Dövlətimizin dəstəyi ilə onlara milli dillərində məktəblər açılır, tədris və metodiki vəsaitlər hazırlanır, kitablar çap edilir, tamaşalar qoyulur və filmlər çəkilir. Nəşr olunan müxtəlif millətlərin ədəbiyyat inciləri bir çox dillərə tərcümə edilir.

Müxtəlif millətlərə və dinlərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inteqrasiyası, yəni multikulturalizm siyasəti bu gün bir çox Avropa dövlətləri tərəfindən qəbul edilmir. Bu da dünyada millətçilik meyillərini, millətlərarası münaqişələri artırır. Müxtəlif səbəblərdən Avropa ölkələrində bu gün baş verən miqrant axınları da vəziyyəti ağırlaşdırır, azsaylı xalqların yaşadıqları dövlətin milli mədəniyyətinə inteqrasiyasını çətinləşdirir.

Bu baxımdan, Azərbaycan öz etnik müxtəlifliyi ilə bir çox Avropa ölkələrindən fərqlənir. On milyonluq əhalimizin statistik məlumatlara əsasən onda birini milli azlıqlar və etnik qruplar təşkil edir. Milli-mədəni rəngarəngliyə baxmayaraq, müxtəlif millətlərin və konfessiyaların nümayəndələri ölkəmizdə qarşılıqlı anlaşma və hörmət şəraitində yaşayırlar.

Sovet dövründə yalançı beynəlmiləlçilik pərdəsi altında həyata keçirilən assimilyasiya meyillərininin qarşısı ümummilli lider Heydər Əliyev tərəfindən qətiyyətlə alınmışdır. Xalqımızın ulu öndərin rəhbərliyə gəlişi ilə bərpa olunan özgüvəni və multikultural tolerantlıq ənənələri Prezident İlham Əliyev tərəfindən yeni səviyyəyə qaldırılmış, bütün dünyaya örnək olacaq nümunəyə çevrilmişdir. Azərbaycanda mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi sahəsində aparılan işlər dünya ictimaiyyəti tərəfindən diqqətlə izlənilir və yüksək qiymətləndirilir. İctimai həyatın bütün sahələrində həyata keçirilən islahatların hərtərəfli, fundamental və kompleks xarakter daşıması xüsusiyyəti bu sferada aparılan islahatlardan da yan keçməyib.

Multikulturalizmin Azərbaycan modelinin tədqiq və təşviq edilməsi sahəsində fəaliyyətin əlaqələndirilməsi və bu istiqa-

mətdə görülən işlərin institusional əsasının formalaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 28 fevral 2014-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi və 15 may 2014-cü il tarixli Sərəncamı ilə isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Daha sonra Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, inkişaf etdirilməsi və geniş təbliğ olunması ilə bağlı işlərin sistemləşdirilməsi, bu fəaliyyətə əlavə təkan verilməsi məqsədi ilə 2016-cı il yanvarın 11-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2016-cı il "Multikulturalizm ili" elan edilmişdir. Multikulturalizm ilinin yüksək səviyyədə və hərtərəfli keçirilməsinin təmin edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 mart tarixli Sərəncamı ilə müvafiq Tədbirlər Planı təsdiq edilmişdir. Tədbirlər planına əsasən Multikulturalizm siyasətinin hüquqi bazasını möhkəmləndirmək məqsədilə ayrı-seçkiliyə qarşı mübarizənin gücləndirilməsi ilə bağlı mövcud normativ-hüquqi aktların təkmilləşdirilməsi, "Azərbaycan multikulturalizmi" dərsliyinin hazırlanıb nəşr etdirilməsi, Multikulturalizm mövzusunda elmi-publisistik məqalə müsabiqələrinin keçirilməsi, "Multikulturalizm gənclərin gözü ilə" qısametrajlı film müsabiqəsinin təşkili və keçirilməsi, BMT Baş Qərargahında BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun yekunlarının təqdimatı, "Multikulturalizm ensiklopediyası"nın hazırlanması, "Multikulturalizm" adlı jurnalın nəşri və bölgələrdə yayımının təşkili, "Azərbaycan multikulturalizmi" elektron kitabxanasının və veb saytının yaradılması nəzərdə tutulmuşdur. Tədbirlər planına müvafiq olaraq ölkəmizdə multikulturalizmin xüsusiyyətlərini əks etdirən "Azərbaycan multikulturalizmi" elektron kitabxanası və veb saytı Azərbaycan Respublikası Prezident Kitabxanasının əməkdaşları tərəfindən qısa müddətdə http://multiculturalism.preslib.az elektron ünvanında yaradılmışdır. Saytda yerləşdirilən məlumatlar Azərbaycan, ingilis və rus dillərində hazırlanmaqla Azərbaycan multikulturalizmi barədə informasiyanın bütün dünya oxucularına çatdırılmasını təmin edir. Veb-saytın quruluşu bu sahədə təbliğat-təşviqat işinin optimal şəkildə təşkilinə xidmət edir. "Multikulturalizm" adlanan hissədə ilk növbədə istifadəçilərə bu anlayışın mahiyyətini açan ümumi məlumat verilir, ölkəmizdə tolerantlığın tarixi təkamül yolu təsvir edilir. "Azərbaycançılıq" bölməsində vətənimizdə yaşayan bütün xalqları birləşdirən azərbaycançılıq ideologiyasının mahiyyəti izah edilir, bu məfkurənin bütün dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gəlməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsində ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edilir. Azərbaycançılıq ideologiyasının təkamülündə Azərbaycan Respublikasının Prezi-

denti İlham Əliyevin özünəməxsus rolu, onun fəaliyyəti nəticəsində Azərbaycan multikulturalizminin dünyada mövqelərinin inamla yüksəltməsi ətraflı təhlil edilərək təqdim edilmişdir. Bununla yanaşı, saytın "Etnik rəngarənglik", "Mədəni müxtəliflik", "Tolerantlıq", "Təhsil", "Media" bölmələrində ölkəmizdə mültikulturalizmin müvafiq aspektləri hərtərəfli analiz edilmiş, tarixi faktlar sadalanmış, statistik məlumatlar verilmişdir. "Sənədlər" bölməsinə bu sahənin normativ tənzimlənməsini təşkil edən qanun, fərman, sərəncam və digər normativ aktlar toplanmışdır. "İqtibaslar" bölməsində isə istifadəçilər qeyd edilən sahəyə dövlət səviyyəsində verilən önəm və diqqətin təzahürü olan və vahid bir mənbədə toplanmış ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sitatları ilə tanış olmaq imkanı əldə edirlər. "Azərbaycan multikulturalizmi" saytının "E-kitabxana" bölməsi 160-dan artıq kitabın elektron versiyasını, "E-resurslar" bölməsi isə multikulturalizmə dair 1700-dən artıq məqalənin tam mətnini təqdim etməklə oxucular üçün əvəzedilməz informasiya ehtiyatıdır.

İnternet resursunda, həmçinin ölkədə və xaricdə multikulturalizm dəyərlərinin təbliği, milli-mədəni rəngarənglik mühitinin formalaşdırılması, mədəniyyətlərarası dialoqun qurulmasına töhfə verilməsi məqsədilə həyata keçirilən tədbirlər barədə xəbərlər, foto və video materiallar toplanmışdır. Eyni zamanda, Prezident Kitabxanasında interaktiv "Multikulturalizm" məlumat bülleteni hazırlanmışdır. Müxtəlif dillərdə azərbaycançılıq, tolerantlıq, mədəniyyətlərarası dialoq və multikulturalizm mövzularına aid 2014-2019-cu illərdə dövri mətbuat səhifələrində dərc edilmiş məqalələrin biblioqrafik təsviri əsasında hazırlanmış elektron resurs bu gün aktiv istifadə olunmaqdadır. Məlumat bülletenində materiallar xronoloji ardıcıllıqla və dillər üzrə (Azərbaycan, rus və ingilis) verilmişdir. Qeyd etmək lazımdır ki, kitabxana-informasiya xidmətinin müasir formalarından biri olan məlumat bülletenləri ən aktual mövzular üzrə yeni biblioqrafik informasiyanı tələbatçılara operativ şəkildə çatdırmaq məqsədilə tərtib olunur.

Multikulturalizm sferasının tədqiqatçıları bu zəngin internet resurslarından lazımınca yararlanmaqdadırlar. Əminəm ki, yaradılmış informasiya ehtiyatı ölkəmizdə mövcud olan unikal tolerantlıq mühitini, xalqımızın minilliklər boyu formalaşmış birgəyaşayış ənənələrini, vətənimizdə ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində mövcudluğunu internet informasiya məkanında təqdim etməklə Azərbaycan multikulturalizminin bütün dünyaya tanıdılmasına əvəz edilməz töhfə verəcəkdir.

**Günay İSAYEVA,**
**Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı.**

# HEYDƏR ƏLİYEV İDEYALARI YAŞAYIR VƏ QALİB GƏLİR

**Müasir Azərbaycan cəmiyyətinin formalaşması, müstəqil dövlətimizin qurulması birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, ümummilli lider azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşı olmaqdan qürur duyur, ulu öndərə sayğı və məhəbbətini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.**

Dünya siyasətində dəst-xətti ilə seçilən, dövlət başçıları arasında fenomen istedadı ilə fərqlənən Heydər Əliyev müdriklik simvolu kimi nümunə göstərilir. Bu cəsarət və qətiyyət, liderlərə məxsus dönməzlik və məğrurluq müasir Azərbaycanın qurucusu olan ulu öndərin həyat amalının gerçəkləşməsinin parlaq ifadəsi kimi Azərbaycanın imicini, nüfuzunu yüksəldib. Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi ən nadir və görkəmli şəxsiyyətlərdən biri, qüdrətli dövlət xadimi, dünya şöhrətli siyasətçi Heydər Əlirza oğlu Əliyev müasir tariximizin parlaq səhifələrini yazmış, ölkəmizin inkişaf salnaməsində dərin iz qoyaraq sözün həqiqi mənasında onu qurub-yaratmışdır. Bu böyük şəxsiyyət bütün dövrlərdə titanik zəhməti, tükənməz enerjisi, işıqlı zəkası və qətiyyətli iradəsi ilə xalqının, vətəninin, dövlətinin xidmətində dayanıb.

Ümummilli liderin Azərbaycanda hakimiyyətə qayıdışı ilə çağdaş tariximizdə keyfiyyətcə yeni dövrün, müstəqil dövlət quruculuğuna doğru aparan böyük yolun başlanğıcı qoyuldu. Prezidentliyi dövründə Heydər Əliyev ölkədə radikal islahatlar apardı və çökmüş iqtisadiyyatın xarabalıqlarında dirçəltdiyi və inkişaf etdirdiyi qüdrətli dövləti millətinə bəxş etdi. O, Azərbaycanda siyasi sabitlik yaratmaqla yanaşı, ölkənin iqtisadi müstəqilliyinin də əsasını qoydu, istehsal sahələrinin bərpası, habelə maliyyə vəziyyətinin yaxşılaşdırılması və xarici sərmayələrin cəlb olunması üzrə antiböhran proqramını işləyib hazırladı.

Zəngin dövlətçilik tarixinə malik Azərbaycan bu gün dünya siyasi arenasında layiqli yer tutan, etibarlı tərəfdaş, dinamik inkişaf edən ölkə kimi tanınır. Təbii ki, ölkəmiz bu mərhələyə bugünkü yüksəliş və inkişaf dövrünə asanlıqla çatmayıb. Azərbaycanın müstəqil, qüdrətli ölkə kimi tərəqqi yoluna çıxmasında lider amili əvəzsiz həlledici rol oynayıb. Bəli, biz bu gün böyük qürurla iftixarla qeyd edirik ki, müasir müstəqil Azərbaycan ümummilli lider Heydər Əliyevin şah əsəridir. Yəni ulu öndər müstəqil Azərbaycanın banisi, xalqımızın və dövlətimizin xilaskarıdır. Bir məqama xüsusi diqqət yetirmək lazımdır: bu nüans ondan ibarətdir ki, Heydər Əliyev həm SSRİ dönəmində, həm də müstəqillik illərində

ölkəmizə rəhbərliyi dövründə xalqımız, dövlətimiz qarşısında misilsiz xidmətlər göstərib. Bu gün qədirbilən Azərbaycan xalqı ulu öndərin misilsiz xidmətlərini çox yüksək qiymətləndirir, onun xatirəsini öz qəlbində yaşadır. Çünki Heydər Əliyev Azərbaycanı xaosdan, tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxarıb, respublikamızın sürətli yüksəlişini inkişafını təmin edib, müstəqilliyimizi daimi və əbədi etməyə nail olub. Bütün bu nailiyyətlərin təməlini təşkil edən başlıca amil ümummilli liderin öz xalqının rifahı üçün böyük fədakarlıqlar nümayiş etdirərək yorulmaz və səmərəli fəaliyyət göstərməsi idi. Xalqına dərindən bağlı olan və böyük məhəbbət bəsləyən, vətənpərvər şəxsiyyət olan Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində xalqa ləyaqətlə xidmət edib, Azərbaycanı inamla irəliyə aparıb...

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəylik və bütövlüyü təmin edən azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri misilsizdir. Ulu öndər Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülüb.

Hamımız üçün çox doğma və əziz olan Heydər Əliyev dünya şöhrətli siyasətçi, zəmanəsinin ən böyük şəxsiyyəti idi. Heydər Əliyev ümumxalq məhəbbətini, hörmətini təkcə öz vətənində deyil, bütün dünyada qazanmışdı. Buna görə də dünya siyasətçiləri, dövlət və hökumət rəhbərləri, siyasi xadimlər onu həmişə yüksək qiymətləndirir, onunla razılaşırdılar. O, əvəzsiz, yeri görünən çox müdrik şəxsiyyət idi. Qazandığımız müstəqilliyə, əldə olunan sabitliyə, həyatımızdakı inkişafa və tərəqqiyə görə biz bu böyük şəxsiyyətə çox borcluyuq. Heydər Əliyev bütün mənalı ömrünü yalnız insanlığa xidmət göstərməyə sərf etmişdi. Bu böyük şəxsiyyət Azərbaycan xalqının təhlükəsiz yaşaması, azadlıq haqqını tapması uğrunda mübarizə aparmışdı.

Heydər Əliyevin yaratdığı, insanlığa xidmət göstərən yaxşı nə varsa, hamısını əhatə edən və sistem halını alan bu dəyərlər onun mənəvi dünyasını əbədi yaşadacaq. O, zəngin, mübarizələrlə və qalibiyyətlə dolu həyatının hər gününü, hər anını doğma xalqına bağışladı. Bu xalqı qaldırıb dikəltdi, parçalanmaqdan, məhv olmaqdan, əzilməkdən və əyilməkdən xilas etdi, onu dünyada layiq olduğu şöhrətə çatdırdı. Ümummilli liderimiz müstəqil Azərbaycan dövlətini qurdu. Bu gənc və zəif dövləti öz qüdrətli əllərilə ayağa qaldırdı, möhkəmləndirdi, xarici düşmənlərdən və daxildəki xəyanətkarlardan qorudu. O, Azərbaycan dövlətinə, bu məmləkətə, bu xalqa yönələn bütün zərbələrə qarşı öz polad sinəsini sipər etdi.

Heydər Əliyev siyasi fəaliyyətinin bütün mərhələlərində Vətənə, xalqa, tor-

pağa sonsuz məhəbbət və sədaqət hissi, qurub-yaratmaq amalı ilə yaşamış, hər zaman milli ideallara bağlı olmuşdur. Ümummilli liderimiz bütün zəngin və mənalı həyatı boyu daim xalqını, Vətənini düşünmüş, Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, təbiətin bəxş etdiyi bir çox fitri keyfiyyətlər sayəsində tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyən edə bilmişdir.

Nüfuzlu siyasi liderlər bir qayda olaraq ictimai inkişafın ən böhranlı, dönüş anında məsuliyyəti çiyinlərinə götürərək bütöv bir xalqın, millətin xilaskarına çevrilirlər. Ulu öndərin diqqəti çəkən fitri idarəçilik keyfiyyətləri sırasında onun ən ekstremal, çətin və millətin taleyi baxımından məsuliyyətli dönəmlərdə ictimai mənafeləri özündə tamamilə ehtiva edən qətiyyətli, eyni zamanda, yaranmış şərait üçün ən optimal qərarlar qəbul etmək məharəti, heç zaman xatirələrdən silinməyəcək. Öz liderinin müdrik, uzaq hədəflərə hesablanmış, qətiyyətli və çevik addımlar atmaq əzmindən yetərincə xəbərdar olan Azərbaycan xalqı ən çətin, mürəkkəb vəziyyətlərdə belə arxayınlıq hissini itirmirdi. Təkcə bu səbəbdən ki, baş qaldıran təhlükələr, həyatın bu və digər mürəkkəblikləri, Heydər Əliyev şəxsiyyətinin əzəməti qarşısında son dərəcə bəsit görünürdü. Azərbaycan insanı ilahi bir əminliklə öz liderinin ən çətin dövlətçilik sınaqlarından üzüağ çıxacağını düşünür, bu fövqəl şəxsiyyətin çətin situasiyalar üzərində növbəti zəfərini alqışlamağa hazırlaşırdı. Tale 1993-cü ildə Azərbaycan xalqını növbəti dəfə çətin sınaqlarla üz-üzə qoyanda xalqın yeganə xilaskar kimi Heydər Əliyevi hakimiyyətdə görmək istəyi də məhz bu gerçəklikdən qaynaqlanırdı.

Ümummilli liderimiz xalqın çağırışına müsbət cavab verərək, Azərbaycanın idarəçilik sükanı arxasına keçmiş, qısa müddətdə milli dövlətçilik doktrinasını irəli sürərək onun sürətli icrasına başlamışdır. Üzləşdiyi çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə cəsarətlə sinə gərərək, fədakarlıq, işgüzarlıq, mübarizlik, əyilməz iradə, dəmir məntiq, özünəinam və siyasi uzaqgörənlik kimi fövqəl keyfiyyətlərdən məharətlə bəhrələnən Heydər Əliyev xalqımızı vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtarmış, müasir tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olmuşdur. Ümummilli liderimizin siyasi cazibəsi, fenomen yaddaşı, iti məntiqi, gərgin siyasi vəziyyətlərdən ustalıqla çıxmaq bacarığı, mürəkkəb siyasi situasiyalarda qərar vermək qabiliyyəti, uzaqgörənliyi, intellektual gücü, sabaha analitik baxışı, sərt və həm də qayğıkeş rəhbərlik xüsusiyyəti, cəmiyyətin siyasi, iqtisadi və mənəvi tarazlığını saxlamaq səriştəsi onun siyasi portretinin parlaq cizgiləri kimi təcəssüm olunmuşdur.

Müstəqil Azərbaycan dövlətinin təşəkkül tapmasında, şübhəsiz ki, ən böyük xidmət ümummilli lider, dünya miqyaslı dahi şəxsiyyət Heydər Əliyevə məxsusdur. Bugünkü azad və suveren Azərbaycan ulu öndərin şah əsəridir. Ölkə məhz onun

müəyyən etdiyi siyasi kursla irəliyə doğru davamlı uğurlu addımlar atır. Azərbaycanın ən yeni tarixinin 40 ilə yaxın bir mərhələsi Heydər Əliyevin titanik fəaliyyəti ilə bağlıdır. Ulu öndər Heydər Əliyev şəxsiyyətinə ehtiram və ümumxalq sevgisi əbədidir.

Heydər Əliyev sanki dünyaya elə xalqı üçün, onun səadətə yetişməsi üçün gəlmişdi. Haqqın, ədalətin bərpası, ölkənin inkişaf etdirilib sivil cəmiyyətə çevrilməsi üçün çəkdiyi min bir əziyyət onun tale yolu, ömür yolu olmuşdur. Qısa zaman kəsiyində ulu öndər respublikanı yetərincə tanıdaraq ona iqtisadi və siyasi nüfuz qazandırmışdır. Ulu öndər Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə ölkənin həyatında, xalqın taleyində elə bir əzəmətli rol oynayıb ki, bu, əsrlər boyu unudulmayacaqdır. Ulu öndər həyatı boyu həmişə xalqa arxalanmışdır: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Ümummilli lider əsl ümumxalq məhəbbəti, sevgisi qazanmış tək-tək siyasətçilərdən, dövlət xadimlərindəndir. O, respublikaya rəhbərlik etdiyi uzun illər ərzində gördüyü nəhəng işləri ilə xalqın qəlbində özünə əbədi abidə ucaldıb. Ona görə də nə qədər Müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev də ürəklərdə yaşayacaqdır. Bu isə əbədiyyət deməkdir. Dahi və əzəmətli şəxsiyyətin yolunun davamı müstəqil Azərbaycan dövlətinin gələcəyi, onun daha da güclənməsi, ərazi bütövlüyünün bərpa olunması, hər bir vətəndaş üçün firavan və rahat həyat şəraitinin yaradılması deməkdir. Heydər Əliyevin başladığı işləri davam etdirmək, qurduğu dövləti yeni-yeni uğurlara çatdırmaq onun ruhu qarşısında ən ümdə borcumuzdur. Bu gün hər bir Azərbaycan vətəndaşı dərin iftixar hissi ilə qeyd edir ki, müstəqil Azərbaycan dövləti ümummilli liderimizin şah əsəridir, onun öz xalqı qarşısında tarixi xidmətidir. Məhz buna görə Heydər Əliyevin adı tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır.

Ümummilli liderimiz bu gün cismən aramızda olmasa da, təsəllimiz odur ki, Heydər Əliyevin sönməz ideyalarının davamçısı olan layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında gələcəyə addımlayırıq. Bu isə o deməkdir ki, dövlətimiz etibarlı əllərdədir. Təməli hələ 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş xarici və daxili siyasət kursumuzun dəyişməz olduğu, bu siyasətin yalnız milli maraqlar çərçivəsində apardığı göz qabağındadır. İndi bu siyasət qloballaşan bəşəriyyətin tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir. Ulu öndərimiz Heydər Əliyevin adı bu gün sözün həqiqi məna-

sında Azərbaycan dövlətinin rəmzi kimi səslənir. Bugünkü güclü, qüdrətli Azərbaycanı o öz əlləri ilə yaradıb, onun müstəqilliyini yaşadıb, Müstəqil Azərbaycanın inkişafında müstəsna rolu olan Yeni Azərbaycan Partiyasının yaradılması da ümummilli liderimizin xalqı qarşısında əvəzsiz xidmətlərindəndir. Ulu öndərin 1992-ci ildə hələ Naxçıvanda ikən Azərbaycan ziyalılarının böyük bir hissəsinin çağırışına səs verərək Yeni Azərbaycan Partiyasının yaratması zərurətdən doğan bir hadisə kimi ölkəmizin taleyində önəmli rol oynadı.

Təsadüfi deyil ki, 1992-ci ilin sonlarında, 1993-cü ilin əvvəllərində o vaxtkı iqtidarın bütün təzyiq və maneələrinə baxmayaraq Bakıda və Azərbaycanın digər bölgələrində YAP-ın ilk təşkilatları formalaşdı. Heç bir il keçmədən Yeni Azərbaycan Partiyası və onun dahi rəhbəri, lideri Heydər Əliyev respublikamızda yaranmış siyasi-iqtisadi, sosial böhranın, vətəndaş müharibəsinin aradan qaldırılması vəzifəsini öz üzərinə götürdü. YAP-ın gücü dünya səviyyəli siyasi-ictimai xadim Heydər Əliyevdə, bu dahi şəxsiyyətə sonsuz ümumxalq məhəbbətində öz təcəssümünü tapmışdı. Odur ki, qısa zamanda onun sıraları mətin, vətənpərvər insanlar hesabına yüz minləri keçdi, monolit və sarsılmaz qüvvəyə çevrildi.

Bu gün Yeni Azərbaycan Partiyası regionumuzun yeni praqmatik lideri, Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni, daha yüksək zirvələri fəth etməyə doğru inamla irəliləyir. Yeni Azərbaycan Partiyasının rəhbərliyi partiyanın daim yeniləşməsinə və güclənməsinə mühüm önəm verir. Çünki bu partiya, eyni zamanda Heydər Əliyev siyasi irsinin ideoloji bazasını təşkil edən güc mərkəzidir.

Tam əminliklə deyə bilərik ki, ulu öndər Heydər Əliyevin ideyaları yaşayır və qalib gəlir, Azərbaycan xalqını daha böyük qələbələrə aparır. Bu gün hər bir azərbaycanlının qəlbində Heydər Əliyev sevgisi dünənkindən daha güclüdür, daha parlaqdır.

Heydər Əliyevin ideyaları bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fəaliyyəti və gərgin əməyi nəticəsində yaşayır və uğurla reallaşır. Prezident İlham Əliyevin apardığı həm xarici, həm də daxili siyasət Heydər Əliyev kursunun davamıdır. Bu siyasətin məğzində Azərbaycan dövlətinin güclənməsi, onun müstəqilliyinin qorunması, iqtisadiyyatının inkişafı və əhalisinin maddi rifah halının yaxşılaşması durur. Azərbaycan və xalqımız var olduqca Heydər Əliyev əməlləri və ideyaları daim yaşayacaq, qorunub saxlanacaqdır. Bir sözlə, 1994-cü ildə yaranmış "Heydər-Xalq, Xalq-Heydər" şüarı daim ürəklərdə yaşayır!

**Vaqif ƏMİRASLANOV,**
**Bakı Humanitar Kollecinin direktoru,**
**tarix üzrə fəlsəfə doktoru, YAP üzvü.**
www.bineqedi-ih.gov.az

# VƏTƏNƏ VƏ XALQA ŞƏRƏFLİ XİDMƏT NÜMUNƏSİ

**Siyasi lider amili sabahına biganə olmayan hər bir xalqın taleyində müstəsnalıq təşkil edir. Bu funksiyanı, adətən, böyük nüfuzu, fəallığı, təşəbbüskarlığı, enerjisi ilə fərqlənən, fitri idarəçilik keyfiyyətlərinə malik olan seçilmiş insanlar yerinə yetirirlər. Bu reallıqlar fonunda aşkar görünür ki, müstəqil Azərbaycanın son illərdə Cənubi Qafqaz regionunda mühüm rolu və mövqeyi ilə seçilən aparıcı dövlət statusunda çıxış etməsi təkcə respublikanın zəngin təbii sərvətləri ilə şərtlənmir. Analoji tərəqqi yolu keçmiş ölkələrdə olduğu kimi, Azərbaycanda zəngin təbii resursların xalqın mənafeyinə uyğun səmərəli realizə edilməsi, hər bir fərdin maraq və mənafeyinə cavab verən inkişaf strategiyasının həyata keçirilməsi bilavasitə məhz siyasi lider amili ilə də bağlıdır. Dünya şöhrətli siyasət və dövlət xadimi, ümummilli lider Heydər Əliyevin milli maraqları nəzərə almaqla yürütdüyü siyasəti XXI əsrin başlanğıcında bütün sahələrdə layiqincə davam etdirən varis–Prezident İlham Əliyev Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tapmasını, regional liderliyini təmin etmişdir. Dövlətimizin başçısı ötən 16 ildə ümummilli liderin əsasını qoyduğu çoxşaxəli islahatları uğurla davam etdirərək yeni siyasi situasiyanın tələblərinə uyğun zənginləşdirmiş, hər bir vətəndaşın mənafeyinə xidmət edən iqtisadi siyasət həyata keçirmişdir.**

Ötən dövrün reallıqları deməyə əsas verir ki, ölkə rəhbəri İlham Əliyev hər bir mərhələdə hökumətin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin dayandığını dəqiq müəyyənləşdirərək onların həlli üçün konkret planların, proqramların hazırlanmasını və mobil, peşəkar, yüksək iş qabiliyyətli komanda vasitəsilə reallaşdırılmasını təmin etmişdir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir"– tezisini irəli sürmüş Azərbaycan Prezidenti bu siyasəti hər bir ölkə vətəndaşının həyatında gerçəkliyə çevirmək üçün ciddi siyasi iradə, qətiyyət və əzmkarlıq nümayiş etdirmişdir.

Hələ 2003-cü ildə dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başlayarkən "Mən hər bir azərbaycanlının Prezidenti olacağam"– deyən dövlət başçısı İlham Əliyev ötən 16 ildə cəmiyyətdə mütləq çoxluğun böyük rəğbət və etimad göstərdiyi liderə çevrilmişdir. Ümummilli liderin respublikaya rəhbərliyinin bütün dövrlərində ardıcıl və səmərəli islahatlar hesabına formalaşdırdığı inkişaf potensialının ötən illərdə tam reallığa çevrilməsi, Azərbaycanın ideyalardan gerçəkliyə, nəzəriyyədən təcrübəyə qədəm qoyaraq müasir tarixinin ən parlaq yüksəliş dövrünü yaşaması günümüzün danılmaz həqiqətdir. Prezident İlham Əliyevin yürütdüyü siyasət deməyə əsas

verir ki, respublikamız inkişafının müasir modelini müəyyənləşdirərək davamlı iqtisadi inkişafa və demokratiyaya doğru kor-koranə deyil, təkamül yolu ilə irəliləməyə üstünlük verir. Dövlət başçısının bəyan etdiyi kimi, ölkəmizin sabit və tarazlı iqtisadi inkişafı yalnız demokratik yeniliklərin geniş tətbiqindən keçir.

Yeni neft strategiyasının uğurla davam etdirilməsi, Azərbaycanın xarici sərmayələr üçün cəlbediciliyinin qorunması, milli iqtisadiyyatın müxtəlif sferalarına yönələn investiyaların qeyri-neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi, sahibkarlıq fəaliyyəti üçün münbit şəraitin yaradılması, vətəndaşların sosial müdafiəsi son 16 illik iqtisadi siyasətin başlıca qayəsini təşkil etmişdir. Atılan ardıcıl addımlar Azərbaycanda işsizlik probleminin aradan qaldırılması, regionların tarazlı inkişafı, qeyri-neft sektoruna diqqətin artırılması, sahibkarlığın inkişafı yeni iş yerlərinin açılması istiqamətində konkret nəticələrlə müşayiət olunmuşdur.

Beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirən Azərbaycanın təşəbbüskarı olduğu transmilli layihələr hazırda Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bakı–Tbilisi–Ceyhan neft, Cənubi Qafqaz Boru Kəməri vasitəsilə Xəzər dənizinin enerji resursları region ölkələrinə və Avropaya nəql edilir. Reallaşdırılan ən mühüm layihələrdən olan Cənub Qaz Dəhlizi layihəsi enerji əməkdaşlığımızı genişləndirərək Azərbaycanı Avropanın böyük təbii qaz təchizatçılarından birinə çevirir. Ötən illərdə, həmçinin Azərbaycanın tranzit imkanlarının reallaşması üçün digər iri layihələr də uğurla reallaşdırılmışdır. Bu baxımdan Beynəlxalq Dəniz Limanının və Gəmiqayırma Zavodunun istifadəyə verilməsi, Şimal–Cənub, Şərq–Qərb dəhlizləri çərçivəsində görülən işlər, Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi xüsusi vurğulanmalıdır.

Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin ötən müddətdə sahibkarlığın inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər də ardıcıllığı, səmərəliliyi və sistemliliyi ilə diqqəti cəlb etmişdir. Hələ 2004-cü ilin 1 fevralında Bakı Biznes Mərkəzində yerli sahibkarlarla görüşən dövlət başçısı onları narahat edən məsələləri diqqətlə dinləmiş, sahibkarları dəstəklədiyini, iş adamlarına gələcəkdə də lazımi kömək göstərəcəyini bəyan etmişdi. Dövlət rəhbəri inhisarçılıq, sahibkarlara süni maneələrin yaradılması, hüquq-mühafizə orqanlarının iş adamlarının fəaliyyətinə müdaxiləsi hallarını daim pisləmiş, bu münasibət konkret qərarlarla müşayiət olunmuşdur. Antiinhisar fəaliyyətinin gücləndirilməsi, inflyasiyanın qarşısının alınması üçün əsaslı tədbirlərin görülməsi, qeydiyyat sisteminin sadələşdirilməsi, yerlərlə regional iqtisad

məhkəmələrinin yaradılması və s. kimi tədbirlər bunun əyani təcəssümüdür.

Ümumilikdə, 20 il əvvəl Azərbaycan ilə eyni səviyyədə qərarlaşan postsovet ölkələri indi iqtisadi inkişaf səviyyəsinə görə respublikamızla rəqabətə davam gətirə bilmirlər. Azərbaycanın iqtisadi inkişaf dinamikası əvvəlcə resurslara əsaslanırdısa, hazırda iqtisadi şaxələndirmənin nəticəsi olaraq qeyri-neft sektoru üstün artım tempi qazanmışdır. Bəzən ölkəmiz dünya iqtisadiyyatında yeni təmayülləri hətta Avropa ölkələrini qabaqlamaqla mənimsəyir. Məsələn, Azərbaycan resursla zəngin olan ölkələr sırasında enerji səmərəliliyi sahəsində ən yüksək nailiyyət qazanmış və Şərqi Avropada "yaşıl iqtisadiyyat"ın tədqiqini aparan ilk ölkə olmuşdur.

Dövlətimizin rəhbəri Azərbaycanı müasir və qüdrətli dövlətə çevirmək məqsədini, sadəcə, deklorativ bəyanatlarla ifadə etmir, onun konkret icra mexanizmlərinin müəyyənləşdirilməsi istiqamətində də konkret addımlar atır. Dövlət başçısının son illərdə imzaladığı "Azərbaycan 2020: gələcəyə baxış" Konsepsiyası və "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" kimi konseptual əhəmiyyətli sənədlər deməyə əsas verir ki, Prezident İlham Əliyev Azərbaycanın uzunmuddətli inkişaf strategiyasının dərin elmi proqnozlar əsasında işlənib hazırlanmasına çalışır.

Son illərin ən mühüm nailiyyətlərindən biri də qeyri-neft sektorunda artımın neft sektoru ilə müqayisədə əhəmiyyətli dərəcədə yüksək olmasıdır. Bu fakt göstərir ki, "Neft bizim üçün məqsəd deyil, iqtisadiyyatı inkişaf etdirmək üçün vasitədir, – deyən dövlət başçısı İlham Əliyevin milli iqtisadiyyatın şaxələndirilməsi, neft amilindən asılılığın azaldılması istiqamətində həyata keçirdiyi siyasət artıq real nəticələrini verməyə başlayır. Dövlətimizin başçısı İlham Əliyev neft amilindən asılılığın tamamilə azaldılmasını ölkəmiz üçün prioritet məsələlərdən biri olduğunu xüsusi qeyd etmişdir: "Növbəti illərdə islahatlar mütləq davam etdiriləcəkdir. İndi bəzi suallar səslənir və hətta beynəlxalq ekspertlər maraqlanırlar ki, indi neftin qiyməti bir qədər qalxıbdır, bəs bu, apardığımız islahatlara təsir edəcək, ya etməyəcək? Bəlkə siz indi islahatları o qədər fəallıqla aparmayacaqsınız. Qətiyyən belə deyil. Mən bir daha demək istəyirəm ki, neftin qiymətinin artması, sadəcə olaraq, bizim valyuta ehtiyatlarımızı artıracaq. Ancaq bütün hökumət qurumları elə işləməlidirlər ki, sanki bizdə neft amili yoxdur. Ona görə biz gələcək iqtisadi inkişafımızı qeyri-neft sektorunun inkişafında görürük".

2018-ci ilin 11 aprel seçkilərində xalqın böyük dəstəyi ilə Azərbaycana rəhbərlik kimi məsuliyyətli missiyanı növbəti mərhələdə də üzərinə götürmüş modern dövlət rəhbəri İlham Əliyev ona göstərilən

etimadı müdrik və çevik fəaliyyəti ilə doğruldur, Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün əzmlə, qətiyyətlə çalışır. Təkcə onu demək kifayətdər ki, respublikamız son prezident seçkilərindən sonra daha da güclənmiş, zənginləşmiş, hərtərəfli inkişaf yolunda yeni uğurlara imza atmış insan amili həyata keçirilən siyasətin ana axarında yer almışdır. İndiki mərhələdə dövlətimizin başçısının idarəetmə kadrlarından başlıca tələbi yeniliklərlə ayaqlaşmaq, aparılan islahatların mahiyyətini düzgün dərk edərək ona dəstək vermək, bürokratik və neqativ amillərdən tamamilə uzaq olmaq, xalq üçün işləmək, hər bir vətəndaşın mənayeyini uca tutmaqdır.

Son aylarda həyata keçirilən əhəmiyyətli kadr dəyişiklikləri, Milli Məclisə vaxtından əvvəl seçkilərin idarəetmə fəlsəfəsinin dəyişdirilməsi vacibliyi ilə bağlı ciddi tələbatdan irəli gəlmişdir. Bu günlərdə xəbərdarlıqlardan nəticə çıxarmayan iki rayonun yerli icra strukturları rəhbərlərinin barəsində həbs-qəti imkan tədbirinin seçilməsi şəffaflıq naminə ciddi siyasi iradənin mövcudluğunu göstərir. Prezident qətiyyətlə ölkədə vətəndaşların mənafeyini əsas tutaraq dövlət idarəetməsi ilə bağlı bu və digər qərarlar qəbul edir, struktur islahatları həyata keçirir. Dövlətimizin başçısının 2019-cu il 14 yanvar tarixli "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı idarəetmə sistemində çevikliyin və səmərəliliyin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Son illərdə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin, Maliyyə Sabitliyi və Turizm, Apellyasiya şuralarının, Sosial Tədqiqatlar Mərkəzinin və digər zəruri qurumların yaradılması aparılan islahatların səmərəliliyini daha da yüksəltmişdir. Ümumilikdə, "ASAN xidmət", "ASAN kommunal" və "DOST" kimi modern xidmət mərkəzlərinin yaradılması Azərbaycanda müasir idarəetmə sisteminin mahiyyətini, fəlsəfəsini ifadə edir.

Xüsusi qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin təşəbbüsü və xalqımızın azad siyasi iradəsinin təntənəsi kimi tarixiləşmiş 2016-cı ilin 26 sentyabr referendumu ilə Azərbaycan Respublikasında vitse-prezident vəzifələrinin təsis edilməsi, 2017-ci ilin 21 fevralında Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması, bu mənada, postneft dövründə Azərbaycanda həyata keçirilən çoxşaxəli islahatların davamlığını və dövlət idarəçiliyinin səmərəliyini yüksəltmək məqsədinə xidmət etmişdir. Bu təyinat ölkəmizin elm və təhsil sahəsində əldə etdiyi nailiyyətlərin uğurlu davamına təminat yaratmış və islahatlara yeni nəfəs vermişdir.

2018-ci ilin 11 aprel seçkilərindən sonra sosialyönümlü islahatları daha da

genişləndirən, ictimai rəy amilinə daha yüksək həssaslıqla yanaşan ölkə rəhbəri İlham Əliyevin və bu islahatların reallaşdırılmasına layiqli töhfələrini verən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqını sevən, vətəndaşlarının problemlərinə yüksək qayğı ilə yanaşan şəxsiyyət olduqları dünya miqyasında bir daha təsdiqlənmişdir.

Aparılan islahatlar ölkədə elm və təhsil sahələrində də ciddi dönüşə səbəb olmaqla, insan kapitalının güclənməsini təmin etmişdir. Təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində son beş ildə ali təhsil müəssisələrinə tələbə qəbulunun keyfiyyət göstəricilərində davamlı artım dinamikası müşahidə edilmişdir. Təhsil Nazirliyinin açıqladığı statistik məlumatlara əsasən, bu müddətdə qəbul imtahanlarında 300 baldan çox toplayanların sayı 26,5 faiz, 400 baldan çox toplayanların sayı 35,1 faiz, 500 baldan çox toplayanların sayı 51,5 faiz, 600 baldan çox toplayanların sayı isə 81,3 faiz artmışdır. Ölkədə ali təhsilalma imkanları genişləndirilmiş, son 5 il ərzində qəbul olunan tələbələrin sayında 20,8 faiz artım olmuş, bu göstərici cari ildə 41 min nəfər təşkil etmişdir.

İstedadlı uşaqlarla sistemli işin təşkili nəticəsində ölkədə bilik yarışmaları hərəkatı genişlənmiş, olimpiadalara hazırlıq mərkəzləri yaradılmışdır. Bu sahədə yeni ideya və təşəbbüslərin həyata keçirilməsi ilə bağlı "İstedadlı uşaq və gənclərin inkişafı üzrə Dövlət Proqramı" hazırlanmış və hökumətə təqdim edilmişdir. Təhsil Nazirliyinin təşəbbüsü ilə "Təhsil haqqında" Qanuna edilmiş dəyişikliklərə əsasən, beynəlxalq olimpiada qaliblərinin istənilən ixtisas üzrə, respublika fənn olimpiadaları qaliblərinin müvafiq ixtisas üzrə müsabiqədənkənar ali məktəblərə qəbulu təsbit edilməklə cəmiyyətdə çoxdan müzakirə edilən bu məsələ öz həllini tapmışdır.

Nəhayət bildirək ki, Azərbaycanda demokratikləşmə və modernləşmə sahəsində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş 2018-ci ilin 11 aprel seçkiləri ölkəmizin innovativ əsasda inkişafına ciddi zəmin hazırlamış, islahatların elmi əsaslarla aparılacağı qənaətini daha da gücləndirmişdir. Son seçkilərdən dərhal sonra dövlətimizin başçısının siyasi iradəsilə hökumətin tərkibinin əsaslı şəkildə yenilənməsi, çevikliyi, müasirliyi, novatorluğu ilə fərqlənən, müasir innovasiyaları mənimsəyən gənclərin dövlət idarəetməsinin müxtəlif pillələrində irəli çəkilməsi islahatların səmərilyini təmin etmək, şəffaflığı artırmaq məqsədindən irəli gəlməklə, çox müsbət nəticələr verir və xalq tərəfindən fəal dəstəklənir.

**Mönsüm ALIŞOV,**
**"İdrak" liseyinin təsisçisi, pedaqoji elmlər doktoru, professor.**
www.idrak.edu.az

# İQTİSADİ İSLAHATLARIN UNİKAL İDARƏEDİLMƏSİ MODELİ

*İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi müasir çağırışlardan irəli gələn konseptual yanaşma və mexanizmləri uğurla tətbiq edir*

***Son illərdə ölkədə iqtisadiyyatın inkişafı, xüsusən qeyri-neft ixrac potensialının artırılması, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığa dəstəyin gücləndirilməsi ilə bağlı Prezident İlham Əliyev tərəfindən mühüm fərman və sərəncamlar imzalanıb.***

Bütün bunlar dünyada baş verən iqtisadi proseslər fonunda Azərbaycanda başladılan yeni iqtisadi islahatların ilk gündən uğurla həyata keçirilməsini təmin edib. İslahatlar həm də mövcud iqtisadi potensialdan və əlverişli investisiya mühitindən daha səmərəli istifadə, bu sahədə təşviqat və ictimai iştirakçılıq sistemlərinin yaradılması, o cümlədən sahibkarlıq subyektlərinin mütərəqqi elmi-texniki çağırışlardan, stimullaşdırıcı mexanizmlərdən və innovasiyalardan yararlanmaları üçün yeni konseptual yanaşmaların tətbiqi kimi məsələləri də əhatə edib. Prezident İlham Əliyevin 20 aprel 2016-cı il tarixli fərmanı ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) də məhz bu məqsədlə yaradılıb.

### İdarəetmə sacayağı: İslahat-Monitorinq-Kommunikasiya

İİTKM üç əsas funksional istiqaməti əhatə edir: bunlar iqtisadi təhlil, monitorinq və qiymətləndirmə, islahatların və iqtisadi nailiyyətlərin kommunikasiyasıdır.

Prezident İlham Əliyevin tapşırıqları əsasında İİTKM 12 strateji yol xəritəsi, habelə ərzaq təhlükəsizliyi, məşğulluq, rəqəmsal ödənişlər və s. sahələrdə strategiyalar, dövlət proqramları və tədbirlər planlarının monitorinq və qiymətləndirməsini həyata keçirir. Bu əsasda İİTKM-də dövlət sənədlərinin icrası barədə "böyük verilənlər bazası" – "Big Data" yaranır. Öz növbəsində "Big Data"nın emalı əsasında yeni islahatlar barədə təklifləri formalaşdırmaq mümkündür. Təkcə onu qeyd etmək kifayətdir ki, 2016-cı ildə ölkə Prezidentinin tapşırığı əsasında strateji yol xəritələri hazırlananda İİTKM-in platformasında dövlət, özəl, akademiya, beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyətini təmsil edən 400 nəfər ekspert cəmlənmişdi.

Beləliklə, monitorinq və islahat arasında qarşılıqlı təsir mübadiləsi idarəetməni yeni mərhələyə qaldırır: data əsaslı qərar qəbuletmə mexanizmi işləyir. İİTKM-in təqdim etdiyi Azranking.az və Monitoring.az platformaları funksional əlaqələndirilməklə islahatlar və monitorinqin iş axınlarını rəqəmsal olaraq bir-birinə bağlayır: yeni islahat yeni monitorinq və yeni monitorinq yeni islahat deməkdir.

İİTKM-də islahatların "həyat tsikli"nə aid olan bütün mərhələlər tam rəqəmsal-

laşdırılıb. Bu isə prosesin səmərəliliyini, şəffaflığını, inklüzivliyini və hesabatlılığını təmin edir. Hazırda İİTKM-in balansında olan 40-a yaxın internet resursu güclü kommunikasiya vasitəsi olmaqla islahatların işıqlandırılmasına yardımçı olur.

İslahatların kommunikasiyasında iki vacib hədəf var. Bunun biri mesajları əhali, biznes, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti və digər istiqamətlərdə düzgün çatdırmaqdır. İkinci hədəf isə əks-əlaqə qurmaqla islahatların icrası zamanı yaranan fikir və rəyləri yenidən "islahat gündəliyi"nin formalaşmasında istifadə etməkdir. Beləliklə, İİTKM-də idarəetmə sacayağı yaranıb: İslahat-Monitorinq-Kommunikasiya. Bu sacayağın funksionallığını artırmaq üçün İİTKM-in təqdim etdiyi institutlar vacib rol oynayır: Azexport.az, Rəqəmsal Ticarət Qovşağı, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi, Azranking.az, Monitoring.az, Enterpriseazerbaijan.com və Azerp.az.

**İslahatların "beyin mərkəzi"**

Aparılan iqtisadi islahatların əhatə dairəsinin genişləndirilməsini və bu sahədə işlərin səmərəli əlaqələndirilməsini təmin edən, rəqabət qabiliyyətli sosial bazar modelinin qurulması istiqamətində iqtisadi islahatlara töhfə verən İİTKM ölkənin dayanıqlı iqtisadi inkişafının təmin edilməsi istiqamətində makro və mikroiqtisadi səviyyədə təhlil və tədqiqatlar aparır. Qurum, həmçinin analitik məlumatlar əsasında iqtisadi islahatların həyata keçirilməsi üçün təkliflər, habelə orta və uzunmüddətli dövr üçün proqnozlar hazırlayır, dövlət orqanlarını və qurumlarını həmin proqnozlarla təmin edir.

İİTKM-in 20-ə qədər dövlət proqramı, strategiya, tədbirlər planı və strateji yol xəritələri üzrə həyata keçirdiyi monitorinq və qiymətləndirmə çərçivəsində hər bir istiqamətdə işçi qruplar fəaliyyət göstərir ki, bu da 300 nəfərə qədər şəxsi əhatə edir. İİTKM həm də Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə komissiyanın 19 işçi qrupunun və katibliyinin müzakirələr apardığı platformadır. Bu platformada 300 nəfər dövlət, özəl, akademiya, vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatların nümayəndələri cəmləniblər. Təkcə bu iki platformada 600 nəfərə yaxın şəxs islahatların "həyat tsikli"nə aid bütün mərhələlərdə dövlət-özəl əməkdaşlığı və dialoqu formatında fəaliyyət göstərirlər.

**"Bir Pəncərə" İxraca Dəstək Mərkəzi**

İİTKM-in fəaliyyəti ilə daha yaxından tanış olmaq üçün bu günlərdə mərkəzə baş çəkdik. Diqqətimizi ilk çəkən İİTKM-in "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi oldu. Öyrənirik ki, ölkəmizdə qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsini təmin etmək istiqamətində görülən işlərdən biri "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin yaradılmasıdır. Mərkəz Azərbaycan Prezidentinin 22 fevral 2017-ci il tarixli "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı əsasında yaradılıb. Missiyası isə ixrac fəaliyyəti ilə məşğul olan sahibkarlara kömək etmək, onların işini asanlaşdırmaqdır.

Məlum olduğu kimi, sahibkarlıq fəaliyyətinə təsir edən parametrlərdən biri

zaman və pul məsrəfidir. Elə Dünya Bankının "Doing Business" hesabatında "Sərhəddə ticarət" indikatoruna nəzər salsaq, görərik ki, sözügedən indikatorun qiymətləndirilməsi sərf edilən vaxt və xərclənən pulun miqdarına görə dəyişir. Yəni sahibkar ixrac-idxal əməliyyatlarına nə qədər zaman və maddiyyat sərf edərsə, bu həmin ölkənin hesabatdakı mövqeyinə təsir göstərəcək. Buna görə də beynəlxalq indeksin təcrübəsinə dayanaraq prosedurların azaldılması istiqamətində ölkəmizdə "Bir Pəncərə" sistemi tətbiq edilir. Sistemin əsas mahiyyəti və fəlsəfəsi dövlət-özəl münasibətlərində çevikliyin, intensivliyin və şəffaflığın təmin edilməsidir.

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzində altı dövlət qurumunun xidməti fəaliyyət göstərir. İxracatçı sahibkarlar tələb olunan bütün bu sertifikatları vahid "Bir Pəncərə" Mərkəzindən daha tez, səmərəli və effektiv şəkildə, əlavə yol və vaxt resursu sərf etmədən əldə edə bilir. Bu da öz növbəsində sahibkarın ixrac prosedurunu asanlaşdırır. "Bir Pəncərə"nin ixracatçı sahibkarlara göstərdiyi xidmətlər bununla bitmir. Bütün bunlarla yanaşı, mərkəz yerli sahibkarlara konsultasiyaların verilməsi, biznes ideyasına malik şəxslərə biznes planın yazılması, ixrac subsidiyaları, gömrük bəyannamələrinin real vaxt rejimində doldurulması ilə bağlı dəstək göstərir. Mərkəz sahibkarlara birbaşa ünsiyyətlə yanaşı, onlayn rejimdə də xidmət göstərir.

Beləliklə, qısa müddətdir fəaliyyətinə baxmayaraq təcrübə göstərir ki, icazə və sertifikatların verilməsində zamanın azaldılması, daha az maddi məsrəf edilməsinə təsir göstərir, biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən, müqavilələrin elektron formada tərtibi və imzalanmasını, real vaxt rejimində transsərhəd elektron xidmətlərinin həyata keçirilməsini reallaşdırır. İntensiv və çeviklik yalnız daha az vaxt sərf etməklə sahibkarın işinə dəstək verir, onun maddi xərclərini düzgün tənzimləyir və gələcək fəaliyyətini stimullaşdırır. Ona görə də "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi bu gün ölkənin qeyri-neft sektorunun ixracının inkişafında əhəmiyyətli rol oynayır.

**"Enterprise Azerbaijan" – virtual inkubasiya və akselerasiya platforması**

İİTKM-in fəaliyyətinin istiqamətlərindən biri də müasir innovasiyalardan yararlanmaqla bu sahədə dövlət siyasətinin daha böyük uğur qazanmasına nail olmaqdır. Buna görə Azərbaycanda biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, kiçik və orta sahibkarlığın inkişafının təmin edilməsi məqsədilə Prezidentin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"nin "İnvestisiya məlumat bankının yaradılması və mütəmadi təhlillər nəticəsində yenilənməsi" tədbirinin icrası ilə əlaqədar olaraq İİTKM tərəfindən "EnterpriseAzerbaijan.com" internet portalı yaradılıb. "EnterpriseAzerbaijan.com"-un beynəlxalq əməkdaşlığı gücləndirmək üçün ilk anlaşma memorandumu bu sahədə dünya liderlərindən olan "Enterprise Estonia" ilə olmuşdur.

Portalın missiyası hüquqi və fiziki şəxslər tərəfindən hazırlanan investisiya layi-

hələri, aktivlər, təbii resurslar və investisiya imkanları haqqında məlumatların yerli və xarici investorlara təqdim edilməsidir. "EnterpriseAzerbaijan" ideya və layihə həyata keçirmək istəyən müəllif və təşəbbüskarları ilə investisiya imkanları axtarışında olan investorları bir araya gətirən davamlı yenilənən, istifadəyə rahat, təhlükəsiz, əlçatan, sürətli və geniş əhatə dairəsi olan bir platformadır. "EnterpriseAzerbaijan.com" portalı həm də dünyada məşhur, geniş kütləyə malik olan bir çox portallara inteqrasiya olunur və dünya maliyyə bazarlarına çıxmaq imkanı yaradır.

Azərbaycanda ilk dəfə məhz bu portalda fəaliyyət istiqaməti üzrə geoiqtisadi xəritə yaradılıb. Portalda yerləşdirilən bu xəritədə nəqliyyat infrastrukturu, sənaye parkları, texnoparklar, biznes inkubatorlar, xidmət sektoru, elm və təhsil müəssisələri, təbii sərvətlər, şirkətlər və s. daxil olmaqla 1200 əsas obyekt, həmçinin inzibati və iqtisadi rayonlar haqda Azərbaycan, ingilis və rus dilində olmaqla, 3 dildə məlumat yerləşdirilib.

İİTKM-də olanda öyrəndik ki, "EnterpriseAzerbaijan.com" Azərbaycanda ilk dəfə olaraq Bank of Americada Kickstarter hesabı açıb. Bu hesab vasitəsilə "EnterpriseAzerbaijan.com" bir neçə biznes layihəsini (startapı) Kickstarterdə yerləşdirib investisiya cəlb etməyə başlayıb. Hazırda "EnterpriseAzerbaijan.com"a toplanan və kənarda olan startapları Kickstarterə yerləşdirmək üçün tədqiqatlar aparılır. Azərbaycan Beynəlxalq Bankı da Azərbaycan startaplarının Kickstarterdə yerləşdirilməsi üçün "EnterpriseAzerbaijan.com"a dəstək verir.

"EnterpriseAzerbaijan.com" xüsusilə gənc startapçıları dəstəkləmək üçün 15 universitetdə təkcə bu il Vergilər Nazirliyi və Azərbaycan Sahibkarlar Konfederasiyası ilə birlikdə 2000-dən çox tələbə ilə "Startapa necə başlamalı?" mövzusunda seminarlar keçirmişdir.

**Azexport.az – "Made in Azerbaijan"ın dünyaya açılan pəncərəsi**

Hazırda Azərbaycanda elektron ticarətin lideri kimi "Azexport.az" çıxış edir. Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən böyük layihələrdən olan portal Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında" sərəncamı əsasında 2016-cı ildə yaradılıb.

Portal Azərbaycan istehsalı olan rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların xarici bazarlarda "Made in Azerbaijan" brendi adı altında təşviqinə dəstək verir. Digər tərəfdən "Azexport" ölkədə biznes mühitinin yaxşılaşdırılması üçün ixracatçı sahibkarlara nəqliyyat, logistika, ödəniş və sertifikatlaşdırma sahəsində dövlət dəstəyi göstərir.

Bu mənada portal yerli məhsullar haqqında məlumatların təqdim edilməsi, onların daxili və xarici bazarlarda satışı üçün əlverişli platformadır. Ən əsası "Azexport" həm tələbin təklifi, həm də təklifin tələbi formalaşdırdığı unikal imkanlar yaradan platformadır.

"Azexport" portalı "Made in Azerbaijan" məhsullarının xarici bazarlarda elektron ticarət platformaları üzərindən təşviqinin

aparılması üçün dünyanın müxtəlif istiqamətlərində fəaliyyət göstərən ən məşhur ticarət platformalarına inteqrasiya olunub. Belə ki, "amazon.com", "alibaba.com", "all.biz", "Go4worldbusiness.com" kimi bir çox geniş auditoriyaya malik olan portallara inteqrasiya olunması Azərbaycan istehsalı olan məhsulların dünya bazarına çıxış imkanlarını artırır, onların satış əhatəsini genişləndirir.

Azərbaycanın yaradıcı sənaye sahəsində mövcud potensialını nəzərə alsaq, perspektivdə bu sektor ölkəyə ən azı 1-1,5 milyard dollar əlavə gəlir gətirə bilər. Bu məqsədlə kreativ məhsulların xarici bazarlarda təşviqi məqsədilə "Azexport.az" portalı sınaqdan keçmiş modelini və mövcud imkanlarını təklif edir. Bunun üçün bu sahədə ixtisaslaşan "Etsy", "Kickstarter" və "Amazon Kindle onlayn portalları və "Sothebys" auksion evi ilə əməkdaşlıq qurulub. "Azexport.az" bu il ərzində "Amazon" onlayn platformasında elektron kitabların satışı istiqamətində uğura nail olub. Belə ki, ümumilikdə "Azexport.az" və "Amazon" portallarında Prezident yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun "Fundamentals of İnclusive Development Management" adlı elektron kitabının üç ay ərzində 300-dən artıq nüsxəsi satılıb. Növbəti mərhələdə dizayn həlləri, əl işləri, milli suvenirlər, əsərlər, şeirlər, rəsmlər, kreativ video oyunlar, musiqilər, bəstəkarlıq və potensial ixrac imkanı olan digər yaradıcılıq məhsullarının "Etsy", "Apple" "Music", "Itunes", "Google Play", "Kickstarter", "Sothebys" və "Amazon Kindle" kimi platformalara yerləşdirilməsi nəzərdə tutulub.

Beləliklə, Azərbaycanda istehsal olunan məhsulların vahid məlumat bazası formalaşıb və bu gün yerli sahibkarın "Azexport.az" vasitəsilə öz məhsullarını 200-dən artıq ölkədə tanıtmaq imkanı var. "Azexport.az"ın fəaliyyət göstərdiyi 3 il ərzində Azərbaycan məhsullarının beynəlxalq onlayn platformalarda mövcudluğu 300 dəfə artıb. Fəaliyyətə başladığı 2017-ci ilin yanvar ayından etibarən "Azexport.az" portalına dünyanın 111-dən artıq ölkəsindən müxtəlif (sənaye, qida, tekstil, kənd təsərrüfatı və s.) məhsullar üzrə 1 milyard 388,4 milyon ABŞ dollar həcmində ixrac sifarişləri daxil olub.

Mərkəzdə onu da öyrəndik ki, hazırda bir sıra ölkələr "Azexport.az" modelinə bənzər modellər tətbiq etməyə çalışırlar. Hətta Dünya SME Forumu və İİTKM arasında imzalanmış anlaşma memorandumunda "Azexport.az" təcrübəsinin yayılması da nəzərdə tutulmuşdur.

**Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı**

"Azexport.az" portalının əsas keyfiyyət göstəricilərindən biri də İlham Əliyevin fərmanı ilə burada sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycanda vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə imkan verən "Azərbaycan Rəqəmsal Ticarət Qovşağı" bölməsinin yaradılmasıdır. Qeyd edək ki, dör-

düncü sənaye inqilabının çağırışlarına uyğun olaraq Azərbaycan Böyük Britaniyadan sonra Rəqəmsal Ticarət Qovşağı (RTQ) yaradan ikinci ölkədir.

Ölkələr arasında rəqabətin gücləndiyi dövrdə belə layihənin həyata keçirilməsi olduqca mükəmməl düşünülmüş iqtisadi addımlardan biridir. Çünki bu layihə ilə Azərbaycan regionda qeyri-neft sektoru üzrə ən rahat investisiya mühiti yaradıb və xarici investorlar üçün olduqca cəlbedici ölkəyə çevrilib. RTQ qeyri-rezident investorların mövcud regionda investisiya layihələrini ən rahat və təhlükəsiz şəkildə həyata keçirmələri üçün unikal imkanlar yaradır.

Azərbaycan RTQ vasitəsilə dünyada ilk mobil rezidentlik və Estoniyadan sonra ikinci elektron rezidentlik təqdim edən ölkədir. İlk elektron rezidentlik Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Kestutis Jankauskasa təqdim edilib. RTQ-nin yenilikləri bununla bitmir, dünya tarixində ilk dəfə qeyri-rezidentə mobil imza – ASAN imzanı məhz RTQ ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman-əl Tüveycriyə təqdim edib.

RTQ-nin təqdim etdiyi m-rezidentlik və e-rezidentlik vasitəsilə sənədləşmə ilə əlaqədar aparılan bütün proseslər çox sadə və bir o qədər təhlükəsizdir. Elektron və mobil rezidentliyin xarici investor üçün üstünlüyü odur ki, ölkəmizdə biznes fəaliyyəti ilə məşğul olmaq istəyən qeyri-rezidentlər ölkəyə daxil olmadan, sərhədi keçmədən dth.az saytında qısa müddətdə qeydiyyatdan keçə bilər.

RTQ, eyni zamanda yerli sahibkarlar üçün də böyük imkanlar yaradır. Belə ki, ixrac prosedurlarının daha sadə, şəffaf və sürətli həyata keçirilməsi məqsədilə ixrac zamanı tələb olunan mənşə sertifikatı, fitosanitar, keyfiyyət, baytarlıq sertifikatı, gömrük bəyannaməsi, sərbəst satış sertifikatı kimi sertifikatlarını onlayn formada və yalnız bir müraciətlə "Vahid İxrac Ərizəsi" vasitəsilə təqdim edir. Bu da yerli ixracatçılara vaxta və xərclərə qənaət etməyə şərait yaradır. RTQ yerli sahibkarlar üçün yeni bazarlar da açmaqdadır. Belə ki, insan orqanizmi ilə birbaşa təmasda olan qida, kosmetika, tekstil, tibbi cihazlar, gigiyenik vasitələr və s. məhsulların ixracı zamanı tələb olunan Sərbəst Satış Sertifikatı Azərbaycanda ilk dəfə olaraq RTQ vasitəsilə yerli sahibkarlara təqdim olunur. Azərbaycan MDB məkanında bu tip sertifikatı təqdim edən üçüncü ölkədir.

RTQ-nın təklif etdiyi digər xidmətlər sırasında qeyri-rezidentlər üçün olan e-company vasitəsilə sahibkar onlayn şəkildə öz şirkətini qura bilər. E-bank xidməti vasitəsilə Azərbaycanda ilk dəfə banka getmədən, məsafədən bank hesabının açılması xidməti təqdim edilib. E-wallet xidməti vasitəsilə elektron pul kisəsi ilə bütün ödənişlər portal üzərindən həyata keçirilə bilər. Bununla da sahibkar öz vaxtına qənaət edə bilər. E-document vasitəsilə isə şirkətin bütün elektron sənəd dövriyyəsi həyata keçirilir. Bundan başqa, transsərhəd əməliyyatları, elektron sənəd dövriyyəsi, qarşılıqlı tanınma, gömrük bəyannamələrinin doldurulması və sairə kimi xidmətləri də RTQ istifadəçilərə təqdim edir.

Ümumilikdə RTQ "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi və "Azexport.az" portalı

ilə birgə ekosistem yaradaraq ixracatın təşviqinə xidmət göstərir.

**"Monitoring.az" – monitorinq və qiymətləndirmədə rəqəmsal transformasiya**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin BP şirkəti ilə birgə hazırladığı "monitoring.az" portalının yaradılmasının əsas məqsədi strateji yol xəritələrinin və digər dövlət proqramlarının monitorinqi və qiymətləndirilməsində qurumlar arasında olan "kommunikasiya məsafəsini" azaltmaq, monitorinq və qiymətləndirmə institutunu rəqəmsallaşdırmaq, sadələşdirmək və şəffaflaşdırmaqdır.

Azərbaycanda elektron hökumət və elektron məhkəmə ilə yanaşı, həm də elektron monitorinq sisteminin yaradılması çevik və səmərəli dövlət idarəetməsini təmin edir. İİTKM strateji yol xəritələrində nəzərdə tutulan fəaliyyətlərlə bağlı monitorinq, qiymətləndirmə və kommunikasiya tədbirlərini, həmçinin öz səlahiyyətləri çərçivəsində dövlət qurumlarının sifarişi əsasında sənaye parkları, məhəllələri və aqroparklarda həyata keçirilən fəaliyyətlərin, habelə iqtisadi yönümlü dövlət proqramlarının monitorinqini və qiymətləndirilməsini həyata keçirir. "Monitoring.az" portalı dövlət strategiyalarının, proqramların, tədbirlər planlarının monitorinqi və qiymətləndirilməsi nəticəsində Böyük Verilənlər (Big Data) bazası yaratmağa imkan yaradır.

"Azranking.az" portalı isə Verilənlər Bazasından istifadə etməklə islahatların generasiyasını təmin edir və islahatlar da yenidən monitorinq olunur. "Monitoring.az" və "Azranking.az" portalları arasında funksional əlaqə "müdrik çevrə" yaradır.

Beləliklə, mərkəzdəki müşahidələrimiz göstərdi ki, İlham Əliyevin rəhbərliyilə Azərbaycanın özünəməxsus iqtisadi islahatların idarəedilməsi modeli yaradılıb. Cəmi 3 ildir fəaliyyət göstərən İİTKM müasir çağırışlardan irəli gələn konseptual yanaşma və mexanizmləri uğurla tətbiq edir.

**"Azranking.az" – islahatların rəqəmsal generasiyası**

İİTKM-in fəaliyyətini təmin etdiyi "Dövlət-Biznes Dialoqu Platforması və Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya"nın internet Portalı - "Azranking.az" vasitəsilə idarəetmə elektron qaydada həyata keçirilir. Komissiyanın işçi qruplarının fəaliyyətinin əlaqələndirilməsi, iclas və görüşlərin təşkil edilməsi, daxili məlumatların və müvafiq sənədlərin mübadiləsi də yeni internet platforması üzərindən reallaşacaq. Bundan başqa, Azərbaycan və ingilis dillərində fəaliyyət göstərən "Azranking.az" portalında beynəlxalq reytinqlər üzrə bütün məlumatlar, metodologiya, qiymətləndirmə və eyni zamanda reytinq üzrə qiymətləndirilən bütün ölkələrin Azərbaycan ilə illər üzrə müqayisəli təhlil sistemi və digər funksiyalar mövcuddur. Portal komissiyanın iclaslarında baxılan məsələlər və qəbul edilən qərarlar barədə məlumatların ictimaiyyət, eləcə də, kütləvi informasiya vasitələrində şəffaf və əlçatan olaraq yayılmasını təmin etmək məqsədi daşıyır.

**İslahatların kommunikasiyası**

İİTKM, həmçinin Azərbaycanda aparılan islahat prosesinin yerli və beynəlxalq səviyyədə geniş kommunikasiyasını həyata keçirir. Mərkəz internet resursları üzərindən aktiv fəaliyyət göstərir, sosial şəbəkələrdə 40-a qədər resurs üzərindən müntəzəm olaraq islahat prosesinin kommunikasiyasını həyata keçirir. Mərkəzin əməkdaşları mütəmadi olaraq islahatların işıqlandırılması məqsədilə mediada analitik şərhlərlə çıxış edir, müxtəlif teleradio proqramlarına və debatlara qatılırlar. Azərbaycanda aparılan islahat prosesi ilə bağlı həm də beynəlxalq müstəvidə təşviqat işi aparılır. Belə ki, mərkəzin əməkdaşlarının nüfuzlu "Forbes", "Reuters", "BBC", "Emerging Europe", "Digital Age", "moscow-baku.ru", "Milliyet", "Hürriyet", "Daily Sabah" və s. kimi nəşrlərdə müsahibə və məqalələri dərc olunub. Mərkəz aylıq olaraq ixrac icmalı, islahat icmalı və video icmalı hazırlayır. İslahat prosesinin statistik infoqrafik təsviri, video formatda təqdimatı və elektron kütləvi informasiya vasitələrində də bu məlumatların statistik infoqrafikalarla geniş işıqlandırılması məlumatlılığın artmasına xüsusi töhfə verir. Prezidentin fərman və sərəncamlarına, digər vacib islahat tədbirlərinə aid sosial çarxlar daimi olaraq TV kanallarda yayımlanır. İİTKM iqtisadi sahədə fəaliyyət göstərən TV layihələrin yaradılmasında və fəaliyyətində də xüsusi rol oynayır. Mərkəz Dünya Bankı, SİGMA, Avropa İttifaqı kimi nüfuzlu təşkilatlarla onlarla birgə tədbirlər və görüşlər keçirir. Həmçinin beynəlxalq nüfuzlu xarici ekspertlərlə birlikdə müxtəlif mövzularda təlimlər təşkil olunur və iştirakçılara sertifikatlar təqdim olunur. İİTKM-in əməkdaşları ABŞ, Böyük Britaniya, Fransa, Hindistan, Yaponiya, İtaliya, Estoniya, Tailand, Türkiyə və başqa ölkələrə səfər edərək iqtisadi islahatlar barədə məlumatlar təqdim ediblər. Bu il ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Dünya Bankı ilə Beynəlxalq Valyuta Fondunun illik toplantısında Azərbaycanda iqtisadi islahatlara dair xüsusi tədbir keçirilib. Toplantıda "Doing Business islahatları: Azərbaycanda inklüziv və davamlı iqtisadi inkişaf" mövzusunda təqdimat nümayiş olunub.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu və sistemli islahatlar çərçivəsində İİTKM-in yaranması və özünün də bu islahat prosesinə qoşulması onu göstərir ki, Azərbaycanda dövlət idarəetməsinin səmərəliliyi təmin olunmuşdur. İİTKM-in uğurlarının da səbəbi məhz effektiv menecment, rəqəmsal həllər, insan kapitalı və dövlətçiliyə bağlılıqdır. Dəhlizlərdə, iş otaqlarında və iclas zallarında rastlaşdığımız əməkdaşların işgüzarlığı və ruh yüksəkliyi qaynar iş həyatını göstərirdi. Bu gün İİTKM-də nüfuzlu xarici universitetləri bitirən məzunlar, elmlər və fəlsəfə doktorları, magistrlər peşəkarlıq və vətənpərvərliyi özlərində birləşdirərək İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlara öz töhfələrini verməyə çalışırlar.

**Rəşad CƏFƏRLİ.**
www.azerbaijan-news.az

# MULTİKULTURALİZM AZƏRBAYCANIN DÖVLƏT SİYASƏTİNİN PRİORİTETİ, CƏMİYYƏTİN HƏYAT TƏRZİDİR

***Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınır. Bu gün Azərbaycan özünün uzun əsrlərin süzgəcindən süzülüb gələn zəngin multikulturalizm modelini dünyaya təqdim etməkdədir. Ölkəmizin bu sahədəki təcrübəsi kifayət qədərdir və qədim tarixə malikdir. Əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi ölkəmiz Şərq və Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsü olmuş, müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşamışlar. Bu gün də müstəqil Azərbaycan öz siyasətini məhz bu təməl üzərində qurur, ölkəmizdə katolik kilsəsi, pravoslav kilsəsi, yəhudi sinaqoqu, məscidlər azad, sərbəst, təhlükəsiz, qarşılıqlı hörmət əsasında tolerantlıq şəraitində fəaliyyət göstərir, Azərbaycan müxtəlif irqi, etnik, dini və mədəni mənsubiyyətə malik insanlar arasında ayrı-seçkiliyə yer olmadığını bütün dünyaya nümayiş etdirir.***

Ölkəmizdə multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını qədim dövlətçilik tariximiz və milli-mənəvi dəyərlərimiz təşkil edir. Tarixi ənənələrə nəzər salsaq görərik ki, istər Səfəvilər dövləti, istər XIX-XX əsrlər maarifçilik dalğası, istərsə də Xalq Cümhuriyyəti dövründə Azərbaycan ərazisində yaşayan digər etnik xalqlar və dini qrupların nümayəndələrinin təmsilçiliyini özündə cəmləyən bu siyasi davranış XX əsrin sonlarında ümummilli lider Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyasının tərkib hissəsinə çevrilmiş, tolerantlıq və multikulturalizm ənənələri bərpa edilmişdir. İctimai-siyasi həyatımızın demək olar ki, bütün sahələri kimi, dövlət-din münasibətlərinin tənzimlənməsi ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ötən əsrin 90-cı illərinin əvvəlində tarixi müstəqilliyinə yenidən qovuşan Azərbaycan çox keçmədi ki, suverenliyini itirmək təhlükəsi ilə üzüzə qaldı. Həmin dövrdə arası kəsilməyən xarici təzyiqlər, işğalçı Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü, ölkə daxilindəki siyasi başıpozuqluq, hakimiyyət çəkişmələri Azərbaycanda

vəziyyəti son dərəcə gərginləşdirmişdi. Eyni zamanda, dinlərarası, millətlərarası münasibətlərə böyük ziyan vuruldu. Məhz belə ağır şəraitdə xalqın təkidi ilə siyasi rəhbərliyə qayıdan ümummilli liderimiz Heydər Əliyev ölkəni düşdüyü bəladan qurtardı, qanunçuluğun və ictimai-siyasi sabitliyin bərpasına nail oldu, demokratik, hüquqi dövlətin möhkəm bünövrəsini qoydu, müstəqil Azərbaycanın tərəqqi və inkişaf strategiyasını müəyyənləşdirdi. Eyni zamanda dövlət-din münasibətlərinin formalaşması istiqamətində mühüm addımlar atıldı. Ulu öndər ölkəmizdə mövcud olan bütün milli azlıqları vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirməyə nail oldu, mədəni müxtəlifliyi qorumaq naminə milli azlıqlar və dini qruplarla bağlı çoxlu sayda normativ hüquqi aktlar qəbul etdi, demokratik, hüquqi dövlət quruculuğunun əsasını qoydu və apardığı islahatlarla ölkədə tarixən mövcud olan etnik-mədəni, dini müxtəlifliyin tolerant əsaslarının möhkəmlənməsini təmin etdi. Təsadüfi deyil ki, multikulturalizmin siyasi əsasları Azərbaycan Respublikasının Konstitusiyasında qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapıb. Multikulturalizmin məhək daşı olan dövlət-din münasibətlərinə böyük önəm verən ulu öndər deyirdi: "Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil, demokratik dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə, dinindən, irqindən, siyasi mənsubiyyətlərindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir". Ulu öndərin müəyyənləşdirdiyi bu strateji istiqamətdə inkişaf edən Azərbaycan dünyaya örnək ola biləcək multikultural dəyərlər sistemini və modelini formalaşdırıb.

Ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan müasir Azərbaycanda möhtərəm Prezidentimiz İlham Əliyevin qətiyyətli siyasi iradəsi, yüksək intellektual keyfiyyətləri, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dövlətçilik təfəkkürü ilə milli-mənəvi dəyərlərə verdiyi önəm sayəsində bəşəri birliyə xidmət edən multikulturalizm, İslam həmrəyliyi kimi ideyaların reallaşması istiqamətində uğurlu addımlar atılır və bu addımlar beynəlxalq aləmdə böyük siyasi-mənəvi rezonans yaradır. Azərbaycanın multikulturalizm dəyərlərinə sahib olması, onu təşviq etməsi aparıcı beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən yüksək dəyərləndirilir. Müasir gərgin beynəlxalq şəraitdə Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, praktiki, elmi, təbliğati və təşviqati istiqamətdə fəaliyyət göstərməsi xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq ictimaiyyət qəbul edir ki, dünyəviliyin Azərbaycan modeli və onun sülhpərvər dinlərarası dialoq

təcrübəsi nadir və uğurlu bir model kimi nəzərdən keçirilməli, öyrənilməlidir. Hazırda ölkəmizin təcrübəsi tədqiqat obyektidir, bir çox ölkələrdə öyrənilir və tədris edilir. Bu istiqamətdə əməkdaşlığa maraq artır və ilbəil əlaqələr genişlənir. Təsadüfi deyil ki, "Multikulturalizmin Azərbaycan modeli" və ya "Azərbaycan multikulturalizm modeli" kimi terminlər siyasi leksikona, elmi ədəbiyyata daxil edilib. Azərbaycan xalqı birgəyaşayış təcrübəsi və həyat tərzi ilə sübut edir ki, multikulturalizm yaşayır və onun gələcəyi daha parlaqdır.

Multikulturalizmin Azərbaycan Respublikasının dövlət siyasəti olmasının mühüm təzahürlərindən biri burada dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasındadır. Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olması özünü ilk növbədə dörd əsas məqamda göstərir: ölkəmizdə dini azadlıqların təmin edilməsində, bütün dinlərin, dini məzhəblərin qanun qarşısında bərabər olmasında, onların fəaliyyətlərinə dövlət tərəfindən hər cür dəstək göstərilməsində və dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmasında... Fəxarət hissi ilə deyə bilərik ki, Azərbaycan günümüzdə müsəlmanların arasında qanlı toqquşmalara səbəb olan məzhəb qarşıdurmaları olmayan nadir müsəlman ölkələrindəndir. Dövlət bütün dini qurumların hər birinə lazımi kömək, o cümlədən maliyyə dəstəyi göstərir. Dövlətimizin bütün dinlərə göstərdiyi bərabər münasibət öz növbəsində dinlərarası münasibətlərin təkmilləşməsinə, daha dəqiq desək, bu münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmasına səbəb olur. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycanda bütün din və etiqad azadlıqları tam şəkildə təmin edilir.

Multikulturalizm həm də cəmiyyətdəki etnik-mədəni müxtəlifliklərin tənzimlənməsinin ən səmərəli siyasətidir. Bunu Azərbaycan Respublikasının təcrübəsi aydın şəkildə göstərir. Ölkəmizin daxili siyasətinin mühüm istiqaməti olan multikulturalizm siyasəti vasitəsilə cəmiyyətdəki mövcud etnik-mədəni müxtəlifliklər səmərəli şəkildə tənzimlənir. Daha konkret desək, bu müxtəlifliklər qorunur. Multikulturalizm siyasəti ölkənin suverenliyinə, ərazi bütövlüyünə, demokratik inkişaf yoluna, milli təhlükəsizliyinə, vətəndaş birliyinə, əhalinin rifah və etnik-mədəni dəyərlərinə təhdid yaradan etnik millətçilik, etnik separatçılıq, dini separatçılıq və digər dezinteqrasiya proseslərinin qarşısının alınmasında mühüm rol oynayır. Beləliklə, Azərbaycan Respublikası multikulturalizm siyasəti vasitəsilə ölkə daxilində olan etnik-mədəni müxtəliflikləri tənzimləyərək bu müxtəlifliklərin və onların əsasını təşkil edən dəyərlərin qorunmasına nail olub. Bu,

demokratik cəmiyyətin norma və prinsiplərinə uyğun gəlir. Belə ki, xalqların etnik-mədəni dəyərlərinin qorunması insan haqlarının tərkib hissəsidir.

Azərbaycan Respublikasının multikulturalizm siyasətindən danışarkən daha bir mühüm qanunauyğunluğa diqqət yetirmək lazımdır: multikulturalizm ölkənin daxili siyasətində özünü göstərməklə yanaşı, özünü xarici siyasətdə də təzahür etdirir. Belə ki, ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biri bütün dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviq olunmasıdır. Qeyd edək ki, bu istiqamətdə ölkəmiz böyük uğurlara imza atıb. Belə uğurlardan biri kimi son dövrdə siyasi leksikona daxil olan "Bakı prosesi"ni qeyd etmək olar. "Bakı prosesi" – mədəniyyətlər arasında dialoqun inkişaf etdirilməsini nəzərdə tutan bir təşəbbüsdür. "Bakı prosesi" təşəbbüsünü ilk dəfə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2008-ci il 2-3 dekabr tarixində Bakıda Avropa və ona qonşu regionların mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda keçirilmiş konfransında irəli sürdü. Regional təşəbbüs kimi yaranan "Bakı prosesi" 2010-cu ildən qlobal hərəkata çevrilməyə başladı. Mütərəqqi dünya ictimaiyyəti mədəniyyətlərarası və dinlərarası dialoqun təşviq edilməsində "Bakı prosesi"nin rolunu yüksək qiymətləndirir, 2008-ci ildən bəri mədəniyyətlər arasında dialoqu müdafiə edən ön təşəbbüs kimi dəyərləndirir.

Azərbaycanda tolerantlıq mühiti hər zaman ən yüksək səviyyədə olduğu üçün burada multikulturalizm, millətlər və dinlər arasında olan münasibətlərə, dialoqa həsr edilmiş beynəlxalq səviyyəli bir çox tədbirlər, elmi konfranslar keçirilir. Azərbaycan Prezidentinin təşəbbüsü ilə başlanan və həyata keçirilən "Bakı prosesi", "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri çərçivəsində təşkil olunan beynəlxalq tədbirlər mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə mühüm töhfələr verib. Dünyanın müxtəlif ölkələrinin ənənəvi dünya dinlərini təmsil edən 200-dən çox nümayəndənin iştirak etdiyi "Qloballaşma, din, ənənəvi dəyərlər" mövzusunda tədbir 2010-cu ilin aprelində məhz Bakı şəhərində keçirilib. 2011-ci ildən başlayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü ilə hər iki ildən bir Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Bu forumlar UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, İSESCO, BMT-nin Dünya Turizm Təşkilatının tə-

rəfdaşlığı ilə reallaşdırılır. Bakı, həmçinin Avropa Olimpiya Komitələrinin himayəsi altında keçirilmiş "Bakı–2015" birinci Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları kimi beynəlxalq və çoxmədəniyyətli tədbirlərə ev sahibliyi edib. Bu günlərdə paytaxtımızda "Dünya dini liderlərinin II Bakı sammiti"nin keçirilməsi ölkəmizdə dini və milli məsələlərə dövlət səviyyəsində nə dərəcədə həssas yanaşıldığını bir daha əyani şəkildə sübut etdi. Dünyanın müxtəlif regionlarını təmsil edən xristian, müsəlman, yəhudi, buddist, induist və digər dini birliklərin rəhbərləri və dini konfessiya təmsilçiləri müasir dünyanı təhdid edən problemlərə, xüsusilə Dağlıq Qarabağ münaqişəsinin həllinə dair birgə mövqeyini bildirdi, o cümlədən dinlərarası və sivilizasiyalararası həmrəyliyin vacibliyini bütün dünyaya nümayiş etdirdilər.

Azərbaycanda multikulturalizmin dövlət siyasətinin mühüm istiqamətinə çevrilməsi sadəcə müəyyən dövrü əhatə edən bir kampaniya deyil. Bu, həm də dövlətimizin milli-mənəvi, ümumbəşəri, humanist dəyərlərə söykənən davamlı və ardıcıl siyasətidir. Bu sahədə fəaliyyət göstərmək üçün mühüm dövlət qurumlarının yaradılması da təsadüfi deyil. Multikulturalizmin Azərbaycan modelinin uğurunun sirri məhz, müxtəlif millətlərin və dinlərin təmsilçilərinin öz kimliklərini qorumasında və digərinə hörmətlə yanaşmaqla inkişaf etmək iqtidarında olmasındadır.

Tarixən hər bir dövlətin qüdrətinin əsasında iqtisadi güc, siyasi nüfuz dayanır. Ölkənin iqtisadi inkişafı isə onun mədəni inkişafı ilə düz mütənasibdir. Bu gün Azərbaycan iqtisadi göstəricilərinə görə dünyanın qabaqcıl ölkələri sırasında öz layiqli yerini tutursa, bu həm də onun müxtəlif etno-mədəni qrupları özündə birləşdirməsi və qoruması, bir sözlə multikultiralizm siyasətindən irəli gələn bir göstəricidir. Ölkəmizdə sağlam tarixi köklərə malik multikulturalizm dövlət rəhbərliyinin düşünülmüş siyasəti ilə daha da inkişaf edir, yeni pozitiv çalarlarla zənginləşir. Dövlətimizin başçısı cənab İlham Əliyev Azərbaycanda multikulturalizmə münasibət barədə deyib: "Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Qeyd etməliyəm ki, artıq tarixi keçmişimiz də bunu diktə edir. Eyni zamanda multikulturalizm Azərbaycanda həyat tərzidir. Biz gündəlik həyatımızda bu prinsiplər əsasında fəaliyyət göstəririk. Bu prinsiplər cəmiyyətin mütləq əksəriyyəti tərəfindən dəstəklənir, müdafiə edilir".

**Məhəmməd İSAYEV,**
**Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi.**

# DÖVLƏTÇİLİK TARİXİMİZİN ŞANLI SƏHİFƏSİ

**Dünyaşöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin titanik əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi sayəsində müasir Azərbaycan dövləti qurulmuş, ölkəmiz dünya məkanında öz layiqli yerini tutmuşdur.**

Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarını yaratmış, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu reallığa çevirmiş fenomen şəxsiyyət kimi çağdaş tariximizdə əbədiyaşarlıq qazanaraq hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövr minilliklər boyu davam edən dövlətçilik tariximizin şanlı səhifəsidir. Bu mərhələ Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi inkişaf üçün möhkəm təməlin yaradılması, milli-mənəvi yüksəliş, hər bir fərdin özünü layiqli vətəndaş olaraq dərk etməsi ilə müasir tariximizə əbədi həkk olunmuşdur.

Azərbaycanın hərtərəfli inkişafı, gələcək tərəqqisi üçün möhkəm əsasların yaradılması zəngin təcrübəyə, böyük istedada, parlaq zəkaya, ali mənəvi keyfiyyətlərə, yüksək siyasi idarəçilik və liderlik qabiliyyətinə, tükənməz enerjiyə malik Heydər Əliyevin sosial-iqtisadi strategiyasının həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Bu gün Azərbaycanda sosial-iqtisadi, ictimai-mədəni həyatın elə bir sahəsi yoxdur ki, həmin sahənin inkişafı ümummilli liderin adı ilə bağlı olmasın. Ulu öndər ölkəmizin gələcək inkişaf kursunu böyük uzaqgörənliklə ifadə etmişdir: "Bir Prezident kimi mən Azərbaycanın iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu, dövlət siyasətimizin əsas prinsipləridir".

Bu siyasi xətt - fəaliyyət prinsipi 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi ilə başlanan şərəfli missiyanın əsas qayəsi idi. Məhz həmin dövrdən etibarən Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına, xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə start verildi. Azərbaycanın Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevrilməsi üçün bütün sahələrdə geniş islahatlar aparan Heydər Əliyev zəngin idarəçilik təcrübəsi sayəsində o dövrdə sovet Azərbaycanının tarixində böyük dönüş yaratmışdır. Ulu öndərin gərgin fəaliyyəti və qətiyyəti sayəsində Azərbaycanın uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edə-

cək kompleks inkişaf proqramlarının icrasına başlanmış, iqtisadi və digər sahələrdə SSRİ rəhbərliyi səviyyəsində əlverişli qərarların qəbuluna nail olunmuşdur.

Dahi siyasət korifeyinin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri aparılmış, sənaye və kənd təsərrüfatının bütün sahələrində inkişafa nail olunmuş, yeni sənaye sahələri yaradılmış, istehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırılmış, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan bütün SSRİ-də qabaqcıl mövqeyə yiyələnmiş, istehsal olunan məhsulların keyfiyyəti yaxşılaşmışdır. 1969-1982-ci illərdə Azərbaycanda elektron maşınqayırması, radiosənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıq istehsalı və digər mütərəqqi sənaye sahələri yaranmışdı. Sənayenin inkişafında elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiqi nəticəsində 1971-1985-ci illərdə 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdı. Azərbaycanda buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Neft sənayesinin iqtisadi inkişafdakı rolunu nəzərə alan Heydər Əliyev 1970-ci illərdə bu sahənin dinamik inkişafına nail olmuş, neft-kimya sənayesinin modernləşdirilməsini təmin etmişdir. Məhz ulu öndərin rəhbərliyi ilə neft sənayesinin inkişafında yeni mərhələ başlanmış, “qara qızıl”ın Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsinin əsası qoyulmuşdur.

Azərbaycanın inkişaf tarixinin dinamikası bir daha təsdiq edir ki, Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonrakı dövr, əslində respublikamızı müstəqil dövlət quruculuğuna aparan yolun başlanğıcı idi. 1970-ci illərdən başlanan iqtisadi inkişaf, milli-mədəni dirçəliş, özünüdərk, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı dövlətçilik ideyasının milli-azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsinə mühüm zəmin yaratdı.

Bəşəriyyətin inkişafına öz layiqli töhfəsini verən, böyük və zəngin tarixə malik olan xalqımız ötən əsrin son onilliyində müstəqilliyini yenidən bərpa etdi. Lakin müstəqilliyin ilk illərində ölkədə yaranmış siyasi böhran, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizinin zəbt olunması və bunun nəticəsində 1 milyondan artıq soydaşımızın doğma yurd-yuvasından didərgin düşməsi sosial-iqtisadi böhranı daha da dərinləşdirmiş və beləliklə, ölkə iqtisadiyyatı idarəolunmaz vəziyyətə düşmüşdü. Yeni dövrün tələblərinə uyğun iqtisadiyyatın qurulmaması, yerli və ittifaq miqyasında olan müəssisələr arasında mövcud əlaqələrin qırılması, ölkənin iqtisadi, siyasi, informasiya blokadasına alınması nəticəsində 1990-cı illərin əvvəllərində ÜDM-in, sənaye istehsalının, xarici ticarət dövriyyəsinin həcmi azalmış, inflyasiya ida-

rəolunmaz səviyyəyə çatmışdı. İstehsal sahələrinin sıradan çıxması nəticəsində işsizlik səviyyəsi artmış, əhalinin pul gəliri azalmışdı. Belə bir şəraitdə dahi şəxsiyyət, bütün həyatını xalqına və Azərbaycanın müstəqil dövlət quruculuğuna həsr etmiş Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqımızın itirilmiş inamını özünə qaytarmaqla, ölkənin yeni inkişaf dövrünün əsasını qoydu. Xalqın iradəsi və təkidli tələbi ilə 1993-cü ildə siyasi hakimiyyətə qayıdan ulu öndər Azərbaycanı xaos və böhrandan çıxardı, vətəndaş müharibəsinin qarşısını aldı, atəşkəsə nail oldu, böyük xilaskar missiyasını yerinə yetirdi.

Heydər Əliyevin hakimiyyətə qayıtması ilə bütün sahələrdə olduğu kimi, ölkəmizin iqtisadi həyatında da taleyüklü dəyişikliklərin əsası qoyuldu, Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərc-mərclikdən xilas edən Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün təcili tədbirlər görməyə başladı. Ümummilli liderin rəhbərliyi ilə qısa müddət ərzində ölkədə bazar iqtisadiyyatının formalaşması məqsədilə qanunvericilik bazası yaradıldı, məqsədli Dövlət proqramları qəbul edildi, mülkiyyət münasibətlərində köklü dəyişikliklər edilməsi üçün müvafiq addımlar atıldı. Dahi siyasətçi Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strategiyanın əsasını iqtisadiyyatın inkişafına, mövcud resurslardan səmərəli istifadəyə, dünya iqtisadiyyatına inteqrasiyaya və nəticə etibarilə vətəndaşların rifah halının yüksəldilməsinə hesablanan sosialyönümlü bazar iqtisadiyyatının yaradılması təşkil edirdi.

Böyük siyasət korifeyinin ölkə iqtisadiyyatının hərtərəfli inkişafı üçün neft amilindən məharətlə istifadə etməsi, 1994-cü ilin sentyabrında böyük təzyiqlərə baxmayaraq "Əsrin müqaviləsi"nin imzalanmasına nail olması yüksək siyasi iradənin və qətiyyətin təntənəsi idi. Bu saziş həmçinin, Azərbaycanın qapılarını bütün dünyanın üzünə açdı, bu sahədə yeni müqavilələrin imzalanmasını və ölkəyə investisiya qoyuluşunu təşviq etdi. Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına dair sazişin imzalanması ilə ixrac marşrutlarının diversifikasiyasına nail olundu.

Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı: "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur". Ulu öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəlmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə xarakterizə edilir. Qəbul olunmuş Dövlət

proqramlarının bu sahənin inkişafında xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi. Heydər Əliyevin rəhbərliyi ilə sahibkarlıq infrastrukturunun formalaşdırılması istiqamətində mühüm addımlar atıldı, sahibkarlara maliyyə dəstəyi və zəruri texniki yardım (məsləhət, informasiya və s. xidmətlər) göstərən strukturlar formalaşdı.

Ulu öndər 2002-ci il 25 aprel yerli sahibkarlarla görüşündə ölkəmizdə sahibkarlığın inkişafını xüsusi qeyd etmişdi. Onu da qeyd etmək yerinə düşər ki, Prezident İlham Əliyevin hər il aprel ayının 25-nin Azərbaycan Respublikasında “Sahibkarlar Günü” kimi qeyd edilməsi ilə bağlı sərəncam imzalamışdır.

Ümummilli lider Azərbaycanın davamlı inkişafı baxımından regionların inkişafını və bölgələrdəki potensialdan səmərəli istifadəni vacib hesab edirdi. Bu baxımdan, 1995-2003-cü illəri regionların sürətli sosial-iqtisadi inkişafına hazırlıq mərhələsi kimi dəyərləndirmək yerinə düşərdi. Bununla belə, o dövrdə bazar münasibətlərinin geniş vüsət alması, hərtərəfli iqtisadi islahatların aparılması, özəlləşdirmə proqramlarının həyata keçirilməsi, milli sahibkarlar sinfinin formalaşması regionların hazırkı inkişafına əlverişli zəmin yaratdı. Ulu öndərin çoxsaylı xarici səfərləri, ikitərəfli və beynəlxalq səviyyədə imzalanmış mühüm saziş və sənədlər, uğurlu neft diplomatiyası, beynəlxalq və regional təşkilatlarla aparılan gərgin iş ölkəmizin inkişafının sürətləndirilməsinə mühüm töhfəsini vermişdir.

Ümummilli liderin möhkəm təməlini yaratdığı daxili və xarici siyasət kursunun Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən böyük uğurla davamının nəticəsidir ki, indi Azərbaycanın səsi dünyanın ən mötəbər tribunalarından gəlir, üçrəngli bayrağımız yüksəklərə qaldırılır. Beynəlxalq tədbirlər məkanı kimi tanınan Azərbaycanın bugünkü uğurları məhz Heydər Əliyev siyasətinin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir. Davamlı və dinamik inkişafı özündə ehtiva edən özünəməxsus milli inkişaf modeli ilə tanınan Azərbaycan hazırda inkişafının keyfiyyətcə yeni mərhələsini yaşayır və yeni-yeni uğurlara imza atır.

Xalqımız bütün həyatını Azərbaycanın tərəqqisinə həsr etmiş ümummilli liderinin misilsiz xidmətlərini hər zaman minnətdarlıq hissləri ilə xatırlayır.

Heydər Əliyev mənən xalqı ilə birlikdədir, onun parlaq ideyaları yalnız bu günümüzə deyil, gələcəyə aparan yollarımıza da işıq saçır.

**Nəriman MƏMMƏDOV,**
**Əməkdar mədəniyyət işçisi, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının katibi, “Narimanfilm” kinostudiyasının Baş direktoru.**

www.oneclick.az

# MƏDƏNİ-ETNİK DƏYƏRLƏRİN QORUNMASINDA MULTİKULTURALİZMİN ROLU

***Multikulturalizm – çoxmədəniyyətlilik məfhumunun sinonimidir. Bu şərh məfhumun etimologiyasından irəli gəlir. Multikulturalizm sözü tərcümədə "çoxmədəniyyətlilik" mənasını verir. Çoxmədəniyyətlilik dedikdə isə, ilk növbədə, etnik, irqi, dini və mədəni müxtəlifliklər, bu müxtəlifliklərin əsasını təşkil edən dəyərlər nəzərdə tutulur. O, ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların, dövlətlərin milli mədəniyyətinə, inteqrasiyasına yönəldilmişdir.***

Humanist və demokratik nəzəriyyə, yaxud ideologiya olaraq multikulturalizm, tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil.

Bir çox minilliklərlə ölçülən təkamül nəticəsində ruhi mədəniyyət bəşəriyyətin sosial inkişafının, intellektual və mənəvi tərəqqisinin universal əsası olmuşdur. O, informasiya və etik qlobal cəmiyyətin formalaşması səviyyəsinə və tempinə, istehlak sənayesinə, xalqların tarixi məsuliyyətinə, siyasətə və idarəçiliyə, sülh və beynəlxalq münasibətlər mədəniyyətinə böyük təsir göstərir. Mədəni mübadilə və qarşılıqlı zənginləşmə, xalqların sosial-mədəni inkişaf təcrübəsini, dünya mədəniyyətinin tarixi qanunauyğunluqlarını bilmə və yaradıcı şəkildə istifadə etmə qloballaşma şəraitində Azərbaycanın davamlı, rəqabətqabiliyyətli və təhlükəsiz inkişafı üçün mühüm nəzəri və praktik əhəmiyyət kəsb edir. Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Digər mədəniyyətlərin mahiyyətini, xüsusiyyətlərini, tarixini və nailiyyətlərini öyrənmədən, onlara qarşı tolerant münasibət, nümayəndələrinə hörmət, qarşılıqlı anlaşma və sivilizasiyaların dialoqunu qurmaq mümkün deyil.

Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multikulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycan Respublikasının inkişafıdır ki, burada Azərbaycanın milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir, çünki bu, təəssüf ki, bütün dünyada getdikcə artan anlaşıl-

mazlığa, fobiyaya, qarşıqoymaya və qarşıdurmaya, milli və dini münaqişələrə aparıb çıxaran yoldur.

Müstəqillik əldə etmiş, öz xarici və daxili siyasətini öz milli mənafelərinə, ümumxalq mənafeyinə uyğun olaraq qurmaq imkanı qazanmış xalq, birinci növbədə öz dilinin, milli mədəniyyətinin, adət-ənənələrinin inkişaf etməsinə, özünə qayıtmasına çalışır. İlk növbədə dövlətçiliyi möhkəmləndirmədən, xarici dövlətlərlə münasibətləri ümumbəşəri dəyərlər və beynəlxalq qaydalar əsasında nizamlayaraq dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmadan, yeni iqtisadi əlaqələrə keçmək yolunu müəyyən etmədən, hər şeydən öncə, milli mədəniyyəti, dili və s. inkişaf etdirmədən güclü tərəqqi ola bilməz. Özünü spesifik, fərqləndirici əlamətlərlə təsdiq etmək, özünü başqa millətlərə qarşı qoymaq və onlardan üstün olduğunu isbata yetirmək addımları ziyanlı nəticələrə gətirib çıxara bilər. Həm də başqa xalqların buna münasibəti, beynəlxalq siyasət mülahizələri baxımından deyil, yüksək dərəcədə daxili siyasətin ahəngdarlığı, insani dəyərlərin düzgün səviyyədə qiymətləndirilməsi və istifadə olunması baxımından millətçilik meyillərinin ön plana keçməsi yolverilməz bir haldır.

Azərbaycan çoxsaylı miqrant axınları qəbul edən ölkələrdən olmasa da, millətin formalaşmasının keçdiyi uzun tarixi yolda müxtəlif etnik, mədəni və dini qruplarla qarşılaşıb. Əlverişli coğrafi mühit, yerli insanların xoş davranışı bu qrupların bəzilərinin Azərbaycana üz tutmasına səbəb olub. Əhalinin ümumi sayında etnik və dini qrupların payının geniş olmasına baxmayaraq, Azərbaycan çoxsaylı etnik və dini qrupların yaşadığı multikultural ərazi hesab edilir.

Azərbaycanda multikulturalizmin əsas özəlliyindən biri də burada yaşayan dil qruplarının bir-birindən uzaq olmasıdır. Fearon bu xüsusiyyətin linqvistik fraqmentləşmənin müəyyənləşdirilməsi və siyasi təşkilat daxilində etnik münasibətlərin daha yaxşı başa düşülməsi üçün lazımlı olduğunu qeyd edir. Uyğun gələn dillərdə danışan qruplar mədəniyyətcə də yaxın olurlar. Bu isə ölkə içərisində rəngarəng münasibətlərin qurulmasına əsas verir. Azərbaycanın nümunəsində görmək mümkündür ki, ölkənin etnik kompozisiyası kifayət qədər zəngin olmaqla bir-birindən dil cəhətdən kifayət qədər uzaq olan etnik qruplardan formalaşıb. Ölkəmizin ərazisində yaşayan 10 milyonluq əhali arasında aləmdə mövcud olan 14 əsas dil ailəsindən 3-ü mövcuddur (Altay, Hind-Avropa, Qafqaz). Bu o deməkdir ki, etno-mədəni qrupların bir-biri ilə soyluluq əlaqələri çox uzaqdır. Amma dil uzaqlığı Azərbaycanda rəngarəng cəmiyyətin yaranmasına mane olmamışdır. Tarix boyu ölkəmizin ərazisində mövcud olmuş bir çox xalqların qarşılıqlı hörmət və sülh şəraitində yaşamaları fakt olaraq bütün səviyyələrdə təsdiq edilir. Dərin tarixi köklər üzərində olan və bu

günə qədər inkişaf edərək cəmiyyətin gündəlik həyat tərzinə çevrilmiş birgəyaşama Azərbaycanda dövlət siyasəti kimi multikulturalizmin ictimai əsasını təşkil edir.

Ulu öndər Heydər Əliyevin dediyi kimi, həqiqətən də, "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da – bütünlükdə hamısı azərbaycanlıdır". Bu sözlər bu gün son dərəcə qiymətlidir və belə bir məlum siyasi həqiqəti aktuallaşdırır: Azərbaycanda yaşayan bütün xalqlar məhz bir yerdə, məhz azərbaycanlı olaraq dünya üçün maraq kəsb edə bilər. Biz ayrı-ayrılıqda heç kim üçün maraqlı deyilik.

Bu gün Azərbaycanda formalaşan yeni, demokratik cəmiyyət müstəqil dövlət quruculuğunda fəal iştirak edir. Hər bir kəsin milli kimliyi onun bu gün özünü azərbaycanlı kimi hiss etməyinə mane olmur. Hər bir kəs öz ana dilində danışa, yaza bilər və özünün digər vacib olan mədəni ehtiyaclarını ödəyə bilər. Konstitusiyamızın "Milli mənsubiyyət hüququ" adlı 44-cü maddəsində göstərilir: "Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz".

Multikultural təhlükəsizliyin Azərbaycan nümunəsindəki təhlili göstərir ki, onun prinsiplərinə məqsədyönlü şəkildə riayət etdikdə ölkənin həm daxili potensialı öz zənginliklərini ən dərin qatlardan daha həvəslə üzə çıxarır, həm də öz beynəlxalq nüfuzuna müsbət çalar əlavə edir. Bu sonuncu məqam 2016-cı ilin 25-26 aprel tarixlərində Bakıda keçirilmiş Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun xarici iştirakçıları tərəfindən dəfələrlə deyildi. Bir çox xalqların hələ də ayıla bilmədiyi bir qarşıdurma var: "öz-özgə" qarşıdurmasıdır. Lakin "öz və özgə" qarşıdurması bizim həmvətənlərimiz üçün öz kəskin əhəmiyyətini hələ orta əsrlərdə itirmişdir. Bu gün bu qarşıdurma ən yumşaq formasını yaşayır.

Hazırda Azərbaycan cəmiyyətində müxtəlif xalqların nümayəndələrinin vahid ailədə dinc və yanaşı yaşayıb işləmələri ölkəmizin əsas mənəvi sərvətlərindən biridir. Azərbaycandakı möhkəm multikultural əsaslara malik olan tolerant mühit müasir inkişafın əsas göstəricilərindəndir. Bütün bunlara görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqlı olaraq multikulturalizmi ölkəmizdə "normal həyat tərzi" kimi yüksək qiymətləndirir və həmin istiqamətdə inkişafa dövlət səviyyəsində böyük dəstək verir.

**Səməd ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı.**

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR: XALQIMIZIN ƏBƏDİ VƏ ƏVƏZSİZ SƏRVƏTİ

*Qədim və köklü milli-mənəvi dəyərlər sisteminə malik olan Azərbaycan xalqı bu dəyərləri sədaqətlə qorumuş, əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması keçmişdə olduğu kimi, bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki milli-mənəvi dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri ilə yanaşı, dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Milli-mənəvi, o cümlədən dini dəyərlərimizin, adət-ənənələrimizin dərindən öyrənilməsi və araşdırılması müasir cəmiyyətimizdə prioritet istiqamətlərindən biridir. Tarixi təcrübə göstərir ki, öz soy-kökündən, tarixindən, milli-mənəvi dəyərlərindən uzaq düşən millətlər və dövlətlər müəyyən zaman kəsiyində yox olmaq, tarix səhnəsindən birdəfəlik silinmək təhlükəsi ilə üz-üzə qalmışlar.*

Müasir Azərbaycan tarixinə nəzər saldıqda milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı prinsiplərinin banisi kimi ulu öndər Heydər Əliyevi görürük. Müstəqillik dövründə dövlət quruculuğunun təməl daşları üzərində tarixi imzası olan ulu öndər Azərbaycançılıq ideologiyasının əsasını qoyaraq milli-mənəvi dəyərlər sistemimizi daha da gücləndirmiş, aşınmadan xilas etmişdir. Milli-mənəvi dəyərlərimizə qayıdışın və milli oyanışın xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu məsələni diqqət mərkəzində saxlayan ümummilli liderimiz Heydər Əliyev bu sahədə inqilabi addımların atılmasına zəmin yaratmışdır. Ulu öndər milli-mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu hesab edirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mənəvi irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan ulu öndər deyirdi: "Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam, saf əxlaqi əhvali-ruhiyyədə tərbiyələndirməliyik".

Xalqımız 70 il Sovet rejimində ateist təbliğatın aparıldığı bir şəraitdə yaşasa da, milli-mənəvi dəyərlərimizin ən önəmli komponentlərindən biri olan öz dini-mənəvi dəyərlərini unutmamış, onları gizli də olsa, yaşatmışdır. Lakin bununla belə, o dövrdə dini dəyərlərin sərbəst şəkildə yaşadılması və inkişafı mümkün deyildi. Həmin dövrdə ölkəmizdə cəmi 17 məscid fəaliyyət göstərirdi. Dini ibadətgahlarımızın və abidələrimizin bərpası və yenidən inşası da ulu öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Məhz bu dövrdə yüzlərcə ibadətgah inşa və ya bərpa edilmiş, dini dəyərlərimiz yenidən canlanmışdır. Xalqımızın əsrlərcə ziyarət yeri olan, lakin Sovet rejimi tərəfindən dağıdılan Bibiheybət məscidi və ziyarətgahının Heydər Əliyevin göstərişi ilə dövlət hesabına yenidən inşa edilməsi onun bu sahədəki xidmətlərinin bir göstəricisidir. Belə misalların sayı olduqca çoxdur. Heydər Əliyev İslam

dinini bizim milli-mənəvi kimliyimizin ayrılmaz tərkib hissəsi kimi qəbul edirdi. "Bizim dinimiz mütərəqqi dindir. Heç şübhə yoxdur ki, İslam dini indiyə qədər olan tarixində dünyaya nümayiş etdirdiyi əzəmətini, qüdrətini bundan sonra daha da gücləndirəcək və bütün İslam dininə itaət edən adamların hamısını xoşbəxtliyə, səadətə gətirib çıxaracaqdır" sözləri onun dinə baxışını çox aydın şəkildə nümayiş etdirir. Ulu öndər dinimizin əxlaqi dəyərlər sistemi kimi mənimsənilməsinin gənclərin formalaşmasında müsbət bir funksiya icra edəcəyini düşünürdü. Bu dahi şəxsiyyət eyni zamanda Azərbaycan multikulturalizminin də əsasını qoymuşdur. Heydər Əliyev öz çıxışlarının birində deyirdi: "Azərbaycanda qədim dövrlərdən müxtəlif xalqların nümayəndələri yaşamış, bir çox xalqların dinləri mövcud olmuşdur. Azərbaycan və onun xalqı həmişə dini dözümlülüyü ilə fərqlənmişdir. Azərbaycanda heç vaxt dini zəmində heç bir münaqişə, heç bir toqquşma olmamışdır. Hətta ötən əsrin 80-ci illərinin axırı və 90-cı illərinin əvvəllərindəki ağır dövrdə belə heç bir mənfi fakt qeydə alınmamışdır. Bu gün də müstəqil Azərbaycanda biz hər bir insanın azadlığı üçün, o cümlədən dini mənsubiyyət azadlığı, vicdan azadlığı üçün hər cür şərait yaratmışıq. Hər kəs hansı dinə mənsubdursa, həmin dinə etiqad edir. Lakin bu, Azərbaycanda insanların mehriban, qarşılıqlı anlaşma şəraitində yaşamasına mane olmur, burada milli və dini mənsubiyyətlə əlaqədar heç bir ayrı-seçkilik yoxdur". Ulu öndər Azərbaycançılıq ideologiyası ilə dilindən, dinindən, millətindən, irqindən, sosial mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşlarını ümumi vətən naminə həmrəyliyə dəvət etdi. Milli-dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın bu torpaq üçün milli yiyəlik hissini yaşaması isə torelantlığın bariz təzahürünə çevrildi. Təbii ki, ulu öndərin milli-mənəvi sahədə həyata keçirdiyi mütərəqqi islahatlar bununla məhdudlaşmır. Milli-mənəvi, xüsusilə dini dəyərlər sisteminin sağlam müstəvidə inkişaf etdirilməsi və qorunması üçün güclü siyasi iradə, habelə dövlətçilik təcrübəsi tələb olunurdu. Heydər Əliyev bu xüsusiyyətləri özündə ehtiva edən tarixi şəxsiyyət kimi bu işin öhdəsindən də məharətlə gəldi. Dini təhlükəsizliyin təmin edilməsi üçün hüquqi-inzibati addımlar atılmaqla yanaşı, məzhəbçilik, dini-nifrət və ayrı-seçkiliyin ölkəmizə ayaq açmasının da qarşısı qətiyyətlə alındı. O dövrdə Azərbaycanın düşdüyü çətin vəziyyətdən çıxmasını istəməyən daxili və xarici qüvvələr Heydər Əliyevə hər vəchlə mane olmağa çalışsalar da, xalqın ulu öndərə verdiyi böyük dəstək nəticəsində bu çirkin təxribatların sonu uğursuzluqla bitdi. Azərbaycanın ən böyük ziyalısı ulu öndər Heydər Əliyev çox çətin bir vaxtda məsuliyyəti öz üzərinə götürüb xalqımızın dəyərlər sistemini məhv olma təhlükəsindən xilas etdi. Ulu öndərin bilavasitə rəhbərliyi ilə həmin dövrdə ictimai və milli təhlükəsizliyə yönəlmiş son dərəcə təhlükəli təhdidlərdən biri kimi dini ekstremizm və radikalizmə qarşı mübarizə dövlət siyasətinin prioritet istiqamətinə çevrildi. "Totalitar rejimlərin və ideologiyaların süquta uğradığı indiki dövrdə dinlərin cəmiyyətin həyatında oynadığı rol dinamik şəkildə dəyişir. Pozitiv proseslərlə yanaşı, bəzi qüvvələrin dinlərdən terrorizmə və ekstremizmə təhrik vasitəsi kimi istifadə etmək halları da artır. Bax, belə halların baş verməsinin qarşısının qətiyyətlə

alınması üçün cəmiyyətin bütün təbəqələrinin, xüsusilə siyasətçilərin, alimlərin, dindarların və din xadimlərinin səfərbər edilməsi zəruridir", – deyən ümummilli lider bu səfərbərliyi uğurla həyata keçirərək dini təhlükəsizliyi təmin etməyi bacardı. Azərbaycan günümüzdə müasir, dünya birliyinə sürətlə inteqrasiya edən bir ölkədir. Qloballaşma heç də digər xalqlara məxsus dövlət-din modellərinin, adət-ənənələrinin, milli mentalitetimizə xas olmayan dəyərlərinin ölkəmizə idxalı deyildir. Biz qloballaşma deyəndə Azərbaycanda beynəlxalq əməkdaşlığı və səmimi dostluğu nəzərdə tutmaqla yanaşı, milli dövlətçiliyimizə, mənəvi dəyərlərimizə, ulu öndərin bizə əmanət etdiyi Azərbaycançılıq məfkurəsinə sahib çıxmağı, milli mənliyimizi qorumağı nəzərdə tuturuq. Bu gün Heydər Əliyevin yaratdığı müasir Azərbaycan ümummilli liderimizin siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayır. Azərbaycan mötəbər beynəlxalq tədbirlərə, idman yarışlarına, forumlara ev sahibliyi edir. Prezident İlham Əliyevin təşəbbüsü ilə inşa edilmiş Qafqazın ən möhtəşəm məscidi olan Heydər məscidi dindarların istifadəsinə verilmişdir. Bununla yanaşı, Təzə Pir məscidi, Hacı Əjdərbəy məscidi, Şamaxı Cümə məscidi dövlət hesabına təmir-bərpa edilmişdir. Milli-mənəvi dəyərlərimizin yaşadılmasında, onun təbliğində genişmiqyaslı fəaliyyəti ilə ictimaiyyətimizin rəğbətini qazanan Heydər Əliyev Fondu da böyük uğurlara imza atmışdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tarixi-dini, mədəni abidələrin qorunmasını və bərpasını daim diqqət mərkəzində saxlayır. Onu da qeyd edək ki, mənəvi dəyərlərimizin, tolerantlıq ənənələrinin təbliğində, irsimizin tanıdılmasında, həmçinin dünyanın müxtəlif guşələrində əyani şəkildə nümayişində Heydər Əliyev Fondunun məxsusi xidmətləri vardır. Fondun maliyyə dəstəyi ilə Bakıdakı Pravoslav və Müqəddəs Məryəm kilsələrində də təmir-bərpa işləri aparılmış, yəhudi uşaqları üçün təhsil və mədəniyyət mərkəzinin tikintisinə dəstək verilmişdir. Göründüyü kimi, Heydər Əliyev Fondu təkcə İslam dininə aid tarixi-dini abidələrin bərpasına deyil, həmçinin Azərbaycandan kənarda olan digər dinlərə məxsus abidələrin də bərpasına qayğı ilə yanaşır ki, bu da xalqımızın tolerantlığının və sülhpərvərliyinin əyani sübutudur. Hər bir xalqın, millətin mövcudluğu onun ana dilinə, adət-ənənələrinə, öz mədəniyyətinə, ədəbiyyatına, tarixinə bağlılığından asılıdır. Azərbaycan xalqı məhz milli-mənəvi dəyərlərinə sadiqliyi sayəsində özünün mövcudluğunu, milli özünəməxsusluğunu bu günədək qoruyub saxlaya bilmişdir. Bu zəngin mənəvi irs xalqımız tərəfindən əsrlər boyunca yaradılmış və onun böyük hissəsi bu günədək qorunub saxlanılmışdır. Milli dövlətin formalaşmasında, güclü və əbədiyaşar olmasında onun mənəvi əsaslarının milli dəyərlərlə səsləşməsi böyük əhəmiyyət kəsb edir. Bu baxımdan ulu öndər Heydər Əliyev məktəbinin gənc nəslə aşılanması ən vacib məsələlərdən biridir.

**Murad ABASOV,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi.**

# AZƏRBAYCAN VƏ MULTİKULTURALİZM

***Müasir Azərbaycanda çoxmədəniyyətlilik və müxtəlif konfessiyaların bərabər yaşaması üçün göstərilən diqqət, tarixən, ölkənin dövlətçilik ənənələrinin əsasını təşkil etmiş, müasir tariximizdə isə bu tendensiya ulu öndər Heydər Əliyev tərəfindən uğurla inkişaf etdirilmişdir.***

**Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və ləyaqət şəraitində bir ailə kimi yaşamışlar.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Əsası ulu öndər tərəfindən qoyulan Azərbaycançılıq ideologiyası başqa xalqların dilinə, dininə ehtiram göstərməyi, heç bir cəhətdən ayrı-seçkilik etməməyi özündə əks etdirir. Ümummilli lider bu ideologiyanın ən dürüst izahını 2001-ci il noyabrın 9-da Dünya Azərbaycanlılarının Birinci Qurultayı zamanı etdiyi çıxışında "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, azərbaycanlıyam" sözləri ilə ifadə etmiş və dünya azərbaycanlılarını öz milli-mənəvi dəyərlərini unutmamağa, bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyası ətrafında birləşməyə çağırmışdır.

Əhalisinin çoxunun müsəlman olmasına baxmayaraq, Azərbaycan dövləti İslamla yanaşı, digər dinlərə də eyni dərəcədə həssaslıq və qayğı ilə yanaşır. Dini tolerantlığın bir həyat tərzinə çevrildiyi Azərbaycan ərazisində üç səmavi dinin (yəhudilik, xristianlıq və İslam) və eyni zamanda, müxtəlif inancların qarşılıqlı hörmət şəraitində yaşaması tarixi ənənələrin, müasir zamanda isə müvafiq qanunvericiliyin, həmçinin məqsədyönlü dövlət siyasətinin göstəricisidir. 2002-ci ilin mayın 22–24-də Bakıda rəsmi səfərdə olmuş Vatikan Dövlətinin başçısı, dünya katoliklərinin dini rəhbəri Roma papası II İoan Pavel ölkəmizdəki tolerantlıq və dinlərə göstərilən diqqətə görə ulu öndər Heydər Əliyevə təşəkkürünü belə bildirmişdir: "Qoy üç böyük din tərəfindən izhar edilmiş bu məhəbbət şahidliyinə görə Allaha həmd olsun!"

Azərbaycanda tarixi alban kilsə abidələri ilə yanaşı, pravoslav və katoliklərin 12 kilsəsi, yəhudilərin isə 6 sinaqoqu var. O cümlədən, Avropanın ən iri sinaqoqlarından biri 2003-cü ilin mart ayında məhz Bakı şəhərində açılmışdır. Bu isə bir daha Azərbaycanda dinlərin bərabər yaşaması üçün bütün imkanların yaradıldığından xəbər verir.

Cənab Prezident İlham Əliyevin qeyd edilən məsələyə xüsusi diqqət və həssaslığı isə çoxmədəniyyətliliyin təcəssüm etdirilməsində Azərbaycanı tamamilə yeni bir mərhələyə yüksəltmişdir.

Azsaylı millətlərin, etnik qrupların hüquqlarının müdafiəsi dövlətimizin qarşısında duran prioritet vəzifələrdən biridir. Gündən-günə nüfuzu artan Azərbaycanda keçirilən beynəlxalq tədbirlərdə, konfranslarda, simpoziumlarda iştirak edən xarici dövlətlərin nümayəndələri ölkəmizin tolerantlıq, dini dözümlülük prinsiplərinə sadiqliyini yüksək dəyərləndirirlər. Ölkəmizin multikultural dövlət olaraq çox dəyərli ənənələrini özündə yaşatdığını dəfələrlə qeyd edən möhtərəm Prezidentimiz İlham Əliyev deyib: "Azərbaycan multikulturalizmlə bağlı böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq, bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə, haradasa iflasa uğrayıb, amma Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik".

Ölkə başçımız İlham Əliyev hər il Ramazan bayramında 3 səmavi dinin–İslam, xristian və yəhudilərə məxsus olan dinlərin nümayəndələri ilə iftar süfrəsi arxasında əyləşərək, onlarla səmimi söhbət edir, problemləri ilə maraqlanır, üzləşdikləri çətinliklərin həlli üçün zəruri tədbirlər görür.

Müasir Azərbaycanda qədim alban abidələri, müxtəlif xalqlara mənsub dini və tarixi abidələr, Xınalıq, Malakan, Lahıc, Buduq, Nij, Krasnaya Slaboda və s. kimi müxtəlif tarixi-coğrafi məkanlar dövlət səviyyəsində qorunmaqdadır. Azərbaycan Milli Elmlər Akademiyasında milli azlıqların dil, mədəniyyət, tarix və etnoqrafiyasını öyrənən şöbə, Mədəniyyət və Turizm Nazirliyi yanında Milli Azlıqların Əlaqələndirmə Şurası, etnik və milli azlıqların mədəniyyət mərkəzlərinin işini əlaqələndirən Respublika Şurası mövcuddur. Bu gün müxtəlif azsaylı xalqların folklor günləri təşkil edilir, onların tarixi, mədəniyyəti, folkloru, musiqisi, etnoqrafiyası və s. ilə bağlı elmi əsərlər, tədqiqat işləri ərsəyə gətirilir. Azərbaycan televiziya məkanında azsaylı xalqların həyat tərzini əks etdirən sənədli filmlər nümayiş etdirilir, həmçinin azsaylı xalqların cəmləşdiyi regionlarda regional televiziya kanalları yayımlanır.

İkinci Dünya müharibəsində Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədovun rus millətindən olan komandiri, kapitan Sinetskinin həyatını xilas etmək üçün sinəsini gülləyə sipər etməsi multikulturalizmin xalqımızın canında, qanında kök saldığını təsdiqləyir.

Torpaqlarımızın azadlığı uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə soydaşlarımızla birlikdə digər millətlərdən olan Azərbaycan vətəndaşları da fəal iştirak ediblər. Onların arasında Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən, ölkəmizin müxtəlif orden və medalları ilə təltif olunan şəxslər vardır. Yəhudi əsilli azərbaycanlı, Milli Qəhrəman Albert Aqarunovun torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə igidlik, şücaət göstərərək şəhid olması ölkəmizdə dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının anadan

olduğu Vətənə eyni dərəcədə bağlılığını nümayiş etdirir.

Bizim Salyan rayonunda da çox qədim zamanlarda müxtəlif millətlərin nümayəndələri yaşamışlar. Xüsusən, XIX əsrin ortalarında çar hökuməti pravoslav dininə zidd gedərək müxtəlif təriqətlərə qulluq edən rusları, ukraynalıları Salyan rayonunun indiki Qaraçala qəsəbəsinə, Yolüstü, Pambıqkənd, Çadırlı, Düzənlik, Yeni Uluxanlı kəndlərinə, Salyan şəhərinə sürgün edərək belə güman edirdilər ki, "vəhşi qafqazlılar" bu insanları orada gözümçıxdıya salacaq, onlara normal yaşamağa imkan verməyəcəklər. Lakin burada da yerli əhali bu qərib insanlara qayğıkeş və həssas münasibət göstərmiş, onlara həmkəndli, qonşu kimi əllərindən gələn köməyi göstərmişlər.

Bu baxımdan uzun illərdir ki, Plastik adlandırılan yaşayış massivində məskunlaşan türkmən millətindən olan Jumagəldi Ovezberdıyevin həyatını nümunə göstərmək olar. Jumagəldi ilə söhbətimdə onun azərbaycanlılara olan münasibətini öyrənmək istədikdə, bildirdi ki, mən 1983-cü ildən Salyan rayonunda yaşayıram. O zaman mənim 25 yaşım var idi. Çox çəkmədi ki, burada azərbaycanlı xanımla evləndim. Hazırda 2 oğlum var. Böyük oğlumun adı Elnur, kiçiyin adı isə Elvindir. Hər ikisi azərbaycanlı qızla evlənib. Buna görə peşiman deyilik, əksinə, çox məmnunuq. Salyan camaatından, qonşularımdan çox razıyam. Azərbaycanlıların mehribanlığı, qonaqpərvərliyi, istiqanlılığı məni valeh edir. Artıq 33 ildir ki, Salyandayam, lakin indiyə kimi mənə, ailə üzvlərimə qarşı heç bir ayrı-seçkilik olmayıb. Çalışdığım müxtəlif ictimai iaşə müəssisələrində də kollektiv tərəfindən həmişə isti münasibət görmüşəm. Bir sözlə, burada özümü qərib kimi hiss etmirəm. Azərbaycanın işğal altında olan torpaqlarının tezliklə azad olunması mənim də ən böyük arzumdur.

Azərbaycandan fərqli olaraq, təcavüzkar Ermənistən dövlətinin monoetnik dövlət kimi multikultural dəyərlərdən tamamilə uzaq olduğu dünyanın hər bir ölkəsinə çox yaxşı məlumdur. Vaxtilə "Armenakan", "Hinçaq" və "Daşnaksütun" terrorçu erməni təşkilatlarının Rusiya, Türkiyə, İran ərazilərində yaşayan erməniləri bir bayraq altında birləşdirərək "Dənizdən-dənizə böyük Ermənistan" imperiyası yaratmaq ideologiyasını gerçəkləşdirmək üçün ermənilərin qonşularına məxsus olan torpaqların 20 faizini işğal etməsi və bu işğal dairəsini daha da genişləndirməyə cəhd göstərməsi Ermənistanın multikulturalizmdən nə qədər kənar bir ölkə olduğunu, başqa millətlərə qarşı necə ədalətsiz, haqsız mövqe tutduğunu bütün dünyaya nümayiş etdirir.

**Fuad Muradov,**
**Azəraycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının II kurs tələbəsi.**

# RƏQƏMSAL DÜNYAYA ASAN KEÇİD

***Prezident İlham Əliyevin yaratdığı "Elektron Hökumətin İnkişafı Mərkəzi" innovativ texnologiyalardan istifadə etməklə ölkənin bütün vətəndaşlarına elektron xidmətlərin göstərilməsini təmin edir.***

**Müasir texnologiyalar, innovativ yeniliklər, virtual məkan və süni intellekt...**

XXI əsrin başlanğıcı təkcə il baxımdan yeni eranın başlanğıcı deyil, həm də yeni elektron idarəetmə sisteminə keçid dövrü kimi səciyyələnir. Elə bir dövrdəyik ki, dünən müasir hesab edilən metodlar bu gün artıq aktual olmur və daha yeniləri ilə əvəzlənməsinə ehtiyac duyulur. Yəni, sürətlə inkişaf etməkdə olan elm və texnologiya əsrində innovativ yeniliklər hər kəsi heyrətləndirir.

Zamanın çağırışları ilə ayaqlaşan Azərbaycan dövləti də yeni sistemə keçidlə vətəndaş-hökumət münasibətlərində çeviklik, şəffaflıq prinsipinə əsaslanan "Rəqəmsal hökumət" (Digital Government) sisteminin tətbiqinə başlayıb. Müasir yeniliklərin tətbiqi artıq uğurlu nəticələr verməkdədir və hətta qısa zaman kəsiyində elektronlaşma sahəsində Azərbaycanın həyata keçirdiyi layihələr bir çox ölkələr üçün nümunəyə çevrilib.

**Çevik fəaliyyət, informasiya ehtiyatlarının formalaşdırılması**

Əgər bir neçə il öncə hər hansı bir sənədi əldə etmək, hər hansı xidmətdən yararlanmaq üçün bir neçə yerə müraciət etmək, xeyli sayda sənədləşmə işi ilə məşğul olmaq, günlərlə, bəzən də aylarla gözləmək lazım gəlirdisə, "Elektron Hökumət"in yaradılması ilə bu problemə, demək olar ki, son qoyulub.

2008-ci ildən ölkənin elektronlaşması istiqamətində başlanmış işlər artıq Azərbaycanı kosmik fəzaya malik ölkələr sırasına daxil edib.

Ötən ilin mart ayında Prezident İlham Əliyevin fərmanına əsasən Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılan Elektron Hökumətin İnkişafı Mərkəzi 1 illik fəaliyyəti dövründə böyük uğurlar əldə edib. Mərkəz bu sahədə görülən işlərin əlaqələndiricisi olaraq "Elektron Hökumət"in formalaşması üzrə digər dövlət orqanları ilə sıx fəaliyyət göstərməklə müvafiq infrastrukturun yaradılması üzrə çevik fəaliyyət həyata keçirir.

Bəlkə də çoxları üçün müasir texnologiyaların tətbiqi ilə elektron xidmətlərin necə ərsəyə gəlməsi çox maraqlıdır. Elə bizim üçün də maraqlı olduğu üçün Bakı şəhəri Atatürk prospekti, 89 ünvanında yerləşən Elektron Hökumətin İnkişafı Mərkəzində həyata keçirilən proseslərə şahidlik etdik.

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə ötən il noyabr ayının 12-də açılışı olan, beşmərtəbəli inzibati binada yerləşən Elektron Hökumətin İnkişafı Mərkəzində publik hüquqi şəxsin fəaliyyətinin yüksək səviyyədə təşkili üçün bütün şərait yaradılıb.

Mərkəz dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, apa-

rılması, inteqrasiyası və effektiv idarə edilməsi sahəsində koordinasiyanı həyata keçirmək məqsədilə əlaqələndirici qurum kimi funksiyaları yerinə yetirir. Bununla yanaşı mərkəz xidmətlərin əhali arasında təbliğatının da həyata keçirilməsinə məsuldur.

**Burada vətəndaşa birbaşa xidmət yoxdur**

Mərkəz fasiləsiz fəaliyyət göstərir, vətəndaşlar "e-gov.az", "My.gov.az". "eTender.gov.az", "asanpay.az" və digər elektron portallarından həftənin 7 günü, 24 saat xidmətlər alırlar. Binada həmçinin ekosistem yaradılıb, yəni binada həm ideya sahibləri, həm o ideyanı inkişaf etdirənlər, investorlar, dövlət təşkilatları, biznes mühiti və elmi camiə var. Bu məkanda vətəndaşa birbaşa xidmət yoxdur, insanlar xidmətləri virtual formada portallar vasitəsi ilə alırlar.

Ötən ilin noyabr ayından fəaliyyət göstərən mərkəzdə 217 əməkdaş çalışır. Hazırda mərkəz tərəfindən dövlət və özəl təşkilatlarla birgə 40-dan çox layihə həyata keçirilir. Ümumilikdə isə 250 qurumla əməkdaşlıq edilir.

Mərkəzin rəhbəri Fariz Cəfərovla söhbət edə-edə burada görülən işlər və həyata keçirilən layihələrlə yaxından maraqlanırıq. Bəlli olur ki, mərkəz müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən ölkə ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və elektron xidmətlərin göstərilməsini təmin edir.

Mərkəzin fəaliyyət istiqamətləri başlıca olaraq elektronlaşdırılmış dövlət xidmətlərini, o cümlədən elektron viza (ASAN viza) verilməsi və rəqəmsal ödəniş sistemləri kimi sahələri əhatə edir. F.Cəfərov deyir ki, son illər vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi üçün dövlət xidmətlərini tam rəqəmsallaşdırmaq, dövlət informasiya ehtiyatlarının analitik təhlilini aparmaq, nəticələrindən dövlət və özəl sektorun istifadəsi imkanlarını yaratmaq əsas hədəfə çevrilib.

Bütün bunlara görə dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, idarə olunması və qarşılıqlı inteqrasiyasının təmin edilməsi sahəsində vahid yanaşmanın və standartların tətbiqi, rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zərurəti yaranıb.

**Sənədin etibarlılıq müddətinin bitməsindən tutmuş övladın peyvənd olunmasınadək gələn bildiriş**

"Fəaliyyətimiz 1 ili əhatə edir. Bu müddət ərzində "Elektron Hökumət" portalına yeni dizayn vermişik. Reaktiv (insanın dövlətə müraciəti və cavabın alınması) xidmətdən proaktiv (dövlətin vətəndaşa müraciəti) xidmətə keçid etmişik. "MyGov" – "Mənim hökumətim" konseptinə keçidi iyun ayında reallaşdırmışıq. Yəni hökumət bütün xidmətləri vətəndaşa "bir pəncərə"dən təqdim edir, vətəndaş heç yerə getmədən xidmətdən yararlana bilir. Bu, hər bir insanın hökuməti öz həyatında hiss etməsini təmin edən layihədir" deyən mərkəzin rəhbərinin sözlərinə görə, "MyGov" "qabaqlayıcı hökumət" konsepti əsasında vətəndaş, dövlət və biznes qurumlarını vahid platformada birləşdirən

elektron xidmətlərin göstərildiyi platformadır.

**Bəs vətəndaş bu sistemdən necə yararlanır?**

Vətəndaşlar "MyGov" platformasında qeydiyyatdan keçərək "şəxsi kabinet"lərinə daxil olmaqla özlərinə aid məlumatları görə bilirlər. Platformaya daxil olmaq üçün vətəndaşın şəxsiyyət vəsiqəsinin 7 rəqəmli "FİN" kodu və ya gücləndirilmiş elektron imza (elektron imza və ya ASAN imza) lazımdır.

Portala daxil olduqdan sonra hər bir şəxs xidmətlərə elektron qaydada müraciət edə, elektron arayışlar və digər sənədləri əldə edə, məlumatlarının doğruluğunu təsdiqləyə, həmçinin özünə aid məlumatların digər qurumlara ötürülməsi prosesini tənzimləyə bilir.

Sistemin bir neçə üstünlüyünə nəzər yetirək. Əgər istənilən müəssisədə, təşkilatda, bankda vətəndaşdan hər hansısa bir sənəd tələb olunduqda, vətəndaş haqqındakı bilgilərin "MyGov"da yerləşən "şəxsi kabinet"indən götürülməsinə icazə verir. Bu da rəqəmsal transformasiya hesab olunur.

Digər bir üstünlük vətəndaşa göndərilən 7 növ bildiriş mesajlarıdır. Hər hansısa bir sənədinin etibarlılıq müddətinin bitməsinə görə vətəndaşa mesaj gəlir ki, sənədinizin vaxtı bu tarixdə bitir, dəyişmək lazımdır. Hətta övladın peyvənd vurulma vaxtı belə vətəndaşa elektron bildirişlə xatırladılır. Bu bildirişlərin sayı daha da artırılacaq və digər sənədlərlə də bağlı məlumatlar vətəndaşlara bildiriş formasında təqdim ediləcəkdir.

**Dövlət xidmətləri rəqəmsal dövrdə**

Ümumiyyətlə, mərkəz "Elektron Hökumət" portalı, "ASAN Viza", "ASAN login", "ASAN ödəniş", "ASAN finans", "ASAN wifi", "ASAN observer", "ASAN bridge", "ASAN index", "E-Agro", Elektron Satınalma Sistemi, Elektron Lisenziya və İcazələr Sistemi, "Digital.gov.az", Avtomatlaşdırılmış Əmək Monitorinqi Sistemi, "İdeya Bankı", "Bir Pəncərə" Tikintiyə İcazə Sistemi, Dövlət Xidmətləri Reyestri, İnsan Resursları Sistemi və quruculuq işləri davam edən digər layihələrin fəaliyyətini təmin edir. Bir neçə mühüm sistemin fəaliyyətinə nəzər yetirək: "ASAN ödəniş" sisteminə artıq 222 qurum (30 mərkəzi icra hakimiyyəti, 79 yerli icra hakimiyyəti, 96 məhkəmə orqanı, 7 publik hüquqi şəxs, 8 dövlətə məxsus hüquqi şəxs, 2 özəl təşkilat və 16 ödəniş sistemi) inteqrasiya olunub. Bundan başqa, 16 Ödəniş Xidməti Təchizatı, 558 xidmət, 10 000 terminal və 1200 poçt şəbəkəsi bu sistemə daxildir. Eyni zamanda "E-manat", "E-pul", "Hesab.az", "MilliÖN" və ölkədə olan digər ödəniş təchizatları bu sistemə inteqrasiya edilib.

"ASAN finans" layihəsi bu ilin fevral ayından fəaliyyətə başlayıb. Hazırda 62 qurum bu sistemə qoşulub. Sistem üzərindən 20-yə yaxın fərqli məlumatlar banklara təqdim edilir və banklar vətəndaşa xidmət göstərir.

"ASAN viza" ölkənin çox önəmli layihələrindən biridir. Buradakı artım tempi də bunu deməyə əsas verir. Belə ki, 2017-ci ilin yanvar ayından fəaliyyətə başlayan sistem vasitəsilə ilk vaxtlar 3 gün ərzində viza verilirdi. Daha sonra əcnəbi vətəndaşın

müraciətindən 3 saat sonra vizanın verilməsi təmin edilməyə başlandı. 2018-ci ilin may ayından etibarən beynəlxalq hava limanlarındakı terminallar vasitəsilə 2 dəqiqə ərzində vizanın verilməsi təmin olunur. Hətta Avropa Liqasının Bakıda keçirilən "Çelsi" - "Arsenal" final matçı ərəfəsində vizalar 20 saniyəyə verilib.

**"Elektron Hökumət"in inqilabi yeniliyi - virtual dövlət satınalmaları**

Bütün dövlət satınalmaları elektron formada həyata keçirilir. Hər bir proses üçün elektron imza yetərlidir. Dövlət qurumunun nümayəndəsi, tender komissiyası, elektron protokollar, podratçı şirkətlər, təkliflər, qiymətləndirmələr və nəticələrin hamısı elektron qaydada həll edilir. Tenderin nəticələri bəlli olduqda qaliblərə də, məğlub şirkətlərə də bu barədə bildiriş göndərilir. Yəni hər şey virtual həyata keçirilir.

Bunun ardınca sistem İqtisadiyyat və Maliyyə nazirliklərinə qoşulur.

Layihənin vergi dövriyyəsi, işçi qüvvəsinin sayına qədər hesablamalar aparılır. Ümumiyyətlə, bu sistemdə hazırda təqribən 6 min dövlət əsaslı şirkət və qurum iştirak edir.

Mərkəzin rəhbəri deyir ki, dövlət satınalmaları layihəsinin hazırlanması Prezident İlham Əliyevin "Elektron Hökumət" sisteminin formalaşdırılması sahəsindəki islahatlarının inqilabi yeniliyidir. Çünki dünyanın çox az sayda ölkəsində bu formatda təkmil bir sistem yaradılıb.

Bütün bunlar isə dövlətin vətəndaşa göstərdiyi qayğının bariz nümunəsidir. Bu gün Azərbaycanda reaktiv sistemdən proaktiv sistemə keçid mərhələsi uğurla gedir: "Bu, dövlətin yeni yanaşmasıdır və cənab İlham Əliyevin islahatlarının tərkib hissəsidir. Dövlət vətəndaşın bütün problemlərini həll etməyə, onu önləməyə, qabaqlamağa və daha üstün səviyyədə xidmət göstərməyə çalışır. Bunu "qayğı göstərən hökumət" kimi təqdim edirlər" deyə mərkəzin rəhbəri bildirdi.

Mərkəzin rəhbəri onu da diqqətə çatdırdı ki, Prezident İlham Əliyevin fərmanı ilə ölkədə bütün dövlət qurumlarının vahid sənəd dövriyyəsi sistemi hazırlanır.

**Proqramçıların yeni ideyaları, məlumatların qorunmasının məsuliyyəti**

Fariz Cəfərovla söhbətimizi yekunlaşdırıb mərkəzdə həyata keçirilən proseslərlə tanış oluruq. Müxtəlif departamentlər gün ərzində layihələrin icrası ilə məşğul olurlar. Burada müxtəlif departamentlər fəaliyyət göstərirlər.

Proqramçılar otağında proqram təminatının hazırlanması prosesi həyata keçirilir. Bir ildir ki, burada baş proqramçı, arxitektor kimi çalışan Fərid Səmədov işindən çox razıdır. "ASAN login" və "MyGov" layihələrinin koordinasiyası ilə məşğul olan proqramçı deyir ki, gün ərzində bu sistemlər üzrə yeni funksiyaların yazılması, yeni layihələrin hazırlanması prosesini həyata keçirir. Bu proseslərin reallaşması çətin olsa da, Fərid üçün çox maraqlıdır: "Rəhbərlik bizə daha innovativ, müasir layihələrin kəşf edilməsinə, hazırlanmasına icazə verir və biz də daim axtarışdayıq. Çalışdıqca isə insan yenilik edə bilir. Müxtəlif ideyalar irəli sürürük və rəhbərlik tərəfindən bu

işimiz dəyərləndirilir. Artıq bir neçə ideyamız bəyənilib və tətbiqinə başlanılıb".

Verilənlər bazalarının idarə edilməsi şöbəsi mərkəzin mühüm bölməsindən biridir. Çünki burada bütün vətəndaşların şəxsi məlumatları qorunub saxlanılır.

Mərkəz fəaliyyətə başladığı gündən burada çalışan baş mütəxəssis Şahin Pirverdiyev deyir ki, şöbənin üzərində böyük məsuliyyət var. Çünki istənilən zaman baş verə biləcək təbii fəlakət elektron sistemləri sıradan çıxara bilər. Ancaq onlar mərkəzdəki bütün məlumatların müxtəlif əlavə vasitələrdə saxlanmasını təmin edirlər: "İşimiz məsuliyyət tələb edir. Çünki gördüyümüz işlər verilənlər bazasının təhlükəsizliyinə, onların idarə edilməsinə istiqamətlənib. Mərkəzin layihələri üçün proqramlar, tətbiqlər hazırlayırıq. Bu tətbiqlərə insanlar öz məlumatlarını daxil edirlər. Bu məlumatlar sırasında bank hesabı, ailə tərkibi, digər şəxsi məlumatlar olur. Biz müxtəlif şifrələmə metodları ilə onların təhlükəsizliyini təmin edirik. Əgər fövqəladə hal baş verərsə, həmin məlumatlar dərhal başqa yerə köçürülür".

Baş mütəxəssis deyir ki, burada məlumatların sorğulanması prosesi də həyata keçirilir. Yəni bəzən proqramçılar müəyyən məlumatları əldə etmək üçün müraciətlər edirlər. Şöbənin əməkdaşları bu müraciətlər əsasında məlumatları sorğulayıb proqramçılara ötürürlər. Yəni mərkəzin əsas idarəetmə şöbələrindən biri də buradır: "Bizim şöbəmiz mərkəzin məlumat və informasiyalarının qorunduğu şöbədir. Ani bir səhvdən illərdir toplanan məlumatlar silinə və ya yox ola bilər. Düzdür, sistem yenidən bərpa olunacaq, amma bazanın bərpası mümkün olmayacaq. Bu səbəbdən də bu şöbədə çalışmaq çox məsuliyyətlidir".

**Vətəndaşlar üçün şəffaf, operativ elektron xidmət təkmilləşdirilir**

Proqramçılar, İT infrastrukturunun idarəedilməsi üzrə baş mütəxəssislərlə, arxitektorlarla söhbətləşdikcə insan özünü virtual məkanda hiss edir. Layihələrlə tanış olduqca bəlli olur ki, bütün bu elektron proseslər o qədər də asan ərsəyə gəlmir.

Burada mərkəzin əməkdaşlarının istirahəti üçün də şərait yaradılıb. İstənilən əməkdaş boş vaxtında kitabxanada mütaliə edə bilər. Özünü yorğun hiss edən şəxs isə istirahət otağında dincələ bilir.

Mərkəzin fəaliyyəti ilə ümumi tanışlıq bizdə həqiqətən xoş təəssürat yaratdı. Burada həyata keçirilən proseslərə canlı şahidlik etməklə bir daha əmin olursan ki, ölkədə bütün sahələr üzrə islahatlar aparan Prezident İlham Əliyevin müəllifi olduğu daha bir uğurlu layihə vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərir. Ölkədə dövlət xidmətlərini tam elektronlaşdırmaq, dövlət informasiya ehtiyatlarının analitik təhlilini aparmaq və nəticələrindən dövlət və özəl sektorun istifadəsi imkanlarını yaratmaq əsas hədəfə çevrilib. Bütün bunlara görə dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, idarə olunması, rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsini təmin edib.

**Rəşad BAXŞƏLİYEV.**
www.azerbaijan-news.az

# İSLAHATLARIN ƏSAS HƏDƏFİ AZƏRBAYCANI MÜASİR, İNKİŞAF EDƏN ÖLKƏYƏ ÇEVİRMƏKDİR

**İslahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır. Biz bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparırıq, həm beynəlxalq mövqelərimizi möhkəmləndiririk, həm də regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış edirik.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

***Azərbaycan əhalisinin rifahının yüksəlməsinə xidmət edən sosial siyasət 2003-cü ildən Prezident İlham Əliyev tərəfindən dövrün tələblərinə adekvat şəkildə, həm forma, həm də məzmun etibarilə zənginləşdirilərək hazırda yeni keyfiyyət mərhələsinə daxil olub və daha da güclənib. Ölkəmizdə yoxsulluğun azaldılması, regional inkişafın təmin edilməsi istiqamətində qəbul olunan çoxsaylı dövlət proqramları, aparılan iqtisadi islahatlar nəticəsində son 16 ildə əhalinin maddi rifahının və yaşayış, eləcə də məşğulluq səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəldilməsi özünü göstərib.***

Bu gün Azərbaycanda əhalinin sosial müdafiəsinin günün tələblərinə uyğun təşkili, bu sahədəki problemlərin aradan qaldırılması istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində respublikada yoxsulluq həddində yaşayanların sayı getdikcə azalır. Son 16 ildə ölkədə 2 milyon yeni iş yerinin yaradılması, yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə müvafiq dövlət proqramlarının uğurlu icrası nəticəsində yoxsulluq səviyyəsinin 49 faizdən 4,9 faizə, işsizlik səviyyəsinin isə 5 faizə endirilməsi bunun bariz ifadəsidir.

Dövlət başçısı tərəfindən insanların rifahının diqqət mərkəzində saxlanılması, bu istiqamətdə mühüm addımlar atılması təsadüfi deyil. Ölkə rəhbəri bununla bağlı müsahibələrinin birində deyib: “2019-cu ildən başlayan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qur-

maqdır. Biz bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparırıq, həm beynəlxalq mövqelərimizi möhkəmləndiririk, həm də regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış edirik".

Göründüyü kimi, dövlətimizin başçısı Azərbaycan vətəndaşına daim qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini hər zaman prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Məhz bunun nəticəsidir ki, regionların sosial-iqtisadi inkişafına dair 3 dövlət proqramının icrası sayəsində 15 min kilometr avtomobil yolu salınıb, 31 yeni elektrik stansiyası inşa olunub, dörd böyük su anbarı tikilib, ölkə üzrə təbii qazla təminat 95 faizə çatdırılıb, 100 mindən çox müəssisə yaradılıb, 15 "ASAN xidmət" mərkəzi, 44 olimpiya kompleksi yaradılıb, 17 aqropark fəaliyyətə başlayıb, 3 min 200-dən çox məktəb əsaslı təmir edilib və ya yenidən tikilib, 640 tibb müəssisəsi tikilib və yenidən qurulub.

Cari ilin əvvəlindən isə ölkəmizdə həyata keçirilən islahatlar nəticəsində əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin istehlak tələbinə uyğun artırılması və indeksləşdirilməsi, əhalinin real gəlirlərinin bazar səviyyəsinə uyğunlaşdırılması, aztəminatlı insanların, tələbələrin, əlillərin, şəhid ailələri və veteranların sosial müdafiəsinin təşkili, sosial sığorta qaydalarının, ünvanlı sosial yardım, pensiya sisteminin təkmilləşdirilməsi, bu sahədə artımlar Azərbaycan dövlətinin çoxşaxəli sosial siyasətinin təzahür formalarının yalnız bir hissəsidir. Respublikada sosial sahədə görülən işlərin miqyasını təsəvvür etmək üçün təkcə maaş və pensiyaların, o cümlədən minimum əməkhaqqının son 16 ildə bir neçə dəfə artırıldığına nəzər salmaq kifayətdir.

Prezident İlham Əliyev yeni təyin olunan Hacıqabul rayon və Naftalan şəhər icra hakimiyyətləri başçılarını qəbul edərkən əhalinin məşğulluğuna xüsusi önəm verərək vurğulamışdır: "Sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, rəhbərlik edəcəyiniz şəhər və rayonda iqtisadi inkişaf təmin edilsin, işsizliklə bağlı problemlər öz həllini tapsın... İşsizliklə bağlı problemlər bütövlükdə Azərbaycanda öz həllini tapır və beynəlxalq qurumlar da bu sahədəki uğurlarımızı qeyd edir. Ancaq mən bunu dəfələrlə demişəm, bəzi qonşu ölkələrdən fərqli olaraq bizim əhalimiz artır... Bütün bunlar, əlbəttə, tələb edir ki, yeni iş yerləri yaradılsın. İş yerlərinin yaradılması üçün investisiya layihələri icra edilməlidir. Ona görə də icra başçıları da həm yerli, həm də xarici biznes dairələri ilə sıx təmaslar qurmalıdırlar, şəhər və rayonlara investisiyaları cəlb etməlidirlər ki, yerli istehsal artsın və işsizlik daim aşağı səviyyədə olsun".

Yeni iş yerlərinin açılmasının, vətəndaşların sosial şəraitinin yaxşılaşdırılmasının daim diqqət mərkəzində saxlanılmasının məntiqi nəticəsidir ki, cari il oktyabrın 1-i vəziyyətinə görə, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 5,6 faiz artaraq 1639,1 min nəfər olub, onlardan 909,5 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 729,6 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Bu ilin yanvar-sentyabr

aylarında muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2018-ci ilin müvafiq dövrünə nisbətən 11,7 faiz artaraq 603,5 manat təşkil edib.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə reallaşdırılan kompleks sosial islahatlar nəticəsində sentyabr ayının 1-dən ölkədə minimum aylıq əməkhaqqı məbləğinin 250 manata qaldırılması, dövlət qulluqçularının, dövlət büdcəsindən maliyyələşən bir sıra idarə, müəssisə və təşkilatlarda, Dövlət Neft Şirkətində çalışan işçilərin əməkhaqlarının əhəmiyyətli dərəcədə artırılması, bununla əlaqədar özəl sektorda çalışanların da əməkhaqlarının yüksəlməsi və bu sahədə şəffaflaşma proseslərinin sürətləndirilməsi nəticəsində bu ilin sentyabr ayında ölkə üzrə orta aylıq nominal əməkhaqqı 723,4 manata çatıb ki, bu da ötən ilin sentyabr ayı ilə müqayisədə 35,8 faiz, cari ilin avqust ayı ilə müqayisədə isə 21,6 faiz çoxdur.

Yeri gəlmişkən, burada respublika əhalisi arasında ən həssas təbəqənin-məcburi köçkünlərin rifahının yaxşılaşdırılması məsələsinə də diqqət yetirək. Azərbaycanın iqtisadi potensialı möhkəmləndikcə, imkanları artdıqca, ilk növbədə, bu gün hələ də ağır vəziyyətdə, çətin şəraitdə yaşayan həmin kateqoriyadan olan insanların yaşayış səviyyəsi yaxşılaşdırılır. Son illər bu istiqamətdə çox böyük işlər görülüb. Dövlətimizin başçısının bu barədə dediklərinə nəzər salaq: “Köçkünlər üçün 100-dən çox şəhərcik tikilmişdir. Yəni, mən bilmirəm, hansı başqa ölkədə buna rast gəlinir. Mən bilirəm ki, bu məsələ ilə məşğul olan beynəlxalq təşkilatlar həmişə Azərbaycanı nümunə kimi göstərirlər. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 6500-dən çox mənzil verilmişdir. Mən eşitməmişəm, hansı ölkədə bu kateqoriyadan olan insanlara bu qədər dəstək göstərilir. Şəhid vərəsələrinə 11 min manat məbləğində birdəfəlik maddi yardım verilmişdir. Bu da dünya praktikasında analoqu olmayan bir yanaşmadır. Yəni, bütün bunlar bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun maraqlarıdır, onun rifahıdır”.

Azərbaycanda sosial rifahının daha da yüksəldilməsinə mühüm önəm verən cənab İlham Əliyevin prezident seçkilərindən sonra imzaladığı ilk fərman da məhz Vətən uğrunda həlak olmuş şəhidlərimizin ailələrinə, onların vərəsələrinə 11 min manat həcmində birdəfəlik yardım göstərilməsi barədə sərəncam olub. Qeyd edək ki, bu, dövlət başçısının sözügedən kateqoriyaya aid insanlara diqqət və qayğısının növbəti təzahürüdür.

Onu da xatırladaq ki, ötən illər ərzində şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 6650, təkcə 2018-ci ildə isə nəzərdə tutulandan 3 dəfə çox – 626 mənzil təqdim edilib. Bu ilin sonunadək isə bu kateqoriyalardan olan şəxslərə veriləcək mənzillərin sayı isə 800-ə çatdırılacaq.

Əhalinin rifah halının yaxşılaşdırılması ilə bağlı danışarkən, bir məqamı da xatırlatmaq istərdik. Bu, hər bir ölkənin, xalqın

problemlərinin ən səmərəli yolunun məhz iqtisadi-sosial tərəqqidən keçməsi həqiqəti ilə bağlıdır. Ona görə də respublikamızın iqtisadi siyasətinin sosialyönümlü xarakter daşıması təsadüfi deyil. Bu, bir tərəfdən insan amilinə yüksək həssaslıq nümunəsidirsə, digər tərəfdən bazar iqtisadiyyatı yolu ilə inkişaf edən bir sıra qabaqcıl dünya dövlətlərinin təcrübəsinə əsaslanır. Dövlət başçısı İlham Əliyev də bu reallığı daim önə çəkir. Çünki insanların sosial şəraitinin yaxşılaşdırılması iqtisadi-sosial islahatların həyata keçirilməsinə, iqtisadi inkişaf prosesində hər bir vətəndaşın iştirakını təmin etmyə müsbət təsir göstərir.

Onu da qeyd edək ki, Azərbaycanın iqtisadi tərəqqisindən, neft strategiyasının və sahibkarlığın inkişafının uğurlu nəticələrindən əldə edilən dividendlər bilavasitə insanların sosial problemlərinin həllinə, vətəndaşların həyat səviyyəsinin yaxşılaşmasına yönəldilir. Minimum əməkhaqlarının, büdcə təşkilatlarında çalışan ayrı-ayrı vətəndaş kateqoriyalarının məvaciblərinin, pensiya və müavinətlərin, tələbə təqaüdlərinin artırılması, sosial müdafiə sisteminin davamlı şəkildə təkmilləşdirilməsi dövlətin vətəndaşlarına olan diqqət və qayğısının bariz təcəssümüdür.

Yuxarıda vurğulananlardan belə nəticə hasil olur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosialyönümlü iqtisadi siyasətin əsas mahiyyəti əhalinin faydalı məşğulluğunun təmin edilməsindən, yeni iş yerlərinin açılmasından, sosial müdafiədə ünvanlılıq və səmərəlilik prinsipinə üstünlük verilməsindən, əlillərin, aztəminatlı, habelə şəhid ailələrinin, bu qəbildən olan digər şəxslərin həyat səviyyəsinin yüksəldilməsinə lazımi şərait yaradılmasından ibarətdir.

Göründüyü kimi, istər iqtisadi, istərsə də kadr islahatlarının əsas məqsədi ölkənin dinamik inkişafını təmin etməklə yanaşı, əhalinin sosial müdafiəsinin gücləndirilməsidir. Bu istiqamətdə dövlət tərəfindən verilən dəstək, aparılan iqtisadi islahatlar, iş adamlarına ayrılan güzəştli kreditlər də bu məqsədə xidmət edir. Bunun nəticəsidir ki, ildən-ilə yeni iş yerlərinin açılmasının dinamikası yüksəlir. Çünki sosial müdafiənin ən səmərəli forması elə əhalinin məşğulluğudur.

Dövlət başçısı yeni təyin edilən icra başçılarını qəbul edərkən onu da vurğulayıb ki, regionlarda işsizliyin aradan qaldırılması üçün texnopark və sənaye parklarının yaradılmasına üstünlük verilir. Sumqayıtda, Neftçalada, Masallıda, Mingəçevirdə və digər yerlərdə belə müəssisələr artıq fəaliyyət göstərir və bu proses davam edir. Belə yanaşma sahibkarlara böyük dəstəkdir. Çünki yeni yaradılan sənaye zonalarında və texnoparklarda bütün infrastruktur dövlətin vəsaiti hesabına yaradılır. Yəni bunların yaradılması üçün sahibkarlar pul xərcləmir, yalnız istehsal, emal və xidmət sahələrinin yaradılmasına investisiya qoyur.

**V.BAYRAMOV.**
www.xalqqazeti.com

# AZƏRBAYCAN NƏQLİYYAT, İNFRASTRUKTUR VƏ RABİTƏ SAHƏLƏRİNDƏ DƏ REGİONDA LİDERDİR

**Azərbaycan həm nəqliyyat, həm rabitə, həm də yüksək texnologiyalar sahəsində bundan sonra da regionda liderlik mövqelərini qorumalıdır və biz öz potensialımızı artırmalıyıq.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

***Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır. Tarixi İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan, həm də digər dəhlizlərlə müqayisədə yüklərin ölkəmizin ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir, daha əlverişli şərtlərlə qısa müddətdə, təhlükəsiz və vaxtında çatdırılmasına, tranzit daşımaların həcminin dəfələrlə artmasına imkan yaradır.***

Hazırda dünyanın bir sıra ölkələri tərəfindən Azərbaycanın tranzit imkanları yüksək qiymətləndirilir. Məsələn, Çin və Avropa arasında yükdaşımalarda Şərq-Qərb marşrutundan və onun tərkib hissəsi olan Azərbaycanın nəqliyyat-tranzit potensialından istifadə edilməsi vaxt və maliyyə baxımından daha sərfəli olduğu bildirilir. Ona görə də Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yaradılması ölkəmizin mühüm tranzit uğurlarından sayılır. Bu marşrut 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın yükdaşımalarda iştirak edən müvafiq qurumlarının birgə təşəbbüsü ilə yaradılıb. Daha sonra Ukrayna, Rumıniya və Polşanın da aidiyyəti qurumları Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna qoşulub. Hazırda bu marşrut Çin-Qazaxıstan sərhədindən başlayaraq Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstandan keçməklə Avropa ölkələrinə qədər uzanır.

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 15-də nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadəni qəbul edərkən, bu barədə ətraflı bəhs edilib. Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib: "Keçən il Azərbaycanda bütün sahələr kimi, nəqliyyat sahəsi də inkişaf etmişdir. Bu inkişaf həm real layihələrdə özünü göstərir, eyni zamanda, beynəlxalq təşkilatların hesabatlarında əksini tapır. Təkcə onu demək kifayətdir ki, keçən il

avtomobil yollarının tikintisi istiqamətində rekord nəticə əldə edilmiş, 1300 kilometr avtomobil yolu çəkilmişdir. Beləliklə, həm şəhərlərarası nəqliyyatın işi yaxşılaşdırılmış, eyni zamanda, magistral yolların çəkilişi davam etdirilmiş, yüzlərlə kəndin yolu abadlaşdırılmış və yenidən qurulmuşdur".

Dövlətimizin başçısı nitqində Davos Ümumdünya İqtisadi Forumu tərəfindən Azərbaycanda nəqliyyat sahəsində görülən işlərə yüksək qiymət verildiyini, bu təşkilatın hazırladığı hesabatda ölkəmizin nəqliyyat infrastrukturunun inkişafına görə dünya miqyasında 31-ci yerdə qərarlaşdığını diqqətə çatdırıb. Bildirib ki, bu, kifayət qədər bu böyük göstəriciyə görə Azərbaycan bir neçə inkişaf etmiş ölkəni də qabaqlayıb. Prezident, həmçinin avtomobil yollarının keyfiyyətinə görə respublikamızın dünyada 27-ci, dəmir yolu nəqliyyatının səmərəliliyinə görə 11-ci, hava nəqliyyatının səmərəliliyinə görə isə 12-ci yerdə olduğunu vurğulayıb.

Dövlətimizin başçısı keçən il ərzində çox önəmli dövlətlərarası layihələrin gerçəkləşdirildiyini də diqqətə çatdırıb. Azərbaycan-Rusiya sərhədində yeni avtomobil körpüsünün istifadəyə verilməsinin çox böyük hadisə olduğunu xatırladan ölkə rəhbəri bildirib ki, əvvəlki körpü ötən əsrin 50-ci illərdə tikilmişdi və demək olar ki, sıradan çıxmışdı. Yeni körpü isə Azərbaycan ilə Rusiya arasında həm nəqliyyat, həm də ticarət əlaqələrinin inkişafına xidmət göstərəcək, eyni zamanda, həmin infrastruktur Şimal-Cənub nəqliyyat dəhlizinin tərkib hissəsi kimi Azərbaycana böyük fayda gətirəcək. Hazırda Rusiya sərhədinə qədər yeni avtomagistral çəkilir və ilin sonuna qədər bu magistralın əsas hissəsi istismara veriləcək.

Dövlətimizin başçısı nitqində paralel olaraq, Astara şəhərindən İran sərhədinə qədər yeni magistralın çəkilişinin nəzərdə tutulduğunu, bu məsələnin İran tərəfi ilə razılaşdırıldığını, beləliklə, yük avtomaşınlarının Astara şəhərinə girmədən birbaşa İran istiqamətinə gedə biləcəyini və yeni avtomobil körpüsü də tikiləcəyini deyib.

Ümumiyyətlə, xatırlatmaq yerinə düşər ki, son dövrlərdə Şimal-Cənub nəqliyyat dəhlizi layihəsinin keçəcəyi regionda, fərqli qütblər arasında geosiyasi rəqabətin daha da kəskinləşməsi fonunda sabit və balanslı xarici siyasət yürüdən Azərbaycan yeni siyasi və iqtisadi dividendlər əldə etməyi qarşıya mühüm vəzifə kimi qoyub.

Şimal-Cənub nəqliyyat dəhlizi layihəsi 2000-ci ildə İran, Rusiya və Hindistan tərəfindən dövlətlər arasında nəqliyyat əlaqələrini inkişaf etdirmək məqsədi ilə yaradılıb.

Dəhliz vasitəsi ilə yüklərin gəmilərlə Hindistanın Mumbay limanından İranın Bəndər-Abbas limanına gətirildikdən sonra qatarlara yüklənməsi və İranın mövcud dəmir yolu ilə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinə ötürülməsi və birbaşa Azərbaycan ərazisindən Rusiyaya, oradan da Şimali Avropa ölkələrinə çatdırılması planlaşdırılır.

Hazırkı marşrut (Süveyş kanalı) üzrə malların çatdırılma vaxtı 45-60 gündür,

Şimal-Cənub dəhlizi vasitəsilə 14-20 gün olması gözlənilir.

O da vurğulanmalıdır ki, 2005-ci ildən etibarən layihənin önəmli parçasına çevrilən Azərbaycan son illərdə üzərinə götürdüyü bütün vəzifələri icra edib. İran sərhədinə qədər dəmir yolu infrastrukturunun yenilənməsi təmin olunub və İran İslam Respublikasının prezidenti Həsən Ruhaninin ölkəmizə rəsmi səfəri çərçivəsində Astara-Rəşt dəmir yolu hissəsinin tikintisinin maliyyələşdirilməsi ilə bağlı sazil imzalanıb.

Azərbaycan Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun tezliklə istifadəyə verilməsində maraqlıdır və artıq yolun Rəşt-Astara hissəsinin tikintisinə 500 milyon dollar güzəştli kredit ayırılması ilə bağlı qərar qəbul olunub.

Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri təkcə regional deyil, həmçinin beynəlxalq miqyaslı infrastrukturdur. Məsələn, Şimal-Cənub dəhlizi İranı Rusiya ilə birləşdirməklə bərabər, Hindistanı da Avropa ilə bağlayır. Xatırladaq ki, Azərbaycan bu nəqliyyat dəhlizinin reallaşmasını praktik olaraq həyata keçirən ölkələrdən biridir.

Prezident İlham Əliyev nitqində Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə daşınan yüklərin həcmində də əhəmiyyətli dərəcədə artım qeydə alındığını diqqətə çatdırıb: "Əlbəttə, keçən il Şərq-Qərb nəqliyyat dəhlizi üzrə daha çox yük daşınmışdır. Bu da təbiidir, çünki Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsindən sonra bu istiqamətdə böyük canlanma var. Təkcə Şərq istiqamətindən yox, eyni zamanda, Rusiyadan Azərbaycan ərazisindən Türkiyə və Avropa istiqamətinə yüklərin daşınması müşahidə olunur və ildən-ilə bu yüklərin həcmi artacaq. Beləliklə, açıq dənizlərə çıxışı olmayan Azərbaycan beynəlxalq Avrasiya nəqliyyat mərkəzlərindən birinə çevilmişdir".

Görüşdə avtomobil və dəmir yollarının çəkilişi ilə bağlı görüləcək işlərdən də ətraflı bəhs edilib. Builki investisiya proqramında nəqliyyat sektorunun inkişafı üçün kifayət qədər böyük vəsait nəzərdə tutulduğu bildirilib. Eyni zamanda, avtomobil və dəmir yollarının çəkilişi ilə bağlı konkret layihələr icra ediləcəyi diqqətə çatdırılıb: "Bu il Ləki-Qəbələ dəmir yolu istifadəyə verilməlidir. Eyni zamanda, biz Bakı-Yalama və Xudat-Şahdağ dəmir yollarının layihələndirilməsinə və inşasına başlayırıq. Beləliklə, biz mövcud dəmir yollarının keyfiyyətini böyük dərəcədə artıracağıq və qatarların sürəti də buna uyğun olaraq artacaqdır".

Ölkə rəhbəri görüşdə şəhər nəqliyyatının inkişafına da böyük əhəmiyyət verildiyini, cari il Bakı şəhərinə əlavə 300 müasir avtobus, həmçinin yeni taksi avtomaşınlarının gətiriləcəyini, bu işlərin mütəmadi xarakter daşıyacağını diqqətə çatdırıb.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə qəbul zamanı hazırda Azərbaycanda 1500 ədəd "London taksisi" fəaliyyət göstərdiyini, müasir standartlara cavab verən 100 ədəd belə avtomaşının da gətiriləcəyini bildirilib: "Üç ay ərzində Azərbaycana gətiriləcək bu taksilərin üstünlüyü ondan ibarətdir ki, onlar yanacaqla deyil, elektriklə işləyir. Bir daha

qeyd etmək istəyirəm ki, bu taksilər müasir standartlara tam şəkildə cavab verir".

Prezident İlham Əliyev görüşdə taksi avtomaşınlarının keyfiyyəti, bu sahədə təhlükəsizliyin təmin olunması, dayanacaqlar, sürücülərin hazırlanması, onların tibbi müayinədən keçmələri və s. barədə də tövsiyələrini verib.

Dövlətimizin başçısı daha sonra deyib: "Bu, eyni zamanda, avtobus nəqliyyatına da aiddir. Çünki hazırda Bakı və Sumqayıt şəhərlərində avtobusla sərnişin daşımaları müasir standartlara uyğundur. O da hər yerdə deyil. Hələ də Bakı şəhərində keyfiyyəti yüksək olmayan və istismar müddəti bitmiş avtobuslar fəaliyyət göstərir. Bu məqsədlə biz hər il ölkəmizə 300 avtobus gətizdiririk. Mənə verilən məlumata görə, Gəncə şəhərində avtobus təsərrüfatı köhnəlib. Digər şəhərlərdə nə qədər avtobus fəaliyyətdədir, nə qədər avtobus alınmalıdır? Əlbəttə ki, ilk növbədə, paytaxt Bakının bu məsələsi həll olunmalıdır. Amma digər şəhərlər də diqqətdən kənarda qalmamalıdır".

Görüşdə şəhərlərarası gecə reyslərinin istifadəyə verilməsi, bu zaman fəaliyyətdə olan avtobusların keyfiyyəti, təhlükəsizliyi, sürücülərin hazırlığı, onların müayinədən keçmələri, mövcud avtobus parkının daha müasir standartlar səviyyəsində yenilənməsi, eyni zamanda, yük daşımaları ilə bağlı qarşılaşılan problemlər barədə də ətraflı danışılıb. Bununla bağlı ölkə Prezidenti deyib: " Azərbaycandan xaricə gedən yüklərin həcmi artır və artacaq. Qeyri-neft sektorumuz artır, qeyri-neft ixracımız keçən il 14 faiz artıbdır. Ancaq bizim bir çox yüklərimizi xarici şirkətlər daşıyır. Bu da onunla bağlıdır ki, Azərbaycanda yük daşımalarında istifadə edilən avtomaşınlar, tırlar yerli şirkətlər tərəfindən az təmin olunur. Ona görə bu məsələyə də diqqət yetirmək lazımdır. Birinci növbədə, təhlil aparılmalıdır və mənə məruzə edilməlidir ki, yük daşımalarının neçə faizi Azərbaycan şirkətləri tərəfindən icra edilir? Tır parkına baxış keçirilməlidir. Onların vəziyyət nə yerdədir və onların sayı bizim artan istehsalımıza uyğundur, yoxsa yox?! Əgər yeni tır maşınlarının alınmasında dövlət özəl şirkətlərə kömək edə bilərsə, biz buna hazırıq. Bu sahəyə də güzəştli kreditlər verilə bilər. Çünki bir halda ki, Azərbaycanın nəqliyyat sektoru yüksək templərlə inkişaf edir və beynəlxalq təşkilatlar bunu yüksək qiymətləndirir, nəqliyyat sektorunda bütün komponentlər yüksək standartlara cavab verməlidir. Əlbəttə, hər bir ölkə istəyir ki, onun yükləri yerli şirkətlər tərəfindən daşınsın. Ona görə bu məsələ ilə bağlı sizə tapşırıram, təhlil aparın və məlumat verin".

Qəbul zamanı rabitə və yüksək texnologiyalar sahəsində böyük uğurlar əldə edilməsi, ölkəmizin rabitə, internet və fiberoptik rabitə xətlərinin çəkilməsi istiqamətində də mərkəzə çevrilməsi məsələlərinə də toxunulub. Azərbaycanın həm nəqliyyat, həm də rabitə və yüksək texnologiyalar sahəsində bundan sonra da regionda liderlik mövqelərini qorumasının zəruriliyi diqqətə çatdırılıb.

e-mail: www.xalqqazeti.com

# AZƏRBAYCAN DÜNYADA ÖZÜNÜ ETİBARLI TƏRƏFDAŞ VƏ DOST ÖLKƏ KİMİ TƏSDİQ EDİB

***Azərbaycanda həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmiz siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə etmiş, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirmişdir . Qazanılan uğurların əsasını ölkədə həyata keçirilən siyasətin xalqın mənafeyini tam ifadə etməsidir. Dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır. "Xalq-iqtidar" birliyi sabitliyi şərtləndirən, ölkəmizin beynəlxalq aləmdəki reytinqini yüksəldən əsas amillərdəndir. Bu birlik gündən-günə daha sıx tellərlə bağlanır. Təsadüfi deyildir ki, bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biri hesab olunur.***

**Azərbaycan bu gün beynəlxalq birlik tərəfindən çox böyük rəğbətə layiq olan ölkə kimi tanınır. Bizim dostlarımızın sayı artır, bizi dəstəkləyən ölkələrin sayı artır... Biz bundan sonra da beynəlxalq arenadakı rolumuzu fəal aparacağıq. Bizim bütün ölkələrlə qarşılıqlı hörmət və biri-birinin işinə qarışmamaq şərti ilə münasibətlərimiz qurulub. Bu münasibətləri biz möhkəmləndirəcəyik.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Dövlətimizin başçısının ölkəmizin ərazi bütövlüyünün bərpa olunması istiqamətində qətiyyətli siyasətinin beynəlxalq aləmdə dəstəklənməsi respublikamıza və onun başçısına olan inam və etimaddan irəli gəlir. Artıq dünyanın inkişaf etmiş dövlətlərinin də ölkəmizlə əməkdaşlığı genişləndirmək marağında olmasını etiraf etməsi də bundan xəbər verir. Yaxın zamanlarda ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktublarda da bunun şahidi oluruq. Həmin məktubda qeyd edilir ki, "ABŞ-la Azərbaycan arasında ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq mövcuddur. Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri və Cənub Qaz Dəhlizi təşəbbüsünü irəli sürməklə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində Sizin liderliyinizi dəyərləndirirəm. Azərbaycanda islahatlar istiqamətində,

xüsusilə də qanunun aliliyi sahəsində xalqın mənafeyinə xidmət edəcək və əməkdaşlığımızın dərinləşdirilməsi üçün imkanlar yaradacaq bütün addımları alqışlayırıq. Tərəfdaşlığımızın gələcək illərdə də inkişaf etməsini səmimiyyətlə arzulayıram".

ABŞ Prezidenti daha sonra bildirib ki, Azərbaycan özünün tarixində bugünkü qədər firavan və qlobal iqtisadiyyata bağlı olmamışdır. Azərbaycanın iqtisadi uğurları bütün regionda sabitliyin gətirilməsinə yardım edəcəkdir: " Mən birgə səyimizlə Cənubi Qafqazın daha da dinc, demokratik və firavan olması üçün əməkdaşlığımızın davamlı olmasını arzulayıram".

Dünyanın digər nəhəng dövlətlərindən biri olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin də ölkəmiz haqqındakı fikirləri respublikamızın beynəlxalq aləmdə artan nüfuzundan xəbər verir: "Azərbaycan sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir, beynəlxalq gündəlikdəki aktual məsələlərin həllində mühüm rol oynayır. Rusiyada Azərbaycan ilə strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirirlər. Biz bütün sahələrdə səmərəli ikitərəfli əlaqələri, regional sabitliyin və təhlükəsizliyin təmin edilməsində konstruktiv qarşılıqlı fəaliyyəti birgə səylərimizlə bundan sonra da uğurla inkişaf etdirəcəyik".

Belə faktlardan çox göstərmək olar. Təbii ki, bu uğurların əsasını Prezident İlham Əliyevin düzgün müəyyənləşdirdiyi siyasi strategiya təşkil edir. Bunu Belarus Prezidenti Aleksandr Lukaşenkonun fikirləri də təsdiləyir: "Fikrimcə, İlham Heydər oğlu Azərbaycanın şəksiz lideri və vətənpərvəridir".

Dövlətimizin başçısı mötəbər beynəlxalq təşkilatların – BMT-nin, NATO-nun, ATƏT-in, Qoşulmama Hərəkatının və digərlərinin kürsülərində inamlı, cəsarətli, məntiqi çıxışları ilə diqqəti cəlb edir, milli mənafeləri bütün səviyyələrdə qətiyyətlə qoruyur, müstəqil xarici siyasət yürüdür. Qlobal böhranlardan çıxış yolları axtarışında onun fikrinə, rəyinə hörmətlə yanaşılır. Məhz bunun nəticəsidir ki, Azərbaycan müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən, Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və çoxlu sayda digər təşkilatlara üzv olub. Bununla yanaşı, AŞPA -nın Nazirlər Komitəsinə, BMT Təhükəsizlik Şurasına sədrlik etmişdir. Hazırda isə Qoşulmama Hərəkatı kimi böyük bir təşkilata, eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik edir. Ölkəmiz, həmçinin NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlığı, eləcə də antiterror koalisiyası tərkibində fəaliyyəti durmadan inkişaf etdirir. Azərbaycan Respublikası həm də GUAM regional qrupunun təsisçilərindən biridir. Bu təşkilatlarda və regional tə-

şəbbüslərdə iştirakı ilə Azərbaycan Respublikası öz milli maraqlarını gerçəkləşdirir. Hazırda ölkəmiz müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasına və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verən fəal aktor və regional güc kimi tanınır. Həmçinin, Azərbaycanın Qərb və Şərq sivilizasiyaları, Şimal və Cənub arasında dəhliz rolunu oynaması ilə əhəmiyyətli ölkə kimi öz nüfuzunu ortaya qoymuş olur.

Dövlətimizin başçısı düşünülmüş islahatları və dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə hesablanmış qərarları ilə həyatımıza yeni nəfəs gətirərək, Azərbaycanı dünyanın inkişaf edən ölkələri sırasına çıxarıb. Onun siyasətinin mərkəzində insan amili dayanır, amalı qurub-yaratmaq, xalqını daha xoş günə, firavan həyata qovuşdurmaqdır. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq onun həyat fəlsəfəsidir. Düzgün müəyyənləşdirilmiş siyasət bu gün ölkəmizi dünyanın nüfuzlu beynəlxalq qurumlarının öz tədbirlərini keçirdiyi məkana çevirib. Son vaxtlarda bir-birinin ardınca nüfuzlu tədbirlərin – Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII zirvə görüşlərinin, Dünya dini liderlərinin II sammitinin Bakıda keçirilməsi ölkəmizə olan inam və etimadın bariz nümunəsidir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədrlik estafetini Azərbaycana verən Qırğız Respublikasının Prezidenti Sooronbay Şərifoviç Jeenbekovun ölkəmiz və onun başçısı cənab İlham Əliyev haqqında səsləndirdiyi fikirləri xatırlatmaq yerinə düşərdi: "İlham Heydər oğlunun iqtisadi islahatları və investisiyaların cəlb edilməsi siyasəti artıq öz bəhrəsini verir. Bu gün Azərbaycan dünya siyasətində xüsusi və mühüm yer tutur. Biz qardaş Azərbaycanın uğurları barədə bütün xəbərləri sevinclə qarşılayırıq. İnanıram ki, Azərbaycanın sədrliyi ilə iqtisadiyyatın, ticarətin, investisiyaların və digər sahələrin inkişafı üzrə əməkdaşlıq daha da güclənəcək".

Göründüyü kimi, artıq respublikamız beynəlxalq aləmdə sayılıb-seçilən dövlətlərdən birinə çevrilib. 2016-cı ilin Aprel döyüşləri Azərbaycanın reytinqini daha da yüksəltdi, gücünü, qüdrətini dünyaya nümayiş etdirdi. Bu döyüşlər və dövlət başçımızın qətiyyəti Azərbaycanın prinsipial mövqeyindən bir addım da geri çəkilməyəcəyini, öz ərazi bütövlüyünü bərpa etmək əzmində və gücündə olduğunu, düşmən üzərində hərbi, siyasi, iqtisadi və mənəvi-psixoloji üstünlüyünü bir daha sübuta yetirdi. Bu reallıqlar, həmçinin Ermənistanda hərbi-xunta rejiminin çöküşündə mühüm rol oynadı. Azərbaycan bu zəfərdən sonra Ermənistanın regionda təcrid vəziyyətinə düşməsini daha da ağırlaşdırdı. Bunun nəti-

cəsində işğalçı ölkə iqtisadi və siyasi böhran burulğanında boğulur.

Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi və əlaqələrinin möhkəmləndirilməsi xalqımızın ən ağrılı problemi olan Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində mühüm rol oynayır. Ermənistanın 30 ilə yaxındır ki, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməklə əvvəlki illərlə müqayisədə indi dünya birliyində daha çox qınaq hədəfinə çevrilib. Qoşulmama Hərəkatının 120 üzv dövlətinin Azərbaycanın ərazi bütövlüyünə ciddi dəstək ifadə etməsi də ölkəmizin getdikcə artan nüfuzunun göstəricisidir.

Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşü Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyini daha da gücləndirdi. Qəbul edilmiş sənədlərdə dövlət və hökumət başçıları münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, hələ də həll olunmamasından təəssüf hissi keçirdiklərini bildirmiş və onun Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı əsasında həll olunmasının vacibliyini vurğulamışlar.

Yekun sənədə ilk dəfə olaraq çox mühüm yeni bənd daxil edildi. Bu bənddə dövlət və hökumət başçıları güc yolu ilə ərazilərin zəbt edilməsinin yolverilməzliyini vurğulayır və təsdiq edirlər ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğal edilməsi nəticəsində yaranmış vəziyyətin qanuniliyini tanımayacaq, bu ərazilərdə iqtisadi fəaliyyətlər də daxil olmaqla, bu cür vəziyyətin saxlanması üçün hər hansı kömək göstərməyəcək. Burada, bilavasitə, işğalçı ifadəsindən istifadə olunur. Bu, Ermənistanın növbəti dəfə 120 dünya dövləti tərəfindən işğalçı kimi tanınması deməkdir.

Xatırladaq ki, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi qəbul edilib. Bu qətnamələrdə işğalçı qüvvələrin Azərbaycan torpaqlarından qeyd-şərtsiz və tam çıxarılması birmənalı olaraq tələb edilir. Eyni zamanda, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, NATO, Avropa Parlamenti, Avropa Şurası və digər təşkilatlar buna oxşar qərar və qətnamələr qəbul ediblər.

Göründüyü kimi, hazırda Azərbaycanın beynəlxalq təşkilatlarda nüfuzu çox yüksəkdir. Ölkəmizin beynəlxalq müstəvidə əməkdaşlıq və təhlükəsizliyə verdiyi fundamental töhfələr də yüksək qiymətləndirilir. Azərbaycanın bugünkü reallıqları da təsdiqləyir ki, ölkəmiz, sözün əsl mənasında, müstəqil dövlət kimi dünya xəritəsində öz yerini tuta bilib.

**Əliqismət BƏDƏLOV.**
www.xalqqazeti.com

# MƏNƏVİ İRSİN VARİSLİYİ

***Heydər Əliyev irsi təkcə bütün həyatını xalqının, dövlətinin yüksəlişinə həsr etmiş Ümummilli Liderin öz ömürlüyü ilə yaratdığı tarix deyil. Bu irs həm də bu günümüz və gələcəyimizdir. Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyinə təminat yaradan, önümüzdə aydın inkişaf istiqamətləri müəyyənləşdirən yol bələdçisidir. Bu irsdən daim öyrənməyə, formalaşdırdığı dəyərləri təbliğ etməyə, gələcək nəsilləri həmin dəyərlər ruhunda yetişdirib tərbiyələndirməyə həmişə ehtiyacımız var.***

Ulu Öndərin adı işığında yaradılmış Heydər Əliyev Fonduna ümumxalq rəğbəti qazandıran ən mühüm amillərdən biri də budur. Ümummilli Liderin zəngin mənəvi irsini, Azərbaycançılıq ideyalarını gənc nəsillərə aşılamaq, onun qurub-yaratdığı müstəqil Azərbaycanın hərtərəfli inkişafı proseslərində yaxından iştirak etmək, insanlara kömək əli uzatmaq, xeyirxah işlər görmək məqsədilə fəaliyyətə başlamış bu fond Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə nəcib əməllərin parlaq salnaməsini yazır.

Bu ilin mayında fəaliyyətə başlamasının 15-ci ildönümünü qeyd edən Heydər Əliyev Fondunun ötən illər ərzində gördüyü işlərin ən yüksək tarixi qiymətini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vermişdir. 15 ildə Heydər Əliyev Fondunun bir çox istiqamətlərdə böyük işlər gördüyünü xatırladan dövlət rəhbəri "Yeniləşən Azərbaycana yeni məktəblər" proqramını, mədəniyyət, elm, səhiyyə sahələrində reallaşdırılan layihələri diqqətə çatdırmışdır: "...Bir çox hallarda bu işlər haqqında heç məlumat da verilmir. Yəni ictimaiyyət bəlkə də məlumatlı deyil ki, nə qədər böyük işlər görülür, nə qədər insana kömək göstərilir, nə qədər insanı – uşağı, xəstəni fondun xətti ilə aparılan müalicə normal həyata qaytarıb. Fondun çoxşaxəli fəaliyyəti Azərbaycanı dünyada tanıdır. Fondun dünya miqyasında çox böyük hörməti var. Azərbaycan reallıqlarının dünyaya çatdırılması istiqamətində – bizim musiqimizi, xalçaçılıq sənətini, muğam sənətini, digər mədəniyyət incilərimizi dünyaya çatdırmaq, təqdim etmək üçün fond çox böyük işlər görür”.

Prezident İlham Əliyevin sərəncamı ilə 2015-ci ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Ulu Öndərin siyasi irsinin təbliği sahəsində böyük xidmətlərinə, mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycanın mədəni irsinin beynəlxalq miqyasda təbliğinə və I Avropa Oyunlarının təşkilində apardığı genişmiqyaslı işlərinə görə ölkənin ən ali mükafatı olan "Heydər Əliyev” ordeni ilə təltif edilmişdir.

Ümummilli Lider Heydər Əliyev dövrünün xilaskar və qurucu şəxsiyyətlərindəndir. Bizlərə Azərbaycan adlı qüdrətli, müstəqil bir dövlət bəxş etmişdir. Bu əvəzolunmaz liderin fəaliyyəti Azərbaycan ətrafında cərəyan edən hadisələrin mahiyyətinə, son dərəcə mürəkkəb problemlərin həlli yollarına işıq salır. Ulu Öndərin şərəfli ömür yolunun hər bir parlaq səhifəsi xalqımızın yaxın tarixi ilə ayrılmaz vəhdət təşkil edir. Bu səhifələri vərəqlədikcə bir daha aydın olur ki, Ulu Öndər milli ideyalara bağlı lider kimi siyasi fəaliyyətinin bütün mərhələlərində Vətənə, xalqa, doğulduğu torpağa sonsuz sədaqət hissi ilə, qurub-yaratmaq amalı ilə yaşamışdır. Ulu Öndər tariximiz üçün böyük əhəmiyyət daşıyan strateji qərarlar qəbul edilən zaman əsl vətənpərvər mövqeyi tutmuş, özünün siyasi bacarığı sayəsində Azərbaycanda müstəqil dövlətçilik təfəkkürünün inkişafını və praktik dövlət modelində məntiqi sonluğa yetişməsini təmin etmişdir.

Məhz bu reallıqlar fonunda Ümummilli Liderin zəngin dövlətçilik irsinin öyrənilməsi, onun ölməz ideyalarının geniş təbliğ olunaraq praktik həyatda tətbiqi və gələcək nəsillərə çatdırılması müasir qloballaşma dövründə xüsusi aktuallıq kəsb edir. Yarandığı gündən bu ali missiyanı qarşıya məqsəd qoyan, böyük rəhbərin mərhəmət, nəciblik və yüksək humanizmə əsaslanan saf ideayalarının ictimai şüurda möhkəmlənməsinə çalışan, millətin gələcəyi naminə bir sıra strateji əhəmiyyətli layihələri inamla həyata keçirən Heydər Əliyev Fondu son 15 illik fəaliyyəti ilə Azərbaycan cəmiyyətində bir çox insanların ümid yerinə çevrilmişdir.

**Qayə**

Ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən Heydər Əliyev irsinin təbliği üçün çox uğurlu bir yol seçilmişdir. Milli dövlətçiliyimiz üçün mühüm önəm kəsb edən bu irs real əməllər işığında təbliğ olunur, yaşadılır, gələcək nəsillərə ötürülür. Yəni, Heydər Əliyev irsi cəmiyyətə, dünyaya sadəcə tarix kimi çatdırılmır, bu irsə söykənən, onun davamı olan inkişaf layihələri ilə nümayiş etdirilir.

Heydər Əliyevin ömür yolu başdan-başa Azərbaycan dövlətinə, xalqına xidmət missiyasından ibarətdir. Bu, hələ sovet Azərbaycanına rəhbərlik dövründə ölkəni geridə qalmış aqrar respublikadan cəmi bir neçə il ərzində inkişaf etmiş qabaqcıl sənaye mərkəzinə çevirmiş, onun gələcək müstəqilliyi üçün zəruri əsaslar formalaşdırmış, səsini-sözünü dünyaya yetirmiş, ən gərgin dönəmlərdə dövləti parçalanma, məhvolma təhlükəsindən xilas etmiş, demokratik inkişafına nail olmuş böyük liderin irsidir.

Mehriban xanım Əliyeva da irəli sürdüyü sosial-humanitar layihələrlə bu istiqaməti davam etdirir, Azərbaycan Respublikası Prezidentinin ölkəmizə qazandırdığı tarixi nailiyyətlərə öz layiqli töhfələrini verir. Dövlətimizi vətəndaşlarımıza daha da doğmalaşdırır. Hakimiyyət-

xalq vəhdətini möhkəmləndirir. Mehriban xanım daim insanların yanındadır, dəstəyə ehtiyacı olan hər kəsin köməyindədir. Onun irəli sürdüyü və yüksək təşkilatçılıq məharəti ilə, böyük həssaslıqla yerinə yetirilən layihələr xalqa sevinc bəxş edir.

Mehriban xanım Əliyevanın yükü və məsuliyyəti ağır və həm də şərəflidir. O, yaradıcı və qurucu bir iradə sahibidir. Azərbaycanın Birinci vitse-prezidentinin inkişafa, tərəqqiyə doğru hər addımı sosial reallığı dəyişən, daha gözəl, daha sağlam, hər kəs tərəfindən məmnunluqla qarşılanan yaradıcılığa çevrilir. Mehriban xanım Əliyeva tarixin miqyaslı tədbirlərinin diplomatıdır. Ölkəmizi Şərqin qədim mədəniyyətinin əsas mərkəzlərindən biri kimi tanıtmaq, musiqimizdən tutmuş idmana qədər bütün sahələrdə ənənələrimizi sevdirmək onun beynəlxalq miqyasdakı fəaliyyətinə xüsusi milli məna və çəki verir. Gördüyü işlər bəhrəli və nəticəlidir. Bu tədbirlərin ilkin nəticəsi Azərbaycanın dünyadakı dostlarının sayının artmasıdır. Həm də bu dostlar kimdir? Beynəlxalq aləmdə sözü keçən, səsi eşidilən, tanınan insanlardır. Onlar ölkəmizə gəlib bizim yaşayışımızı, həqiqətlərimizi, xalqımızın nəcibliyini və tərəqqisini gözləri ilə görür və dünyaya çatdırırlar. Bizə düşmən gözü ilə baxanlarla ideoloji mübarizədə bunun əhəmiyyəti misilsizdir. Bir çox layihələr Azərbaycan hüdudlarından uzaqlarda da insanlara fayda verir, onların sonsuz sevgisini qazanır.

Mehriban xanım Əliyeva Ümummilli Liderin ölkəmizin sosial-iqtisadi, mədəni tərəqqisi, xalqımızın maddi rifahının yaxşılaşdırılması, sağlam, təhsilli Azərbaycan cəmiyyətinin formalaşması naminə müəyyən etdiyi ideyaların reallaşmasına hər zaman böyük diqqət yetirir. Bu sahədə əlindən gələni əsirgəmir.

**Maarif işığı**

Ümummilli Lider Heydər Əliyevin fəaliyyətində vətəndaşlarımızın təhsili, maariflənməsi, cəmiyyətimizin bu günü və gələcəyi üçün insan kapitalının formalaşdırılması çox mühüm yer tuturdu. Ulu Öndərin hələ sovet Azərbaycanına rəhbərliyi dövründə ölkəmizdə inşa edilən yüzlərlə məktəb, açılan yeni ali və orta ixtisas təhsili müəssisəsi, sosial statusundan asılı olmayaraq təhsil almaq üçün hər kəsə bərabər imkanlar mühitinin yaradılması, ən nüfuzlu fakültələrin qapılarının imkansız uşaqların üzünə açılması daim qürur duyduğumuz şərəfli keçmişdir. Heydər Əliyevin öz şəxsi nüfuzundan istifadə edərək hər il yüzlərlə Azərbaycan gəncini təhsil ardınca keçmiş ittifaqın tanınmış ali məktəblərinə göndərməsi də bu tarixin parlaq səhifələridir. Müstəqil Azərbaycan dövlətinə rəhbərliyi dövründə də təhsilin, məktəbin, müəllimin Ulu Öndər üçün xüsusi yeri vardı.

Mehriban xanım Əliyevanın bu gün Azərbaycanda və müxtəlif ölkələrdə reallaşdırdığı təhsil layihələri də məhz bu mənəvi irsdən gəlir. Ölkənin birinci xanımı təhsili, maarifi cəmiyyətimizdə ictimai bir hərəkata çevirməyi bacarıb. İnsanları bu dəyərlər ətrafında bir araya gətirib. İndi

hər kəs fərqindədir ki, təhsilsiz gələcək yoxdur, təminatlı sabahın, işıqlı həyatın yeganə yolu bilikdən, təhsildən keçir. Ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun ölkəmizin ən ucqar məkanlarında da tikdirdiyi məktəblər, reallaşdırdığı genişmiqyaslı təhsil layihələri parlaq gələcəyin qapılarını insanların üzünə açır. "Təhsilə dəstək", "Yeniləşən Azərbaycana yeni məktəblər" layihələri özünün humanist məqsədləri ilə diqqəti çəkir. Bu layihələr çərçivəsində Gürcüstanın Dmanisi rayonunda, Rusiyanın Ulyanovsk şəhərində, habelə Misir Ərəb Respublikasında yeni məktəblər tikilərək istifadəyə verilmişdir. Bir sıra xarici təşkilat və şirkətlərin fonda hədiyyə etdikləri müxtəlif adda minlərlə kitab ölkənin ali və ümumtəhsil məktəblərinə, uşaq evlərinə, internat məktəblərə paylanmışdır.

Azərbaycanda kimsəsiz uşaqlar üçün nəzərdə tutulmuş müəssisələrə sığınan körpələrin problemlərinin həlli hər zaman Heydər Əliyev Fondunun qarşıya qoyduğu əsas vəzifələrdən olmuşdur. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" bilavasitə fondun prezidentinin təşəbbüsü ilə hazırlanmışdır. Bakıda və ətraf qəsəbələrdə yerləşən uşaq evlərində, internat məktəblərdə mövcud problemlər öyrənilmiş, onların aradan qaldırılması üçün konkret işlər görülmüşdür.

Təhsil sahəsində beynəlxalq əməkdaşlıq istiqamətində də çoxsaylı tədbirlər həyata keçirilir. UNESKO-nun diqqətinin ölkənin təhsil problemlərinə cəlb olunması nəticəsində təşkilatlarla münasibətlər daha da dərinləşmiş, bir neçə istiqamətdə əməkdaşlıq əlaqələri qurulmuşdur. Bu əlaqələr əsasən "Təhsil hamı üçün" proqramını, texniki peşə sahəsində əməkdaşlıq, inklüziv təhsil layihəsi, ali məktəblərdə UNESKO kafedralarının yaradılması və digər sahələri əhatə etmişdir.

Heydər Əliyev irsində gənclər siyasəti hər zaman xüsusi yer tuturdu. Ulu Öndər gənclərə xüsusi qayğı göstərir, onların müstəqil Azərbaycanın gələcəyinin təmin olunmasındakı roluna diqqət çəkərək deyirdi: "Gənclərimizə arzu edirəm ki, onlar həmişə sağlam olsunlar, yaxşı təhsil alsınlar, yaxşı tərbiyə alsınlar, cəmiyyətdə öz yerlərini tuta bilsinlər, cəmiyyət üçün faydalı ola bilsinlər, bizim milli ənənələrimizi həmişə yaşatsınlar, valideynlərinə sadiq olsunlar... məktəbdə, ictimai yerlərdə yüksək mədəniyyət nümayiş etdirsinlər".

Mehriban xanım Əliyeva da Heydər Əliyev Fondunun layihələri ilə hər zaman Azərbaycan gəncliyinin yanındadır. Bu layihələrdə gənclərimiz fəal iştirak edir. Onlara öz potensiallarını reallaşdırmaq, öyrəndiklərini həyatda tətbiq etmək, zəngin təcrübə, faydalı bacarıqlar qazanmaq, sosial çevrə formalaşdırmaq imkanı yaradılır. Fondun prezidenti gəncləri bu layihələrə cəlb etməklə ölkəmizdə gənc könüllülər hərəkatını formalaşdırıb. Xalqımızın tarixi keçmişindən gələn əlbir iş ənənələrinə, el-oba naminə təmənnasız xidmətlərə müasir dövrdə yeni məzmun qazandırıb. Bu, Azərbaycan gəncliyinin

vətənpərvərlik ruhunun daha da yüksəlməsinə, onların fərdi inkişafına, öz gələcəklərini arzularındakı kimi qura bilmələrinə çox böyük dəstəkdir. Bütün bunlar, Heydər Əliyev irsinin ana xəttini təşkil edən Vətənə, xalqa təmənnasız xidmət ideyasının gənc nəslə aşılanması baxımından misilsiz əhəmiyyətə malikdir.

Müxtəlif problemlərinin həlli üçün müraciət edən minlərlə insanın pənah qapısına çevrilmiş Heydər Əliyev Fondu səhiyyə, mədəniyyət, idman sahələrində, xalqımızın mənəvi irsinin qorunması və təbliğində, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində ölkəmizin ədalətli mövqeyinin dünya birliyinə düzgün şəkildə çatdırılması işində və digər istiqamətlərdə də çoxşaxəli fəaliyyəti ilə mühüm nailiyyətlərə imza atıb.

Mehriban xanım Əliyevanın Azərbaycandan kənarda apardığı mədəniyyət diplomatiyası işinin nailiyyətləri Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əzmlə həyata keçirdiyi xarici siyasət xəttinə böyük töhfələrdir. Fondun prezidentinin təşəbbüsü ilə müxtəlif ölkələrdə həyata keçirilən sosial-humanitar layihələr Azərbaycanın ayrı-ayrı dövlətlərlə dostluq əlaqələrinin inkişafında çox böyük rol oynayır. Beynəlxalq aləmdə ölkəmizin nüfuzunun daha da yüksəlməsinə, mövqelərimizin möhkəmlənməsinə xidmət edir. Bu ilin noyabrında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Rusiya Federasiyasına rəsmi səfəri, bu ölkədə keçirdiyi yüksəksəviyyəli görüşlər, ona Rusiya Prezidenti Vladimir Putinin "Dostluq" ordenini şəxsən təqdim etməsi bunun daha bir nümunəsi oldu.

### Mədəniyyətlər arasında dialoq məkanı

Ulu Öndər Heydər Əliyev mədəniyyəti xalqın böyük sərvəti hesab edir, hər zaman bu sahənin inkişafına xüsusi diqqət yetirirdi. Müstəqilliyin ilk illərində tənəzzül dövrünü yaşayan mədəniyyətimiz Ulu Öndərin hakimiyyətə qayıdışından sonra yeni inkişaf yoluna qədəm qoydu, bağlanmış teatrlar, muzeylər öz qapılarını yenidən insanların üzünə açdı, ölkəni tərk etmiş istedadlı incəsənət adamları Vətənə geri döndülər. Bu gün də Azərbaycan mədəniyyəti dövlətimizin qayğısından bəhrələnərək yeni sənət nailiyyətləri yaradır. Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun həyata keçirdiyi mədəniyyət layihələri ilə bu sahədə misilsiz rol oynayır. Hələ ötən əsrin 90-cı illərinin ortalarından yaratdığı "Azərbaycan Mədəniyyətinin dostları" Fondunun fəaliyyəti ilə o çətin dövrlərdə milli mədəniyyətimizin inkişafına dəstək olan Mehriban xanım Əliyeva bu gün mədəni dəyərlərimizin hamisidir. O, Azərbaycan muğamına yeni həyat verdi. Sənət adamlarımızı yaradıcılığa ruhlandırdı. Milli mədəniyyətimizi bütün dünyada tanıtdı. Dünya Mehriban xanım Əliyevanın həyata keçirdiyi layihələr sayəsində Azərbaycan mədəniyyətinin zənginliyini, demək olar ki, yenidən kəşf etdi. Bu istiqamətdə fəaliyyət indi də davam etdirilir.

Bu gün dövlətimizin həyata keçirdiyi siyasət, Heydər Əliyev Fondunun reallaş-

dırdığı humanitar layihələr sayəsində Azərbaycan mədəniyyətlər arasında dialoq məkanına çevrilib. Hər il ölkəmizin paytaxtında qlobal humanitar forumlar təşkil olunur. Dünyanın görkəmli elm, mədəniyyət, siyasət xadimlərinin iştirak etdiyi bu forumlarda bəşəriyyətə sülh, insan inkişafı, daha gözəl bir dünyanın qurulması kimi mühüm mesajlar ünvanlanır. Heydər Əliyev irsində xüsusi əhəmiyyət kəsb edən sülhsevərlik, tolerantlıq, başqa mədəniyyətlərə hörmət ruhu, multikulturalizm bu gün Azərbaycanda bir həyat tərzi kimi bütün dünya üçün örnəyə çevrilib. Belə gözəl nümunənin bəşəriyyətə çatdırılmasında Azərbaycanda keçirilən qlobal tədbirlərin təşkili işinə böyük əmək sərf edən Mehriban xanım Əliyevanın rolu müstəsnadır.

Bu ilin mayında Azərbaycanda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib. Bu forumun artıq ölkəmizdə beşinci dəfə keçirilməsi onu göstərir ki, Azərbaycan indi də bütün dünyada beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün son dərəcə əhəmiyyətli ölkədir. Mövzulardan da göründüyü kimi, indiyə qədər keçirilmiş ənənəvi forumların hər biri dövrümüzün ayrı-ayrı aktual problemlərinə həsr edilmişdir.

Dünyanı vahid məkan, bəşəriyyəti isə bir cəmiyyət kimi görmək istəyinin ifadəsi olan bu cür tədbirlər yeni münasibətlər qurmağa, daha mütərəqqi və aktual müzakirələr aparmağa imkan verir. Bəşər mədəniyyətinin inkişafına ənənəvi yanaşmaları dəyişərək daha səmərəli edir.

Mehriban xanım Əliyeva şəxsiyyəti, təlqin etdiyi dəyərlər etibarilə həm Qərb, həm də Şərq dünyasının mütərəqqi cəhətlərini bir araya gətirir. Ölkənin Birinci vitse-prezidenti həm Qərb dünyasına aid UNESKO-nun, həm də Şərq dünyasına mənsub ISESCO-nun xoşməramlı səfiri titulunu daşıyan yeganə şəxsiyyətdir. Bu da, Azərbaycanın Birinci vitse-prezidentinin yerinə yetirdiyi tarixi missiyanın, sivilizasiyalar arasında dialoqun əldə olunması üçün insana xas ən gözəl keyfiyyətlərin – xeyirxahlığın, şəfqətin, mərhəmətin, sevginin gücü ilə təlqin etdiyi dəyərlərin nailiyyətidir.

"Heydər Əliyev müdrik, güclü, cəsarətli, nəhəng intellektə və yenilməz iradəyə malik olan bir insan idi. Eyni zamanda onun ailə üzvü olaraq demək istərdim ki, o, çox xeyirxah, mərhəmətli və humanist insan idi. Adi insanlarla münasibətdə o, çox sadə və ədalətli idi...” Bu, Mehriban xanım Əliyevanın Ulu Öndər haqqında xatirələrindəndir.

Bu gün ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təlqin etdiyi dəyərlər Heydər Əliyev irsində mühüm yer tutur. Heydər Əliyev şəxsiyyəti də humanizmin, barışın, ədalətin təntənəsinin, milli və ümumbəşəri dəyərlərə sadiqlik hissinin rəmzidir. Və bu gün Heydər Əliyev Fondunun fəaliyyəti ilə Mehriban xanım Əliyeva Ulu Öndərin irsinə xidmətin parlaq nümunəsini yaradır.

**İradə ƏLİYEVA.**

www.azerbaijan-news.az

# AZƏRBAYCAN REGİONUN MÜHÜM NƏQLİYYAT QOVŞAĞINA ÇEVRİLİR

**Bu gün Azərbaycan dünyanın mühüm nəqliyyat arteriyasının keçdiyi ölkədir. Belə əlverişli bir mövqeyə çıxmağımızın əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Liderin təşəbbüsü ilə tarixi İpək yolunun yenidən bərpası ölkəmizin mühüm tranzit ölkəyə çevrilməsinin təməlini qoydu.**

Dövlət başçısı İlham Əliyev bu siyasəti uğurla davam etdirdi. Prezident çıxışlarında dəfələrlə qeyd edir ki, nəhəng layihələrin icrasından əvvəl ciddi elmi araşdırmalar aparılaraq qərar verilir. Yəni hər bir layihə təkcə bu günlə bağlı deyil, həm də gələcəyə hesablanıb. Aparılan bu uğurlu siyasət sayəsində Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin qovşağına çevrilib. Beləliklə, dünyanın mühüm nəqliyyat yolları Bakıda birləşir. Bu, ölkəmizin həm iqtisadi, həm də siyasi maraqlarını təmin edir.

Prezident İlham Əliyev ölkəmizdə həyata keçirilən iri tranzit layihələri yüksək dəyərləndirərək demişdir: "Bütün bu layihələr arasında Bakı-Tbilisi-Qars dəmir yolunu mən xüsusi vurğulamaq istəyirəm. Çünki bu, bir neçə səbəbə görə, doğrudan da, strateji obyektdir, strateji infrastrukturdur... Eyni zamanda, biz İrandan da Avropa istiqamətinə Azərbaycan üzərindən yükləri gözləyirik. Bildiyiniz kimi, "Şimal-Cənub nəqliyyat dəhlizi"ndə də Azərbaycan çox fəal iştirak edir. Biz öz ərazimizdə bu dəhlizlə bağlı bütün işləri başa vurmuşuq. Ona görə bütün bu addımların nəticəsində Azərbaycan – açıq dənizlərə çıxışı olmayan bir ölkə beynəlxalq, yəni Avrasiya nəqliyyat mərkəzlərinin birinə çevrilib. Əminəm ki, növbəti illərdə artıq icra edilmiş layihələrin və yeni layihələrin icrası nəticəsində Azərbaycan üzərindən yükdaşımaların həcmi artacaq".

Ölkəmiz dünya miqyaslı bu layihələrin icrası zamanı müxtəlif çətinliklərlə də qarşılaşıb. Belə ki, erməni diasporu və onları dəstəkləyən geniş imkanlara malik siyasi güclər bu layihələrin reallaşmasında problem yaradırdı. Onların əsas məqsədləri Azərbaycan, Gürcüstan və Türkiyənin ərazisindən keçən dəmir yolunun tikintisi və təmirinə maliyyənin ayrılmasına mane olmaq idi.

Lakin Prezident İlham Əliyevin qətiyyəti sayəsində bu layihənin icrasına mane ola bilmədilər. Dövlət başçısı dekabrın 23-də yerli jurnalistlərə müsahibə verərkən bu barədə demişdir: "Bütün bu məsələləri təşkil edəndən sonra gördük ki, biz indi bəzi beynəlxalq təzyiqlə üz-

ləşirik. Bu, bir qədər gözlənilməz idi. Çünki biz yaxşı bilirdik və xəritəyə baxanda hər kəs görür ki, bu yol çox lazımdır. Ancaq bəzi Qərb ölkələri buna etiraz etdilər. Baxmayaraq ki, biz indi onlardan kredit də almaq fikrində deyildik. Ancaq Gürcüstana təzyiqlər başlandı ki, Gürcüstan razılıq verməsin bu layihəyə. Çünki bu layihə həyata keçirilərsə, Ermənistan nəqliyyat dalanında qalacaq. Dünyadakı ermənipərəst qüvvələr, erməni lobbisi, diaspor və ermənipərəst siyasətçilər bu layihənin əleyhinə açıq şəkildə çıxdılar".

Prezident İlham Əliyevin bu sahədə qətiyyətli mövqeyi, Gürcüstanla aparılan uğurlu danışıqlar sayəsində mühüm əhəmiyyətə malik Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə razılıq əldə edildi. Məlumdur ki, Gürcüstanın maliyyə imkanları məhduddur. Azərbaycan dövləti bu problemi də həll etmək üçün qonşu ölkədən keçən dəmir yolunun tikintisinin və təmirinin maliyyələşməsini öhdəsinə götürdü. Beləliklə, həm siyasi, həm də maliyyə tərəfindən Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsinə heç bir maneə qalmadı.

Dövlət başçısının qeyd etdiyi kimi, belə nəhəng nəqliyyat struktur layihələrinin icrası üçün qonşu ölkələrlə yaxşı münasibətlərin olması vacibdir. Ölkəmizin qarşılıqlı fayda əsasında təklif etdiyi əməkdaşlıq qonşu dövlətlər tərəfindən də rəğbətlə qarşılanıb. Bunun nəticəsidir ki, Bakı-Tbilisi-Qars nəqliyyat dəhlizinin icrasından sonra "Şimal-Cənub nəqliyyat dəhlizi" istiqamətində də uğurlu nailiyyətlər qazandıq. Bu da Rusiya və İranla olan dövlətlərarası münasibətlərimizin yaxşı olması sayəsində mümkün olub. Çünki bu layihənin icrası da hər iki ölkənin mənafeyinə xidmət edir.

Azərbaycan nəqliyyat dəhlizlərindən daha çox yükün daşınması üçün təkcə qonşu ölkələrlə deyil, həm də region ölkələri ilə ciddi şəkildə əməkdaşlıq edir. Bu gün Çin-Qazaxıstan-Xəzər-Azərbaycan-Gürcüstan-Türkiyə yolundan Türkmənistan, Əfqanıstan da istifadə etməkdədir. Beləliklə, Əfqanıstan-Türkmənistan-Azərbaycan Avropa dəmir yolu xətləri birləşir. Eyni zamanda, İran və Rusiyadan da Azərbaycan üzərindən Avropaya yüklərin daşınmasına başlanıb.

Bu nəqliyyat dəhlizləri ölkəmiz üçün uzunmüddətli gəlir mənbəyi olacaq. Bununla bərabər, region ölkələri ilə əməkdaşlığı gücləndirəcək, beynəlxalq əhəmiyyətli tranzit ölkəsi kimi siyasi nüfuzumuz da artacaq. Belə əlverişli mövqe Azərbaycanı regionda və beynəlxalq miqyasda söz sahibinə çevirəcək.

**Rüstəm KAMAL.**
www.azerbaijan-news.az

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

## AZƏRBAYCAN RESPUBLİKASI CİNAYƏT-PROSESSUAL MƏCƏLLƏSİNİN 142-ci MADDƏSİNİN ŞƏRH EDİLMƏSİNƏ DAİR

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**
**Q Ə R A R I**

8 yanvar 2020-ci il Bakı şəhəri

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov (məruzəçi-hakim), Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri Teyyub Muxtarov və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin baş məsləhətçisi Elnur Nuriyevin,

ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Firuzə Abbasovanın,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İnqilab Nəsirov və Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarənin rəis müavini Mürvət Həsənovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 7, 21, 25, 33, 141, 142 və 145-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 60, 63, 71 və 125-ci maddələri baxımından şərh edilməsinə dair Gəncə Apellyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim R.İsmayılovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Gəncə Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəlləsi) 7, 21, 25, 33, 141, 142 və 145-ci maddələrinin Azərbaycan Respublikası

Konstitusiyasının (bundan sonra – Konstitusiya) 60, 63, 71 və 125-ci maddələri baxımından şərh olunmasını xahiş etmişdir.

Müraciətdə qeyd olunur ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra - Cinayət Məcəlləsi) 181-ci maddəsi ilə ittiham olunan R.Rzayev Gəncə Ağır Cinayətlər Məhkəməsinin 4 fevral 2019-cu il tarixli hökmü ilə həmin Məcəllənin 322.2-ci maddəsi ilə təqsirli bilinərək hər ay qazancının 20 faizi dövlət nəfinə tutulmaqla 2 il müddətə islah işləri cəzasına məhkum edilmişdir. Həmin hökmdən dövlət ittihamçısı tərəfindən verilmiş apellyasiya protestinin dəlillərindən biri ondan ibarət olmuşdur ki, R.Rzayevin əməlinə məhkəmə tərəfindən hüquqi qiymət verilərkən qrupun digər üzvü D.Əsgərovun Cinayət Məcəlləsinin 126, 181 və 221-ci maddələri ilə təqsirli bilinməsinə dair Bakı Ağır Cinayətlər Məhkəməsinin 13 iyun 2018-ci il tarixli hökmünün mövcudluğu nəzərə alınmamışdır. Belə ki, həmin hökmdə irəli sürülmüş ittiham üzrə D.Əsgərovun təqsirləndirildiyi cinayət əməlini yəni, Cinayət Məcəlləsinin 181.2.1 və 181.2.5-ci maddələri ilə nəzərdə tutulmuş quldurluq cinayətini R.Rzayevlə qabaqcadan əlbir olan qrup halında törətməsi qeyd edilərək D.Əsgərov 11 il altı ay müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir. Bakı Apellyasiya Məhkəməsinin 20 avqust 2018-ci il tarixli qərarı ilə D.Əsgərov qəti olaraq 10 il müddətinə azadlıqdan məhrum edilmiş, Bakı Ağır Cinayətlər Məhkəməsinin 13 iyun 2018-ci il tarixli hökmü qalan hissədə dəyişdirilməmiş və qanuni qüvvəyə minmişdir.

Bununla əlaqədar müraciətedən qeyd edir ki, Bakı Ağır Cinayətlər və Bakı Apellyasiya Məhkəmələrində D.Əsgərovun barəsində olan cinayət işinə baxılarkən R.Rzayev təqsirləndirilən şəxs qismində iştirak etməsə də, həmin məhkəmələr tərəfindən həm müəyyən olunmuş hallara, həm də onlara verilmiş hüquqi qiymətə görə onun təqsirliliyinə birbaşa təsir edə biləcək məhkəmə qərarları qəbul edilmiş və qanuni qüvvəyə minmişdir.

Müraciətedənin qənaətinə görə, məsələ ilə bağlı vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədi ilə Cinayət-Prosessual Məcəlləsinin preyudisiyaya həsr olunmuş 142.1-ci maddəsinin Konstitusiyanın 60 və 63-cü maddələri baxımından şərh edilməsi zəruridir.

Müraciətdə qaldırılan digər məsələ isə inzibati mübahisə üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarı əsasında müəyyən edilmiş verginin məbləği ilə cinayət işi üzrə birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş vergi məbləği arasında kəskin fərqin aşkarlanması ilə bağlıdır. Belə ki, bu fərq təqsirləndirilən şəxsin əməlinin cinayət qanunvericiliyinin müvafiq maddəsi ilə tövsifinə mühüm təsir göstərir.

Müraciətdən göründüyü kimi, Y.Hidayətov Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinə qarşı 30 mart 2015-ci il tarixli vergi yoxlaması aktı, eləcə də bu akt əsasında vergiödəyicisinin vergi məsuliyyətinə

cəlb edilməsinə dair 5 may 2015-ci il tarixli qərarın etibarsız hesab olunmasına dair iddia tələbi ilə Gəncə İnzibati-İqtisadi Məhkəməsinə müraciət etmişdir.

Mübahisələndirilən aktlara əsasən, Y.Hidayətova ümumilikdə 776.114 manat məbləğində maliyyə sanksiyası tətbiq edilərək onun vergi məsuliyyətinə cəlb edilməsi qərara alınmışdır. Gəncə İnzibati-İqtisadi Məhkəməsinin 31 may 2015-ci il tarixli qərarı ilə Y.Hidayətovun iddiası təmin edilməmiş və həmin məhkəmə aktı qanuni qüvvəyə minmişdir.

Müraciətdə daha sonra göstərilir ki, istintaq orqanı tərəfindən irəli sürülmüş ittihama əsasən təqsirləndirilən şəxs Z.Hidayətov Azərbaycan Respublikası Vergi Məcəlləsinin (bundan sonra – Vergi Məcəlləsi) bir sıra maddələrinin tələblərini pozaraq, ümumilikdə, 847.104,54 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmış və bununla da Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsində nəzərdə tutulmuş əməli törətmişdir.

Bərdə Rayon Məhkəməsinin 4 iyun 2018-ci il tarixli hökmü ilə isə Z.Hidayətov Cinayət Məcəlləsinin 213.1-ci maddəsində nəzərdə tutulan cinayət əməlini törətməkdə təqsirli bilinərək 2 il müddətə dövlət və yerli özünüidarə orqanlarında rəhbər və maddi məsul vəzifə tutmaq hüququndan məhrum edilməklə, qazancının 20 faizi məbləğində pul dövlət nəfinə tutulmaqla 2 il müddətə islah işləri cəzasına məhkum edilmişdir. Bərdə Rayon Məhkəməsinin qeyd olunan hökmünə əsasən, Z.Hidayətov Vergi Məcəlləsinin bir sıra tələblərini pozaraq ümumilikdə 68.469,13 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmışdır. Dövlət ittihamçısı tərəfindən həmin hökmdən apellyasiya protesti verilmişdir.

Müraciətedənin qənaətinə görə, Cinayət-Prosessual Məcəlləsinin 142.2-ci maddəsinin məzmunundan belə aydın olur ki, inzibati mübahisə üzrə qanuni qüvvəyə minmiş məhkəmənin qərarı cinayət işi üzrə yalnız hadisənin, yaxud hərəkətin olub-olmaması hissəsində məcburidir. Gəncə Apellyasiya Məhkəməsi qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə müəyyən edilmiş vergi məbləği ilə cinayət işi üzrə icraat zamanı toplanmış sübutlar əsasında müəyyən edilmiş vergi məbləği arasında fərqlər yarandığı halda cinayət işinə baxan məhkəmənin Cinayət-Prosessual Məcəlləsinin 142.2-ci maddəsinin tələbinə müvafiq olaraq qanuni qüvvəyə minmiş məhkəmə qərarının məcburiliyini qəbul etməsinin cinayət işi üzrə təqsirləndirilən şəxsin təqsirinin əvvəlcədən müəyyən edilməsinə səbəb olub-olmaması məsələsinə aydınlıq gətirilməsinin vahid məhkəmə təcrübəsinin formalaşdırılması baxımından məqsədəmüvafiq olduğu qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətdə qaldırılan məsələlər ilə bağlı aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Konstitusiyanın 60-cı maddəsinin I hissəsinə əsasən, hər kəsin hüquq və azadlıq-

larının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı hüquqi mövqeyə görə, məhkəmə müdafiəsi müstəqil məhkəmə tərəfindən ədalətli məhkəmə araşdırması əsasında hüquqların səmərəli bərpa edilməsi kimi qəbul olunur. Ədalət mühakiməsi mahiyyət etibarilə ədalət anlayışına cavab verməli və pozulmuş hüquqların bərpa olunmasını təmin etməlidir (Konstitusiya Məhkəməsi Plenumunun S.Abbasovanın şikayəti üzrə 2016-cı il 14 oktyabr tarixli, F.Şirinovun şikayəti üzrə 2016-cı il 16 noyabr tarixli və s. qərarları).

Bu hüququn məzmunu Konstitusiyanın norma və prinsipləri, o cümlədən hüquqi müəyyənlik prinsipinin tələbləri nəzərə alınmaqla başa düşülməlidir. Həmin prinsipi təmin edən vasitələrdən biri qanuni qüvvəyə minmiş məhkəmə aktlarının preyudisiallığıdır.

Preyudisiya, daha əvvəl baxılan iş üzrə sübutetmə predmetinə aid olan və qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə müəyyənləşdirilən halların bir daha sübuta yetirilməsi zərurətindən azad olunmanı nəzərdə tutur.

Qanuni qüvvəyə minmiş məhkəmə qərarının preyudisiallığı, barəsində bu qərarın çıxarıldığı şəxslərin dairəsi ilə məhdudlaşdırılır və aşağıdakı hər üç şərtin mövcudluğu halında mümkün olur:

– konkret fakt bir iş üzrə cinayət prosesinin iştirakçısının iştirak etdiyi başqa bir iş üzrə çıxarılmış və qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə müəyyən edilmiş olmalıdır;

– bu fakt hər iki iş üzrə sübutetmə predmetinə aid olmalıdır;

– hər iki işdə şəxsin hüquqi statusu eyni olmalıdır.

Konstitusiya Məhkəməsi Plenumunun hüquqi mövqeyinə görə, preyudisiya institutu məhkəmə aktlarına yenidən baxılmasının qarşısının alınmasına, məhkəmə təcrübəsində eyniliyin, sabitliyin və hüquqi müəyyənliyin təmin edilməsinə yönəlmişdir. Preyudisiallığı tənzim edən normalar sübut etmə prosesini sadələşdirməyə, işlərə baxılma müddətinin qısaldılmasına, məhkəmələrin, eləcə də məhkəmə prosesi iştirakçılarının vəsaitinə qənaət edilməsinə yönəlmişdir ("Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.3-cü maddəsinin şərh edilməsinə dair" 2016-cı il 23 fevral tarixli Qərarı).

Qüvvəyə minmiş məhkəmə qərarlarının preyudisial əhəmiyyətinin tanınması üçün preyudisiallığın obyektiv və subyektiv hədlərinin məcmusu müəyyən edilməlidir. Konstitusiya Məhkəməsinin Plenumu mülki mübahisələr üzrə qüvvəyə minmiş məhkəmə qərarlarının preyudisiallığının hədləri ilə bağlı hesab etmişdir ki, preyudisiallıq prinsipi yalnız əvvəlki və ya sonrakı proseslərdə iştirak edən tərəflərə, işdə iştirak edən digər şəxslərə və onların hüquq varislərinə aid edilir ("Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.3-cü maddəsinin şərh edilməsinə dair" 2016-cı il 23 fevral tarixli Qərar).

Cinayət-Prosessual Məcəlləsinin 142.1-ci maddəsinə əsasən, cinayət təqibi üzrə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü cinayət təqibi üzrə icraatda həm müəyyən olunmuş hallara, həm də onların hüquqi qiymətinə görə təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə üçün məcburidir. Həmin Məcəllənin 142.2-ci maddəsinə müvafiq olaraq, mülki iş, inzibati və ya iqtisadi mübahisə üzrə qanuni qüvvəyə minmiş məhkəmənin qərarı cinayət işi üzrə icraatda təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəməyə yalnız hadisənin, yaxud hərəkətin olub-olmaması hissəsində məcburidir və təqsirləndirilən şəxsin təqsirli olub-olmaması nəticəsini əvvəlcədən həll etmir.

Göründüyü kimi, qanunverici cinayət prosesində sahədaxili (Cinayət-Prosessual Məcəlləsinin 142.1-ci maddəsi) və sahələrarası preyudisiyanı (Cinayət-Prosessual Məcəlləsinin 142.2-ci maddəsi) müxtəlif cür müəyyənləşdirmişdir. Belə ki, cinayət prosesində sahədaxili preyudisiyanın tətbiqi zamanı qüvvəyə minmiş məhkəmə hökmündə müəyyən olunan hallar və onların hüquqi qiyməti sonrakı cinayət işləri üzrə icraatda məcburi olduğu halda, sahələrarası preyudisiyaya görə mülki, inzibati və ya iqtisadi işlər üzrə qanuni qüvvəyə minmiş qərarlar yalnız hadisənin, yaxud hərəkətin olub-olmaması hissəsində məcburidir.

Digər tərəfdən Cinayət-Prosessual Məcəlləsinin 142-ci maddəsində preyudisiyanın subyektiv hədləri, yəni məhkəmə hökmünün qanuni qüvvəsinin şamil edildiyi şəxslərin dairəsi dəqiq müəyyən olunmamışdır.

Preyudisiyanın subyektiv hədləri cinayət prosesində tərəf olaraq məhkəmədə öz mövqeyini bildirən və həmin mövqeyin əsaslandırılması üçün sübutlarını təqdim edən şəxslərin dairəsi ilə müəyyən edilir. Subyektiv hədlərə daxil olan fiziki şəxslər prosessual təminatların maksimal həcminə malik olmalı və həmin şəxslər sübutetmə predmetinə daxil olan halların toplanmasına və qiymətləndirilməsinə təsir etmək imkanına malik olmalıdırlar.

Bu baxımdan qeyd olunmalıdır ki, qüvvəyə minmiş məhkəmə hökmünün preyudisiallığının həmin cinayət prosesində təqsirləndirilən şəxs statusunda iştirak etməyən şəxslərə şamil edilməsi sonuncuları cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilən təminatlardan, o cümlədən məhkəmə icraatında müdafiə (Konstitusiyanın 127-ci maddəsinin VIII hissəsi) və təqsirsizlik prezumpsiyası hüquqlarından (Konstitusiyanın 63-cü maddəsi) məhrum etməklə onların Konstitusiyanın 60-cı maddəsində təsbit edilmiş hüquq və azadlıqlarının məhkəmə müdafiəsi hüququnun pozulması ilə nəticələnə bilər.

Müraciətdə də göstərildiyi kimi, belə hallar əsasən iştirakçılıqla cinayət əməlinin törədilməsində təqsirləndirilən şəxslər barəsində aparılan cinayət təqibi üzrə icraatın ayrılması nəticəsində əmələ gəlir. Bu zaman ayrılan cinayət işi üzrə sübuta yetirilməli olan hallardan bir qismi digər cinayət işinə dair artıq qüvvəyə minmiş məhkəmə hökmü ilə təsbit edilmiş hallarla üst-üstə düşə bilər.

Qüvvəyə minmiş hökmlə müəyyən olunmuş halların və onlara verilən hüquqi qiymətin ayrılmış cinayət işi üzrə təqsirləndirilən şəxsə münasibətdə məcburiliyi faktiki olaraq onun barəsində məhkəmə hökmü qüvvəyə minənədək təqsirli olub-olmaması məsələsini əvvəlcədən həll edə bilər. Burada nəzərə almaq lazımdır ki, Konstitusiyanın 63-cü maddəsinin I hissəsinə əsasən, hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır.

Yuxarıda göstərilən konstitusiya müddəasının mənasına görə, cinayət-prosessual qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydalara riayət olunmadan heç kəs təqsirli sayıla bilməz. Həmin prosessual qaydaların vacib hissəsini təqsirləndirilən şəxsin sübutların tədqiq olunmasında iştirakına dair normalar təşkil edir.

Həmçinin nəzərə almaq lazımdır ki, cinayət-prosessual qanunvericiliklə sübutların toplanılmasına, yoxlanılmasına və qiymətləndirilməsinə dair təsbit edilmiş müddəalar işin həqiqətə uyğun olan faktiki hallarının müəyyənləşdirilməsinə xidmət etməklə yanaşı, həm də şəxsiyyətin hüquqlarına aid vacib prosessual təminatlar kimi çıxış edir. Göstərilən təminatlar sisteminə isə Konstitusiyadan irəli gələn cinayət mühakimə icraatının vacib prinsiplərindən hesab edilən təqsirsizlik prezumpsiyası, cinayət işi üzrə sübutetmənin ittiham tərəfinin üzərinə qoyulması, müdafiə hüququ və s. aiddir. Onlara riayət olunması cinayət işi üzrə icraatın aparılması zamanı qanunçuluğun təmin edilməsinin ayrılmaz şərtini təşkil edir.

Konstitusiya Məhkəməsinin Plenumu vurğulayır ki, müraciətdə qaldırılan məsələnin yaranması səbəblərindən biri də Cinayət-Prosessual Məcəlləsinin 50 və 211-ci maddələrinin düzgün tətbiq edilməməsi ilə bağlıdır.

Cinayət-Prosessual Məcəlləsinin 50.1-ci maddəsi müstəntiqə, prokurora, hakimə cinayət təqibi üzrə icraatı ayırmaq hüququ verməklə yanaşı, bu cür ayırmanın mümkün olduğu şərtləri də müəyyənləşdirir. Qeyd olunan maddədə nəzərdə tutulmuş qaydanın müəyyən edilməsi prosessual qənaət məqsədi güdsə də, mütləq şərt kimi cinayət işləri üzrə ayrıca icraatların cinayət təqibi ilə əlaqədar bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsinə maneə olmamasını da nəzərdə tutur.

Həmçinin Cinayət-Prosessual Məcəlləsinin 211-ci maddəsi cinayət işlərinin birləşdirilməsi və cinayət işinin materiallarından başqa cinayət işinin ayrılması şərtlərini və qaydasını müəyyən edir. Cinayət-Prosessual Məcəlləsinin 211.3-cü maddəsinə əsasən, bu Məcəllənin 211.2-ci maddəsində nəzərdə tutulmuş şərtlərdən biri və ya bir neçəsi mövcud olsa da, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında araşdırılmasına

maneələr olduqda başqa cinayət işi ayrıla bilməz.

Cinayət-Prosessual Məcəlləsinin 50.3-cü maddəsi həmin Məcəllənin 9.1.3 və 211-ci maddələri ilə əlaqəli şəkildə cinayət işinin ayrıca icraata ayrılması barədə qərar qəbul edərkən müstəntiq, prokuror və hakimin üzərinə müvafiq hüquqi və faktiki əsasların göstərilməsi vəzifəsini qoyur. Cinayət işinin ədalətli həlli üçün bu cür qərar onun qəbul olunmasının vacibliyini təsdiq edən və iş materiallarında öz əksini tapmış konkret hallara, həmçinin maddi və prosessual hüquq normalarına əsaslanmaqla qəbul edilməlidir.

Müraciətdə qaldırılan məsələyə dair İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra – Avropa Məhkəməsi) təcrübəsi də diqqətəlayiqdir. Belə ki, Avropa Məhkəməsinin presedent hüququna əsasən, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiya (bundan sonra – Konvensiya) cinayət işi üzrə hüquqi prezumpsiyaların və faktların prezumpsiyalarının istifadə edilməsini qadağan etmir, lakin dövlətlərdən təqsirləndirilən şəxs üçün işin nəticəsinin vacibliyinin nəzərə alınmasını və onun müdafiə hüququnun təmin edilməsi məqsədi ilə belə istifadənin ağlabatan hədlərlə məhdudlaşdırılmasını tələb edir (Salabiaku Fransaya qarşı iş üzrə 1988-ci il 7 oktyabr tarixli Qərar, § 28; Radio France və digərləri Fransaya qarşı iş üzrə 2004-cü il 30 mart tarixli Qərar, § 24).

Avropa Məhkəməsi bir sıra qərarlarında qeyd etmişdir ki, təqsirsizlik prezumpsiyasına və şahidlərin dindirilməsinə təminat verən Konvensiyanın 6-cı maddəsinin 2-ci və 3(d)-cü bəndləri, həmin maddənin 1-ci bəndi ilə təsbit olunmuş ədalətli məhkəmə araşdırması hüququnun tərkib hissələrini təşkil etməklə, ümumilikdə, məhkəmə araşdırmasının ədalətliliyinin qiymətləndirilməsi zamanı nəzərə alınmalıdır (Böyük Palatanın G ..afgen Almaniyaya qarşı iş üzrə 2010-cu il 1 iyun tarixli Qərar; Al-Khawaja və Tahery Birləşmiş Krallığa qarşı iş üzrə 2011-ci il 15 dekabr tarixli Qərar).

Avropa Məhkəməsi həm də hesab etmişdir ki, bir neçə şəxsin iştirakı ilə törədilən mürəkkəb cinayət işinin eyni icraatda aparılması mümkün olmadıqda, təqsirləndirilən şəxslərin təqsiri məsələsini həll etmək məqsədi ilə məhkəmə, cinayətin törədilməsində iştirak edən və sonradan ayrıca mühakimə ediləcək üçüncü şəxslərin adlarının çəkilməməsini tələb edə bilər. Cinayət işlərinə baxan məhkəmələr, təqsirləndirilən şəxslərin hüquqi məsuliyyəti ilə əlaqədar məsələni daha dolğun və dəqiq həll etmək üçün vacib olan işin hallarını müəyyən etməyə borcludurlar və müəyyən olunmuş hallar barəsində, sadəcə, mülahizə və ya şübhə kimi bəhs edə bilməzlər. Bu, həmçinin üçüncü şəxslərin iştirakçılığı ilə əlaqədar hallara da aiddir. Lakin bu halların qeyd olunması vacib olduqda, məhkəmə təqsirləndirilən şəxsin hüquqi məsuliyyətinin həll olunması üçün labüd olmayan

dəlilləri təqdim etməkdən çəkinməlidir. Bu baxımdan məhkəmə qərarlarının tərtibatında digər iş üzrə məhkəmə araşdırmasının ədalətliliyini şübhə altına qoymamaq üçün üçüncü şəxslərin təqsiri ilə əlaqədar ilkin mülahizələrdən çəkinmək lazımdır (Karaman Almaniyaya qarşı iş üzrə 2014-cü il 27 fevral tarixli Qərar, § 64-65).

Eyni zamanda, Avropa Məhkəməsi qeyd etmişdir ki, irəli sürülmüş ittihamın xarakteri məhkəməyə üçüncü şəxslərin iştirakçılığına dair gəldiyi qənaətə toxunmamağa imkan vermirsə və bu qənaət ayrıca mühakimə ediləcək üçüncü şəxslərin hüquqi məsuliyyətinə dair qərara təsir edə bilərsə, belə hal işin ayrıca icraata ayrılması üçün ciddi maneə kimi qiymətləndirilməlidir. Ümumi hallar baxımından bir-biri ilə sıx əlaqəli olan işlərə ayrılıqda baxılmasına dair istənilən qərar bütün toqquşan maraqların hərtərəfli təhlilinə əsaslanmalı və digər təqsirləndirilən şəxslərə işin ayrıca icraata ayrılmasına etiraz etmək imkanı təqdim edilməlidir. Ayrıca icraatın aparılması ilə əlaqədar ikinci tələb isə onu nəzərdə tutur ki, digər təqsirləndirilən şəxslərin iştirakı olmadan müəyyən edilmiş hallar, həmin şəxslərə münasibətdə preyudisial əhəmiyyət kəsb etməməlidir. Bir iş üzrə istifadə olunmuş sübutların statusu sırf nisbi qalmalı, onların qüvvəsi mövcud konkret mühakimə icraatı ilə məhdudlaşmalıdır (2016-cı il 23 fevral tarixli Qərar, 46632/13 və 28671/14, § 104-105).

Müraciətdə qaldırılan digər məsələ ilə əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu bir daha qeyd etməyi vacib hesab edir ki, qanuni qüvvəyə minmiş məhkəmə qərarının preyudisiallığı işdə iştirak edən şəxslərin dairəsi ilə məhdudlaşdırılır. Müraciətin məzmunundan göründüyü kimi, Gəncə İnzibati-İqtisadi Məhkəməsinin icraatında olan inzibati iş üzrə iddiaçı qismində Y.Hidayətov çıxış etdiyi halda, sonradan Bərdə Rayon Məhkəməsinin icraatında olan cinayət işi üzrə təqsirləndirilən şəxs qismində başqa şəxs – Z.Hidayətov cəlb olunmuşdur. Bu, preyudisiyanın mövcud olmamasına dəlalət etməklə, yuxarıda göstərilən hüquqi mövqeyə müvafiq olaraq Cinayət-Prosessual Məcəlləsinin 142.2-ci maddəsinin tətbiqini istisna edir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– Preyudisiya, daha əvvəl baxılan iş üzrə sübutetmə predmetinə aid olan və qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə müəyyənləşdirilən halların bir daha sübuta yetirilməsi zərurətindən azad olunmanı nəzərdə tutur. Qanuni qüvvəyə minmiş məhkəmə hökmünün preyudisiallığı, həmin hökmün çıxarıldığı şəxslərin dairəsi ilə məhdudlaşır;

– Konstitusiyanın 60-cı maddəsinin I hissəsi, 63-cü maddəsi və 127-ci maddəsinin VIII hissəsinin tələbləri baxımından Cinayət-Prosessual Məcəlləsinin 142.1-ci maddəsinin müddəaları cinayət təqibi üzrə təqsirləndirilən şəxsə münasibətdə o halda şamil edilir ki, həmin şəxsin təqsirliyi və ya təqsirsizliyi məhkəmə müdafiəsi hüqu-

qundan irəli gələn təminatlara riayət edilməklə digər əlaqəli cinayət işi üzrə qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə müəyyən edilmiş olsun;

– Cinayət-Prosessual Məcəlləsinin 50 və 211-ci maddələrinin tələblərindən irəli gələrək cinayət təqibi üzrə icraatı ayırmaq qərarı verən müstəntiq, prokuror və ya hakim bu cür ayrılmanın mümkün olduğu şərtləri müəyyənləşdirməli, bu qərarın müvafiq hüquqi və faktiki əsaslarını göstərməli, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında araşdırılmasına maneələr olduğu hallarda belə ayırmadan çəkinməlidirlər.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Preyudisiya, daha əvvəl baxılan iş üzrə sübutetmə predmetinə aid olan və qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə müəyyənləşdirilən halların bir daha sübuta yetirilməsi zərurətindən azad olunmanı nəzərdə tutur. Qanuni qüvvəyə minmiş məhkəmə hökmünün preyudisiallığı, həmin hökmün çıxarıldığı şəxslərin dairəsi ilə məhdudlaşır.

2. Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsi, 63-cü maddəsi və 127-ci maddəsinin VIII hissəsinin tələbləri baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142.1-ci maddəsinin müddəaları cinayət təqibi üzrə təqsirləndirilən şəxsə münasibətdə o halda şamil edilir ki, həmin şəxsin təqsirliyi və ya təqsirsizliyi məhkəmə müdafiəsi hüququndan irəli gələn təminatlara riayət edilməklə digər əlaqəli cinayət işi üzrə qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə müəyyən edilmiş olsun.

3. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 50 və 211-ci maddələrinin tələblərindən irəli gələrək cinayət təqibi üzrə icraatı ayırmaq qərarı verən müstəntiq, prokuror və ya hakim bu cür ayrılmanın mümkün olduğu şərtləri müəyyənləşdirməli, bu qərarın müvafiq hüquqi və faktiki əsaslarını göstərməli, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında araşdırılmasına maneələr olduğu hallarda isə belə ayırmadan çəkinməlidirlər.

4. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

5. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

6. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir oluna bilməz.

**Sədr:** **Fərhad Abdullayev.**

www.constcourt.gov.az

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*(Çıxarış)*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 43.1-ci maddədə "204-208," rəqəmlərindən sonra "211," rəqəmləri əlavə edilsin.

**2.** 211-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 211. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması**

Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə –

fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər iki min manatdan beş min manatadək məbləğdə cərimə edilir.

**3.** 388-1-ci maddə üzrə:

**3.1.** maddənin adında və 388-1.1.1-ci maddənin dispozisiyasında "ehtiyatında" sözündən sonra "və ya informasiya-telekommunikasiya şəbəkəsində" sözləri əlavə edilsin;

**3.2.** 388-1.1-ci maddənin dispozisiyasında "sahibi" sözündən sonra "və ya informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçisi" sözləri əlavə edilsin;

**3.3.** 388-1.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"fiziki şəxslər beş yüz manatdan min manatadək, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq edilir, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 mart 2020-ci il
№ 27-VIQD

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə dəyişiklik edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU
*(Çıxarış)*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə aşağıdakı məzmunda 139-1-ci maddə əlavə edilsin:

**"Maddə 139-1. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması**

**139-1.1.** Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayılması üçün real təhlükə yaratdıqda –

iki min beş yüz manatdan beş min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**139-1.2.** Eyni əməllər ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda -

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17mart 2020-ci il.

## Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında

**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİNİN QƏRARI**

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının Qanununun 25-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınması məqsədilə insanların həyat və fəaliyyəti üçün zəruri olan iş və

xidmət sahələrindən başqa, digər istiqamətlər üzrə fəaliyyət 31 mart 2020-ci il saat 00:00-dan 20 aprel 2020-ci il saat 00:00-dək dayandırılsın.

**2.** Müəyyən edilsin ki, insanların fərdi evlərdən və mənzillərdən çıxışı təxirəsalınmaz tibbi yardıma zərurət olduqda, həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandıqda, fəaliyyətinə icazə verilən pərakəndə satış və əhaliyə xidmət göstərən obyektlərə getmək, məişət tullantılarının atılması hallarında, eləcə də xüsusi rejim dövründə fəaliyyət göstərən təşkilatlarda xidməti vəzifələrini icra etmək məqsədilə mümkündür.

**3.** İnsanların bir-biri ilə ünsiyyətini minimuma endirmək və bununla da infeksiyaya yoluxmanın sürətinin azaldıması məqsədilə aşağıdakı iş və xidmət sahələri üzrə fəaliyyət bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş müddətdə qadağan edilir:

**3.1.** bütün ticarət və ictimai iaşə məkanlarında, o cümlədən restoran, kafe və çay evlərində müştərilərə yerində xidmətlər (supermarketlərin, ərzaq mağazalarının və apteklərin fəaliyyəti, evə götürmə, çatdırma və onlayn satışlar istisna olmaqla);

**3.2.** istirahət və əyləncə məkanları üzrə xidmətlər;

**3.3.** mədəniyyət obyektlərinin, eləcə də muzey və sərgi zallarının, kinoteatrların, teatrların, idman zallarının fəaliyyəti;

**3.4.** bərbərxanaların, gözəllik salonlarının fəaliyyəti, massaj, hamam və kosmetik xidmətlər (o cümlədən, bu sahələrdə müştərinin evində və ya digər məkanlarda xidmət);

**3.5.** dəfn mərasimləri istisna olmaqla, dini ritual xidmətləri, eləcə də mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin təşkili xidmətləri;

**3.6.** dərzi xidmətləri (o cümlədən, bu sahədə müştərinin evində və ya digər məkanlarda xidmət);

**3.7.** fotoatelye/fotostudiyalar (o cümlədən, bu sahədə müştərinin evində və ya digər məkanlarda xidmət);

**3.8.** tədbirlərin təşkili üzrə xidmətlər (o cümlədən, bu sahədə müştərinin evində və ya digər məkanlarda ad günləri, toy, nişan və bu kimi mərasimlərin təşkili);

**3.9.** idman, sağlamlıq-bərpa üzrə xidmətlər (bu sahədə tibbi xidmətlər istisna olmaqla);

**3.10.** fərdi mənzillərdə təmizlik xidmətləri;

**3.11.** fərdi tədris və repetitor xidmətləri (o cümlədən bu sahədə evlərdə xidmət).

**4.** Bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş müddətdə xüsusi rejim dövrünün tələblərinə əməl olunması şərtilə aşağıdakı istiqamətlərdə fəaliyyətin davam etdirilməsinə icazə verilir:

**4.1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən siyahısı müəyyənləşdirilən dövlət orqanları və təşkilatları;

**4.2.** səhiyyə və sosial sahə üzrə:

**4.2.1.** elmi-tədqiqat və laborator xidmətləri;

**4.2.2.** xəstəxanalar, poliklinikalar və digər tibb müəssisələri üzrə xidmətlər;

**4.2.3.** baytarlıq xidmətləri;

**4.2.4.** tibbi avadanlıqların, dərmanların və tibbi vasitələrin istehsalı;

**4.2.5.** sosial xidmətlər;

**4.2.6.** əqli qüsurlu və xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün baxıcılıq xidməti.

**4.3.** infrastruktur sahəsi üzrə:

**4.3.1.** kommunal xidmətlər (kanalizasiya və su təchizatı, qaz təchizatı, istilik təchizatı, enerji paylanması);

**4.3.2.** elektrik enerjisinin istehsalı və təchizatı;

**4.3.3.** su təchizatı və meliorasiya;
**4.3.4.** telekommunikasiya və rabitə xidmətləri.
**4.4.** nəqliyyat və logistika sahəsi üzrə:
**4.4.1.** hava, dəniz, dəmir yolu və avtomobil nəqliyyatı ilə yük daşımaları;
**4.4.2.** dəmir yolu, dəniz gəmiçiliyi, liman və avtomobil yolları xidmətləri;
**4.4.3.** logistika xidmətləri;
**4.4.4.** ictimai nəqliyyat və taksi xidmətləri.
**4.5.** əsas istehsalat növləri:
**4.5.1.** müdafiə sənayesi məhsullarının istehsalı;
**4.5.2.** neft avadanlıqlarının və qurğularının istehsalı;
**4.5.3.** qida məhsullarının və onlar üçün xammal istehsalı, qida məhsullarının tədarükü, təchizatı, saxlanması və topdan satışı;
**4.5.4.** gündəlik baxım və gigiyena vasitələrinin istehsalı;
**4.5.5.** kimyəvi məhsulların istehsalı;
**4.5.6.** kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, o cümlədən fermer təsərrüfatlarının fəaliyyəti;
**4.5.7.** əkinçilik və məhsul yığımı;
**4.5.8.** neft və qazın hasilatı, emalı, saxlanması və satışı;
**4.5.9.** neft və qazın boru kəmərləri vasitəsilə ötürülməsi;
**4.5.10.** metallurgiya sənayesi üzrə fəaliyyət;
**4.5.11.** tikinti və məişət avadanlıqlarının istehsalı və təmiri;
**4.5.12.** mühəndislik və layihələndirmə xidmətləri;
**4.5.13.** mülki və sənaye təyinatlı bina və qurğuların, yolların tikintisi və təmiri;
**4.5.14.** qablaşdırma məhsullarının istehsalı;
**4.5.15.** daş, metal və taxta məhsullarının istehsalı;
**4.5.16.** mebel istehsalı və təmiri;
**4.5.17.** diri heyvanların kəsimi.
**4.6.** pərakəndə və topdan satış üzrə:
**4.6.1.** ərzaq məhsullarının satış məntəqələri;
**4.6.2.** apteklər;
**4.6.3.** yanacaqdoldurma məntəqələri;
**4.6.4.** zoomağazalar, o cümlədən heyvanlar üçün yem satış məntəqələri;
**4.6.5.** tikinti materiallarının və məişət xırdavatlarının satışı məntəqələri.
**4.7.** məişət xidmətləri üzrə:
**4.7.1.** məişət tullantılarının yığılması və utilizasiyası;
**4.7.2.** poçt xidmətləri;
**4.7.3.** kimyəvi təmizləmə;
**4.7.4.** mənzillər istisna olmaqla, yaşayış binalarının təmizlənməsi;
**4.7.5.** avtomobillərin təmiri;
**4.7.6.** avtomobillərin yuyulması məntəqələri;
**4.7.7.** tərcümə xidmətləri;
**4.7.8.** heyvan sığınacaqları;
**4.7.9.** dizayn xidmətləri.
**4.8.** kütləvi informasiya vasitələri.

**4.9.** maliyyə təşkilatları üzrə:
**4.9.1.** banklar, bank olmayan kredit təşkilatları;
**4.9.2.** investisiya şirkətləri, fond birjaları;
**4.9.3.** sığorta təşkilatları;
**4.9.4.** ödəniş xidmətləri və kliring xidmətləri göstərən təşkilatlar.
**4.10.** xüsusi xidmət növləri üzrə:
**4.10.1.** çatdırılma xidmətləri;
**4.10.2.** məişət avadanlıqlarının təmiri;
**4.10.3.** dezinfeksiya xidmətləri.
**4.11.** vəkillik fəaliyyəti.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**
Bakı şəhəri, 30 mart 2020-ci il
№ 120

**Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

Koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimi çərçivəsində ölkədə hərəkət məhdudiyyətləri müəyyən olunmuşdur.

Əhalinin həyat və sağlamlığının qorunmasını, dövlət qurumlarının və həyat təminatı obyektlərinin fasiləsiz işini, habelə yaranmış vəziyyətdə iqtisadi subyektlərin zəruri həddə fəaliyyətini təmin etmək məqsədi ilə "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının Qanununun 25-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** 5 aprel 2020-ci il saat 00:00-dan 20 aprel 2020-ci il saat 00:00-dək ölkə ərazisində hərəkət məhdudiyyətləri aşağıdakı qaydada tətbiq edilsin:

**1.1.** Aşağıdakı şəxslərin xidməti vəsiqələri və ya iş yeri barədə arayış əsasında hərəkət etmələrinə yol verilir:

**1.1.1.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının və Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının əməkdaşları;

**1.1.2.** Azərbaycan Respublikası Milli Məclisinin deputatları və Aparatının əməkdaşları;

**1.1.3.** mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri və onların müavinləri;

**1.1.4.** İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) və Aparatının əməkdaşları;

**1.1.5.** dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin rəhbərləri və onların müavinləri;

**1.1.6.** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin əməkdaşları;

**1.1.7.** Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və onun tabeliyindəki qurumların əməkdaşları;

**1.1.8.** dövlət əhəmiyyətli və həyat təminatı obyektlərin, habelə fasiləsiz fəaliyyət göstərən müəssisələrin əməkdaşları (1 nömrəli əlavə);

**1.1.9.** dövlət səhiyyə orqanlarının və qurumlarının (müəssisələrinin), özəl səhiyyə müəssisələrinin əməkdaşları;

**1.1.10.** hüquq-mühafizə, məhkəmə və hərbi xidmət nəzərdə tutulmuş orqanların əməkdaşları, vəkillər;

**1.1.11.** kütləvi informasiya vasitələrinin əməkdaşları;

**1.1.12.** Azərbaycan Respublikasında akkreditasiya olunmuş diplomatik nümayəndəliklərin və beynəlxalq təşkilatların əməkdaşları və onların yerli heyəti (Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən verilmiş akkreditasiya kartları əsasında).

**1.2.** Aşağıdakı şəxslər barəsində məlumatlar işəgötürən tərəfindən elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra onların hərəkətinə yol verilir:

**1.2.1.** dövlət orqanlarının, dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlətin adından yaradılan publik hüquqi şəxslərin işə cəlb olunan əməkdaşları (2 nömrəli əlavə);

**1.2.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 mart tarixli 120 nömrəli Qərarı ilə müəyyən edilmiş istiqamətlərdə fəaliyyətlərinin davam etdirilməsinə icazə verilmiş özəl hüquqi şəxslərin əməkdaşları və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxs və onun işçiləri;

**1.2.3.** fəaliyyətinin davam etdirilməsinə icazə verilməmiş özəl hüquqi şəxslərin mühafizəsi və texniki təhlükəsizliyinin təmin edilməsi üçün tələb olunan əməkdaşları.

**1.2-1.** Kənd təsərrüfatı və yardımçı sahələrdə fəaliyyət göstərən şəxslərin hərəkəti ilə bağlı məsələlər bu Qərarın 3 nömrəli əlavəsi ilə tənzimlənir.

**1.3.** "ASAN Könüllüləri" İctimai Birliyi, "Aqrar İnkişaf Könüllüləri" Hərəkatı, "Regional İnkişaf" İctimai Birliyi, "Bir" tələbə-könüllüləri, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin könüllülərinin hərəkətinə onlar barədə məlumatlar "icaze.e-gov.az" portalına daxil edildikdən sonra yol verilir.

**1.4.** Bütün digər şəxslərin yaşayış yerini tərk etmələrinə aşağıdakı hallarda yol verilir:

**1.4.1.** təxirəsalınmaz tibbi zərurətlə və hər hansı bir qrafik üzrə müalicə almaqla əlaqədar;

**1.4.2.** ərzaq və digər gündəlik tələbat mallarının, habelə dərman vasitələrinin alınması, bank və poçt xidmətlərindən istifadə edilməsi zərurəti ilə əlaqədar;

**1.4.3.** yaxın qohumunun dəfnində iştirakla əlaqədar.

**1.5.** Bu Qərarın 1.4-cü bəndinə göstərilən şəxslər yaşayış yerini tərk etmək üçün icazə almaq məqsədilə 8103 nömrəsinə SMS məlumat göndərməlidirlər (SMS məlumatlar ödənişsizdir). SMS məlumatın mətnində aşağıdakı 3 indeksdən biri və şəxsin şəxsiyyətini təsdiq edən məlumat qeyd edilməlidir.

**1.5.1.** 1 rəqəmi təxirəsalınmaz tibbi zərurətlə və ya qrafik üzrə müalicə almaqla əlaqədar yaşayış yerini tərk etmək üçün (icazə rayon və şəhər daxilində 2 saat müddətinə verilir, rayonlar və şəhərlərarası hərəkət zərurəti yarandıqda olduğu ünvanla getməli olduğu ünvan arasında məsafə və müalicə prosedurunun müddəti nəzərə alınır, geri qayıtma müddəti həkim tərəfindən verilən arayışla müəyyən edilir və zərurət olduqda polis əməkdaşlarına təqdim edilir);

**1.5.2.** 2 rəqəmi – ərzaq və digər gündəlik tələbat mallarının, habelə dərman vasitələrinin alınması, bank və poçt xidmətlərindən istifadə edilməsi zərurəti ilə əlaqədar yaşayış yerini tərk etmək üçün (icazə 2 saat müddətinə gündə 1 dəfə verilir);

**1.5.3.** 3 rəqəmi – yaxın qohumunun dəfnində iştirakla əlaqədar yaşayış yerini tərk etmək üçün.

**1.6.** Şəxsiyyəti təsdiq edən məlumatlar aşağıdakılardır:

**1.6.1.** Azərbaycan Respublikasının vətəndaşları üçün – şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi (məsələn, AZE11111111);

**1.6.2.** Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər üçün – Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsinin seriyası və nömrəsi (MYİ (DYİ)1111111);

**1.6.3.** Azərbaycan Respublikası ərazisində müvəqqəti olma müddəti uzadılmış əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər üçün – müvəqqəti olma müddətinin uzadılması barədə qərarın seriyası və nömrəsi (MOM1111111);

Nümunə: ərzaq və digər gündəlik tələbat mallarının, habelə dərman vasitələrinin alınması, bank və poçt xidmətlərindən istifadə edilməsi zərurəti ilə əlaqədar yaşayış yerini tərk etmək üçün 2 AZE1111111 məzmunlu SMS məlumatı göndərilməlidir.

**1.7.** Elektron Hökumət informasiya sistemindən gələn cavab SMS məlumatında icazənin qüvvədə olduğu müddət göstərilir. Şəxs yaşayış yerini yalnız müsbət cavab aldıqdan sonra tərk edə bilər.

**1.8.** Həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandıqda yaşayış yerini tərk etmək üçün SMS məlumatın göndərilməsi tələb olunmur. Həmçinin şəxslər məhkəməyə və ya hüquq mühafizə orqanlarına çağırıldıqda SMS göndərilmədən yaşayış yerini tərk edirlər. Bu halda onlar məhkəməyə və ya hüquq mühafizə orqanına çağırılmalarına dair sənədi polis əməkdaşlarının tələbi ilə onlara təqdim etməlidirlər.

**1.9.** SMS icazə sistemindən istifadə qaydaları və SMS göndərilməsi ilə bağlı yaranan çətinliklərlə əlaqədar Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmətin) 9108 Çağrı Mərkəzinə müraciət edilə bilər.

**1.10.** Müvafiq dövlət qurumları və özəl hüquqi şəxslər əməkdaşları barədə, habelə müvafiq könüllülər təşkilatları könüllülər barədə məlumatları "icaze.e-gov.az" portalına 3 aprel 2020-ci il saat 10:00-dan etibarən daxil etməlidirlər.

**1.11.** Bu Qərarda nəzərdə tutulmuş qaydada şəxslərin hərəkəti zamanı şəxsiyyəti təsdiq edən sənədlərin üzərlərində olması məcburidir.

**1.12.** Hərəkət məhdudiyyətlərinin tətbiqi qaydalarının pozulması halları xüsusi karantin rejiminin pozulması kimi qiymətləndirilməklə, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş məsuliyyətə səbəb olacaqlar. Eyni zamanda, "icaze.e-gov.az" portalı vasitəsilə icazənin alınması üçün yanlış məlumatın daxil edilməsi və yaşayış yerini tərk etmək üçün SMS sistemi vasitəsilə icazə alınması prosedurundan sui-istifadə halları daim araşdırılacaq, belə hallara yol verən hüquqi və fiziki şəxslər barəsində ciddi məsuliyyət tədbirləri görüləcəkdir.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**
Bakı şəhəri, 2 aprel 2020-ci il
№ 124

*ELM XADİMLƏRİ*

# ELMƏ HƏSR OLUNMUŞ ÖMÜR

**Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Nyu York Elmlər Akademiyasının, Beynəlxalq Seolit Assosiasiyasının, Amerika Kimya Cəmiyyətinin, Rusiya Təbiətşünaslıq Akademiyasının və Avropa Mütərəqqi Materiallar Assosiasiyasının üzvü, SSRİ Lenin komsomolu mükafatı laureatı, Əməkdar müəllim, kimya elmləri doktoru, akademik... Bu yüksək adlar, titullar ömrünü elmə, gənc nəslin biliklərə yiyələnməsinə, vətənə, millətə, dövlətə sevgi ruhunda yetişməsinə həsr etmiş Dilqəm Tağıyevin istedadının, bacarığının, zəhmətsevərliyinin bəhrəsidir.**

Azərbaycan kimya elminin zəngin ənənələri və nailiyyətləri ilk növbədə bu sahədə elmi məktəblərin yaradıcıları olan akademiklər Yusif Məmmədəliyevin, Murtuza Nağıyevin, Əli Quliyevin, Vahab Əliyevin, Həbib Şahtaxtinskinin, Sultan Mehdiyevin və başqalarının adı ilə bağlıdır. Bu görkəmli alimlər Azərbaycan elminin inkişafında əvəzsiz rol oynayaraq kimya elminə böyük töhfələr vermişlər.

Ötən əsrin 90-cı illərindən Azərbaycan elmi ardıcıl olaraq tənəzzül, şaşqınlıq, bərpa illərini arxada qoyaraq xalqımızın Ümummilli Lideri Heydər Əliyevin uzaqgörən siyasəti və dəstəyi sayəsində inkişaf mərhələsinə keçmişdir. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin qayğısı nəticəsində Azərbaycan Milli Elmlər Akademiyasında aparılan islahatlar elmin digər sahələri kimi, kimya elminin də yeni, perspektiv istiqamətlər üzrə inkişafına təkan vermiş və bir sıra nailiyyətlərin əldə edilməsinə imkan yaratmışdır. Bu uğurlarda 2013-2018-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası Kimya Elmləri Bölməsinin akademik katibi vəzifəsində çalışmış, 2016-cı ildən AMEA-nın vitse-prezidenti, 2014-cü ildən akademik M.Nağıyev adına Kataliz və Qeyri-Üzvi Kimya İnstitutunun direktoru, akademik Dilqəm Tağıyevin də xüsusi yeri var.

Dilqəm Bəbir oğlu Tağıyev 1950-ci il yanvarın 6-da Kəlbəcər rayonunda həkim ailəsində anadan olmuşdur. 1956-cı ildə Oğuz rayonunun Xaçmaz kənd məktəbində təhsil almağa başlamışdır. 1958-ci ildə ailəsi ilə Ağdama köçdükdən sonra həm də uşaq və orta musiqi məktəblərində oxumuşdur. Əmək fəaliyyətinə 1964-cü ildə musiqi müəllimi kimi başlasa da, kimya və fizika fənlərinə xüsusi marağı, dəfələrlə iştirak etdiyi fənn olimpiadalarında uğurları onu bu sahəyə istiqamətləndirmişdir. 1966-cı ildə orta məktəbi bitirən Dilqəm Tağıyev əla qiymətlərlə Azərbaycan Dövlət Universitetinin Kimya fakültəsinin gündüz şöbəsinə qəbul olunmuşdur.

İstedadı, zəhmətsevərliyi və erudisiyası ilə fərqlənən, dərs əlaçısı olan gənc tələbə birinci kursdan elmi işlərə böyük həvəs göstərmişdir. "Azərbaycan mineral sularının hidrokimyəvi xarakteristikası" adlı ilk elmi işini uğurla yerinə yetirmişdir. 1967-ci il-

də "Zaqafqaziya baharı" tələbə konfransında məruzəsinə görə fəxri fərmanla təltif edilmişdir.

Gənc tələbə ilk uğurundan daha da ruhlanmış, ikinci kursda skandiumin analitik təyini üzrə təcrübi tədqiqatlarla məşğul olmağa başlamışdır. Aspirantların otağında çalışmasına icazə vermiş Analitik kimya kafedrasının müdiri, professor Murtuza Əhmədlinin, xüsusən də elmi rəhbəri, dosent Dəmir Qənbərovun qayğısı ilə Dilqəm Tağıyev diplom işi səviyyəsində olan tədqiqatını müvəffəqiyyətlə başa çatdırmışdır. Bu tədqiqatların nəticələri 1969 və 1970-ci illərdə Tartu (Estoniya) və Novosibirsk universitetlərində keçirilən tələbə elmi konfranslarında məruzə edilmiş və Novosibirsk Dövlət Universitetinin III dərəcəli diplomuna layiq görülmüşdür.

1968-ci ildə Azərbaycan Dövlət Universitetinin tələbə elmi cəmiyyətinin sədri və universitet komsomol komitəsinin büro üzvü seçilmişdir. Elmi nəticələri 1971-ci ildə Novosibirsk və Tbilisi universitetlərində tələbə və aspirantların konfransında məruzə edilmiş və Azərbaycan Dövlət Universitetinin gənc alimlər konfransında I dərəcəli diploma layiq görülmüşdür.

1971-ci ildə fərqlənmə diplomu ilə başa vurduğu ali məktəbdə təyinatla baş laborant işləməyə başlamışdır. Universitetin rektoru, akademik Faiq Bağırzadə eyni zamanda universitet komsomol komitəsinin katibi vəzifəsində çalışmağı təklif etmişdir. Dilqəm Tağıyev isə aspirantura təhsili üçün Moskvaya getməyi qərara almışdır. O, Azərbaycan EA-nın Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun məqsədli aspiranturasına daxil olmuş, 1971-ci ilin dekabrında Moskvaya, SSRİ Elmlər Akademiyasının N.D.Zelinski adına Üzvi Kimya İnstitutuna göndərilmişdir. İxtisas imtahanında yüksək bilik nümayiş etdirdiyinə görə akademik H.M.Minaçev gənc aspiranta rəhbərliyi öz üzərinə götürmüşdür. Onun laboratoriyasında katalizdə qabaqcıl və ümidverici sahə hesab edilən kristallik alumosilikatlar (seolitlər) sahəsində tədqiqatlar yenicə başlanırdı. Dilqəm Tağıyevin tədqiqatları müşahidə edilən yeni effekt-tərkibində keçid elementləri saxlamayan seolitlərin hidrogenləşmə reaksiyasını aparmaq qabiliyyətinin aşkarlanması, tədqiqatların istiqamətini dəyişməyə və bir sıra gözlənilməz, maraqlı nəticələr almağa imkan verdi. 1974-cü ildə Üzvi Kimya İnstitutunda "Ən yaxşı elmi-tədqiqat işi" müsabiqəsində 3-cü mükafata layiq görülməsi bu tədqiqatlara verilən yüksək qiymət idi.

Dilqəm Tağıyev 1975-ci il yanvarın 7-də N.D.Zelinski adına Üzvi Kimya İnstitutunun Elmi Şurasının iclasında namizədlik dissertasiyasını müdafiə etmişdir.

Bakıya qayıdandan sonra Azərbaycan EA-nın Qeyri-üzvi və Fiziki Kimya İnstitutunda əvvəlcə mühəndis, sonra kiçik elmi işçi işləyən Dilqəm Tağıyev seolit katalizi sahəsində tədqiqatları davam etdirmişdir. 1978-ci ildə böyük elmi işçi vəzifəsinə seçilmişdir. Bu sahədə tədqiqatların intensivliyi, nüfuzlu elmi jurnallarda dərc olunan məqalələrin, beynəlxalq simpoziumlarda və ümumittifaq konfranslarda məruzələrin sayı getdikcə artmağa başlamışdır. 1978-1981-ci illərdə Kataliz üzrə Sovet-Amerika simpoziumlarında (Bakı), V Sovet-Yapon seminarında (Daşkənd), Neft kimyası üzrə sosialist ölkələrinin I və II simpoziumlarında (Bakı və Leypsiq, ADR), Heterogen kataliz üzrə IV Beynəlxalq simpoziumda (Varna,

Bolqarıstan), XII Mendeleyev qurultayında (Bakı) edilən məruzələr, 1982-ci ildə kimya sahəsində ən nüfuzlu jurnallardan biri olan "Uspexi ximii" jurnalında seolitlər üzərində oksidləşdirici kataliz mövzusunda nəşr olunan icmal xarakterli yazı, bu sahədə ilk ümumiləşdirilmiş məqalə kimi Dilqəm Tağıyev tərəfindən yeni elmi istiqamətin formalaşmasından xəbər verirdi.

O, 1982-ci ilin ortalarında Moskvaya, N.D.Zelinski adına Üzvi Kimya İnstitutuna bir il müddətinə ezam edilmişdi. Akademik H.M.Minaçevin laboratoriyasında termiki desorbsiya, izotop mübadiləsi, rentgen fotoelektron spektroskopiyası sahəsində apardığı tədqiqatlar yeni formalaşdırdığı elmi istiqamətin daha da inkişaf etdirilməsində, elmi nəticələrlə zənginləşməsində əhəmiyyətli rol oynamışdır. Elmi uğurlarını nəzərə alan SSRİ EA-nın Neft kimyası üzrə Elmi Şurası 1982-ci ildə Çexoslovakiyanın Marianske Lazne şəhərində keçirilən Neft kimyası üzrə sosialist ölkələrinin III Simpoziumunda iştirak edən elmi turizm qrupunun rəhbəri kimi Dilqəm Tağıyevi təsdiq etmişdi. Simpoziumda onun məruzəsi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdi.

Dilqəm Tağıyev tərəfindən seolit katalizatorlarından istifadə olunmaqla tsikloolefinlərin yeni sintez üsulunun təklif edilməsi bir çox elmi və sahə müəssisələrinin diqqətini çəkmişdi. Kaprolaktam istehsalının alternativ variantının yaradılması ilə məşğul olan Moskvadakı Dövlət Azot Sənayesi İnstitutu və SSRİ EA-nın Neft-Kimya Sintezi İnstitutu ilə aparılan birgə tədqiqatların məqsədi iri tonnajlı məhsul olan kaprolaktamin istehsalı üçün yeni texnoloji sxem hazırlamaq idi. Çoxpilləli prosesin birinci mərhələsi Dilqəm Tağıyevin tədqiqatları ilə əlaqədar idi. Həmin mərhələ üçün onun təklif etdiyi katalizator pilot qurğusunda müsbət nəticə ilə sınaqdan keçirilmişdi.

İritonnajlı digər sənaye prosesi olan stirol istehsalını intensivləşdirmək məqsədilə Dilqəm Tağıyevin təklif etdiyi katalizator Sumqayıt Sintez Kauçuk Zavodunda uğurla sınaqdan çıxmışdı. Bu işlər prioritet xarakterli fundamental tədqiqatların praktiki əhəmiyyət kəsb edən proseslərə tətbiqi baxımından maraqla qarşılanmışdır.

Seolitlər üzərində oksidləşdirici və hidrogenləşdirici kataliz sahəsində aparılan geniş tədqiqatlar nəticəsində əldə edilən mühüm elmi nəticələr ciddi rəqabətə baxmayaraq bir çox aparıcı elmi mərkəzlərin rəyindən sonra 1983-cü ildə SSRİ Lenin komsomolu mükafatına layiq görülmüşdür. Dilqəm Tağıyev kimya və kimya texnologiyası sahəsində bu mükafata layiq görülən yeganə azərbaycanlı alim olmuşdur. Həmin il Varnada düzənlənən Heterogen kataliz üzrə V Beynəlxalq simpoziumda onun tədqiqatlarının təqdimatı böyük maraq doğurmuşdur.

1984-cü il aprelin 12-də gənc alim SSRİ EA-nın Üzvi Kimya İnstitutunda Dissertasiya Şurasının qapalı iclasında dissertasiya müdafiə edərək kimya elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdü. Onun dissertasiya işini kataliz sahəsində məşhur alimlər A.M.Rubinşteyn, A.Y.Rozovski, K.V.Topçiyeva, O.V.Krılov, V.B.Kazanski, B.K.Nefedov və başqaları yüksək qiymətləndirmişdilər.

O, otuz altı yaşında Azərbaycan EA-nın Qeyri-üzvi və Fiziki Kimya İnstitutu direktorunun elmi işlər üzrə müavini və-

zifəsinə təsdiq olunmuşdu, "Əməkdə fərqləndiyinə görə" medalı ilə mükafatlandırılmış və "Metal-kompleks kataliz" laboratoriyasının müdiri seçilmişdir. 1985-ci ildən pedaqoji fəaliyyətlə məşğul olan Dilqəm Tağıyev Azərbaycan Neft və Kimya İnstitutunda və onun Sumqayıt filialında mühazirələr oxumuşdur.

SSRİ EA Rəyasət Heyətinin 1987-ci ilin oktyabrında keçirilən yubiley iclasında seolitlər üzərində oksidləşdirici diehidrogenləşmə sahəsində aparılan tədqiqatlar kataliz sahəsində mühüm elmi nəticə kimi qeyd olunmuşdur. Kataliz sahəsində elmi uğurları nəzərə alınaraq azərbaycanlı alim SSRİ EA-nın Kataliz üzrə Elmi Şurasının tərkibinə daxil edilmişdir.

Onun "Kristallik alümosilikatlar katalizdə" monoqrafiyası 1989-cu ildə işıq üzü görmüşdür. Yeni təşkil olunan SEOLİT sahələrarası elmi-texniki kompleksinin baş direktoru təyin edilmişdir. Həmin il bir qrup gənc elmlər doktorlarının təşəbbüsü ilə təsis olunan Azərbaycan Alimlər İttifaqının sədr müavini seçilmişdir. 1990-cı ildə SSRİ EA-nın nümayəndə heyətinin tərkibində Almaniyada, 1991-ci ildə Bolqarıstanda elmi ezamiyyətdə olmuş və Heterogen kataliz üzrə VI Beynəlxalq konfransda məruzə ilə çıxış etmışdir. 1992-ci ildə "Heterogen kataliz neft kimyasında" monoqrafiyası çapdan çıxmışdır.

Yüksək səviyyəli mühazirəçi kimi tanınan Dilqəm Tağıyevi əvvəlcə Azərbaycan Neft və Kimya İnstitutunun Fiziki və kolloid kimya kafedrasının professoru, 1991-ci ildə isə Azərbaycan Tibb Universitetinin Ümumi kimya kafedrasının professoru seçsələr də, o, eyni zamanda, Azərbaycan EA-nın Qeyri-üzvi və Fiziki Kimya İnstitutunda elmi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Tibb Universitetində 1993-cü ildə Əczaçılıq fakültəsinin dekanı, 1995-ci ildə isə Ümumi və bioüzvi kimya kafedrasının müdiri seçilmişdi.

1999-cu ildə Azərbaycan EA akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Musa Rüstəmovun dəvəti ilə kataliz profilli üç laboratoriyanın birləşməsindən yaranan "Heterogen kataliz" laboratoriyasına əvəzçiliklə müdir təyin edilmişdi. Həmin vaxtdan onun elmi tədqiqatları daha geniş vüsət almağa başlamış, izomerləşmə, alkilləşmə və oliqomerləşmə prosesləri üçün yeni katalitik sistemlərin yaradılması sahəsində aparılan tədqiqatlarda mühüm elmi nəticələr əldə edilmişdi. 2000-ci ildə Azərbaycan Respublikasının "Əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür.

Dilqəm Tağıyev 1994-cü ildə Nyu York EA-nın, 2001-ci ildə isə Beynəlxalq Seolit Assosiasiyasının üzvü seçilmiş və Fransanın Monpelye şəhərində keçirilən 13-cü Beynəlxalq Seolit konfransına dəvət almışdır. Möhtəşəm tədbirdə nümayəndə qismində iştirakı gələcək əməkdaşlıq üçün zəmin yaratmışdır.

Elmi nailiyyətləri nəzərə alınaraq 2007-ci ildə o, neft-kimya ixtisası üzrə AMEA-nın müxbir üzvü seçilmişdir. Dilqəm Tağıyevin elmi yaradıcılığına və elmi-təşkilati fəaliyyətinə müxtəlif vaxtlarda Rusiya EA-nın həqiqi üzvləri H.M.Minaçev, B.M.Qryaznov, V.B.Kazanski, A.E.Şilov, B.N.Parmon, V.V.Lunin, S.N.Xadjiyev, eləcə də Belorusiya, Ukrayna, Gürcüstan MEA-nın akademikləri yüksək qiymət vermişdirlər.

2010-cu ildə kataliz və neft kimyası sahəsində elmi fəaliyyəti nəzərə alınaraq Dilqəm Tağıyev AMEA-nın "Kataliz" üzrə Problem Şurasının sədri təsdiq edilmişdir. Alim kataliz istiqamətində perspektiv tədqiqatlar üzrə yeni proqram hazırlamışdır. Həmin il "Tərəqqi" medalı və AMEA-nın fəxri fərmanı ilə təltif olunmuşdur. 2012-ci ildə Beynəlxalq Sokrat Komissiyasının (Oksford, Böyük Britaniya) təklifi ilə "The Name in Science" mükafatına və fəxri tituluna layiq görülmüşdür.

O, 2013-cü ildə AMEA-nın ümumi yığıncağında Kimya Elmləri Bölməsinin akademik katibi və Rəyasət Heyətinin üzvü vəzifələrini icra etmişdir. Həmin il Rusiya Təbiətşünaslıq Akademiyasının üzvü seçilmiş və Avropa elm-sənaye konsorsiumunun mükafatlar üzrə komissiyasının qərarı ilə "Əmək və biliklə" ordeninə layiq görülmüşdür.

2014-cü ildə akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü seçilmiş, "Azərbaycan kimya jurnalı"nın baş redaktoru və "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" üzrə Dövlət Komissiyasının üzvü təsdiq edilmişdir.

O, institut direktoru olduğu ilk vaxtlardan geniş islahatlara başlamış, İnstitutun strukturu, prioritet istiqamətləri, elmi mövzuları dövrün tələblərinə uyğun təşkil olunmuşdur. 2014-2019-cu illərdə institutun bütün elmi göstəricilərində nəzərəçarpacaq yüksəliş müşahidə olunmuş, 36 mühüm elmi nəticə AMEA-nın hesabatlarına daxil edilmiş, 310-u Web of Science bazasına daxil olmaqla 750 məqalə xaricdə çap edilmiş, 40 monoqrafiya, kitab və dərslik işıq üzü görmüş, 8-i beynəlxalq statuslu olmaqla 37 qrant alınmış, elmi əsərlərə istinadların sayı 3000-i keçmişdir. "Azərbaycan kimya jurnalı"nın redaksiya heyətinin tərkibi dəyişdirilmiş, redaksiya şurasına tanınmış xarici alimlər cəlb edilmiş, jurnalın formatı beynəlxalq jurnalların tələblərinə uyğun olaraq dəyişdirilmiş və məqalələrin hamısının ingilis dilində təqdim və çapı təmin edilmişdir. İnstitutda nəşr edilən digər jurnal - "Kimya Problemləri" jurnalı Clarivate Analytics bazasına daxil edilən AMEA üzrə 4 elmi jurnaldan biri olmuşdur.

İlk dəfə rus dilində "Azərbaycan kimya elminin korifeyləri" və institutun yubileyinə həsr olunmuş "Kataliz və Qeyri-üzvi Kimya İnstitutu – 80" kitabları Dilqəm Tağıyevin təşəbbüsü və baş redaktorluğu ilə işıq üzü görmüşdür. Azərbaycanın görkəmli alimləri Murtuza Nağıyevin, Heydər Əfəndiyevin və Xudu Məmmədovun yubileyləri təntənə ilə qeyd edilmişdir.

Beynəlxalq əməkdaşlıq çərçivəsində İspaniya, Almaniya və Böyük Britaniya elmi mərkəzləri və universitetləri ilə müştərək iki Beynəlxalq laboratoriya təşkil olunmuşdur. İtaliya elm günü ilə bağlı Azərbaycan-İtaliya kimya seminarı, ondan bir il sonra innovativ polimerlər üzrə Azərbaycan-İtaliya elmi seminarı keçirilmişdir.

Akademik Dilqəm Tağıyev 750-dən çox elmi əsərin, həmçinin xaricdə çap olunan 470 məqalə və tezisin, 60 müəlliflik şəhadətnaməsi və patentin, 21 monoqrafiya, kitab və dərsliyin, 16 tədris-metodik vəsaitin müəllifidir. 5 kimya elmləri doktoru və 13 fəlsəfə doktoru yetişdirmişdir. Elmlər doktoru və fəlsəfə doktoru hazırlığı üzrə bir

neçə doktorant hazırda dissertasiya üzərində çalışır. O, dəfələrlə Fransa, Almaniya, İspaniya, İtaliya, Avstriya, İsveçrə, Şotlandiya, Bolqarıstan, İsrail, Çexiya, İsveç, Sloveniya, Türkiyə, Rusiya və başqa ölkələrdə keçirilən beynəlxalq konqres, konfrans və simpoziumlarda iştirak etmişdir.

AMEA Kimya Elmləri Bölməsinin elmi fəaliyyətinin gücləndirilməsi üçün akademik Dilqəm Tağıyev bölmənin akademik-katibi və AMEA-nın Rəyasət Heyətinin üzvü kimi mühüm işlər görmüş, bölmə institutlarının yeni prioritet istiqamətlər üzrə fəaliyyəti naminə ciddi səylər göstərmişdir.

AMEA-nın fəaliyyətini cəmiyyət qarşısında işıqlandırmaq və təbliğ etmək məqsədilə Dilqəm Tağıyev dəfələrlə "Elm və innovasiya”, "Media və zaman”, "Geriyə baxanda” və "Səhər” verilişlərinin qonağı olmuş, mətbuatda məqalələr dərc etdirmişdir. Bir çox nüfuzlu konqreslər və konfranslara dəvət almış, onların bəzilərinin təşkilat komitəsinin üzvü olmuşdur. 2016-cı ildə Respublika Elmi Əlaqələndirmə Şurasının üzvü və AMEA Rəyasət Heyətinin nəzdində "Yalançı elmə qarşı mübarizə” komissiyasının sədri təyin olunmuşdur.

Akademik Dilqəm Tağıyev 2016-cı ilin dekabrında AMEA-nın vitse-prezidenti vəzifəsinə təyin olunmuş və akademik katib vəzifəsi də ona həvalə edilməklə 2017-ci ilin iyununda AMEA-nın ümumi yığıncağında vitse-prezident seçilmişdi.

UNESCO-nun Baş konfransında elm komissiyalarının işində fəal iştirak edərək komissiyaların sədrləri Kristof Vandenberq və Patrik Mc Kiver ilə Azərbaycanda qlobal geoparkların yaradılması istiqamətində müzakirələr aparmış, lazımi materialları komissiyaya təqdim etmiş və ilkin razılaşmaya nail olmuşdur.

Dilqəm Tağıyev Avropa Birliyinin keçirdiyi Horizon-2020 Beynəlxalq qrant müsabiqəsində Belçikanın Gent Universitetinin professoru Joris Tibotun təklifi əsasında beynəlxalq qrupun tərkibinə qoşulmuşdur. Onun namizədliyini, J.Tibot məktubunda yazdığı kimi, Lionun (Fransa) "Kataliz və Ekoloji Tədqiqatlar İnstitutu” və Norveçin SİNTEF şirkətləri tövsiyə etmişdir. İki mərhələdə həyata keçirilən qrant müsabiqəsində Avropanın 7 dövlətinin 11 elmi qurumu daxil olan beynəlxalq qrup, eləcə də partnyor təşkilat kimi Azərbaycan Milli Elmlər Akademiyası və onun koordinatoru Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun direktoru Dilqəm Tağıyev nüfuzlu beynəlxalq ekspert komissiyasının qərarı ilə qrant müsabiqəsinin qalibi olmuşdur.

Elm yolunda çəkilən zəhmət nura dönür, neçələri bu işıqdan istiqamət alaraq gələcəyə üz tutur. Ömrünün böyük hissəsini elmi tədqiqatlara və pedaqoji fəaliyyətə həsr edən, Azərbaycan kimya elminin inkişafı yolunda yorulmadan çalışan akademik Dilqəm Tağıyev də belə, çoxları üçün örnək olan, yol göstərən şəxsiyyətlərdən biridir. Onu şərəfli yubiley yaşı münasibəti ilə təbrik edirik və dəyərli alimə kimya elminin gələcəyi üçün yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Vaqif FƏRZƏLİYEV,**
**Azərbaycan Milli Elmlər Akademiyası Kimya Elmləri Bölməsinin akademik katibi, akademik.**

**V.T.NOVRUZOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA**
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında auditor xidməti sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə **Vahid Tapdıq oğlu Novruzov** "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
Bakı şəhəri, 6 yanvar 2020-ci il

# ŞƏRƏFLİ ÖMÜR YOLU

Ölkəmizin tanınmış iqtisadçı alimlərindən biri Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Tapdıq oğlu Novruzovun bu günlərdə 70 yaşı tamam oldu. O, 1950-ci il yanvarın 7-də Qərbi Azərbaycanın Allahverdi rayonunda müəllim ailəsində anadan olmuşdur. Elə o uzaq illərdə erməni sıxma-boğmaları ilə üzləşən bütün digər azərbaycanlılar kimi, məktəb direktoru işləyən Tapdıq müəllim də ailəsinin, balalarının gələcəyini düşünərək, 1964-cü ildə Bakı şəhərinə köçmüşdür. Yeniyetmə Vahid də burada təhsilini davam etdirmiş və 1966-cı ildə 31 nömrəli orta məktəbi bitirmişdir. Elə həmin il Azərbaycan Dövlət Universitetinə daxil olmuşdur. 1971-ci ildə ADU-nu, 1999-cu ildə isə Bakı Asiya Universitetini bitirmişdir. Elmi yaradıcılığa möhkəm həvəsi onu təhsilini davam etdirməyə ruhlandırmış və o, aspiranturada təhsil almışdır. 1978-ci ildə Q.V.Plexanov adına Moskva Xalq Təsərrüfatı İnstitutunda "Xidmət sferasının maddi-texniki təchizatının planlaşdırılmasının normativ bazasının təkmilləşdirilməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək iqtisad elmləri namizədi, 1990-cı ildə isə həmin institutda "Müttəfiq respublikalarda sosial-məişət infrastrukturunun inkişaf problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək iqtisad elmləri doktoru alimlik dərəcəsinə yiyələnmişdir. 2000-ci ildə ona professor elmi adı verilmişdir.1994-cü ildə Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü seçilmişdir.

1972-1992-ci illərdə Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda laborant, iqtisadçı, kiçik elmi işçi, bölmə müdiri və şöbə müdiri vəzifələrində işləyən V.Novruzov iki il də Əhaliyə Məişət Xidməti Nazirliyi yanında Layihə Konstruktor Texnologiya İnstitutunda elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmışdır.

1992-ci ildə Milli Məclis Aparatında işləməyə dəvət almış və 1996-cı ilin aprelinədək burada İqtisadi qanunvericilik şö-

başında bölmə müdiri, şöbə müdirinin birinci müavini və şöbə müdiri vəzifələrində dövlət müstəqilliyini bərpa etmiş respublikanın iqtisadi qanunvericiliyinin əsaslarının işlənib hazırlanması naminə səylə çalışmışdır. 1996-cı ilin aprel ayında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Auditorlar Palatasının sədri vəzifəsinə təyin olunmuş, həmin vaxtdan etibarən bütün qüvvə və bacarığını maliyyə nəzarətinin bütün dünyada mütərəqqi növü kimi dəyərləndirilən audit sisteminin Azərbaycanda təşəkkülü, inkişafı və tənzimlənməsi işinə sərf etmiş, onun rəhbərliyi və bilavasitə iştirakı ilə auditə dair mükəmməl hüquqi və elmi-metodik baza işlənib hazırlanmış və audit praktikasında tətbiq edilməkdədir. Bunlara misal olaraq “Auditin əsasları” kitabını, “Audit (izahlı lüğəti)”, indiyədək 9 cildi çap olunmuş “Audit. Qanunvericilik və normativ sənədlər” toplusunu, Təhsil Nazirliyi tərəfindən ali məktəblər üçün dərs vəsaiti kimi təsdiq edilmiş “Audit” və “Daxili audit” tədris və tədris-praktika vəsaitlərini, 50-dən artıq normativ-hüquqi sənədi göstərmək olar.

Beynəlxalq təcrübə göstərir ki, şəffaflığı yüksək olan maliyyə sisteminin səmərəliliyi şəffaf olmayan, kölgəyə meyilli sistemdən qat-qat yüksək olur, iqtisadiyyatın idarə olunmasında optimal qərarların qəbul edilməsi təkcə sahibkarların deyil, bütövlükdə cəmiyyətin mənafelərinin qorunması sahəsində real zəmin yaranır. Şəffaflığın təminatçısı kimi səmərəli və stimullaşdırıcı nəzarət sisteminin yaradılması hər bir ölkədə sosial-iqtisadi inkişafa təminatın vacib amillərindən biri hesab edilir. Bu mənada çox səciyyəvidir ki, Azərbaycanda mövcud nəzarət sisteminin təkmilləşdirilməsi ulu öndərimiz Heydər Əliyevin dövlət quruculuğu siyasətində daim diqqət mərkəzində saxlanılan məsələlərdən olmuşdur.

Təsadüfi deyildir ki, yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıtdığı ilk vaxtlar dövlətin iqtisadi və siyasi əsaslarının təhlükəsizliyi, vətəndaşların mülkiyyət hüquqları əleyhinə cinayətlər, maliyyə-kredit fırıldaqları və iqtisadi xarakterli başqa pozuntular çoxalaraq, cəmiyyət üçün təhlükəli bir həddə gəlib çatdığı bir dönəmdə ulu öndər hələ 1993-cü il dekabrın 8-də keçirilən müşavirədə çıxış edərkən demişdi: “Respublikamız ağır bir dövr keçirir, iqtisadiyyat böhran vəziyyətindədir. Maliyyə bizim üçün əsaslı bir sahədir. Əgər bu sahədə işləyən şəxslər ayrı-ayrı kooperativlərin, assosiasiyaların, şirkətlərin mənafeyini, yaxud da onlarla əlaqəli olaraq öz şəxsi mənafelərini ölkənin, xalqın, dövlətin mənafeyindən üstün tutursa və cürbəcür qeyri-qanuni yollarla gedirlərsə, bütün bunlar dəhşət doğurur və bir daha sübut edir ki, son illərdə respublika iqtisadiyyatının, çox mühüm sahə olan maliyyənin dağılmasının, böhran halına düşməsinin səbəbləri də birinci növbədə buradadır”.

“Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında” Prezidentin imzaladığı 1994-cü il 9 avqust tarixli fərman, “İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə” 1996-cı il 17 iyun tarixli fərman və “Azərbaycan Respublikasında iqtisadi cinayətkarlığa qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında”

1998-ci il 27 yanvar tarixli sərəncam Azərbaycan Respublikasının müstəqil, demokratik inkişaf yoluna qədəm qoymasından sonra ölkədə həyata keçirilən radikal islahatlar və idarəetmə sisteminin təkmilləşdirilməsi ölkədə beynəlxalq standartlara cavab verən maliyyə nəzarəti sisteminin qurulmasını zərurətə çevirdi və maliyyə nəzarətinin bütün dünyada geniş yayılmış, mütərəqqi forması olan auditin (auditor xidmətinin) Azərbaycanda da tətbiqini həyati tələbata döndərdi.

Həmin illərdə Azərbaycan Respublikasında beynəlxalq meyarlara uyğun müstəqil audit sisteminin bərqərar olması istiqamətində də mühüm əhəmiyyət kəsb edən normativ-hüquqi aktlar, o cümlədən 1994-cü il sentyabrın 16-da “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Yeri gəlmişkən, Vətənimizin bu günü və sabahı üçün qanuni iftixar hissi doğuran bütün nailiyyətlər kimi, “Auditor xidməti haqqında” Qanunun qəbul edilməsi və bunun əsasında ölkədə audit sisteminin formalaşıb inkişaf etməsi də bilavasitə ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır.

“Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsinin 10 illiyi ilə əlaqədar 2004-cü ildə təşkil edilmiş “Keçid iqtisadiyyatı ölkələrində auditin inkişaf problemləri” mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına təbrik məktubunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkədə milli auditin təşəkkülü və inkişafı üçün hüquqi baza olan “Auditor xidməti haqqında” Qanunun qəbul edilməsini “ümummilli liderimiz Heydər Əliyevin bazar iqtisadiyyatına keçid istiqamətində həyata keçirdiyi siyasətin, cəmiyyətdə maliyyə şəffaflığının təmin olunmasında və bazar infrastrukturları sistemində auditə verdiyi qiymətin parlaq təzahürü” kimi dəyərləndirərək, Azərbaycanda auditor xidmətinin iqtisadi siyasətin aparılmasında mühüm rol oynadığını qeyd etmişdir.

Həqiqətən də, “Auditor xidməti haqqında” Qanunun qəbul olunması ümummilli liderimiz Heydər Əliyevin demokratik dünya dəyərlərinə sədaqətinin, bazar iqtisadi infrastrukturları sistemində auditə verdiyi dəyər və əhəmiyyətin parlaq təzahürü idi.

Ölkədə auditor xidmətinin dövlət tənzimlənməsini təşkil etmək, bu sahədə olan və Azərbaycan Respublikasında auditor xidmətinin inkişafına və təkmilləşdirilməsinə yönəlmiş normativ-hüquqi aktların layihələrini, tədbirlər sistemini hazırlamaq, dövlətin, təsərrüfat subyektlərinin və auditorların (auditor təşkilatlarının) mənafelərini müdafiə etmək, öz fəaliyyətində “Auditor xidməti haqqında” Qanundan, digər qanunvericilik və normativ-hüquqi aktlardan irəli gələn tələblərə auditorlar (auditor təşkilatları) tərəfindən riayət edilməsinə nəzarət etmək məqsədilə yaradılan və 1996-cı il aprelin 5-dən fəaliyyətə başlayan Azərbaycan Respublikasının Auditorlar Palatası ötən illər ərzində Azərbaycanda auditor xidmətini mütərəqqi dünya təcrübəsinə uyğun şəkildə təşkil etmək və tənzimləmək, milli audit sisteminin inkişafını təmin etmək üçün ən əvvəl, mükəmməl normativ-hüquqi bazanın yaradılması qayğısına qalmış və bu məsələni daim diqqət mərkəzində saxlamışdır. Bütün bu işlər isə bilavasitə V.Novruzovun rəhbərliyi və iştirakı ilə həyata keçirilmişdir.

Nəticədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin maliyyə nəzarəti siyasətinin əsasını təşkil edən auditin tənzimlənməsinin Azərbaycan modeli xarici peşəkar qurumlar tərəfindən tanınmış və tənzimlənmənin peşəkar orqana həvalə edilməsi yolu ilə müstəqilliyin təmin olunması beynəlxalq audit praktikası üçün böyük maraq kəsb etməkdədir. Müasir şəraitdə şəffaflığın artırılması və bununla bilavasitə bağlı olan kölgə iqtisadiyyatı və korrupsiyaya qarşı mübarizə dünyəvi bir problem olaraq, bütün ölkələrdə xüsusi diqqət tələb edir.

Xüsusilə əlamətdardır ki, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə şəffaflığın təmin edilməsi, iqtisadi inkişaf üçün maneələr törədən, qanunun aliliyini və sosial ədalət prinsiplərini pozan korrupsiyaya qarşı mübarizə sahəsində ardıcıl görülən tədbirlər – maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsi, təkmil nəzarət mexanizminin tətbiqi və bütövlükdə maliyyə intizamının möhkəmləndirilməsi ölkədə sosial-iqtisadi inkişafın sürətləndirilməsinin mühüm bir istiqaməti kimi təsbit olunmuşdur.

Auditor xidmətinin hüquqi bazasının təkmilləşdirilməsi də möhtərəm Prezidentimiz İlham Əliyevin diqqət mərkəzində olan məsələlərdəndir. MDB ölkələri arasında birinci olaraq Azərbaycanda daxili auditor fəaliyyətinin həyata keçirilməsi qanunvericilikdə hüquqi təsbitini tapmışdır. “Daxili audit haqqında” Qanun Azərbaycan Prezidenti cənab İlham Əliyevin şəffaflığın təmin olunması və korrupsiyaya qarşı mübarizə strategiyasının hüquqi təməlində özünəməxsus yer tutmaqla, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasına da əvəzedilməz bir töhfədir.

İlkin layihəsi Auditorlar Palatası tərəfindən hazırlanmış başqa bir qanun – Azərbaycan Respublikasında auditor xidməti göstərən fiziki və hüquqi şəxslərin auditin subyekti qarşısında peşə məsuliyyətinin icbari sığortası sahəsində münasibətləri tənzimləyən, onun təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyənləşdirən “Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında” 2007-ci il 22 may tarixli Qanun da bilavasitə dövlətimizin başçısının qanunvericilik təşəbbüsünün nəticəsi, auditorun əməyinə verdiyi yüksək qiymətin ifadəsidir.

“Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanunu auditorların və təsərrüfat subyektlərinin hüquqi müdafiəsinin artırılması, həmçinin, auditin aparılması ilə əlaqədar baş verə biləcək istənilən sığorta hadisəsi zamanı təsərrüfat subyektinə dəyən zərərin ödənilməsi üçün münbit şəraitin yaradılmasının təmin edilməsini nəzərdə tutur.

Ümumiyyətlə isə Azərbaycanda auditə dövlət qayğısının əsasında ölkə Prezidentinin auditə verdiyi önəm dayanır. Bu mənada dövlət başçısı cənab İlham Əliyevin aşağıdakı sözləri çox xarakterikdir: “Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə və onun dünya təsərrüfat sisteminə inteqrasiyası gücləndikcə iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə auditin imkanlarından daha geniş istifadə etmək zərurəti yaranır. Bunun üçün müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və

milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək çox vacibdir".

Azərbaycan Respublikası Auditorlar Palatasının məqsədyönlü səyləri nəticəsində ötən illərdə ölkənin bütün ərazisi auditor xidmətləri ilə əhatə olunmuş, xidmət göstərilməsinə dair yerinə yetirilmiş müqavilələrin sayı 25 dəfə, xidmətin həcmi isə 40 dəfəyə qədər artmışdır.

Palata özünün beynəlxalq əlaqələrinin qurulması üzrə fəaliyyətinə — beynəlxalq və regional peşə qurumlarında təmsilçiliyə, ikitərəfli əməkdaşlıq əlaqələrinin qurulmasına və inkişaf etdirilməsinə mütərəqqi xarici audit təcrübəsinin öyrənilməsi, milli kadrlara çatdırılması və yerli xüsusiyyətlər nəzərə alınmaqla ölkədə tətbiq edilməsi baxımından yanaşır. Palatanın nüfuzlu peşə qurumlarında – 1977-ci ildə təsis edilmiş, hazırda 130 ölkə və yurisdiksiyada fəaliyyət göstərən 175 tamhüquqlu və assosiativ üzvdən ibarət olan Beynəlxalq Mühasiblər Federasiyasında (IFAC), Mühasiblərin və Auditorların "Avrasiya" Beynəlxalq Regional Federasiyasında, Avropa Mühasiblər və Auditorlar Federasiyasında tamhüquqlu üzv, Sertifikatlı Mühasiblərin və Auditorların Avrasiya Şurasında isə assosiativ üzv sifətilə təmsilçiliyi, habelə 60-dan çox ölkənin audit və mühasibatlıq qurumları ilə əməkdaşlıq barədə saziş və niyyət protokollarının imzalanması, intensiv işgüzar əlaqələrin qurulması Azərbaycan auditorlarının peşə-ixtisas səviyyəsinin müntəzəm olaraq təkmilləşdirilməsi məqsədlərinə xidmət etməklə bərabər Vahid müəllimin bu istiqamətdə ardıcıl olaraq həyata keçirdiyi məqsədyönlü tədbirlərin nəticəsidir.

Xarici ölkələrin audit təcrübəsinin öyrənilməsi Azərbaycanda auditor xidmətinin inkişafına və keyfiyyətinin yüksəldilməsinə, eləcə də auditor xidmətinin qanunvericilik bazasının daha da təkmilləşdirilməsinə ciddi kömək edir. Bununla əlaqədar Auditorlar Palatası beynəlxalq audit praktikası əsasında auditin keyfiyyətinin yüksəldilməsinə dair geniş tədbirlər planı hazırlamış və həmin planı mərhələlər üzrə həyata keçirir.

Ölkəmizin tanınmış iqtisadçı alimlərindən olan Vahid Novruzov müəlliflər qrupu ilə birlikdə 1998-ci ildə "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı" kitabını işləyib hazırlamış və çap etdirmişdir. Onun qələmindən çıxan "İnkişaf və tərəqqinin Heydər Əliyev modeli" kitabı da təkcə mütəxəssislər tərəfindən deyil, geniş oxucu kütlələri tərəfindən də maraqla qarşılanmışdır. Onun ardıcıl olaraq Azərbaycan və MDB məkanında nəşr olunan mətbuat orqanlarında dərc olunmuş "Yeni Azərbaycan quruculuğunda yeni mərhələ", "Heydər Əliyevin iqtisadi inkişaf strategiyası Azərbaycanın təminatlı uğur faktorudur", "Prezident İlham Əliyevin dövlət quruculuğu siyasətində iqtisadi təhlükəsizlik amilləri", "Heydər Əliyevin iqtisadi təhlükəsizlik siyasəti yeni mərhələdə", "İqtisadiyyatın idarə edilməsində maliyyə nəzarətinin rolu", "Azərbaycan iqtisadiyyatında maliyyə şəffaflığı problemi və onun həlli yolları", "İqtisadi demokratiyanın təmin edilməsinin mühüm aləti: audit", "Qeyri-dövlət nəzarəti: şəffaflığın artırılmasında mühüm amil kimi", "İqtisadi inkişaf və demokratiya: Azərbaycan modeli haqqında mülahizələr", "Azərbaycanda audit: təşəkküldən beynəlxalq standart-

lara doğru", "Sosial-iqtisadi inkişafın Azərbaycan modelində şəffaflıq amili", "Azərbaycanın inkişaf modeli: maliyyə nəzarətinin konsepsiyası", "Korrupsiyaya qarşı mübarizə: bu günün və sabahın prioritet məsələsi", "Cəmiyyətin demokratikləşməsi iqtisadi inkişafın əsasıdır", "Davos-2019: uğurlar, vəzifələr və perspektivlər", "İqtisadiyyatın idarə edilməsində maliyyə nəzarətinin rolu", "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə Azərbaycan Respublikasında dövlət quruculuğunun əsas istiqaməti kimi", "Canlı bağlantı və ya ictimai nəzarət dövrün tələbidir", "İslahatlara alternativ yoxdur" kimi 100-dən artıq məqaləsi müasir Azərbaycanda gedən əzəmətli quruculuq siyasətini və onun mahiyyətini açan, təbliğ edən elmi-kütləvi nəşrlər kimi son dərəcə qiymətlidir.

Vahid Novruzov Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli "Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyasının yaradılması haqqında" fərmanına uyğun olaraq yaradılmış "Audit sisteminin islahatı üzrə İşçi Qrupu"nun tərkibinə daxil edilmiş və onun rəhbərliyi altında "Azərbaycan Respublikasında audit sisteminin konsepsiyası" işlənib hazırlanmışdır. Növbəti belə konsepsiyanı Vahid müəllim Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası (2012-2020-ci illər)" fəaliyyət planına uyğun olaraq işləyib hazırlamışdır.

Vahid müəllim ölkəmizdə və xaricdə keçirilən elmi konfrans və seminarlarda fəal iştirak edir. Audit və bazar iqtisadiyyatı infrastrukturunun problemləri üzrə dissertant və magistrlərə elmi rəhbərlik edir. O, eyni zamanda, ABŞ Daxili Auditorlar İnstitutunun Azərbaycanda yaradılmış "Audit-Azərbaycan" bölməsinin prezidenti və Müsahiblərin və Auditorların "Avrasiya" Regional Federasiyası Şurasının idarə heyətinin üzvüdür.

Auditorlar Palatasının arxada qalmış illərdə fəaliyyətinə fikrən nəzər saldıqda, Vahid müəllimin rəhbərliyi altında ölkə auditorlarının və audit mütəxəssislərinin, bütövlükdə isə Auditorlar Palatası əməkdaşlarının və üzvlərinin qarşıda dayanan vəzifələrinin öhdəsindən ləyaqətlə gələcəyinə, ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətlə, ardıcıllıqla və uğurla davam etdirdiyi yeni Azərbaycan quruculuğu strategiyasının reallaşdırılmasına şəxsi töhfələrini verəcəklərinə əminik.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 6 yanvar 2020-ci tarixli sərəncamı ilə Azərbaycan Respublikasında auditor xidməti sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Vahid Tapdıq oğlu Novruzov "Şöhrət" ordeni ilə təltif edilmişdir. Bu münasibətlə Vahid müəllimi təbrik edir, uzun ömür, işlərində yeni-yeni uğurlar arzu edirik.

**Ziyad SƏMƏDZADƏ,**
**akademik.**
**Akif MUSAYEV,**
**AMEA-nın müxbir üzvü.**
**Qorxmaz İMANOV,**
**AMEA-nın müxbir üzvü.**

*ŞİRMƏMMƏD HÜSEYNOV – 95*

# MİLLİ MƏTBUATIMIZIN UNUDULMAZ PATRİARXI

**145 yaşını haqlamaqda olan Azərbaycan mediası bütün mərhələlərində xalqa, milli jurnalistikamıza, tariximizə baş ucalığı gətirən görkəmli simalar yetişdirib. Bizlər bu uzun, keşməkeşli yolun hər dönəmində misilsiz xidmətləri olan isimləri yaxşı tanıyırıq. Hesab edirəm ki, milli mətbuatımızın banisi Həsən bəy Zərdabidən tutmuş günümüzədək müxtəlif mərhələlərdə Cəlil Məmmədquluzadə, Məmmədağa Şaxtaxtinski, Üzeyir Hacıbəyli... kimi silinməz izləri qalan dühaları daim xatırlamaq hamımızın borcudur.**

Sevimli müəllimimiz Şirməmməd ömrünün 60 ildən çoxunu mətbu zirvələrin daha mükəmməl tanıdılması naminə arxivlərdə keçirən, onların bənzərsiz irsinə ikinci həyat verən mətbuat tədqiqatçılarından olub. Deyirəm nə yaxşı ki, tale bu zaman kəsiyində onu xalqımıza bəxş etmişdi. Yoxsa hələ də həmin dövrün zirvəsinə kim haqq edir sualı uzun müddət cavabsız qalacaqdı.

Əlbəttə, zirvə o zaman daha möhtəşəm görünür ki, sağında-solunda əzəmətli müttəfiqləri dayansın. Ötən əsrin ikinci yarısından bəri mediamız kimləri itirmədi, onların yerləri boş görünəndə Nəsir İmanquliyev, Nurəddin Babayev, Nəriman Zeynalov, Qulu Xəlilov sinələrini irəli verdilər. Yazdılar, yaratdılar, mətbuat tarixini, nəzəriyyəsini tədris etdilər. Publisistik məqalələri ilə nədən, necə yazmağın praktik nümunələrini ərsəyə gətirdilər. Həmin illərdə mətbuatımız ona görə indikindən daha cazibədar görünürdü ki, sükanı arxasında adlarını sadaladığım insanlar dayanmışdılar. Onların mühazirələrini dinləmək üçün nəzərə çarpmadan auditoriyalarda görünməyi təhsil aldığım Filologiya fakültəsinin tələbələri zirəkliyin bir forması olaraq dəyərləndirirdilər. Şirməmməd müəllim tək-tək pedaqoqlardan idi ki, xəfif təbəssümü ilə bunu görməzliyə vururdu. İkinci kursda Ulu Öndərimiz Heydər Əliyevin sayəsində Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsində təhsilimi davam etdirmək üçün göndəriləndə arzu və inadıma dəstək verən Şirməmməd müəllimin xeyirxah məsləhətlərini minnətdarlıqla xatırlayıram.

Ola bilsin kimsə Şirməmməd müəllimin ünvanına işlətdiyim jurnalistikamızda son 50 ilin zirvəsi ifadəsini bir qədər mübahisəli saysın. İstərdim sözlərimi konkret məqamlarla əsaslandırım.

Jurnalist simasını, ilk növbədə, səciyyələndirən yaradıcılığı, yazılarıdır. O heç vaxt janrlardan, üslubiyyatdan dərs demədi. Fəqət irsi nədən, necə yazmağın gör-götür nümunələri oldu. Ustadın şirin ləhcəsi, zəngin lüğət fondu fikir və məqsədin çatdırılmasının necə geniş imkanlara malik olduğuna diqqət çəkirdi. İş qalırdı bundan yerli-yerində faydalanmaq bacarığına.

Şirməmməd müəllim yazılarında fərdlərin yox, bütövlükdə cəmiyyətin maraqlarını əsas götürürdü. Ustada xas xüsusiyyətlər ölkədə obyektiv, cəsarətli, duyumlu-düşüncəli jur-

nalistlərin bütöv bir nəslinin formalaşmasına təsirsiz ötüşmədi. Yetirmələri indiyədək halallıq haqqına sədaqətlərini qürur hissi ilə dilə gətirirlər. Tələbəsi olmasam da, özümü həmin sırada sayıram.

Şirməmməd müəllimin prinsipiallığı, sözü düz gözün içinə qədər deməsi təbiidir ki, heç də hamının xoşuna gəlmirdi. Yoldaşlıqla, dostluqla ədalət prinsipini qarışdırmamağı məsləhət görürdü. Biliyinə, mövcud potensialına bələd olanlar deyəcəkləri sözü, təklifi fikir süzgəcindən keçirəndən sonra ustada yetirirdilər. Tələbələrinin həyata, istehsalata hazırlıqlı, cəsarətli qədəm qoymalarında xüsusi maraqlı idi. Çünki bu adamlar dövrün salnaməsini yaradanların sıralarına belə keyfiyyətləri əxz etmədən qətiyyən qatıla bilməzdilər. Həmkarlarım müəllimlərinin dekan işlədiyi 1971-1976-cı illəri Jurnalistika fakültəsinin qızıl dövrü olaraq xarakterizə edirlər. Bu, tələbəli, müəllimli hamı üçün ləzzət edən məsuliyyətin cavabdehliklə, təşəbbüskarlığın həssas münasibətlə vəhdətdə olduğu daha yaradıcı, canlı mühit idi. Sonralar hətta narazılar belə xiffətini çəkdilər. Ən əsası o idi ki, universitetdə Jurnalistika fakültəsinin timsalında vətəndaş cəmiyyəti üçün layiqli, fəal həyat mövqeyinə malik kadrlar hazırlayan model formalaşdırılmışdı.

Tanınmış jurnalistlərdən biri o illəri xatırlayarkən diqqəti özünün diplom müdafiəsinə çəkir: "Günlərin birində "1905-1911-ci illərin Azərbaycan mətbuatı" mövzusunda işimi tanışlıq üçün diplom rəhbərim Şirməmməd müəllimə təqdim etdim. Görəndə ki, Mirzə Ələkbər Sabirin əsərlərində olmayan bir şeirini tapmışam, çox sevindi. "Bax, bu əsl tələbə təhqiqatıdır, dedi. İnşallah "Hophopnamə"nin yeni nəşrinə daxil edilməsinə çalışarıq". İstifadə olunan ədəbiyyatın təhlilinə nəzər salanda qaşlarını çatıb təəccüblə mənə baxdı. Şirin ləhcəsi ilə soruşdu: "Balası, 3 müəllimini birdən tənqid edibsən, sözünün arxasında dayana biləcəksənmi". Tələbəsinin "buradan azı 3 qiymətinin iyi gəlir" sözündən məmnun qalan dekan: "Onda getdik döyüşə" dedi.

Müdafiə 1 saatdan çox çəkdi. Sonda tələbəni içəri dəvət edərək belə mənalı müzakirələrə görə təşəkkürlərini bildirdilər, diplom işini əla qiymətləndirdilər. Bəli, bu həmin beş ilə xas auradan, mənzərələrdən yalnız biridir".

1990-cı ildən sonra Jurnalistika fakültəsində də yarpaq tökdü dövrü başladı. Şirməmməd müəllim üçün uzun illər birgə çalışdığı insanların dünyalarını dəyişmələri olduqca ağır itki idi. Hər birinə xoş münasibət bəsləyirdi. Xüsusilə on illər boyu çiyin-çiyinə işlədiyi, "Bakı-Baku" qəzetlərinin baş redaktoru professor Nəsir İmanquliyevin itkisindən uzun müddət özünə gələ bilmədi. Bəlkə də buna görə idi ki, təsəllisini arxivlərdə tapırdı, dost itkisini evdə yazı masası arxasında keçirdiyi yuxusuz gecələrdə konpensasiya etməyə çalışırdı.

Bu rejim onun demək olar gündəlik həyat tərzi idi. O, rahat düşünür, yazıb-yaradırdı. Həyat yoldaşı, məqalələrinin, əsərlərinin ilkin oxucusu, korrektoru, redaktoru Ülkər xanım isə bezmədən, giley-güzarsız yanını kəsdirirdi. Bir dəfə nəciblik, dözüm, iradə sahibi kimi formalaşmış anamıza sual verdim: "Çətin deyilmi?" (Ağsaqqalımız tələbəsi olan xanıma auditoriyada vurulmuş, sözün əsl mənasında doşab almışdı, bal çıxmışdı. Ş.Hüseynovun həmkarlarından şux, səliqəli geyimi ilə seçilməsində, nikbinliyində bu amilin əvəzsiz rolu var idi). Gülümsündü: "Bir adamın ki, qayəsi xalqa, dövlətə xid-

mətdir, indiki və gələcək nəsillərə parlaq irs yadigar qoymaqdır, onun cinahında dayanmaq insana yorğunluq gətirməz" dedi.

Şirməmməd müəllim gülümsəyərək bildirirdi ki, "görüləsi mühüm işlərin həcmi o qədər böyükdür, bir ömür çərçivəsinə sığmaz. Onsuz da yatmağa kifayət qədər vaxtımız olacaq. Yazmaq-yaratmaq üçün öhdəmizdə az müddət qalır". Həmin sözlər vasitəsilə müdrik insanın 70-dən sonra işə, arxivlərə, elmi-təhqiqat müəssisələrinə, görüşlərə, müsahibələr verməyə gedərkən yalnız taksidən istifadə etməsinin fəlsəfəsinə vardım.

Professor ilk baxışda zəhmli, çox ciddi adam təsiri bağışlayırdı. Amma tezliklə duyurdun ki, bu görüntünün arxasında nəcib, xeyirxah insan dayanır. Bizim qarşılıqlı əlaqələrimiz, diskussiyalarımız əsasən 2005-ci ilin iyun ayından daha da intensivləşdi. Milli mətbuatımızın 130 illik yubileyinə hazırlaşırdıq. Mediada sanballı xidmətləri olan jurnalistlərimizin geniş miqyasda mükafatlandırılması üçün Mətbuat Şurasına da öz namizədlərini irəli sürmə səlahiyyəti verilmişdi. Zənglərə Şirməmməd müəllimdən başladım. Vaxt azlığına görə gecə saat 11-də evinə zəng vurdum. Dəstəyi Ülkər xanım götürdü. Səs tonundan həyəcanlandığımı hiss edən xanım səmimiyyətlə: "Narahat olma, Əflatun müəllim, – dedi, – oyaqdır". Xəbəri dinləyib sakitcə: "Məsləhət prezidentimizindir", – dedi. Dilinə xahiş, minnət gətirmədi. Belə hallar xarakterindən çox-çox uzaq idi. Maraqlanıb mükafatlar kolleksiyasına nəzər saldım. Güman edirdim ki, orden-medalları pencəyinə sığmayacaq. Təsəvvürümdə yanılmışdım. Cəmi bir dövlət mükafatı var idi. 1988-ci ildə Əməkdar jurnalist adına layiq görülmüşdü. Vəssalam!

Digərləri ötən əsrin 60-70-ci illərinin bəzəyi "Qızıl qələm", Zərdabi, Y.Məmmədəliyev, M.Rəsulzadə adına mükafatlar idi.

Müəllimimiz dövlət başçısının sərəncamı ilə Prezident təqaüdünə layiq görüldü. Bir dəfə təqaüdünü hara xərclədiyi ilə maraqlandım. Məhəmməd Əmin Rəsulzadənin 1992-ci ildən bəri tərtib etdiyi əsərlərinin 5 cildliyini göstərdi. Vəsaitsizliyə görə çeşidlənmiş halda illər boyu kitab rəfində yatıb qalmışdı. Sponsor axtarışını şəxsiyyətinə sığışdırmayan professor bundan sonra kitabın çapına təqaüdü hesabına başladı. 2018-ci ildə işi yekunlaşdıranda rahat nəfəs aldı. Fəxr etdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə, ulu Məhəmməd Əminin xatirəsinə ərməğanı var. Maraqlısı bu idi ki, Ş.Hüseynov hər dəfə söhbətlərində Tanrıdan işləri yekunlaşdırmaq üçün möhlət istədiyini rica edirdi. Bu arzusuna da qovuşanda: "İndi rahat nəfəs ala bilərəm" təşəkkürünü dilə gətirməkdən zövq alırdı.

"Şərəf" ordenli professor elm adamı idi. Lakin daha çox filosof təsiri bağışlayırdı. Türkdilli ölkələrin jurnalist təşkilatlarının Bakıda keçirilən qurultayında rus dilində məruzəsi ilə hamını heyrətə gətirmişdi. Biz onun 100 yaşına çatmasını istəyirdik. "Allahın işinə qarışmayın" deyirdi.

Müraciətlərimdə mətbuatımızın patriarxını "Ali Ruh" adlandırırdım. Belə yanaşma ulu H.Zərdabinin dəfn mərasimində Əhməd bəy Ağaoglu tərəfindən böyük mütəfəkkirin ünvanına səslənmişdi. O da eyni tərzdə mənə müraciət edirdi. İndi qulaqlarım yenə soraqdadır...

**Əflatun AMAŞOV,**
**Azərbaycan Mətbuat Şurasının sədri,**
**Əməkdar jurnalist.**

www.presscoincil.az

*YENİ KİTABLAR*

# "ULU ÖNDƏR HEYDƏR ƏLİYEVIN İNKİŞAF STRATEGİYASININ TƏNTƏNƏSİ"NƏ HƏSR EDİLMİŞ DƏYƏRLİ TƏDQİQAT

**Azərbaycan xalqının ümummilli lideri, müasir müstəqil Azərbaycanın quruluşu, görkəmli dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif tərəfləri ilə bağlı çoxsaylı kitablar, məqalələr, bədii əsərlər, sənədli oçerklər və sair yazılmasına baxmayaraq, onun inkişaf strategiyasının sosial-iqtisadi və demoqrafik nəticələrini özündə tam şəkildə əks etdirən kompleks xarakter daşıyan tədqiqat əsərləri hələlik kifayət qədər deyildir. Bu baxımdan, tanınmış iqtisadçı alim, AMEA-nın müxbir üzvü, professor Şahbaz Muradovun ulu öndər Heydər Əliyevin əziz xatirəsinə və onun Azərbaycan respublikasının rəhbəri vəzifəsinə birinci dəfə gəlməsinin 50 illiyinə həsr olunmuş və bu yaxınlarda oxuculara təqdim edilmiş "Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələri (1969-2019-cu illər)" (Bakı, "Avrora" nəşriyyatı, 2019) adlı əsəri xüsusi maraq doğurur və böyük elmi-təcrübəvi əhəmiyyət kəsb edir.**

Əsl ziyalılıq və alimlik mövqeyindən çıxış edərək özünün 60 ilə yaxın elmi yaradıcılığının böyük bir hissəsini ulu öndərin inkişaf strategiyasının əsas istiqamətlərinin və onun sosial-iqtisadi və demoqrafik nəticələrinin tədqiqinə və təbliğinə həsr etmiş professor Şahbaz Muradov oxuculara təqdim etdiyi həmin kitabının əvvəlində ilk növbədə Heydər Əliyevin onun həyatında oynadığı roldan və həm də özünün hələ keçmiş SSRİ EA Rəyasət Heyəti nəzdində fəaliyyət göstərmiş "Əhali sakinliyinin sosial-iqtisadi problemləri" Elmi Şurasının üzvü olarkən bu xətlə SSRİ-nin müxtəlif ərazilərində – istər Moskvada, Leninqradda, Kiyev, Minskdə, Aşqabadda, Daşkənddə, Riqada, doğma Bakımızın və respublikamızın müxtəlif regionlarında keçirilmiş onlarca simpozium, konqres, konfrans və seminarlarda ulu öndərin iqtisadi və sosial siyasətinin mahiyyəti və onun şəxsi keyfiyyətlərinin ictimaiyyətə çatdırılması sahəsindəki xidmətlərindən, habelə keçən əsrin 80-ci illərində ulu öndər Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov.

İKP MK-nın Siyasi Bürosunun üzvü vəzifələrində çalışdığı vaxtlarda erməni mafıyasından və onların dəyirmanına su tökən bəzi üzdəniraq milli satqınlar tərəfindən onun əleyhinə yazılıb Moskvaya göndərilən çoxsaylı anonim məktublarda, Moskva və Bakıda çap edilən bəzi qəzetlərdə yer almış böhtan və yalanlara qarşı apardığı mübarizəsindən və qarayaxmaları necə ifşa etməsindən bəhs edir və bununla da təqdim edilən kitabın yazılmasında mənəvi haqqı olduğunu oxucularının diqqətinə çatdırmış olur. Bunu elə ulu öndərin özünün professor Şahbaz Muradov haqqında 24 avqust 1995-ci ildə professorun da üzvü olduğu Azərbaycar Respublikasının Ali Sovetinə seçkilər üzrə Mərkəzi Seçki Komissiyasının üzvləri ilə görüşündə dediyi aşağıdakı fikirləri də təsdiq edir. “1988-ci ildə Əbdürrəhman Vəzirov Azərbaycana rəhbərliyə gəldikdən sonra gəlib burada mənim fəaliyyətimə qara yaxmağa başladığı vaxt Moskvada nəşr olunan “Voprosı gkonomiki” adlı çox nüfuzlu jurnalın 6-cı nömrəsində Şahbaz Muradovun məqaləsi çap edilmiş və o, həmin məqalədə mənim respublikadakı fəaliyyətim haqqında çox müsbət fikirlər yazmışdır. Görünür ki, ədalətli adamlar da var imiş”. Təqdirəlayiq haldır ki, müəllif həmin məqaləni təqdim edilən bu kitabın 67-93 səhifələrində yenidən çap etdirərək oxucuların diqqətinə çatdırmışdır. Sonra Şahbaz Muradov həmin əsərində dahi şəxsiyyət Heydər Əliyevin tükənməz və əvəzsiz xidmətləri, reallıqları əks etdirən zəngin rəsmi statistik məlumatların toplanması və təhlil edilib ümumiləşdirilməsi əsasında son 50 il ərzində ölkə iqtisadiyyatında və onun mühüm sahələrinin inkişafında, o cümlədən əhalinin təkrar istehsalı, miqrasiya prosesləri, yaş-cins tərkibi, etno-demoqrafık quruluşu, ömür uzunluğu, sağlamlığı, demoqrafik inkişaf göstəriciləri, məşğulluq və işsizlik səviyyəsi, elm və təhsilin inkişafı və əhalinin yaşayış səviyyəsi və həyat keyfiyyətində baş vermiş köklü inqilabi dəyişikliklərdə ulu öndər Heydər Əliyevin inkişaf strategiyası və siyasi kursunun və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən yeganə doğru və müstəqil siyasətin rol və əhəmiyyəti kompleks halında tədqiq edilib aşkara çıxarılaraq elmi ictimaiyyətin, dövlət və hakimiyyət orqanlarında çalışanların və geniş oxucu kütləsinin diqqətinə çatdırmışdır. Professor qeyd edir ki, ulu öndərin Azərbaycana rəhbərliyə gəldiyi hər iki dövr ölkənin ən ağır və böhranlı vəziyyət keçirdiyi illərə təsadüf etmişdir. Onun Azərbaycana rəhbərliyə gəldiyi birinci dövr (1969-1982-ci illər) respublika iqtisadiyyatının bərpası və dinamik inkişafı dövrü, ikinci dövr (1993-2003-cü illər) isə Azərbaycanın “ölüm, ya olum” dilemmasından xilas edilməsi və onun qurtuluşu kimi tarixin yaddaşına həkk olunmuşdur. Ulu öndər Heydər Əliyev hər iki dövrdə Azərbaycan xalqının

və dövlətinin maraqlarını, mənafelərini müdafiə və təmin edən ən düzgün siyasi qərarlar qəbul edib həyata keçirməklə ölkəni duşdüyü ağır vəziyyətdən çıxara bilmişdir. Müəllif xüsusi olaraq qeyd edir ki: "Müstəqil Azərbaycan dövlətinin memarı, yeni Azərbaycanın qurucusu olan və xalqından heç nəyi əsirgəməyən bu böyük insan sözün əsl mənasında ömrünü öz xalqının yolunda şam kimi əritdi, demək olar ki, şəhid oldu". Müəllif kitabda xalqımızın arzusunu reallığa çevirmiş ulu öndərin Azərbaycana rəhbərlik etdiyi iki dövrün təsnifatını verərək qeyd edir ki, onun Azərbaycana bilavasitə rəhbərlik etdiyi 23 ilin 13 ili (1969-1982-ci illər) Sovet hakimiyyəti zamanın, 10 ili (1993-2003-cü illər) isə Azərbaycanın müstəqillik illərinin payına düşür. Heydər Əliyevin ilk dəfə Azərbaycana rəhbərlik etməyə başladığı vaxtdan keçən 50 ilin 16 ili isə (2003-2019-cu illər) cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdür. Ümumiyyətlə, götürüldükdə isə bu 50 illik dövrün 22 ili (1969-1991-ci illər) Sovet hakimiyyəti illərinin, 28 ili isə müstəqillik illərinə aiddir. Ümummilli liderin respublikamıza rəhbərlik etdiyi hər iki dövr Azərbaycanda inkişafın yeni mərhələləri - bərpa və dinamik inkişaf mərhələləri; cənab İlham Əliyevin respublikamıza rəhbərlik etdiyi dövr isə ölkə inkişafının keyfiyyətcə yeni mərhələsi kimi tarixə düşmüşdür. Beləliklə, Azərbaycanın müasir tarixi, dahi şəxsiyyət, ümummilli liderimiz Heydər Əliyev və onun layiqli davamçısı, dünyanın ən islahatçı prezidenti İlham Əliyevin adları və fəaliyyətləri ilə bağlıdır.

Kitabda diqqətiçəkən ən mühüm məsələlərdən biri də onun araşdırmanın kompleks xarakter daşıması və ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının nəinki sosial-iqtisadi və həm də sosial-demoqrafik nəticələrinin dərindən tədqiq edilib öyrənilməsindən ibarətdir. Bundan başqa, həmçinin müxtəlif illərdə rəsmi dövlət qəzetlərində və müstəqil mətbuat orqanlarında, eyni zamanda, ulu öndərə həsr edilmiş kitablarda "Heydər Əliyevin iqtisadi siyasəti qalib gəlir: İqtisadi yüksəlişin zirvəsinə doğru inamlı addımlar" (1998-ci il); "Azərbaycan iqtisadiyyatı müstəqillik illərində: əsas dəyişikliklər, inkişaf meylləri və problemlər" (2000-ci il); "Müstəqilliyimizin və milli mənəviyyatımızın qarantı" (2001-ci il); "Müstəqillik illərində iqtisadiyyatın inkişaf etdirilməsi Azərbaycanın postsovet məkanında öncüllər sırasına çıxması ilə nəticələnmişdir" (2001-ci il); "Heydər Əliyev təcrübəsinə söykənən iqtisadiyyat" (2001-ci il); "Elmi həqiqətin təntənəsi" (2002-ci il); "Azərbaycan Elmlər Akademiyasının inkişafında Heydər Əliyev mərhələsi" (2003-cü il); "Heydər Əliyev dövlət müstəqilliyimizin və iqtisadi yüksəlişimizin memarıdır" (2003-cü il); "Heydər Əliyev Azərbaycan elminin hamisi və böyük mütəfəkkiri idi" (2004-cü il); "Heydər Əliyevin elmi həqiqətlərə

söykənən iqtisadi inkişaf strategiyasının təntənəsi" (2006-cı il); "Heydər Əliyevin inkişaf strategiyası bu gün də uğurla həyata keçirilməkdədir" (2009-cu il); "Heydər Əliyevin ideyalarına söykənən demoqrafiya siyasəti və demoqrafik proseslərin nizamlanması istiqamətləri" (2011-ci il); "Demoqrafik proseslər və məşğulluq problemlərinin həlli" (2016-cı il); "Heydər Əliyev müstəqilliyimizin və Azərbaycan xalqının əbədiyaşar lideridir" (2018-ci il) və digər müxtəlif adda məqalələr də özünə yer tapmışdır. Kitabda iftixar hissi ilə o da qeyd olunur ki, ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi birinci dövrdə (1969-1982-ci illər) Azərbaycan Respublikası ardıcıl olaraq 13 il Sovet dövlətinin ən yüksək mükafatı sayılan – SSRİ-nin Keçici Qırmızı bayraqları ilə təltif olunmuş; 1 milyon 95 min nəfərdən çox vətəndaşımız keçmiş SSRİ-nin müxtəlif orden və medalları ilə, o cümlədən 1007 nəfəri "Lenin" ordeni, 10 min 130 nəfəri "Qırmızı Əmək Bayrağı", 1422 nəfəri "Oktyabr İnqilabı", 1153 nəfəri Xalqlar Dostluğu Ordeni ilə təltif edilmiş; 108 nəfəri, onlardan bir neçəsi, o cümlədən Heydər Əliyev isə ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş; SSRİ-nin 50-dən artıq böyük şəhərlərinin, o cümlədən Moskva, Leninqrad, Kiyev və digər şəhərlərin 170-dən artıq ən qabaqcıl ali məktəblərində 244-ə yaxın ixtisas üzrə 18 min nəfər azərbaycanlı gənc təhsili almışdır. Bu siyasət ulu öndərin layiqli davamçısı İlham Əliyev tərəfindən indi də uğurla davam etdirilir.

Professor Şahbaz Muradov kitabda ulu öndərlə bağlı xatirələrini də qələmə alaraq yazır ki, bu böyük şəxsiyyətlə dəfələrlə ünsiyyətdə olmuş və ondan öz ünvanına xoş sözlər eşitmişdir. Müəllif vurğulayır ki, bu dahi şəxsiyyətlə dəfələrlə ünsiyyətdə olması və ondan xoş sözlər eşitməsi onun həyatının ən yaddaqalan anlarıdır. Kitabla yaxından tanış olduqda o da aydın olur ki, alimin həm Azərbaycanda və həm də müxtəlif xarici ölkələrin mətbuat orqanlarında çap edilmiş 500-dən artıq monoqrafiya, kitab və məqalələrində ulu öndərin şəxsiyyəti, apardığı yeganə doğru siyasət və quruculuq işləri yetərincə öz əksini tapmış və geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanmışdır.

Bir sözlə, AMEA-nm müxbir üzvü, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, "Şöhrət" ordenli Şahbaz Muradovun bu ilin ortalarında çap edilərək geniş oxucu kütləsinə təqdim edilmiş "Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələri (1969-2019-cu illər)" adlı bu kitabı ümummilli liderimizin zəngin irsinin öyrənilməsində gənc nəsil üçün xüsusi əhəmiyyət kəsb edən əyani vəsait kimi də çox əhəmiyyətlidir.

**Ataş CƏBRAYILOV,**
www.respublica-news.az

# NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏNİN VƏHDƏTİ

## "ZİRVƏDƏN ZİRVƏYƏ..." KİTABLARI HAQQINDA QEYDLƏR

***"Zirvədən zirvəyə..." kitablarının müəllifi uzun illər Azərbaycanın prokurorluq orqanlarında və məhkəmə sistemində rəhbər vəzifələrdə çalışarkən yüksək peşəkarlıq, səriştəlilik göstərən, öz işində insanpərvərlik və humanizm nümayiş etdirən tanınmış hüquqşünas İkram Kərimovdur. Birinci kitabda İkram Heydər oğlu Kərimovun həyat yolu - hüquqşünas-müstəntiq olmaq arzusunun necə reallaşması işıqlandırılıb. Zamanında ittifaq və respublika miqyasında istintaq edilən dövlət əhəmiyyətli bir sıra cinayət işlərinin adı açıqlanmayan müəllifinin kimliyi bu kitab vasitəsilə bəlli olur. Eyni zamanda, oxucu üstübağlı, ağır, çoxepizodlu və mürəkkəb cinayət işlərinin istintaqının gedişi, çətinlikləri, cinayəti işlətmiş şəxslərin ifşası üçün çəkilən əzab-əziyyətlərin, yuxusuz gecələrin necə bəhrə verməsi və qiymətləndirilməsi ilə əlaqədar arxiv materialları ilə tanış olacaqdır. Bu nəfis tərtibatlı nəşrdə hadisələrin cərəyan etdiyi tarixi dövrün xatırlanması, analitik təhlili, bir çox qaranlıq məqamlara aydınlıq gətirilməsi də maraqlıdır və xüsusən də gənc hüquqşünaslar və müstəntiqlər üçün çox əhəmiyyətlidir.***

Memuar ədəbiyyatında qələmə alınan xatirələrdə cəmiyyətə bəlli olmayan, lakin böyük əhəmiyyət kəsb edən hadisə və olaylara, tarixi proseslərə aydınlıq gətirilməlidir. Bu, zamanla şayiələr nəticəsində əhalinin müəyyən bir təbəqəsində formalaşmış yanlış olan məlumatların aradan qaldırılmasında da müsbət nəticələr verir. Və bu qəbildən olan kitablarda məqsəd ilk növbədə keçdiyin həyat yolunu, yaşadıqlarını, gördüklərini gənc nəslə çatdırmaq, zamanında rastlaşdığın, ətrafında cərəyan edən bəzi hadisələri xatırlamaqla bu və ya digər formada onları düşündürmək, özləri üçün düzgün nəticə çıxarmağa sövq etməkdir. Heç şübhəsiz, insanın yaşadığı hər dövrün özü konkret tarixi hadisələrlə zəngindir. Ona görə də hər bir xatirənin zamanın müəyyən hadisələri ilə bağlılığı olur. Hadisələrə müxtəlif baxışların və yanaşmaların olması mümkündür, bu, istisna edilmir. Və tarixi dövr fakt olaraq qalır. Necə ki, baba və nənələrimizin,

Sovetlər birliyinin gözü qarşısında süqut etməsinə, keçid, daha sonra müstəqillik illəri dövrünü yaşayan, hər üç dövrün qanunları ilə işləməli olan müstəntiq, prokuror-dövlət ittihamçısı və hakim-məhkəmə sədri kimi çalışan müəllifin fikrincə, sərt döngələri olan, enişli-yoxuşlu, çala-çuxurlu, tozlu-torpaqlı yolu müxtəlif iqlim şəraitində dəf etmək, mənzil başına büdrəmədən çatmaq elə də asan məsələ olmayıb.

ata və analarımızın həyata qədəm basdıqları zamanlar kommunist rejiminin möhkəmlənməsi və inkişafı dövrünə, bizim yaşadığımız illər isə gözlərimizin önündə imperiyanın çökməsini, süqutunu müşahidə etməyə təsadüf etmişdi. Şərh olunanlarla yanaşı müəllif hesab edir ki, belə bir kitabın yazılmasında, araya-ərsəyə gəlməsində bir başqa məqsəd barəsində məlumatı olan, zamanın tanınmış hüquqşünaslarını xatırlamaqla, onları imkanı daxilində yaddaşlara köçürməkdir. Fədailərin xatırlanması kimlərəsə təsəlli ola bilər, kimlərsə yaxşı mənada faydalanar. Hüquq işçilərinə olan yanaşma tərzinə görə barələrində olan boşluqların damla qədər olsa da doldurulmasına xidmət edər.

Nəzərə çatdıraq ki, kitabın adında ifadəsini tapan söylənən məqsəd və məramı işıqlandıran bu mükəmməl və əhatəli nəşrin ilk dörd fəslində ata-ana yurdu Kürdəmirdə, doğmalar və qohum-əqrəbalarla, orta məktəb və tələbəlik illəri ilə, ilk səyahətlərlə bağlı yazılara yer verilib. Bu, tanışlıq oxucuda kitabın çox maraqlı bir şəxsiyyətin həyat və fəaliyyətinə həsr olunması haqqında böyük əminlik yaradır. Hüquqşünas-müstəntiq işinə sevginin faktı olan İkram Kərimovun bu kitabı uğurlu istintaq və tamamlanan cinayət işləri materiallarını təqdim etməklə yanaşı, həm də memuar ədəbiyyatı nümunəsidir. Hüquqşünas ömrünün müxtəlif anlarını bu və ya digər rakursdan qabardan canlı həyat lövhələri real və gerçək hadisələrin təzahürüdür. Belə ki, bir-birindən maraqlı universitet illərində fakültənin elmi şurası (31 mart 1967-ci il) İkram Kərimovun istehsalatdan ayrılmaqla aspiranturaya qəbul olunmasına dair qərar qəbul edir. Həmin dövrün qanunlarına görə universiteti bitirdikdən sonra istehsalatda ən azı iki il işləməyənlər aspiranturaya qəbul edilə bilməzdilər, istisna yalnız elmi şuranın tövsiyə etdiyi şəxslərə aid idi. Belə fürsəti isə o, əldən verə bilməzdi. Odur ki, həvəslə aspiranturaya qəbul olunmaq üçün hazırlaşmağa başlayır. Toplayıb təqdim edəcəyi sənədlərin sırasında xasiyyətnamə də nəzərdə tutulur. Lakin onu almaq problemə çevrilir. Və bir cinayət işinin istintaqı ilə əlaqədar qeyri-müəyyən müddətə SSRİ Prokurorluğuna ezam olunur. Yola düşmək ərəfəsində istintaq hissəsinin rəisi ona deyir: “Neyləyirsən aspiranturanı, biz hesab edirik ki, səndən gələcəkdə yaxşı istintaqçı ola bilər. Hər üstünü açdığın cinayət işi, tərtib etdiyin ittiham aktı bir elmi əsərdir. Nəzəri məsələlərə həmişə vaxt taparsan. Get Moskvaya. Həbsdə olan müqəssir (sabiq nazir) deyir ki, qadından rüşvət pul almamışam. Moskvada ona verdiyim borc pulu poçt vasitəsilə geri almışam. Fərasət göstər bu epizodu araşdır, gör pul rüşvətin predmetidir, yoxsa, qaytarılan borcdur. Nəticəsi elə bir dissertasiyadır. Unutma ki, bu adi cinayət işi deyil, SSRİ Baş prokurorunun xüsusi nəzarətində olan işdir. Bu iş taleyində rol oynaya bilər. Sonda biz səni göndərərik hüquq fakültəsinə, tələbələrə mühazirə oxuyaraq, işin açılmasından həvəslə danışırsan”.

Həyatda insan elə məqamlarla, elə şəxslərlə rastlaşır ki, bu onun gələcək həyat yolunun istiqamətinin müəyyən edilməsində həlledici olur. O, fakültənin göstərdiyi eti-

madla, işlədiyi nüfuzlu təşkilatın göstərdiyi etimadın ayrıcında qalır. Bəllidir ki, ikinci yolu seçir. Üstüörtülü cinayət işlərinin açılması deyərdim ki, doğrudan da bir elmi əsərdir, – qənaətində olan müəllif yazır: "Moskvadan bir dostum mənə hazır dissertasiya gətirmişdi. Mən onu qəbul etmədim. Bir yaxın tanışım bunu bildi və həmin dissertasiyanı ələ keçirdi, elmlər namizədi oldu. Üstündən xeyli müddət keçmişdi. Həmin şəxs bir məclisdə elmdən, elmlər namizədi olmasından, yaradıcılığından pafosla danışırdı. Yanında əyləşmişdim. O, şahidi olduğum hadisədəki "iştirakımı" unutmuşdu. Bu baxımdan hesab edirəm ki, tamamladığım cinayət işlərinin bəziləri mənim üçün öz həllini tapmış elmi əsərlərdir. Gizli qalmış cinayət hadisəsinin üstünün açılması – kəşfdir. Qaranlıq məsələlərə aydınlığın gətirilməsi, tarixə dönmüş bəlli olmayan hadisənin bərpa olunub aşkarlanması, ədalətin öz yerini tapmasına nail olunması kəşfin bəhrəsidir. Təcrübədə doğulan belə işlər elmin inkişafına və onun düzgün məcraya yönəldilməsinə töhfədir".

Kitabda toplanmış "Prokurorluğun kandarında", "Təyinatlar", "Motosiklet K-750", "Taxıl məhsulları nazirinin həbsi", "Xaçmaz əhvalatları", "Qusarla bağlı xatirələr", "Qatil güllələndi", "Həbibovlar ailəsinin qətli", "Prokuror və onun ailəsinə edilən qəsd", "Rayon partiya komitəsinin birinci katibinin həbsi", "Üç nəfər tələbənin əkin sahəsində qətlə yetirilməsi", "Şıxlı kəndində Kür çayından çıxan meyit" və s. yazıları oxuyub İkram Kərimovun ömür yoluna bələd olduqca, görürük ki, o, həyat yolunun ilk pilləsindən başlayaraq bu günə qədər qanun və qanunçuluğun keşiyində mübarizələrlə dolu günlər, aylar, illər yaşayıb.

"Müstəntiqlərə tövsiyələrim" məqaləsində müəllif yazır ki, hər bir cinayət fərdidir. Bütün məqamları görmək çətindir. Bəzən ağlasığmaz vəziyyətlə üzləşməli olursan. Belə halda düz yolu tapmaq müstəntiqin səriştəsi, peşəkarlığı və dünyagörüşündən asılıdır. İkram Kərimov cinayət işi istintaqının ümumi istiqamətlərini və müstəntiqin başlıca vəzifələrini aşağıdakı kimi müəyyən edir:

1) ...İstintaq planının, sirrinin qorunması, qanunsuz müdaxilələrə yol verməmək əsas şərtlərdəndir. İdarəetmə əldən verilməməlidir. Sənədlər savadlı tərtib olunmalı, maddi və prosessual hüquq normalarının tətbiqində səhv buraxılmamalıdır. İstintaqın tam, obyektiv və hərtərəfli araşdırılması təmin edilməklə, iştirakçıların hər birinin rolu dürüst müəyyənləşdirilməlidir.

...İstintaqin təmasda olduğu bütün şəxslərlə münasibətlər düzgün qurulmalıdır. Mövqeyi tələsik açıqlamaq düzgün deyil. Əməliyyatçılarla işləmək bacarığına yiyələnmək lazımdır. Qarşı tərəfin düşüncə və mühakimələrinə hörmətlə yanaşılmalı, daxil olan məlumatların işin faktiki hallarına uyğunluğu təhlil edilib qiymətləndirilməlidir.

...Cinayət işinin istintaqı zamanı işin faktiki hallarının düzgün müəyyən edilməsi mühüm və əsas faktordur. Sübutlar növündən asılı olmayaraq işin faktiki hallarına uyğun gəlməli və ona söykənmə-

lidir. İttiham aktında toplanmış sübutların mötəbərliyinə dəlalət kimi onun işin faktiki hallarına uyğun gəlməsi vurğulanmalıdır. Əks halda belə dəlillər sübut kimi qəbul edilə bilməz. Necə ki, mənbəyi olmayan məlumatlar sübut kimi qəbul olunmur.

...Dindirmə protokolu müstəntiq tərəfindən tərtib olunmalıdır. Bu vəzifənin dindirilən şəxsin öhdəsinə buraxılması qətiyyən düzgün deyil. Protokolla tanış olan şəxs öz xətti ilə ona əlavə və düzəlişlər etmək hüququna malikdir. Bunun üçün ona şərait yaradılmalıdır. İttiham aktında şəxsin ifadəsini özünün yazması xüsusi olaraq mənfi haldır. Belə mövqe müstəntiqin tərtib etdiyi protokolun mötəbərliyini, düzgün yazılışını şübhə altına almağa işarə kimi qəbul edilə bilər.

2) ...Müstəntiq ekspertlə işləmək vərdişinə yiyələnməli, lazım gəldikdə məsləhətləşməli, ekspertizanın keçirilməsində iştirak etməlidir. Maddi sübutlar düzgün qablaşdırılmalı, onların korlanmasına, itirilməsinə yol verilməməlidir. Meyitin tədqiqində müstəntiqin iştirakı vacibdir. Ekspertizanın keçirilməsini ekspertin ümidinə buraxmaq düzgün deyil. Onunla əlaqəli işləmək lazımdır. Düz nəticəyə gəlinməsi üçün ekspert cinayət işinin materialları ilə tanış olmalıdır. Rəy işin faktiki halları ilə ziddiyyət təşkil edə bilməz.

...İstər şəxsin, istərsə də əşyanın tanınması mühüm institutdur. Bu istintaq hərəkətini yerinə yetirən müstəntiqin təcrübəsizliyi, naşılığı, səhvi toplana biləcək sübutun əldən qaçırılması ilə nəticələnə bilər. Tanınma keçirilməzdən öncə prosessual qaydalarla bir daha tanış olmaq lazımdır. "Bilirəm" deməklə kifayətlənmək olmaz. Orada göstərilən bütün şərtlərə dürüst riayət olunmalı və bu protokolda əksini düzgün tapmalıdır. Müsbət nəticəyə nail olmaq üçün ön istintaq hərəkətləri yerinə yetirildikdən sonra texniki cəhətdən tanınmaya ciddi hazırlaşmaq lazımdır. Şəxsin, əşyanın maksimum bənzərliyi gözlənilməlidir. Sırada hansı yerdə dayanma məsələsini tanınan şəxs özü müəyyən etməlidir. Bu prosesin icrasından sonra otağı heç kim tərk etməməlidir. Tanımağa dəvət olunan şəxsi kimsə bayıra çıxıb çağırmamalıdır. Təmasa yol vermək olmaz. O, telefon rabitəsi vasitəsilə dəvət almalıdır. Bu şərtlər əşyanın tanınmaya təqdim edilməsi zamanı da gözlənilməlidir. Canlı şəxsin tanınmaya təqdim edilməsi öncəsi, onun fotoşəklinin tanınmaya təqdimi yolverilməzdir.

3) ...Müstəntiqin daxili inamı önəmli məsələdir. Bu inamın müstəntiqin təfəkküründə düzgün formalaşması üçün toplanmış sübutların mötəbərliyi əsas rol oynayır. Yenə qayıdaq işin faktiki hallarının düzgün müəyyən edilməsinə. Toplanmış sübutların işin faktiki hallarına söykənməsinə əks hal qeyri-məqbuldur. Şübhəli amillər işin xeyrinə işləyə bilməz. Ekspertlərin səriştəliliyi, prosessual normalara qeyd-şərtsiz riayət olunması, saxtakarlığa yol verilməməsi və belə cəhdlərin qarşısının alınması, əməliyyat məlumatlarının dəfələrlə süzgəcdən keçirilməsi, istintaq taktikasının düzgün qurulması, yerinə yetiriləcək istintaq hərəkətlərinin ardıcıllığının düzgün sıralanması, dindirmələrin və sualların verilməsi zamanın

seçilmiş dindirmə taktikasına uyğun müəyyən edilməsi, tələskənliyə və gecikməyə yol verilmədən aydınlaşdırılmalı halların vaxtında araşdırılması vacib məsələlərdəndir.

...İstintaqla əlaqəli şəxslərin əhval-ruhiyyəsinin, psixoloji durumunun öyrənilməsi, onun təhsilinə, mədəniyyətinə, səhhətinə, dünyagörüşünə, maraq dairəsinə, etik və davranış tərzinə, ailə vəziyyətinə, əhatəsində olan adamlara, keçmişinə, rəftarına, uyğun münasibətlərin qurulması mühüm əhəmiyyət kəsb edir. Burada hər amili görüb sadalamaq qeyri-mümkündür. Hər fərdə uyğun düzgün seçim edilməlidir. Şərh olunanlardan daxili inamın formalaşması qaynaqlanır. Bu inam kənar şəxsin müdaxiləsi, tövsiyəsi olmadan müstəntiqin daxilində yetişməlidir.

...Dindirilən şəxs yalan ifadə verdikdə, onu şifahi söhbətlərlə düzgün məcraya yönəltmək səhv taktikadır. İmkan verilməlidir ki, o, yalan ifadəsini rəsmən tamamlasın, ürəyini boşaltsın. Növbəti istintaqda onun yalan ifadəsi xırdalıqlarla araşdırılaraq düzgün olmaması müəyyən edilməlidir. Bundan sonra toplanmış sübutlar əsasında onun əlavə olaraq yenidən dindirilməsi və ifşa edilərək tərk-silah olunması mərhələsi gəlir. Son olaraq təkzibolunmaz dəlillər altında düzgün ifadə verməyə məcbur olacaq.

Birinci kitabda "Xatirələr" silsiləsindən verilmiş 50-yə yaxın məqalə də İkram Kərimovun sözü ilə əməlinin bir olması, işgüzarlığı, hər yerdə sayğı və məhəbbətlə qarşılanması, hüquq işçisi kimi özünəxas xarakterik obrazı, aydın və parlaq şəkildə əksini tapır. Təqdim edilən bu məqalələrdə müəllifin həyat və fəaliyyətini sərgiləyən (nümunə olaraq) aşağıdakı kimi göstərilən epizodlar geniş yer alır:

– "Direktoru olduğum "Samsung" şirkətinin mağazalarının birində təsadüfən onunla rastlaşdım. Aradan uzun illər keçməsinə baxmayaraq, mən onu dərhal tanıdım, qarşısında durdum və "salam, İkram müəllim" dedim. O, diqqətlə mənə baxdı, birdən üzündə xoş bir təbəssüm yarandı və zarafatyana "necəsən stxa", yəni ləzgi dilində qardaş dedi. Sanki bütün dünyanı mənə verdilər. Bu, onun Qusar zonasında işləyərkən işlətdiyi ən xoş sözlərdən idi. Bu da onun necə güclü yaddaşa malik olduğunu göstərirdi";

"Məcbur olub işi aparan müstəntiqə zəng etdim. İşdən görünürdü ki, adı İkram Kərimovdur. Düzü onu şəxsən tanımırdım. Həmin vaxt o hansısa ağır bir cinayət işi ilə əlaqədar yaradılmış istintaq qrupunun rəhbəri idi. Heç Bakıda da deyildi. Telefonda dedim ki, ay İkram müəllim, müttəhim tərəfindən belə bir fərziyyə irəli sürülür. Onun cavabı qısa oldu: "Firudin müəllim, filan cildi siz əhəmiyyətsiz iş kimi kənara qoymusunuz. Həmin cildi oxuyun, orada hər şey yazılıb". Mən həmin cildi tapıb oxudum. Doğrudan da, orada hər bir şey incəliyənə qədər araşdırılıb sənədləşdirilmişdi. Müstəntiqin peşəkarlığı göz qabağında idi. Qeydlərimi aparıb, növbəti məhkəmə baxışında sübutları müttəhimə elan etdim. Faktlar qarşısında onun deməyə sözü olmadı və hər şeyi boynuna almağa məcbur oldu".

"Böyük fikir adamları yaxşı deyirlər ki, ədalətli olmağın bəhrəsi ruhi sakitliyi

təmin etməyə xidmət edir. Bütün həyatı boyu ədalətin keşiyində dayanan İkram müəllim bu gün ədalətin simvolu kimi gənclərimizə bir örnəkdir, onu müşahidə etmişəm. Görmüşəm ki, vəzifə yüksəlişinə, rəhbərliyinə baxmayaraq, tabeçiliyində olan işçilərə, dostları ilə, yoldaşları ilə səmimi münasibət saxlamaqla öz üstünlüyünü büruzə vermir. Əksinə, qayğıkeşliyi və diqqəti ilə öz ucalığını bir daha təsdiq edir. Onunla təmasda olarkən məşhur sufi şeyxi Mövlanə İsmayıl Siracəddin Şirvaninin onun yerlisi – kürdəmirli olduğunu dedim. İkram müəllim buna böyük maraq göstərdi və həmin kitabı əldə etdi, kitabı oxuyub qürur hissi ilə dəfələrlə mənə təşəkkür etdi və Siracəddin əfəndinin bağının hazırda da Mövlanə bağı adı ilə Kürdəmir rayonunda qaldığı barədə məlumat verdi. Mən İkram müəllimin böyük vətənpərvər və həm də elmi dəyərlərə yüksək qiymət verdiyinin bir daha şahidi oldum".

İkinci kitab İkram Kərimovun prokuror vəzifəsində işlədiyi dövrü əhatə edir. Kitabda Sovet məkanında prokurorun fəaliyyət dairəsi barədə oxuculara dolğun məlumatlar verilməklə yanaşı, müstəntiq vəzifəsi ilə vidalaşdıqdan sonra prokurorun ibtidai istintaqa nəzarətinin həyata keçirilməsi ilə bağlı maraqlı məqamlara diqqət yetirilir. Prokurorun xidməti dövründə rastlaşdığı bəzi cinayət hadisələri və əhvalatlar qələmə alınır.

İkram Kərimovun bu kitabında gedən məqalələri içərisində oxucu üçün böyük maraq doğura biləcək bir yazıya diqqət ayrılmasını məqsədəuyğun hesab edirəm. Müasir çoxqütblü dünyada daha da kəskinləşən geosiyasi və geoiqtisadi məsələlərin həllinin aktuallığının daha da artdığı yeni tarixi dönəmdə ictimaiyyətə indiyə qədər ya məlum olmayan ya da az məlum olan hər bir faktın öyrənilməsi və təhlilçilərin diqqətinə çatdırılması erməni probleminin öyrənilməsi üçün daha yeni imkanlar açır. "Sərkis Yeqanyan haqqında" və "Baqramyan kimdir?" yazıları bu mənada çox əhəmiyyətlidir. "Baqramyan kimdir?" məqaləsində qeyd edilir ki, "Hayastan" nəşriyyatının 1980-ci ildə İrəvanda çap etdiyi İ.X.Baqramyanın "Mənim xatirələrim kitabı" müəllifin yazdığına görə Şərqi Ermənistanın Rusiyanın tərkibinə daxil olmasının 150 illiyinə həsr olunub. Elə buradaca işlədilmiş ifadəyə diqqət yetirin: "Şərqi Ermənistan".

Sonrakı ifadələri: "1920-ci ildə rus qardaşlarımızın dostluq köməyi və yaratdığı zəruri şərait sayəsində Ermənistanın dirçəlməsi və yenilməsi təmin olundu. Nəhayət ermənilər şimal qonşularının qardaşlıq yardımı nəticəsində əsrlər boyu arzuladıqları məqsədlərinə çataraq türk zülmündən xilas ola bildilər".

Azərbaycanda anadan olmasını kinayə ilə vurğulayaraq valideynlərinin Gədəbəy, Şamxor, Yevlax və Ağstafada işləmələrini, özünün isə Kirovabad (Elizavetpol) şəhərində təhsil aldığını qeyd etməsinə baxmayaraq, kitabı tarixi öz xeyirlərinə təhrif edən ifadələrlə doldurmuş, türklərə olan nifrətini gizlətməmiş, ruslar qarşısında yaltaqlığını yüksək zirvəyə çatdırmışdı.

O, kitabda Andraniki qəhrəman hesab etməklə, onun "Qərbi Ermənistan" uğrunda vuruşduğunu xüsusilə qeyd edir. Ma-

raq doğuran faktlardan biri də 21-ci səhifədəki fikirdir: "Son dərəcə əhəmiyyətli və mühüm olan o idi ki, Andranikin silahlı dəstəsində olan gənc Anastas İvanoviç Mikoyan türklərə qarşı igidliklə döyüşürdü"(!). Baqramyan Andraniklə görüşünün onda dərin təəssürat yaratdığını göstərərək, eyni zamanda bütün kitab boyu öz iç üzünü hiss etmədən açıb-tökür. Özünün türklərə qarşı vuruşmasından fəxrlə yazır.

Baqramyanla əlaqəli daha bir maraqlı yazı: "M.V.Frunze adına Hərbi Akademiyanın rəisi Robert Petroviç Eydman ondan soruşur:

– Siz Azərbaycan dilində danışırsınız?

– Əlbəttə, – cavab verdim mən.

– Bu dil haqqında Lermontov nə deyib bilirsinizmi?

– Yox, – pərt və səksəkəli halda etiraf etdim.

– Qərbdə fransız dili nə qədər işləkdirsə, o qədər də Azərbaycan dili Şərqdə işləkdir...".

İkram Kərimov şərh olunanları nə üçün yazmalı olduğuna işarə edir; İ.X.Baqramyan bizlərə qarşı nifrətini 100 min tirajla yaydığı kitabında aşkar surətdə bildirdiyi və tarixi faktları təhrif etdiyi halda, onu ifşa etməyə təşəbbüs belə göstərmədik!

Şərh olunan qeydlərimə marşalın süfrəsinin başında oturduğu əxlaqsız erməni ilə dostluğunu həmin erməninin L.P.Beriya başda olmaqla, yüksək çinli şəxsləri qadınlarla təmin etməsi faktları ilə əlaqədar SSRİ Baş prokuroru R.A.Rudenkonun ondan aldığı rəsmi ifadəsini və bu işin üstü açılıb, erməni polkovnik həbs edildikdən sonra Baqramyanın əl-ayağa düşüb ölkə rəhbərliyindən imdad istəməsinə dair müraciətlərini əlavə edirəm.

Təqdim olunan həmin sənədlərdən bir daha bəlli olur ki, ermənilər müntəzəm olaraq hakimiyyətin bütün qollarında öz adamlarını məharətlə yerləşdirməklə daim bu üsuldan mənfur siyasətlərinin həyata keçirilməsində ustalıqla istifadə etmişlər.

Kitabda yer almış məqalə və sənədlər təsdiq edir ki, Azərbaycanın tanınmış hüquqşünası İkram Kərimov memuar janrında daha geniş miqyasda fakt, sənəd və materiallardan istifadə etməklə çox dəyərli və əhəmiyyətli ikicildlik toplu ərsəyə gətirmişdir. Bu baxımdan "L.P.Beriyanın həbsi ilə əlaqədar mülahizələrim" böyük diqqət çəkir. Müəllifin fikrincə, İosif Stalini L.P.Beriya əvəzləsəydi, müttəfiq respublikalar daha tez və itkisiz müstəqillik əldə edəcəkdirlər. Eyni zamanda onların rus xalqı ilə əlaqələri və münasibətləri daha sıx və möhkəm olacaqdı. Bunun üçün əziyyət çəkib çox uzağa getmək lazım deyil. Stalinin ölümü ilə Beriyanın aradan götürüldüyü dövr ərzində sonuncunun fəaliyyətini öyrənmək, onun Siyasi Büroya ünvanladığı məktubları, işlədiyi bütün sahələri əhatə edən və saxlanılmış gündəliklərini təhlil etmək, qiymətləndirmək kifayətdir. Gələn dalğanın qarşısında islanmamaq mümkün deyil. Stalinin erasında onun vəziyyəti məhz belə olmuşdur.

Müəllif etiraf edir ki, bu yazı şəxsi qənaətini isbat etmək məqsədi daşımır. Yazıda qarşıya qoyulan məqsəd Beriyanın

həbsə alınması məsələsinə hüquqi baxımdan yanaşma ilə bağlıdır. Belə ki, L.P.Beriya həbs edilən vaxt SSRİ Baş prokuroru vəzifəsini Q.N.Safanov tuturdu. O, 4 fevral 1948-ci ildə həmin vəzifəyə gətirilmiş və 30 iyun 1953-cü emlədək ölkənin Baş prokuroru vəzifəsini yerinə yetirmişdi. İ.Stalinin ölümündən sonra L.P.Beriya – SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini, SSRİ Xalq Daxili İşlər Komissarı vəzifəsini daşımaqla, eyni zamanda Siyasi Büronun üzvü idi. Ölkənin ən əsas fiqurlarında biri olan Lavrenti Pavloviç 26 iyun 1953-cü ildə həbs edildi.

Diqqət yetirin. Əsas qanunun tələblərinə görə, SSRİ Baş prokuroru SSRİ Ali Sovetinin sessiyasında vəzifəyə təyin edilir və işdən azad olunur. L.P.Beriyanın həbsindən sonra dərhal növbədənkənar SSRİ Ali Sovetinin sessiyası çağırılır və 30 iyun 1950-ci ildə Baş prokuror əvəzlənir. Sessiyanın qərarı ilə Ukraynanın prokuroru Roman Andreyeviç Rudenko SSRİ Baş prokuroru vəzifəsinə təyin edilir. Həmin qərarlarda Beriyanın barəsində ibtidai istintaqın aparılması da R.A.Rudenkoya tapşırılır. Tələm-tələsik həyata keçirilən bu vəzifə dəyişikliyi hansı zərurətdən qaynaqlanırdı? L.P.Beriya ilə bağlı xeyli kitablar yazılıb.

Bu kitabların bəzilərini oxuduğunu bildirən müəllif Beriya barəsində səslənən müxtəlif mövqelər, ziddiyyətli məqamların bir hüquqşünas kimi onu çox düşündürdüyünü vurğulayır: "Çox güman ki, Baş prokuror vəzifəsində işləyən şəxs həbslə razılaşmayıb və ya istintaqın aparılması ona etibar edilməyib. Məsələ ölkənin siyasi rəhbərinin Baş prokurorun əvəz edilməsinə nail olması ilə öz həllini tapıb. Yarım ilə qədər davam edən cinayət işinə məhkəmə heyəti 18-23 dekabr 1953-cü il tarixlərdə Sovet İttifaqı marşalı İ.S.Konevin sədrliyi ilə baxmış və L.P.Beriyanı ölüm cəzasına məhkum etmişdi. Hökm elə həmin gün – 23 dekabr 1953-cü il tarixdə icra olunmuşdu. General-polkovnik P.F.Batitski güllələnməni öz təşəbbüsü ilə şəxsi silahı vasitəsilə həyata keçirmişdir".

Müəllif prokuror fəaliyyəti ilə bağlı mülahizələrini bu yolun ilk günlərindən başlayaraq bu günə qədərki fəaliyyəti dövründə gördüklərini, arayıb araşdırdıqlarını, nəzəri fikirlərini, son nəticədə gəldiyi qənaətlərini sözügedən bu iki kitabda tarixi ardıcıllıqla qələmə alıb. Əlbəttə, bu nəfis tərtibatlı toplularda cəmiyyətdə hüquq işçisinin yeri, mövqeyi və ən nəhayət əməli fəaliyyəti haqqında söz fikir işığında oxucu düşüncəsinə aydınlıq gətirməsilə çox əhəmiyyətlidir. "Onlar unudulmamalıdır" və "Bunları bilmək maraqlıdır" fəsilləri oxucuların məlumat dairəsini zənginləşdirməklə bu iki kitabın əhəmiyyətini daha da artırır. Bütövlükdə, bu gün də aktuallığını itirməyən müstəntiq-istintaqçı-prokuror dövlət ittihamçısı münasibətlərinin tənzimlənməsi baxımından hər iki kitab bu sahədə çalışan hüquqşünaslar üçün mükəmməl vəsaitdir və nəzəriyyə ilə təcrübənin vəhdəti kimi faydalıdır.

**Şükür ƏLİZADƏ.**
www.respublica-news.az

## MÜNDƏRİCAT

*İsa Həbibbəyli.* Ümummilli liderlik: miqyası və missiyası ....................3
*Nizami Cəfərov.* Yeniləşən və yüksələn Azərbaycanın qurucusu ....................10
*Könül Bünyadzadə.* İmzası dövlətin simvoluna çevrilən dahi ....................21
*Əli Nuriyev.* Azərbaycan dövlətinin davamlı regional siyasətinin uğurları ....................27
*Siyavuş Novruzov.* Ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan dünyaya günəş kimi doğdu .................... 33
*İlham Məmmədzadə.* Sağlığında əfsanələşən lider ....................43
*Nizaməddin Şəmsizadə.* Azərbaycançılıq və müstəqil dövlətin diaspor siyasəti ....................47
*İradə Hüseynova.* Heydər Əliyev irsi Azərbaycan dövlətçiliyi tarixində .................... 54
*Dünyamalı Vəliyev.* Prezident İlham Əliyevin praqmatik siyasəti Azərbaycanı bütün dünyada nüfuzlu ölkə kimi tanıdıb .................... 64
*Arif Şəkərəliyev.* Ümummilli lider Heydər Əliyevin iqtisadi siyasəti Azərbaycanı regionun qüdrətli dövlətinə çevirmişdir ....................69
*Qəzənfər Abbasov.* Azərbaycan zəngin milli-mənəvi dəyərlərə malikdir ....................75
*Məlahət İbrahimqızı.* Heydər Əliyev irsi gələcək nəsillər üçün zəngin xəzinədir ....................80
Tahir Süleymanov. Qəlblərdə yaşayan dahi insan ....................84
*Emil Nəsirli.* İslahatlar sosial-iqtisadi inkişafı daha da sürətləndirir ....................91
*Rəşid Hüseynov.* Müasir dövlət idarəçiliyi və Heydər Əliyev .................... 96
*Kamal Adıgözəlov.* XXI əsrin milli lideri: İlham Əliyev və Azərbaycan dövlətçiliyinin inkişafı ....................107
*Famin Salmanov.* Güclü lideri olan xalq yenilməzdir ....................113
*Джавид Гаджиев.* Международно-правовые проблемы безопасности и стабильности Каспийского региона .................... 116
*Жаля Мамедова.* Современные проблемы совершенствования деятельности системы ООН *(международно-правовые аспекты)* ....................123
*Leyla Çopurova.* Müəlliflik hüququ obyekti olan rəqəmsal vasitələr ....................132
*Tağı İbişov.* Pre-judgment interest and its application in admiralty cases ....................138
*Könül Məmmədova.* Ruanda beynəlxalq cinayət tribunalının yurisdiksiyasında soyqırım cinayəti ....................149
*Fidan Abbaslı.* Beynəlxalq cinayət məhkəməsinin beynəlxalq hüquq subyektliyinin xüsusiyyətləri ....................155
*Şəbnəm Həsənova.* Gənclər islahatlardan bəhrələnir və onu dəstəkləyirlər ....................159
*Günay İsayeva.* Azərbaycan multikulturalizmi: minillik ənənələrimizin müasir dünya informasiya məkanı .................... 162
*Vaqif Əmiraslanov.* Heydər Əliyev ideyaları yaşayır və qalib gəlir ....................166
*Mönsüm Alışov.* Vətənə və xalqa şərəfli xidmət nümunəsi ....................171

*Rəşad Cəfərli.* İqtisadi islahatların unikal idarəedilməsi modeli ....................................................**176**
*Məhəmməd İsayev.* Multikulturalizm Azərbaycanın dövlət siyasətinin prioriteti, cəmiyyətin həyat tərzidir ...................................................................... **184**
*Nəriman Məmmədov.* Dövlətçilik tariximizin şanlı səhifəsi ............................................................**189**
*Səməd Əliyev.* Mədəni-etnik dəyərlərin qorunmasında multikulturalizmin rolu ................ **193**
*Murad Abasov.* Milli-mənəvi dəyərlər: xalqımızın əbədi və əvəzsiz sərvəti ..................................**196**
*Fuad Muradov.* Azərbaycan və multikulturalizm ............................................................... **199**
*Rəşad Baxşəliyev.* Rəqəmsal dünyaya asan keçid .......................................................................**202**
*V.Bayramov.* İslahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən ölkəyə çevirməkdir ..................................................................................... **207**
Azərbaycan nəqliyyat, infrastruktur və rabitə sahələrində də regionda liderdir ................**211**
*Əliqismət Bədəlov.* Azərbaycan dünyada özünü etibarlı tərəfdaş və dost ölkə kimi təsdiq edib ....................................................................................................**215**
*İradə Əliyeva.* Mənəvi irsin varisliyi ...................................................................................... **219**
*Rüstəm Kamal.* Azərbaycan regionun mühüm nəqliyyat qovşağına çevrilir ..........................**225**

**Rəsmi sənədlər**

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142-ci maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qərarı .. **227**
Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında .....**236**
Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında ............**237**
Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları (№ 120 və № 124) ....................................... **237**

**Elm xadimləri**

Vaqif Fərzəliyev. Elmə həsr olunmuş ömür ........................................................................ **243**
*Ziyad Səmədzadə, Akif Musayev, Qorxmaz İmanov.* Şərəfli ömür yolu .........................................**249**
*Əflatun Amaşov.* Milli mətbuatımızın unudulmaz patriarxı ........................................................**255**
*Ataş Cəbrayılov.* "Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi"nə həsr edilmiş dəyərli tədqiqat .................................................................. **258**
*Şükür Əlizadə.* Nəzəriyyə və təcrübənin vəhdəti. "Zirvədən zirvəyə..." kitabları haqqında qeydlər ......................................................................... **262**

**Jurnal Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyində 19 fevral 2020-ci il tarixdə qeydə alınmışdır (Şəhadətnamə № 11479)**

## JURNALDA ÇAP OLUNAN ELMİ MƏQALƏLƏRƏ DAİR ƏLAVƏ TƏLƏBLƏR

**Word proqramı**
**Səhifənin formatı – A4**
**Azərbaycan, rus və ingilis dillərində mətnlər «Times New Roman», Az_Times_lat şriftləri ilə verilsin**
**Əsas mətn – 14 pt**
**Sətirlərarası məsafə – 1,5 interval**
**Vərəqin sağ və sol hissəsindən 2 sm, yuxarı və aşağıdan isə 3 sm ölçüdə zolaq ayrılsın**
**Məqalənin həcmi – 10 səhifəyədək**
**Məqalə fiziki kağız və elektron versiyada verilməlidir.**

"Hüquqi müstəvi" elmi-nəzəri, təcrübi jurnalın
Redaksiyası" MMC-nin direktoru:
**Faiq HÜSEYNOV, hüquqşünas.**

**Əlaqə telefonları:**
**+ 99450-210-24-42**
**+ 99455-210-24-42**

«Adiloğlu» nəşriyyatı.
Ofset üsulu ilə çap edilmişdir.
Formatı 70×100 1/16.
Şərti çap vərəqi 17. Tirajı 300.

Ünvan: AZ 1102. Bakı şəh., Nəsimi r-nu, Tbilisi pr, 44.
Telefon: (+994 55) 339-75-77, (+994 50) 593-27-77
E-poçt: adiloglu2000@gmail.com

**Bank of Baku ASC-nin “MXD” filialı**

**AZN**

| | |
|---|---|
| **Müştəri kodu** | **A48398** |
| **Hesab sahibi** | **“Hüquqi müstəvi elmi-nəzəri, təcrübi jurnalının redaksiyası“ Məhdud Məsuliyyətli Cəmiyyəti** |
| **Hesab nömrəsi** | **38090000184190A72** |
| **VÖEN** | **1306401681** |
| **İBAN** | **AZ34JBBK00038090000184190A72** |
| **Bankın adı** | **Bank of Baku ASC-nin “MXD” filialı** |
| **VÖEN** | **1700038881** |
| **KOD** | **506924** |
| **Müxbir hesab** | **AZ27NABZ01350100000000007944** |
| **S.W.I.F.T** | **JBBKAZ22** |

ISSN 2218-5178